AFAQ MƏSUD

Yazıçı-dramaturq, əməkdar incəsənət xadimi.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, 1990-cı ildən Respublika Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədri, «Xəzər» dünya ədəbiyyatı jurnalının baş redaktorudur.

Romanlar və hekayələr müəllifi kimi tanınır.

Əsərləri rus, ingilis, fransız, alman, özbək dillərinə tərcümə və nəşr edilib.

«Üçüncü mərtəbədə» (1976), «Şənbə gecəsi» (1980), «Keçid» (1984), «İzdiham» (1991), «Subbotniy veçer» (Moskva 1984) «Azadlıq» (1997), «Yazı» (2005) kitabları nəşr edilib.

«Can üstə», «O məni sevir», «Yol üstə» pyeslərinin müəllifidir.

Q.Q.Markesin «Patriarxın payızı», T.Vulfun «Dünyanın hörümçək toru» romanlarını, qədim sufi əlyazmalarını – M.Nəsifinin «Mövcudluq haqqında həqiqət», Ə.Qəzalinin «Səadət iksiri», «Oğluma məktub», «İlahi bilik», İbn Ərəbinin «Məkkə açıqlamaları» və sair əsərləri azərbaycan dilinə tərcümə edib.

Əsərləri əsasında «Sərçələr», «Qonaqlıq», «Gecə», «Cəza» televizya filimləri çəkilib.

2003-cü ildə Vyana Universitetində A.Məsud yaradıcılığını tədqiq edən doktorluq işi müdafiə edilib (S.Dohan «Avropa şərqşünaslığında qadın yazarlar»).

22 НОЯБРЬ 2007 Г.

ROMANI YAZMAĞIM BARƏDƏ

Romanın ilk üç fəsli üzərində iş qurtarmaq üzrəydi… uzun müddətli fasiləsiz yazı rejimi məni yorub əldən salmışdı. Artıq divarların, bağlı qapıların, heç cür qabağını saxlaya bilmədiyi televizor səsi, küçədən gələn irili-xırdalı hənirtilər, qonşudan eşidilən piano və danışıq səsləri, onsuz da yorğun əsəblərimi bir az da tarıma çəkməkdəydi... Bir yandan da binamızla üzbəüzdəki balaja səsyazma köşkündən qoşa gücləndirici ilə səhər-axşam küçəyə yayaılan «Xoçu umeret molodım..» mahnısı… Əsərin son fəsilləri məni dünyanın ən səssiz qatlarına aparıb çıxardıqca, ətrafın səs-küyü elə bil qəsdən bir-on artıb çoxalırdı. Nə yanvarın (söhbət 1996-cı ilin qışından gedir) qar - çovğunu, nə televizya və

qəzetlərin dünyanın axırı barədə verdiyi ətürpədən informasiyaları ətrafın bu xəstə aktivliyini nizama sala bilmirdi... Yazını yarımçıq saxlamaq - sürətlə qaçan adamı qaçdığı yerdə dayandırıb ağız-burnumu bağlamaq kimi bir şey idi... Yeganə çıxış yolu qalırdı: Mərdakandakı evimizə köçmək və işi orda davam etdirmək.
İlk əvvəl, həftənin üç günü - cümə, şənbə və bazar günləri Mərdakandakı evdə - qızdırıcı sistemi olmayan, işıqları dəqiqədə bir sönən ikimərtəbəli bədheybət bir binada tənha qalmağı qərara aldığım üçün evdə mübahisə düşdü… Lakin, çox keçmədi ki, evin içində artıq barmaqlarının ucunda da gəzə bilməyən yoldaşım mənim bu «şıltaqlığımla» razılaşıb, bir müddətə Mərdakana köçməyə razılıq verdi… amma orda tək yox, kiçik qızımla birgə qalmaq şərti ilə…
Beləliklə, yanvar ayının axırları mən kiçik qızımla küləklərin qorxunc-qorxunc uğuldadığı, gecələr qaranlıq otaqlarının hər küncündən əcaib səslərin eşidildiyi bu sakit, kimsəsiz evdə yaşamalı oldum…
Günlər anlaşılmaz sürətlə keçir, mən sübhün açılmağıyla gecə qapanmaları arasında qalır, hər səhər yeməyindən sonra mətbəxə girib qapını bağlayır, qaz plitəsinin dörd gözünü yandırıb yazıya girişir, arada nahar və şam yeməyində fasilə verə-verə, gecədən xeyli keçənə qədər işləyirdim… Qızım gününü əsasən qarovulçunun (qarovulçunun koması bizim binadan bir xeyli aralıdadır) komasında keçirir, arada bir küçənin it-pişikləriylə oynayırdı…
Beləcə, əsərin dördüncü fəslini başa vurdum. Sonuncu fəsil qalırdı… Gözlərimin. Yaddaşımın yorulduğunu hiss edirdimsə də, işi dayandırıb istirahət etməyin, əsəri natamam saxlayıb nə iləsə məşğul olmağın mümkünsüzlüyünü də duyurdum.
Günlərin bir günü axşama yaxın möhkəm çovğun qopdu, qar yağmağa başladı. Dənizin yaxınlığında olduğumuzdan, küləyin, evimizi az qala yerindən qopardığından, damın dəmirlərini, pənjərə çərçivələrini qorxünc - qorxünc əsdirdiyindən vahimələnirdimsə də, şəhərə zəng vurub geri qayıtmaq fikrini ağlıma belə gətirmirdim…
Gecəyə yaxın yoldaşım zəng vurub, bizi şəhərə aparmaq üçün gələcəyini dedisə də, cümə günü olduğundan, evə qayıtmağın - iki günü əldən buraxmaq, iki sutkanı «Xoçu umeretğ molodım»la bir yerdə keçirmək demək olduğundan, şəhərə qayıtmağa razılıq vermədim.
…Gecədən bir az keçmiş işıqlar söndü, yataq otağımızı isidən elektrik sobası da soyudu.

- Mama…
- Hm…
- Yatmısan?..
…Qızımın səsi xırıldayırdı…
Bildim ki, boğazı gəlib. Bütün günü həyətdə, yaxası-başı açıq oynayıb, gecələr pallı-paltarlı nəm yorğan-döşəkdə yatmağın axırı belə də olmalıydı. Əlimi qızımın alnına toxundurdum… azca istisi vardı…
- Yox, yatmamışam, nədi ki?.. - dedim.
- Səsləri eşidirsən?..
- Hansı səsləri?
- O biri otaqda kimsə gəzir…
Nəfəsimi saxlayıb o biri otağa qulaq kəsildim... səs-səmir gəlmirdi.
- Küləkdi… - dedim - qorxma, gözünü yum, yat.
- Mən qorxmuram. Deyirəm, sən qorxmursan ki?..
- Yox… - dedim, amma əslinə qalsa, qorxurdum. O biri otaqdan gələn hənirtilərdən çox, hər qış qar yağanda, qarovulçunun yuxusundan, çölün tufanından istifadə edib pəncərədən evə girən bağ oğrularından qorxurdum. Adətən gecələr mətbəxin, bir də artırmanın işığını yanılı qoyurdum ki, görsünlər evdə adam var. İndi tərs kimi işıqlar da sönmüşdü…
…Səhərin ala qaranlığında qapının əsəbi - əsəbi döyülməsinə ayıldım… Gələn yoldaşım idi... Çölün qarı saçlarında, bığlarında içəri girib birbaş yataq otağına keçdi, dodağını yuxulu qızın alnına toxundurub əyri-əyri üzümə baxdı:
- Sənin bu yazıların hamımızın axırına çıxacaq… - dedi.
…Şəhərə qayıda - qayıda bütün yolu, özümü saxlaya bilməyib ağladım... O günlər qədər şəhərə nifrət elədiyim olmamışdı. Elə bil məni əfsanəvi, sirli məkandan səs-küylü, sintetik qoxulu zavoda aparırdılar…
Ərimlə qısa və acı mübahisə etdik… O, günahkar kimi, gözünün altına kölgə çökə-çökə, dinməz-söyləməz yola baxır, sükanı elə sıxırdı, elə bil bu dəqiqə iki yerə bölüb sındıracaqdı.
Mən isə arxa oturacaqda yırğalana-yırğalana, gözüm yaşla dolub boşala-boşala fikirləşirdim ki, kaş ki, o, sükanı iki böləydi, maşın da iki bölünüb hər yarısı bir tərəfə gedəydi. Birində o - şəhərə, o birində mən - geriyə…

A Z A D L I Q

(roman)

I FƏSİL

…Gecəki hadisədən sonra şəhərin havası qəfildən dəyişmişdi... Yazın məsum sifəti bir günün içində qeybə çəkilmiş, göyün üzü acı-acı bozarmış, təzə-təzə çırtlamağa başlayan tumurcuqların rəngi dönmüşdü… səkilərin tozunu göyə sovuran külək torpağın yaz qoxulu ətrini gözlənilmədən sivirib harasa aparmışdı...
Yazın dünənəcən bu şəhərdə olduğu elə bil adamların da yadından çıxmışdı. Dünənəcən küçələrdə yaxasıaçıq yüngül pencəklərdə gəzişənlərdən əlamət yox idi. Şəhərin mərkəzində, əsasən güc nazirlikləri və dövlət aparatı yerləşən məhəllələrdə ümumiyyətlə gözə adam dəymirdi. Arada bir maşın yollarında, göy-sarı işıqlarını hərlədə-hərlədə əcayib səslər çıxaran polis maşınları görünüb tez də yoxa çıxırdı.
…Evlərdə, idarələrdə, dükan-bazarda altdan-altdan, xımır-xımır bircə söhbət gedirdi: deyirdilər, bu gecə, şəhərdən uzaq kazarmada günahsız öldürülənlərə görə dövlət çevrilişi olacaqdı, hakimiyyətdə olan əldəqayırma iqtidar axır ki, devriləcəkdi…
Deyirdilər, hərbi şəhərcikdə ölənlər, eyni qandan, eyni millətdən olan həmvətənlər idi… İqtidar tərəfindən gecə gecə ilə gizlicə, şəhərdən uzaq kazarmaya göndərilən silahlı dəstə, deyilənə görə, dövlətin tabeçiliyindən çıxan hərbi hissəni tərksilah etmək məqsədi ilə qəflətən kazarmaya daxil olmuş, nəticədə qardaş qırğını törənmişdi… Deyirdilər, bu qanlı qiyamətdən təşvişə düşən hökümət rəhbərləri başlarını itirib

hərəsi bir yana qaçmışdı… İtkin düşmüş iqtidar nümayəndələrini tapıb xalqın məhkəməsinə vermək üçün təcili surətdə komissiyavari dəstə seçilib, faciənin mahiyyətini aydınlaşdırmaq məqsədi ilə hadisə yerinə göndərilmişdi. Komissiyanın tərkibi - ağsaqqal yazıçılardan, alim və hüquqşünaslardan, təqaüdçü hərbiçilərdən, bir də bir dəstə televiziya jurnalistlərindən ibarət idi.
Günortaya yaxın, parlamentin təcili növbədənkənar iclası çağırılmış, ölkədə yaranmış böhranın qarşısını almaq məqsədilə, Milli Məclisin üzvlərindən, hərbçilərdən və hüquqşünaslardan ibarət müvəqqəti rəhbərlik qərargahı yaradılmışdı.
…Camaatın bir qismi deyirdi ki, onların axırı elə-belə də olmalıydi. Hakimiyyətə gələndən bəri ölkənin başına açdıqları oyunları, yaranandan üzü bəri, nə bu məmləkətin daşı-torpağı görmüşdü, nə də adamları belə müsibətlər haqqında o biri məmləkətlərin tarix kitablarında oxumuşdular…
-…Bu, nə idisə, görünməmiş bir şey idi… - camaat danışırdı - …bir növ gözlənilmədən, hardansa sonsuz kainatın ənginliklərindən qopub yana-yana gələn, gəlib düşdüyü yerin külünü göyə sovuran, özü enində, özü ağırlığında həyat əlaməti olan hər bir şeyi məhv edən dağıdıcı kommetanın gəlişinə oxşar bir şey idi…Çox güman ki, - deyirdilər - onların hamısını tutub dama basacaqdılar... hələ ola bilsin, lap güllələyəcəkdilər…
- Əcəb də eləyəcəkdilər… - digərləri yana-yana deyirdi. Axı gör bir neçə il idi, bu «millət fədailəri», «azadlıq aşiqləri» camaatın anasını ağladırdı, başına olmayan oyunlar açırdı?!.. Bir dəfə camaatı, qanlı yanvar gecəsi həmin bu lənətə gəlmiş «azadlıq» şüarlarıyla evlərindən çıxarıb tankların altına salıb qırdırdılar. Dünən də eləcə, silahı cavanların əlinə verib qardaşı-qardaşa qırdırdılar. Müharibə də ki, o tərəfdən… xalxın uşağını ət maşınından keçirən kimi, bir ujdan kəsib tökür...
-…Qəribə burasıydı ki, özlərinə heç nə olmurdu… - camaat deyirdi - iki gündən bir bu adamlar döyüş bölgələrindən verilən televiziya reportajlarında qanlı-qadalı barrikadalardan döyüşçülərlə çiyin-çiyinə dayanıb müsahibə verirdilərsə də, o bölgə yarımca saatdan sonra düşmən tərəfindən darmadağın edilirdisə də, o bölgədən bir nəfər belə olsun, salamat çıxmırdısa da, yenə bunlardan birinə də heç nə olmurdu… Yenə məlum olurdu ki, nə ölənlərin, nə də yaralanların arasında bunlardan biri var…

- …elə bil, bu adamlar Allaha da lazım deyillər, bala... - qarılar deyirdi… Amma xalqı necə gözbağlıcaya salmışdılarsa, hamıya elə gəlmişdi ki, dara düşən ölkəni, hüququ tapdanıb, mənəviyyatı illərlə təhqir olunan xalqı bu miskin quyudan yalnız bu adamlar xilas edəcək…
- Qəribədi… - camaat çaşqın halda bir - birinə elə baxırdılar, elə bil bir - birin təzəcə görürdülər… - axı bu, necə olmuşdu?!.. Bu adamlar şəhərin, ya ölkənin hansı tərəfindən çıxıb gəlmişdilər, onların inamını, etimadını necə, hansı fitvayla qazanmışdılar?!..
-…Hər şey isə ondan başlamışdı ki, o lənətəgəlmiş meşənin ağaclarını naxələf qonşu millətin beş-on nəfər bunlar ağılda olanı qırıb yandırmışdı... Belə cəhənnəmə-gora ki, qırmışdı... Hər şey də o meşənin ağaclarının badına getdi… torpaqlar da adamlar da.. - deyirdilər - belə bilsəydik, o meşəni gedib əvvəlcədən elə özümüz qırardıq ki, bu heyvərələrdən qurtulaq... O cür meşələrdən ki, çoxu quruyub, neçəçinin sərvəti odun - ocaqda yandırılıb.. bəs niyə bu vaxtacan o ağacların, meşələrin taleyi heç kimi maraqlandırmırdı, indi noldu ki, hamı birdən-birə təbiət vurğunu oldu?!..
- Bütün bunlar bəhanə idi... - siyasətdən az - maz başı çıxanlar deyirdilər…- avam xalqı çaşdırıb yerindən oynatmaq, ölkəyə qarışıqlıq salıb, hakimiyyəti əldə etmək istəyən bir dəstə nankorun qurğusu idi… bu da nəticəsi…
-…Bir prezidentə imkan vermirdilər ki, yazıq bir iş görə... prezidentlik andının içməyi ilə tətillərin ürəküzən fitlərinin işə düşməyi bir olurdu… Gah bəhanə bu olurdu ki, hardasa meşəni amansızcasına qırıblar, özləri isə, ətrafda nə ağac vardısa, hamısını sındırıb küləkli mitinqlərdə qızınmaqdan ötrü tonqallarda yandırırdılar... Gah bəhanə bu olurdu ki, sən demə, ölkədə əcnəbi təhsilli məktəblərin sayı altdan-altdan artır… bu da bizim milli «mən» imizi təhlükə altına alır… Gah bəhanə bu olurdu ki, hansısa ölkənin hansı qəzetindəsə millətin qeyrətinə toxunan məqalə nəşr edilib, amma satqın iqtidar buna biganədi... bəli, yeddi gün - yeddə gecə bir dənə dılğır məqaləyə görə bütün ölkə ölüm bataqlığına qərq olurdu… idarələrdə, məktəblərdə iş dayandırılır, çörək zavodları işıqlarını söndürür, avtobus sürücüləri küsüb evlərində gizlənirdilər…
Bəziləri də deyirdi ki, bir tərəfdən, bu millətə nə olursa, elə əcəb olur…
- Bizə hələ bu da azdı… bir yığın burnufırtıqlı uşağın felinə uyub arvadlı-uşaqlı küçələrə tökülüşməyin, bir-birinin ağzına baxa-baxa «Azadlıq!..» deyib çığırmağın axırı belə olar... Baş qatmağa, vaxt keçirməyə özlərinə

yer tapmışdılar. Babat havalarda meydanlara yığılıb, orda boğazlarını cıra-cıra gah himn oxuyurdular, gah da «Birlik!», «Birlik» - çığırıb qıçları quruyanacan əyilib-qalxırdılar… guya bunları bu vaxtacan bir-birindən ayıran vardı…
-…çoxu bura qayışının altını bərkitməyə gəlir… - Azadlıq meydanında qəzet satan arıq arvad deyirdi - …mitinqin şıdırğı vaxtı bir də görürdün budu ha, gəldilər… Üç-dörd yük maşını camaatı yara - yara, öküz palçığa girən kimi, ləngər vura-vura yuxarı başa - meydanın ortasında keçib orda lövbər saldı… maşınların yük yerindən yeşik-yeşik ərzaq daşınıb çadırlara yığıldı… bunlara deyən gərək, balam, belə imkanınız vardısa, bunu bayaqdan niyə eləmirdiz, millət nə gündə yaşayırdı, indi nə yaxşı yadınıza düşdü, gün ha yandan çıxdı, balam?!..
-…»Azadlıq!» çıcırmaqnan döyül ki?!.. Əslində bura hərə bir şey üçün gəlirdi… - mitinqlərdə asayiş gözləyən polislər danışırdı - …biri direktorundan narazı idi, o biri neçə il idi, ev növbəsində dayanmağına baxmayaraq, ev ala bilmirdi, bu bir jek müdirinin əlindən zəncir çeynəyirdi ki, günlərlə binalarına işıq vermir, o biri uşağını institutun həndəvərinə yaxın qoymayan rüşvətxor müəllimlərə qarğış yağdırırdı… bura ki, yığışdılar, hamı bir-birinə qoşulub «Azadlıq!» çığırırdı…
-…O mitinqlərə gedənlər əsasən, yerdən, göydən, öz uğursuz bədbəxt talelərindən narazı adamlar idi… - mitinqlərdə tribunaya çıxıb, ordan öz şerlərini oxuyan şairlər deyirdi - …bu adamlar, uzun illərdən bəri, az qala bütün əzalarına yeriyib orda xəbis-xəbis qaynaşan kin-küdurətlərini, üst-üstə yığılıb daşlaşmış ağrı-acılarını orda daş əvəzinə yumruqlarında sıxa-sıxa elə bil rahatlanırdılar…
-…orda kimi desən, tapmaq olardı... Bu, bir növ xalq təntənəsini xatırladan kütləvi bayramsayağı bir mərasim idi... orda hərə öz qabiliyyətini nümayiş elətdirirdi... Kürsüyə qalxan gənc şairlər şer deyir, müğənnilər oxuyur, filosoflar bəşəriyyət və millət haqqında mülahizələrini söyləir, sinoptiklər hava haqqında məlumatlar verir, polis işçiləri şəhərdə baş verən şübhəli hadisələrdən danışır, həkimlər, adam tünlüyündə ürəkkeçmənin qarşısını alan tədbirlərdən söz açır, dərsdən qaçan uşaqlarsa, ağaclara dırmaşıb budaqlardan sallaşır, əllərinə keçəni camaatın təpəsinə ilişdirə-ilişdirə: «Azadlıq!» - deyib hırıldaşırdılar, əllərinə keçəni yuxarıdan camaatın təpəsinə ilişdirir, hərdən də çaşıb kiminsə üstünə yıxılırdılar… Bütün bu kütləvilikdən, həmrəylik və birlik kövrəlmələrindən, hətta matəm sükutlarından və ağlaşmalardan belə,

adamın ürəyi açılırdı...
…Axır vaxtlar camaat bu mitinqlərə o qədər öyrəşmişdi ki, mitinq olmayanda, hamının canına bit-birə daraşırdı elə bil. Belə günlər çox adam qanıqara, əsəbi gəzir, dövləti söyür, durduğu yerdə onu-bunu acılayır, evlərində oturub axşamlarla planlar cızır, növbəti mitinq üçün bəhanələr axtarırdılar. Mitinqlər camaatın havası, suyu, dənizi kimi, həyatəhəmiyyətli vacib ehtiyacına çevrilmişdi…
- Axı nə qədər canını dişinə tuta-tuta idarənin yeknəsəq işlərini görüb, axşamlar da küftə yeyə-yeyə duzsuz verilişlərə baxmaq olardı?!.. Nə qədər ölkəyə gəliş-gedişinin səbəbi bilinməyən əcnəbi dövlətlərin rəhbərlərini gülümsər üzlərlə qarşılamaq üçün saatlarla küçələrdə dayanıb, gün təpəni deşə-deşə, yaxud soyuqdan quruya-quruya gəlib - gedənə əl eləmək olardı?!.. Nə qədər ölkədə, şəhərdə baş verənlərə kənardan, seyrçi kimi baxmaq olardı?.. Nə qədər başdan ayağa qanun və qərarlardan ibarət ütülü qəzetlər oxumaq olardı?!..
…Mitinqlər bataqlıq və kəsafət qoxuyan bütün bu yeknəsəqliyə son qoydu, hər adam özünün adam olduğunu, axır ki, nə iləsə də olsa, razılaşmadığını, nəyin uğrundasa mübarizə apara bilmək qabiliyyətini hiss etdi…Məgər bu az idi?.. - bəzilər deyirdi - Camaat nəyə qadir olduğunu bu mitinqlərdə anladı. Hamı hər şeyə, hətta öz evində, öz ailəsində belə, ictimayi nöqteyi-nəzərdən, milli mənafe baxımından yaşamağa başlamışdı. Xalq qəflət yuxusundan oyanmışdı. Bu böyük oyanmadan bütün ölkə lərzəyə gəlmişdi. Şəhərlərdən, kəndlərdən göylərə, yeraltı təkanları xatırladan möhtəşəm bir uğultu ucalmaqda idi… Xalq hərəkatının ön cərgəsində əllərində bayraq, işıqlı üzlərlə addımlayan bu adamların təsiri altına nə vaxt və necə düşdüyünü hərə bir cür xatırlayırdı…
Bəziləri deyirdi ki, bir neçə il bundan əvvəl qəfildən, gözlənilmədən «Azadlıq» meydanında zühur edən bu adamlar uzun illərdən bəri görə-görə öyrəşdiyimiz sanballı, toxunulmaz nomenklatura ehkamlarını qırıb, nəhayət ilk dəfə camaatla adam dilində - səmimi xalq dilinlə danışdıqlarına görə, qısa müddət ərzində xalqın rəğbətini və inamını qazandılar.
Bəziləri də deyirdi ki, onlar sadəcə, xalqın incə damarını tuta bildilər... hakimiyyətə gəlməyin tarix boyu dəfələrlə işlənmiş məlum fəndlərini işə saldılar; xalq kütlələrinin bineyi-qədimdən toxumalarıyla qəbul eləmədiyi, gizli əbədi nifrət bəslədiyi adamları - yüksək vəzifə sahiblərini, məşhur

alimləri, varlıları yüzminlik mitinqlərdə söyüb biabır eləmək, fitə basıb əl çalmaq, xorla çığırışıb birlik möhtəşəmliyini hiss etdirmək, hücum eləyib haranısa zəbt etmək, vitrinləri sındırmaq və sairə sadəcə, təbiətcə coşqun və ehtiraslı qafqazlıların xoşuna gəldi görünür…
- …Bir çox dünya xalqları həmin bu mərhələləri eynilə belə yaşayıb... - tarixçilər deyirdi - Uzaq əsrlərdən bəri meydanların edam tamaşalarına baxa-baxa yetişən və bu ibrətamiz mənzərədən özünəməxsus güc alan xalqın qan yaddaşı, sözsüz ki, onu bu heyrətamiz, kütləvi qalibiyyət aktlarına cəlb eləməyə bilməzdi…
Coşğun demokratiya dalğası keçmiş sovetlər birliyini az qala bütün regionlarını çalxaladığı bir dövrdə, peşə ixtisaslarına görə az-maz öyrənib bildikləri nəzəriyyələri ilə küləkli meydanları, özləri də gözləmədən idarə etməyə nail olan bu kənd mənşəli uğursuz alimlərin sonradan, tarixdə görünməmiş, heç bir dövlət quruluşuna, siyasi rejimə uyğun olmayan əndirəbadi «bolşevik-qolçomaq» dövləti quracağına kim inanırdı?!.. - ziyalılar ürkək səslərlə, hələ də nədənsə ehtiyatlana - ehtiyatlana danışırdılar...
- Bunların işindən heç Allah da baş açmazdı… - camaat deyirdi - Allah onların evini yıxsın, necə ki, elə yıxdı!.. Bu bir ili daha nələr görmədik?!.. Camaatı Allahın çörəyinə də həsrət qoydular… O nə günlər idi, ilahi?!.. Getsin o günlər, bir də qayıtmasın… çörək üçün məhəlləbəməhəllə yığılıb axşamdan püşk atır, nömrələr paylanır, adamlar səhərin ala-qaranlığında küçələrə çıxıb, çörək növbəsinə çatmaq üçün dəstə-dəstə dükanlara axışırdılar… şəhərin küçələri inqilabdan əvvəlki fəhlə qəsəbələrini xatırladırdı…
- …bir ara xəbər yayıldı ki, təzə hökumət hansısa xarici dövlətdən xeyli miqdarda un alıb və daha camaat çörək sarıdan əziyyət çəkməyəcək… camaat sevinib dərindən nəfəs dərdisə də, çörəklər bişirilib dükanlara paylananda çaşıb qaldı… sörək, nə çörək… ağzına qoymağınla, tikənin sürüşkən plastilinə çönüb damağına yapışmağı bir oldu... sonradan məlum oldu ki, yuxarıda oturanlardan kimsə, deyilənə görə dövlət müşaviri hansısa xarici şirkətlə müqavilə bağlayıb, şəhər camaatının qarnını doyurmaq üçün, ucuz başa gəlsin deyə, un əvəzinə, mal - qaraya yedirdilən kombikorm alıb.
- Bu günü də gördük… - camaat içini çəkə-çəkə danışırdı - …bu imansızlar bizə donuz yemi də yedirtdilər…
…Elmlər Akademiyasının binasını doğum evinə, Yazıçılar Birliyini Çin

səfirliyinə, teatr binalarını əmək birjalarına verməyə hazırlaşırdılar. Simfonik orkestri ləğv eləyib, zəif, eynəkli musiqiçiləri müharibəyə göndərdilər ki: - «İndi simfoniya vaxtı deyil». Orda öləni öldü, qalanı qumbara səsindən kontuziya aldı.
Mədəniyyət naziri - keçmiş aqronom-mühəndis violonçeli rəsmi qərarla bir instrument kimi ləğv elətdirdi: «…Skripka, trambon, kontrabas cəhənnəm, yenə nəyəsə oxşayır. Bu violonçel nəyə lazımdı axı?!.. Həmin yekə skripkadı da, sadəcə ayaqlarının arasında çalırsan…»
- …Bir də gördük, yeraltı keçidlərin pilləkənlərini sökürlər… Burdan camaatın bir qulağı, bu dəqiqə hardasa yaxında atılacaq düşmən toplarının səsinə kəsilib, bu biri qulağı çörək növbəsinə gecikməmək üçün gecədən qurduqları saatın zəngini güdür, balalarını müharibəyə göndərən ana-bacılar səhəri diri gözüylə açır, bunlar keçidlərin pillərini söküb, keçidlərdən yeraltı maşın yolları düzəldirlər ki, öz müşayiət dəstəsi ilə küçələrdən güllə kimi vıyıldamağa bir növ adətkarda olmuş Daxili İşlər Naziri işə maneəsiz və vaxtında gedib çata bilsin… Heç hənanın yeridi?!.. Dünyanın bu qatmaqarışıq vaxtında yeraltı keçidləri rekonstruksiya eləmək bunnarın ağlına hardan gəldi axı?.. Sonradan məlum oldu ki, keçidlərin pillələri, nazirin şəxsi göstərişi ilə sökülür. Deyilənə görə, nazir bu sərəncamı, şəhər sakinlərinin, xüsusən qocaların və uşaqların pillələri düşüb-qalxmaq əziyyətindən qurtarmaq və yol hərəkətinin təhlükəsizliyini təmin etmək məqsədi ilə veribmiş... Bu, pis idi, ya yaxşı idi, heç kim bilə bilmirdi. Daha doğrusu, bu barədə fikirləşməyə imkan yox idi. Çünki o biri gün niyəsə binaların novalçalarının təcili söküntüsünə başlanıldı… Deyilənə görə, novalçaların sökülməsinə səbəb - güclü yağışlar vaxtı içiboş novalçaların səs eləyib, əsəbləri müharibədən gələn xəbərlərdən onsuz da tarıma çəkilmiş şəhər əhlinin yuxusuna haram qatması olub…
…O biri gün isə bütün şəhər - binalar, dükanlar, maşınlar, az qala adamlar da, millilik əlaməti olaraq, milli bayraq rəngində rəngləndi…
…Ta o biri gün, əhalinin sosial rifahını qaldırmaq üçün evlərə zibil yığılacaq gözəl etiketli xarici torbalar paylandı...
- …Yeməyə bir şey var ki, tullamağa da zibil olsun?!.. - deyən camaat bu parıltılı torbaları səliqə ilə qatlayıb bir kənara qoydular.
Sonra isə belə məlum oldu ki, sən demə, bu cazibədar torbalar zibil üçün yox, hansı xarici dövlətinsə müharibə bölgələrinə göndəriləcək humanitar yardımın - əsgərlərin ərzaq paylarının torbaları imiş. Odu ki, çuvallar

təzədən geri yığıldı, bir xeyli də ürəklərdə iz qoyan bu bəzəkli torbalara görə camaat arasında dığ-dığ düşdü.
- Bu da bunnarın azadlığı... «Azadlıq» dedikləri bu idisə, lənətə gəlsin belə azadlığı… belə azadlıqdansa sürünə-sürünə ölmək yaxşıdı… - camaat deynib danışdı..
Lakin bütün bunlarla yanaşı, son illər ölkədə baş verən bütün bu qeyri-müəyyənliklərin, naməlumluqların və əcayibliklərin ən sirli möcüzəsi, hamının gecə-gündüz beynini yora-yora, dönə-dönə təhlil edib kimliyi barədə heç cür aydın bir nəticəyə gələ bilmədiyi, həmin bu «Azadlıq» partiyasının taxta oturtduğu ucaboylu, şiv qamətli prezident idi…
Bir qisim adam prezidentin qəribəliyini, heç cür heç bir hesaba gəlməməyini, onun insanpərvər romantik təbiətli adam, vətənini, millətini dəlicəsinə sevən, ömrünü onun azadlığı uğrunda mübarizəyə həsr edən müqəddəs ruhlu alim olması ilə bağlayırdı... Hətta onu, evi-eşiyi, əyin-başı olmayan, gözü dünya nemətlərini seçməyən Allahın oğlu, müqəddəs İsaya oxşadanlar da vardı...
- Doğrudan qəribə idi… - camaat deyirdi - …ömrü boyu Elmlər Akademiyasında, sonralar Əlyazmalar institutunda işləyən bu 56 yaşlı dörd uşaq atasının, hər şey bir yana qalsın, evi də yox idi…
Deyilənə görə bu keçmiş elmi işçi heç vaxt ev almaq haqqında fikirləşməmişdi də, buna səy belə göstərməmişdi... deyilənə görə, hakimiyyətə gələnə qədər, ailəsi anasının yanında - uzaq kəndlərində, özü isə onun-bunun evində, çox vaxt da yataqxanalarda qalan bu adamın, üzü getmiş nimdaş qara kostyumundan, geyilməkdən balaqları üzülən qara idman formasından, bir də, cildləri üzülmüş qədim kitablarından savayı heç nəyi yox idi…
- …alim kimi o, alınmadı… - alimlər deyirdilər -… özü dilçi ola-ola nəyə görəsə tarixə girişdi, ordan da ortaya elə bir təqdirəlayiq iş çıxara bilmədi... qədim tarixdən seçib araşdırdığı dövrlərə təhlil verməkdən çox, əlyazmalardan tapıb bəyəndiyi tarixi faktları, hadisələri bədii ifadələrlə cilalayıb şişirdir, qabardıb qəlizləşdirir, hər şeyə elə bil bədii rəng, poetiklik verməyə çalışırdı... Görünür bu, onun ədəbiyyata olan sonsuz məhəbbətindən irəli gəlirdi. Bu, qəribə novator vəhdəti idi. Tarixi mövzuları tədqiq edən dilçi şərqşünasının ədəbi meyli. Nə isə qəliz alındı…
Bir qisim adam da deyirdi ki, əgər ölkədə son illər baş verən bütün hadisələr, deyilən kimi, bu xəstəhal, yazıq alimin özü üçün qurub

yaratdığı uydurma «azadlıq» proqramının nəticəsi idisə, onda belə çıxır ki, o, həddindən artıq güclü adam idi. Çünki, uşaqlıq xəyallarını bu qədər ili pusub gözləyə-gözləyə qoruyub saxlamaq, vaxtı çatanda realizə edib bütün ölkəni çalxalamaq, yeddi milyonluq xalqı ayağa qaldırıb, bir-birinin ardınca üç prezident aşırmaq və nəhayət qalib adamlarla keçib taxta əyləşmək heç də zəif, yaxud xəstəhal adamın öhdəsindən gələ biləcəyi iş deyildi…
O birilər isə deyirdi ki, ölkədə kütləvi surətdə başlayan xalq hərəkatına bu adamın ümumiyyətlə dəxliyyəti belə yox idi… bu hərəkat - yaz gününün gözlənilmədən, şimşəkli göydən dolu yağdırdığı heyrətamiz mənzərəyə bənzər bir şey idi. Bu, hüququ uzun illərdən bəri tapdanan, torpaqları dövr - dövr gizli-gizli, hissə-hissə düşmənə ötürülən qəzəbli xalqın total üsyanı idi. Sadəcə bu üsyan, illərlə öz gözəgörünməz iynəsi ilə gor qazan bu xəyalpərəst üçün əlverişli şərait, o vaxtacan heç bir real əsası olmayan ideyalarının özü-özünə, öz təbii axarı ilə işə düşən acıqlı şimşəyin, kövrək yağışın, vahiməli küləyin, yaxud nəyinsə hesabına ətə, qana dolmaq məqamı idi…
- …Mitinqlərin ilk günləri onu orada görən olmamışdı... Deyilənə görə, bütün bu hadisələrdən onun ümumiyyətlə heç xəbəri də yox idi… O da ona görə ki, həmin o vaxtlar bu adamı günlərlə, bəzən aylarla ümumiyyətlə heç yerdə tapmaq olmurdu. Deyilənə görə o, günlərini səhərdən - axşamacan tozlu arxivlərdə keçirir, bəzən elə oralarda da gecələyirdi. Hətta belə danışırdılar ki, guya bir dəfə institutun qarovulçusu bayram günlərinin birində, oturduğu yerdə birdən-birə, üç gün bundan əvvəl institutun həmin bu fağır elmi işçisinin arxivə girdiyini xatırlayaraq, özünü başıalovlu halda, əl-ayağı həyəcandan əsə-əsə instituta yetiribsə də, arxivin qapılarını açıb yarıqaranlıq zirzəmisinə enəndə həmin bu fağırı, üç gün bundan əvvəl qoyub getdiyi vəziyyətdə, əlyazmaların üstə çömələib oturan yerdə tapıbmış…
- …Əgər ölkəni başına bürüyən o kütləvi hərəkat başlamasaydı, bu elm pərvanəsi öz nəzəriyyələri ilə elə ömrünün axırınadək həmin o kifsəmiş arxivlərdə, saralmış kağız-kuğazın arasında eşələnəcəkdi, beş-on adamı başına yığıb şam işığında gizli dərnəklərini aparacaq, sonra da günlərin bir günü qocalıb, həmin arxivlərdəcə, öz arzuları və xəyalları içində, üzündəki mübariz ifadəylə, tozlu əlyazmaların üstündəcə öləcəkdi… - institutun əməkdaşları deyirdi.
- Bu adamın işindən ümumiyyətlə heç cür baş açmaq olmurdu... -

camaat hövsələsi darala-darala danışırdı - başa düşmək olmurdu, onun elədikləri pisdi, yoxsa yaxşı… Taxta çıxdığının səhəri günü o ilk növbədə qonşu dövlətlərlə müqavilə bağlayıb şəhər əhalisi üçün içi maqnitafonlu, ikimərtəbəli avtobuslar gətizdirdi. Ərzaq məhsullarının on dəfə artmasına kompensasiya əvəzi, şəhər nəqliyyatının qiymətini beş dəfə aşağı endirdi... guya bununla camaatın yarası sağalajaqdı… - camaat danışırdı - Odu ki, bahalıqdan, ehtiyacdan başını itirənlər, əsəbləri zəiflər günlərini bu ucuz və rahat avtobuslarda keçirir, küçələrə tamaşa eləyə-eləyə, dərdlərini musiqidə əridə-əridə şəhərin bir başından o biri başına gedə - gedə vaxtlarını öldürürdülər.
Bəziləri deyirdi ki, bu, prezident tərəfindən atılan çox humanist bir addımdı. Bir qisim adam da danışırdı iş gününün axırına yaxın bu ucuzlu, havasız avtobuslardan iki-bir, üç-bir, acından, ya bəlkə də havasızlıqdan, ya da adi qan təzyiqindən keçinənləri yığırdılar... bu avtobuslar bir növ, ölmək istəyənlər üçün musiqili, poetik vida salonunu əvəz edirdi…
- Bu «vida salonları» bir tərəfdən müdafiə nazirliyinin əməkdaşları üçün də əlverişli idi. Döyüş bölgələrində qırılanların sayı həddini aşan kimi, daha nazirliyin başıqarışıq işçilərinə, iş-güclərini atıb bir-bir evləri gəzmək, çağırış vərəqəsi alıb orda-burda gizlənənləri güdmək lazım gəlmirdi.
Bircə sürücünü və avtobusun hərəkət cədvəlini dəyişmək kifayət idi… və bu musiqili avtobuslar arvad-uşağı düşürüb, şəhərin mərkəzindən burulub musiqisini küçələrə yaya - yaya ordan birbaş müharibəyə yollanırdı…
Ümumiyyətlə, deyirdilər, ilk baxışda sadəlövh insan, romantik şair təsiri bağışlayan prezident heç də elə-belə, sadə adam deyildi. Deyirdilər, onun özünəməxsus, dərin siyasəti vardı. Məsələn, kənd təsərrüfatı problemlərinə həsr olunmuş dövlət müşavirələrində, konfranslarda prezident gözlənilmədən çəkisiz, hündür bədəni ilə kürsüyə qalxır, orda qəribə bir coşqunluqla, heyvandarlıq sahəsində, xüsusən iribuynuzlularda yaranan kəskin çatışmamazlıqlardan danışmağa başlayır, sonra qəfildən, qəribə bir dönüşlə ədəbiyyata, sonra birbaşa poeziyaya keçir… saatlarla yanaqları qızara - qızara orta əsrlər ədəbiyyatından qəmli qəzəllər oxuyur, onları bir-bir təhlil edib mətndə işlənən mürəkkəb ərəb sözlərinin mənalarını açırdı…
Bu «gedişlər»dən çaş-baş qalıb donuxan apparat işçiləri, nazirlər, icra

hakimiyyəti başçıları boğazları quruya-quruya, diqqətlə bu dərin və mürəkkəb mənalı qəzəllərə qulaq asır, başbilənlər, bacarıqlılar bu qəzəllərdən özlərinə dair lazımi eyhamları seçib çinədanlarına atır, müşavirədən sonra otaqlarına çəkilib günlərlə başlarını sındıra-sındıra, prezidentin həmin o ərəb qəzəlləriylə ortaya atdığı «incə eyhamların» gizli mənalarını arayıb-axtarmaqla məşğul olurdular…
Belə müşavirələrdən sonra ölkənin bir çox sahələrində çox şeyin rəngi, yönümü dəyişilir, hər şeydə bir poetiklik, incəlik duyulmağa başlayırdı…
Paytaxta iki daşın arasında bu ikimərtəbəli, rahat avtobusların gətirilməsi də bir siyasət idi və bu, deylənə görə, heç də elə-belə iş deyildi... Bunun nə üçün edildiyi, yalnız sonradan, bəlkə də uzun illərdən sonra, «Böyük Həqiqət nəhayət ki, öz təntənəsini çalanda» avam camaata məlum olacaqdı… - prezidentin şairqəlbli tərəfdaşları deyyirdi…
…Prezidentin ən dərin siyasi gedişlərindən biri də - onun Nazirlər Kabineti strukturunda ildırım sürəti ilə apardığı dəyişikliklər oldu...
İlk növbədə o, bivec İqtisadiyyat nazirliyi ilə, Meşə, Yanacaq, Əlvan və ağır metallurgiya və bir sıra bu sayaq xırda-xuruş nazirlikləri birləşdirib, Kənd Təsərrüfatı nazirliyini ayrı - ayrı nazirliklərə, ayrıca İribuynuzlu Maldarlıq, Xırdabuynuzlu Maldarlıq, Quşçuluq, Baramaçılıq, Arıçılıq, Çəltik, Taxıl, Silos və sair nazirliklərinə böldü.
Bir qisim adam deyirdi ki, prezidentin bu gedişi, hakimiyyətə yenicə gələn «Azadlıq» partiyasının, gecə-gündüz prezident iqamətgahında vurnuxan, imkan tapdıqca, prezidentin otağına soxulub, orda stolu yumruqlaya-yumruqlaya vəzifə istəyən kənd mənşəli üzvlərinin iş və vəzifə ilə təmin edilməsi üçün idi.
Digər qisim isə deyirdi ki, heç də elə deyil, bu da prezidentin uzaqgörən siyasətinin bir qoludu və bir neçə ildən sonra hamı hər şeyi başa düşəcək… necə ki, bir vaxtlar, hələ prezidentliyindən çox-çox qabaq uzaq ərəb ölkələrinin birində tərcüməçi sifətində işləyən zaman, onun gecələrlə küçəyə çıxıb cibinin son qəpiyinəcən küçədən keçən dilənçilərə verərək: «A bəy, götür bu pulu, sən əzizinin canı, səsin gəldikcə qışqır, denən yaşasın azadlıq!..» - deməyini onda dolayıb ələ salanlar, azadlığın nə demək olduğunu ancaq çox-çox sonralar, coşğun milli azadlıq hərəkatı bütün ölkəni bürüyəndə başa düşdülər…
Prezidentlə həmin o vaxtlar xaricdə işləyənlərsə danışırdılar ki, o, öz qəribəliyi və anlaşılmazlığı ilə az bir müddətdə hamıda özünə qarşı maraq oyatmışdı. Deyirdilər, o orda demək olar, heç kimlə əlaqə

saxlamır, boş vaxtlarını qədim kitabxanalarda keçirir, axşamlarsa paytaxtın ən bahalı restoranlarında şam edirdi…
Restoranın xidmət personalı onu əcnəbi milyoner kimi tanıyır, o, qapıda görünəndə, deyirdilər, ofisiantlar qabağına qaçır, musiqiçilər çaldıqları havanı dəyişib, onun şərəfinə, sevdiyi «Qaragilə» ni öz milli çalarlarında çalmağa başlayır, rəqqasələr oynaya-oynaya pişvazına çıxır, onu restoranın ən hörmətli stoluna ötürürdülər… O isə gözündə qara eynək, boynunda güllü şərf, şərəfinə bəzədilmş bahalı süfrənin arxasında təmtək otura - otura bütün gecəni dilinə heç nə vurmadan içir, doğma xalq havalarını çaldırıb ay ərzində qəpik-qəpik yığdığı maaşını musiqiçilərin, rəqqasələrin başına ələyir, pulu bitib qurtarandan sonra gecədən xeyli keçmiş ayağa qalxır, kədərli üzü ilə, sallaq qolları ilə restoranı tərk edirdi… Səhərisi, ya elə o biri günlər isə onu, uzun müddət aclıq çəkməkdən altı qaralıb çuxura düşən gözləriylə, tüklü, əzgin üzü ilə, səfirliyin xidmət personalının ucuzlu yeməkxanasında, turşumuş borşu yeyən görürdülər...
Deyirdilər, ümumiyyətlə o, azadlıq dərdinə hələ lap cavan yaşlarından tutulmuşdu… Universitetdə oxuduğu illər dəfələrlə təqiblərə və təzyiqlərə baxmayaraq, gizli dərnəklər təşkil edir, bu dərnəklərdə, uzun illər kölə vəziyyətində yaşayan xalqının azadlığa qovuşmasının, işıqlı günlərə çıxmasından ötrü, min bir sərvətə malik ölkəsini müstəqil görməkdən ötrü, irili-xırdalı minimum-maksimum proqramlarını hazırlamaqdan yorulmurdu… Deyilənə görə bu millət fədaisinin 70-ci illərdə uzun müddət həbsdə yatmağı da elə buna görə imiş…
Deyilənə görə, prezident həmin bu işıqlı fikirləri ilə dustaqxanadakıları da zinhara gətirib dünyadan bezdirmişdi. Deyirdilər, qəlbi vətən eşqi ilə çırpınan bu yorulmaz adam orda da gecə-gündüz kölgəli üzü ilə, xəstəhal gözləri ilə, arıq uzun bədəni ilə dustaqxananın havasız, yarıqaranlıq otaqları boyu gicəllənə-gicəllənə elə hey azadlıqdan dəm vurur, əlinə keçən məhbusları bir küncə çəkib çılğın həvəslə ona hər şeyi təzədən danışmağa başlayır, məhbusda milli ruhun oyanmasına zəmin yaratmaqla məşğul olmaqdan yorulmurdu… Deyilənə görə, axırda bu azadlıq divanəsi dustaqxanada da özü üçün, kiçik də olsa, dərnəkvari bir auditoriya yaratmağa nail olmuşdu. Hər şey, bu cəfakeş insanın dustaqxananın bir küncünə çəkilib, ilk əvvəl tarixdən maraqlı rəvayətlər danışmağıyla, qalan məhbusların diqqətini özünə cəlb eləməklə başlamışdı… məhbusların «tora düşdüyünü» gördükdə isə, deyilənə

görə, o, çevik bir fəndlə mövzunu dəyişərək, tarixdən birbaşa bu günə - qeyri hüquqi şəraitdə yaşamağa məhkum olan xalqının mənəvi - siyasi problemlərinə keçirdi... Deyilənə görə, dustaqxanada bu «siyasi tora» düşməyən və bu səbəbdən onun əlindən zinhara gəlmiş məhbuslar:«Bunu bura salanın atabatasının goru çatdasın…» - deyirmiş. Deyilənə görə, dustaqxananın işçi personalı da onun əlindən zəncir çeynəyirmiş: « bu xəstə bura düşəndən, hamı demoqoq olub gedib… hamı insan hüququndan, müstəqillikdən danışır, azadlıqdan dəm vurur... bir adama: «gözün üstə qaşın var» demək olmur»… - dustaqxana nəzarətçiləri deyirmiş…

…Deyirdilər, belə məşğələlərdən sonra o, elə hallara düşürdü ki, sonra uzun müddət heç cür özünə gələ bilmir, ehtirasla danışdığı ideyalarının, işıqlı fikirlərinin təsiri altından çıxa bilmir, gah üzünü divara söykəyib dinməzcə ağlayır, gah da kimisə kətilə çıxartdırıb: «Yaşasın azadlıq!» - şüarıyla çığırtdırırdı…

-…Başa düşmək olmurdu, hansı daha təsirli… - dustaqlar deyirdi - onun ideyaları, yoxsa o özü?…

Axır günlərsə danışırdılar ki, hər belə məşğələdən sonra, siyasi jəhətdən maariflənmiş dustaqlar ayaq üstə dayanıb himn oxuyurdular və deyilənə görə, bu himnin səsinə o biri kameraların dustaqları da qoşulurdular. Deyilənə görə, son aylar o himni dustaqxana nəzarətçiləri də, onlarla bir oxuyurdular və bir də görürdün, gecənin bir aləmi yarıuçuq dustaqxanının qədim, üçmərtəbəli binasından qaranlıq göylərə əzəmətli himnin səsi ujalırdı…

Deyirdilər, bu tükürpədən kütləvi gecə mərasimlərindən, «azadlıq» şüarlarından qorxuya düşən dustaqxana müdiriyyəti məsələləri araşdırıb, dustaqların hansı azadlıqdan dəm vurduqlarını, ölkənin rəsmi himni olan bu əzəmətli havanı niyə məhz gecələr və niyə məhz birlikdə, o sayaq qorxunc təntənəylə oxuduqlarının mənasını uzun müddət götür qoy edib nə isə anlamağa çalışsalar da, aydın bir nəticəyə gələ bilmirdilər...

Kameralardan alınan gizli məlumatlara görə, dustaqlar millətin azadlığından, hansısa sərt qanunlardan, uzun illər tapdaq altında əzilən xalqın əsirlikdə olan dilindən və sairədən danışırdılar... odu ki, deyirdilər, yalan-doğru, arada bir, bu millət fədaisinin siyasi dərslərində, görünür ki, bütün bu təntənədən çaşıb başını itirən dustaqxana müdirinin özü də, gizli surətdə iştirak etməyə başlamışdı…

…Bir gün belə məşğələlərin birindən sonra, prezident yenə təsirlənib

boğazını qəhər tuta-tuta, dustaqların birini kətilə çıxarıb «Yaşasın azadlıq!..» - dedizdirəndə, deyirlər, siyasət toruna düşməyən dustaqlardan kimsə, prezidentin üstünə cumub yaxasından silkələyə-silkələyə, hirsindən rəngi ağara-ağara:
- …Denən, yaşasın rahat, tox həyat!.. - deyə çığırıbmış. Sonra da tüpürjəyi əsəbiliyindən ağzının kənarlarına köpük kimi yığılan o dustaq deyibmiş ki: «Tox, firavan həyat istəyə-istəyə «azadlıq» deməyi bu avam camaata o və onun kimi qurumsaqlar öyrədib. Bilə-bilə ki, heç bir dövrdə, heç bir xalqa siyasi azadlıq nəsib olmayıb və əslində olmağı məsləhət də deyil, Yer üzünün bütün xalqları tarix boyu bolluq, ədalət və rahatlıq istəyib, o da olmayanda, olanla qane olub, o və onun kimilər «azadlıq» deyə-deyə camaatı yolundan çıxarır, onsuz da qara gününü bir az da qaraldır, beynini dumanlandırıb küçələrə saldırır.. sonra dəliyə, yəni avam xalqa əl verir, əlinə də bel... Yığışdırsın, bu avantüralarını!..»
Deyirlər, dustaq sözünə beləcə çımxırıb yekun vurubmuş.
Yaxın adamlarının dediyinə görə uzaq illərin bu xatirəsi, ağzıköpüklü dustağın dediyi bu qəliz sözlər sonralar da heç cür prezidentin yadından çıxmırmış… bunu həssas prezident ürək qızdırdığı adamlarına dönə-dönə, hər dəfə də həyəcanlanıb səsi titrəyə-titrəyə danışır, sonra siqaretini tüstülədə-tüstülədə uzun-uzadı fikrə dalırmış… Deyilənə görə, prezident özü danışıbmış ki, həmin o filosof - dustaqla sən demə, sonradan dostlaşıbmış. Sən demə, dustaq sonralar da ona azadlıq haqqında öz qəribə moizələrini oxuyurmuş... Məsələn, dustaq deyirmiş ki, dərinə getsən, ümumiyyətlə, bu azadlıq deyilən şey nə deməkdi axı?.. Tarix boyu hansı xalq, sözün əsil mənasında azadlığı uğrunda mübarizə aparıb ki?.. Niyə nələrisə əldə etməyin adı həmişə «azadlıq» olub?..
Axı bir millət kütlə şəklində, kollektiv surətdə necə azad ola bilər ki, bu millətin ayrı-ayrılıqda hər bir nümayəndəsi yaranışından, öz cismani və ruhu varlığı ilə, hər şey bir yana qalsın, bədəninin quruluşu ilə kölədir. Hamıdan Uca Allahın köləsi… Əgər söhbət bir xalqın, ayrı bir dövlətin əsarətindən qurtarıb azadlığa çıxmasından gedirsə, bu, canım-gözüm, bizə aid deyil… - dustaq deyirmiş - …biz dünya tarixinə böyük filosoflar, şair və yazıçılar, sərkərdələr, rəssam və bəstəkarlar vermişik… lakin əfsuslar olsun ki, bineyi-qədimdən üzü bəri, qanımıza, canımıza hopan, əlimizə, qolumuza çevrilən köləlik azarından azad ola bilməmişik. Əsarəti altında yaşadığımız dövlət işdi, bizdən imtina edərsə, biz təşvişə düşərik, başımızı itirə-itirə əl-ayağa düşüb təcili surətdə özümüzə təzə ağa

axtarıb taparıq… Bu, bizim xislətimizdi, qan qrupumuzun göstəricisidi… xəmirimizin mayasıdı… Olsun ki… - müdrik dustaq deyirmiş - həmin bu kölәlik azarının, uzun əsrlərdən bəri kök salıb yaşadığımız torpaqlarımızın münbit, əlverişli şəraitiylə də əlaqəsi var… Axı bizlərin… - dustaq deyirmiş - heç bir vaxt yaşamaq uğrunda mübarizə aparmağa, özümüzü, milli «Mən»imizi qoruyub sübuta yetirməyə ehtiyacımız olmayıb… Ömrümüz boyu özümüzün istifadə edə bilmədiyimiz min bir sərvətimizi dadmağa ağıllı adamlar tapılıb... sərvətimizi yeyib, bizləri də yedirdiblər... Tox adama isə nə lazımdı ki?!.. Odu ki, akademik, özünü əbəs yerə yorma… Bütün bu oxumaqlar və kövrəlməklər boş bir şeydi… Bizimki belə gəlib, elə belə də gedəcək... sənin o sevimli «azadlıq» şüarından isə, tarix boyu «hakimiyyət» deyilən əlçatmaz Qalanın bağlı qapılarını açа bilən açr kimi istifadə edilib…
…O dustaq, prezidentin dediyinə görə, orta savadı belə olmayan, həyatı boyu oğurluqla məşğul olub, ömrünün çox hissəsini dustaqxanalarda çürüdən yeddi uşaq atası idi…
Deyirdilər, o dustaqdan danışandan sonra, siqareti siqaretə calaya - calaya fikir dəryasına qərq olan prezidenti hələm-hələm o dumanlı dəryadan çəkib çıxarmaq olmurdu… Heç kim də prezidentin düşdüyü bu kədər dəryasının sirrini bilə bilmirdi… anlamaq olmurdu prezidenti fikrə salan nədi, dustağın sözləriylə razıdı, ya yox… dustağın sözündə həqiqət var, ya yox… Elə bil prezident özü də dustağın dediklərindən axıracan dəqiq bir şey anlamırdı… o sözləri, elə-belə, ötəri söhbət kimi qulaqardına vurub unuda da bilmirdi görünür… Hər dəfə də bu söhbətin axırına gəlib çıxanda, üzündəki sual ifadəsi ilə həmsöhbətlərinin gözünün içinə elə baxırdı, elə bil orda, bütün bu deyilənlər haqqında axır ki, nə isə tapacaqdı…
Bu gizli dustaqxana epizodundan xəbəri olan bəzi xalq siyasətçiləri bu söhbətə ciddi əhəmiyyət verirdilər… prezidentin, hər bu xatirədən sonra düşdüyü kədərli trans vəziyyətini bununla izah edirdilər ki, dustağın nəzəriyyəsi, uzun müddət öz al-əlvan xəyallarının qoynunda üzən və həmin bu «xəyallar bataqlığında» camaatı da üzdürən prezidenti sadəcə çaşdırmışdı... Dustağın həqiqətindın belə çıxırdı ki, prezident bütün ömrünü, cavanlığını, istedadını, öz təxəyyülündə qurub düzəltdiyi xalqın azadlığı uğrunda, əslində isə, mahiyyət etibarı ilə absurd, cəfəng bir arzu yolunda qurban vermişdi…
Prezident burda iki şeyi qarışdırırdısa da, hər iki variant ayrı-ayrılıqda da,

cəm halında da dustağın dediyi ilə üst-üstə düşürdü. Ya öz yaranışından bəri heç vaxt başının ağrısını bilməyən, düşündüyünü deməyi bacarmayan xalq, öz irili-xırdalı məişət dərdlərinin çarəsini, narazı üzü ilə onlara çox doğma gələn bir adamın ayağa qalxaraq üsyankar bir səslə dediyi: «azadlıq» sözündə tapmışdılar… Yaxud, hər şeyi coşğun xəyallar dumanında, parlaq ideya şüarları altında görən romantik prezident, gözü dünyanın min bir naz-nemətində qalan, bir qarnı ac, bir qarnı tox xalqının dərdini düzgün başa düşməmişdi…
…Prezidentə nəhayət çatmışdı ki… - bəzi ticarətçilər gözlərindən qığılcım çıxa-çıxa dınışırdılar - …sən demə, xalqa siyasi, mənəvi, hüquqi azadlıq yox, adicə qarın azadlığı lazım imiş…
İndi əgər məsələ gəlib bu yerdə belə yoğunlaşmışdısa, onda belə çıxırdı ki, prezident çaşıb «eşşəyə minmişdi» və daha bu eşşəkdən düşməyin yeri yox idi… Odu ki, istəsə də, istəməsə də, Allahın bu yazıq, tərs bəndəsini harasa sürməliydi… Lakin, hara?..
Bax, prezidenti də çaşdıran elə bu idi… - adamlar qəribə azarkeşliklə danışırdılar...
- O, orta və yaxın əsrlər tarixindən, yaxın və uzaq şərqdə gedən daxili ixtişaşlardan, siyasi, sinfi mübarizələrdən, şah üsul - idarəsinin gizli incəlinlərindən, hakimiyyətin devrilmə yollarından və sairədən saatlarla, bəlkə günlərlə məruzələr edə bilərdi… amma, xalqına firavan həyat bəxş edə bilməzdi… Ona görə yox ki, o, bunu eləmək istəmirdi… Ona görə ki, sadəcə, bunu bacarmırdı… bunu o, nə təhsil aldığı ali məktəbdə, nə də sonralar, sevə-sevə, həvəslə mənimsədiyi qalın-qalın kitablarda, qədim əlyazmalarda oxumamışdı... İnqilabi hərəkatlar, sinfi mübarizələr və üsyanlardan yazılan kitablarda görünür, xalqın bu həmişəac gödənini doyurmaq yolları təsvir olunmamışdı.
…O, məmləkətin monarxiya quruluşundan respublikaya və ya əksinə keçid dövrlərinin mərhələlərində dövlət rejimlərinin dəyişməsi yolları, xalq kütlərini istiqamələndirib öz arxasınca hansı ideyalar və hansı bayraqlar altında aparmağın yolları, ölkədaxili sinfi mübariəzələrdə xalqı istənilən istiqamətə yönəltmək yolları və digər dövlət quruculuğundan bəhs edən elmi əsərlərə hələ gənc yaşlarında, Elmlər Akademiyasında elmi işçi işləyən vaxtlar, günlərlə Akademiyanın yarıqaranlıq, havasız arxivlərində yiyələnmişdi… - alimlər danışırdı.
-…ola bilər - ola bilər… - Əlyazmalar institutunun direktoru televiziya ilə verdiyi müsahibədə deyirdi - … onun, hələ bizim institutda işlədiyi dövrlər

qədim əlyazmalara olan xəstəhal münasibəti, düzünü deyim, məni həmişə narahat edirdi… Bu adam günlərlə institutun arxivlərində itib-batırdı, yaxud tozlu əlyazmaları yığışdırıb icazəsiz - filansız özü ilə evinə aparırdı... gün-gündən də arıqlayırdı… rəngi solur, gözləri çuxura düşürdü, göz görə-görə saralıb sorurdu... Yataqxana yoldaşları danışırdılar ki, gətirdiyi əlyazmaları bu adam gecəylə oxuyur, gecənin bir yarısı hamını yuxudan oyadıb, səhərin gözü açılanacan, gözündən qığılcım çıxa-çıxa hansısa şahın siyasi gedişlərindən danışır, heç kimi yatmağa qoymurdu… Bilirsiz, dilçi olmağına baxmayaraq, o, tarixi dəlicəsinə sevirdi. Onun bu sevgisinin sonradan birdən-birə siyasi fəaliyyətə keçməsi, açığını deyim, məni çox təəccübləndirdi… Mənə belə gəlir, onun siyasi hərəkata qoşulması, hər şeydən əvvəl həmin o tarixi şəxsiyyətlərə olan böyük sevgisindən irəli gəlirdi…
- …Camaatı yoldan çıxaran o idi… - liberallar partiyasının sədri «r» hərfini yeyə-yeyə danışırdı - rus qəsbkarları guya ölkədə yaranan daxili gərginliyi yatırtmaq məqsədilə ağır tanklarla şəhərə girən gecə də camaatı evlərindən çıxarıb ordunun qabağına düzdürən, ətdən çəpər düzəldən o idi… O gecə yüzlərlə adam qırıldı, ona isə heç nə olmadı. O dəhşətli, qarlı qış gecəsi əliyalın, dinc şəhər sakinlərini tankların, top-tüfəngin qabağına tökən bu millət fədaisi həmin gecə qaçıb dostunun evində gizlənmişdi… və yalnız bu müdhiş hadisədən üç gün keçəndən sonra - küçələrə tökülən meyitlər daşınıb yığılandan, qan gölməçələri yuyulub quruyandan sonra zühur eləyib üzə çıxdı. İkicə il ərzində iki qanlı millət qırğınını törədən bu insandı... O hadisədən sonra bu adam haqqında artıq nəticə çıxarmaq olardı. Lakin, xalq kütlələri, hipnoza düşən müsəlləh ordu kimi, yenə onun ardınca getməyinə davam elədi... bu da axırı… Camaatı elə bil qan çəkib aparırdı… tarix təkrar olunur… 1920-ci ildə, guya aclıq və səfalət bataqlığında çabalayan xalqın köməyinə gələrək, şəhərə daxil olub, camaatı qıran rus ordusu və başını götürüb aradan çıxan milli azadlıq hərəkatının «qeyrətli» liderləri…
-…Bütün bu söhbətlərdən adamın başının tükləri biz-biz durur… - camaat deyirdi - bu necə adam imiş, ilahi?!… Onun haqqında hərə bir söz deyir və işin qəribəsi də odu ki, bütün deyilənlərin hamısın da həqiqətdi... Bütün bu deyilənlərə və danışılanlara görə belə çıxırdı ki, prezident - vicdanlı, qorxaq, simasız, təvazökar, riyakar, mənəviyyatlı, xudbin, millətini dəlicəsinə sevən xəstəhal və cəsur adamdı… Prezidentə ürəyi yananlarasa deyirdilər ki, ona, xalqının azadlığı və

vətəninin müstəqilliyi uğrunda İlahidən verilmiş müqəddəs missiyasının başa çatdığını, gərək hakimiyyət xalqın özünə veriləndə anlayaydı…
-…amma qəribədi… - camaat deyirdi - o, sonralar da, Azadlıq partiyası hakimiyyətə gələndən çox-çox sonralar da - ölkə günbəgün, aybaay, kərpic-kərpic sökülməyə başlayanda da, elə bil uduzduğunu hiss eləmirdi… Ya bəlkə hiss eləyirdi, özünü o yerə qoymurdu?!.. Deyirdilər, hakimiyyətdə olduğu son vaxtlar o, ömrü boyu çəkdiyi əziyyətlərini, təqib və işgəncələrini, ehtiyac və aclıq günlərini, həyatının ən işıqlı anları kimi yadına salır, o günləri ilə gizlicə fərəhlənir, bütün bu məşəqqətlərin əbəs getməməsindən, o qara günlərin, indi xalqının işıqlı həyatına çevrilməsindən danışıb elə bil təskinlik tapır, sonra yenə siqaretini tüstülədə-tüstülədə fikrə gedirdi…
- Görən onda prezident nə fikirləşirdi? - Azadlıq partiyasının cəfakeş üzvləri narahat üzlərlə deyirdilər - Bəlkə tutduğu bu yolun düzgün olub-olmadığını özü-özlüyündə götür-qoy edirdi?!.. Ya bəlkə, millətin işıqlı gələcəyinə əbədi ümidlə yaşayan bu həssas qəlbli insanın yenə də nəyəsə ümidi vardı?!.. Bəlkə ölkədə yaranan bu ağır böhranı o, hələ də, millətin aydın sabahına aparan müqəddəs yolun növbəti mərhələsi hesab edirdi?!.. Ya bəlkə ömrü boyu mübariz ideyalarla yaşayan prezident bütün bu mübarizələrdən, heç cür ələ gəlməyən, alınmayan ideyalarından cana doyub yorulmuşdu artıq, indi artıq özü haqqında, insan taleyindən çox, quş taleyini andıran qəribə ömrü haqqında fikirləşməyə başlamışdı?!.. Bəlkə o an onun quş kimi qanad çalıb buralardan - heç cür oyanmaq bilməyən bu ölü torpaqlardan uçub getməyi gəlmişdi?!..
…Bu sayaq ehtimallardan bir qisim adam kövrəlir, bəziləri əsəbiləşir, üzlərindəki bezgin ifadələrlə:
-…axı özünü niyə o günə qoyurdu ki, sonra da uçmağı gələ?!.. - deyirdilər.
- Axır ki, bütün bu söz-söhbətdən, bir-birinə uyuşmayan, yarıhəqiqətə, yarıuydurmaya oxşayan ehtimallardan belə çıxır ki… - sonsuz mükalimələrdən başı şişən və axır ki, bir nəticəyə gəlmək istəyən camaat danışırdı - …ilk baxışda sadəlövh insan təsiri bağışlayan bu prezident, elə də sadə adam deyil… buna sübut - hakimiyyətdə olduğu dövrlər də, hələ ondan əvvəlki illər də, gizlidə, yaxud aşkarda apardığı qəliz siyasi gedişlərinin sirrinin, demək olar ki, heç kim tərəfindən açıla bilməməsidi…

-…Onun ölkənin şimal-qərbində gedən müharibə ilə əlaqədar özünəməxsus uzaqgörən siyasətindən - uzun müddət içində saxlayıb zərgər incəliyi ilə bişirdiyi və heç bir vəchlə heç kimə açıqlamadığı «sirli planlarından» bir çox adam agah idi... Ölkə əhalisi isə bunu, onun televiziya ekranından, müharibənin vəziyyəti ilə əlaqədar verdiyi unikal müsahibədən anlamışdı…
Müsahibədən əvvəl, döyüş bölgələrindən çəkilən reportajlarda, gözlənilmədən gəlib düşdükləri gülləbaranın, qulaqbatırıcı yaylım atəşlərinin səsindən döyüküb çaşan, yarımaçıq ağızlarla, böyümüş gözlərlə yan-yörələrinə baxa-baxa, ayaqlarındakı nazik idman ayaqqabılarında qarlı barrikadalarla o yan-bu yana sürünən «igid döyüşçüləri», köhnə dizel xırıltısıyla xırıldayıb işə düşüb, mərmilərini köndələn uçura-uçura harasa yaxınlığa endirsə də, partlamayan ağır artilleriya qurğularını göstərdilər… Sonra ekranda, prezidentin özü göründü... qara kostyumunun altından görünən nişastalı, ağ qolçaqlı uzun qollarıyla dəyirmi stolun üstündəki külqabını dövrəyə alıb:
- Demək biz belə edəcəyik… - demişdi - …həm irəlidən, həm geridən…
…O verilişdən sonra çox adam prezidentin müsahibəsindəki anlaşılmazlıqdan heç nə anlamadığını, qısa və qəliz nitqindən, külqabının və qollarının kimin və nəyin timsalında olduğunu başa düşmədiklərindən gileylənib:
- Əgər külqabı düşmən ordusu idisə, onda bu ordu, onların mühasirəsinə nə vaxt, necə və hardan düşmüşdü?!.. Yox, əgər külqabı onlar idisə, onda demək, kitabları bağlanmışdı… -deyirdilər - Elə olan halda, əgər kitabları bağlanmışdısa, onda bəs prezidentin üzündəki o həyatsevər, mübariz ifadə nə idi?..
O müsahibədən bir qədər keçmişdi ki, şəhərə ayrı bir vəlvələ düşdü… Deyilənə görə, prezident, hansısa xarici radioya verdiyi müsahibədə gözlənilmədən coşub özündən çıxaraq, yumruğunu mikrofon bərkidilmiş stola çırpıb, efirdə partlayış gurultusuna bənzər uğultu yarada-yarada, hökumətin adından rəsmi bəyanat vermiş, yaxın günlərdə, millətin böyük bir qisminin uzun illərdən bəri kölə vəziyyətində yaşadığı qonşu dövlətin ərazisinə hücuma keçəcəyini, həmvətənlərini azadlığa çıxaracağını elan etmişdi... Səhəri gün «təcavüzə məruz qalmaq ərəfəsində olan» qonşu dövlət hərb maşınını işə salmış - ağır artilleriyasını, hava və dəniz desantını sərhədlərdə yerləşdirmiş, müharibəyə hazır olduqları barədə ölkəyə cavab notası göndərmişdi…

Bu təhlükəli notadan təşvişə düşən ölkə əhalisi, kapitanı havalanıb sükanı başlı-başına buraxan gəminin sərnişinləri özlərini bir ujdan dənizə atan kimi, Hər anı ölüm və təhlükə saçan bu qorxunc ölkədən baş götürüb qaçmaq üçün tədbirlər tökməyə başlamışdılar... Dünyanın bütün informasiya mərkəzləri, torpaqlarının az qala yarısı düşmən taptdağı altında olan, hərbi potensialı təəəsüf doğuran bu balaca məmləkətin, bu sayaq ağır siyasi, iqtisadi böhran keçirdiyi bir dövrdə - ərazisinə, əhalisinin sayına, hərbi və iqtisadi potensialına görə müqayisəyəgəlməz dərəcədcə möhtəşəm bir dövlətə müharibə elan etməsini fövqəladə xəbərlər sırasında dünyaya yaydı...
…Qaçıb canını, qurtarmaq istəyənlərin çoxu məşhur sənət adamları, bir də müstəqilliyə yenicə qədəm qoymuş ölkənin müflis iqtisadiyyatını qaldırmaq üçün həvəslə işə girişən işgüzarlar oldu…
- Qoy getsinlər… - deyirlər, prezident, opera müğənnilərinin, rəssam və yazıçıların xaricə köçməyindən narahat olan jurnalistlərin suallarına cavab verərkən deyirmiş -…xalq hərəkatı öz yeni sənətkarlarını - milli ruhlu sənətkarları yetişdirəcək...
- Bu, lap Oktyabr inqilabı dövründə bolşeviklərin əsil sənətçiləri, ziyalıları güllələyib, əvəzinə - sovet ideologiyasını bərqərar edən fəhlə-kəndli mənşəli yeni növ sənətkarlara, «cəmiyyətə sosialist-realizmi ruhunu aşılayan» yazıçı - şairlərə meydan verməyini xatırladırdı… - yazıçılar ürkək üzlərlə danışırdılar...
Bəziləri də deyirdi ki, tələsik nəticələr çıxarmaq lazım deyil, yetmiş il bu çürük sistemdə kölə vəziyyətində yaşaya-yaşaya, ayıq düşüncəsini, qıvraq qavrayış qabiliyyətini itirmiş, siyasi cəhətdən cahil bir xalq üçün prezidenti başa düşmək hələ çox tezdi… Bunun üçün ilk növbədə xalq, intellekt baxımından bir qədər öz üzərində işləməlidi…
…Camaatı bir də ən çox çaşdıran - əlli altı yaşa çatmış prezidentin, dörd uşaq atası olmasına baxmayaraq, evsiz-eşiksiz, dərzi iynəsi kimi əyin-başsız olması idi… Bəziləri ağızlarını büzə-büzə deyirdilər ki, bir adam ki, bu yaşa gəlib çatıb, nə özünə, nə də ailəsinə bir gün ağlaya bilməyib, bir adamın ki, başının üstə damı, yıxılıb yatmağa küncü yoxdu, bu boyda xalqa o nə gün ağlayacaq?!..
Deyirdilər, ümumiyyətlə prezidenti, hələ o prezident olmamışdan əvvəl də, sonralar da, heç vaxt nə dünya malı, nə pul, nə şöhrət, nə vəzifə, bir sözlə, heç nə maraqlandırmırdı... ömrü boyu əlinə gələn cüzi qazancını da kitablara və bu kitabları oxumağa heyi olsun deyə, pendir-çörəyə

verirmiş... Odu ki, hələ lap uşaqlıqlığından, kəndin daş-kəsəkli yollarıyla, kasıbçılıq üzündən çəkməsiz gəzən, tələbəlik illərində də həmçinin, imkansızlıq ucbatından yeganə pencəyini dərziyə verib o üz-bu üzə çevirtdirə - çevirtdirə geyinən, mədəsi, pendir-çörəyə öyrəşdiyindən, ayrı bir şey qəbul eləməyən prezident deyilənə görə, prezidentlik kreslosunda özünü çox narahat hiss eləyirdi…
-…Elə üzündən də görünürdü ki, gün-gündən arıqlayır, gözləri çuxura düşüb altı qaralır… arıqlıqdan ovurdu-ovurduna keçir, əynindəki pencək-şalvar külək vurduqca, çubuğa keçirilən bayraq kimi dalğalanır… - camaat danışırdı...
- A kişi, biz görmüşük, adamı vəzifədən çıxarıb atanda qəm-qüssəyə düşər, fikir çəkib bu cür şam kimi əriyər… taxtda otura-otura əriyən adamı da gördük, məsləhətinə çox şükür!..
-…qəbul olunmuş protokol üzrə prezident davranışı qayda-qanunu onu lap darıxdırırdı… - prezident müşayiətinin əməkdaşları danışırdı -… bir də görürdük, budu ha, iş gününün axırına yaxın kağız-kuğuzunu qoltuğuna vurub küçəyə çıxdı… payi-piyada, maşınsız-müşayiətsiz düzəldi yola… Əyə, qoyma, getdi!.. - deyib biz də ardınca götürülürdük… özümüzü ona güclə yetirirdik… Zalım elə becid yeriyirdi ki, küçəyə çıxmağı ilə göz qırpımında yoxa çıxmağı bir olurdu… elə bil idmançı idi... Bizi görən kimi də, elə ki, müşayiət kortecinin - motosikllərinin, maşınların səsini eşitdi, özünü adamların gur yerinə salıb uzun ayaqlarını bir az da becid işə salırdı ki, camaata qarışıb aradan çıxa bilsin... Gəlib axır ki, ona çatırdıq… küçənin ortasında, camaatın arasında dövrəyə alıb maşina oturdurduq… o da, yazıq… cinayət üstündə yaxalanan adam kimi, başını aşağı salıb uşaq kimi qabağımıza düşürdü… dinməz - söyləməz keçib əyləşirdi… Ya da bir də görürdün, əsəbiləşirdi… özündən çıxıb, əl-qol ata-ata üstümüzə qışqırırdı, onu rahat buraxmağımızı, cəhənnəm olub yaxasından əl çəkməyimizi əmr edirdi… bizi «nomenklatura nökərləri» adlandırırdı… rəngi qarala-qarala, dil-dodağı əsə-əsə, çığırıb, onu, Allahın havasına, otuna, quşuna həsrət qoyduğumuza görə yerə-göyə lənət yağdırırdı…
-…Ən müsibəti isə, andiçmə mərasimindən sonra, onu gətirib zorla prezident iqamətgahına saldığımız günün axşamı oldu… - mühafizə xidmətinin işçiləri danışırdı - …onu çağıra-çağıra gətirib axır ki, iqamətgahın vestibülünə saldıq, qapıları da arxadan bağladıq ki, çıxa bilməsin… mühafizə dəstəsinin sayını birə-beş artırıb iqamətgaha

aparan yolları da hər ehtimala qarşı kəsdik ki, işdi də, birdən pəncərədən, ya ayrı bir yerdən çıxıb qaçar… o da sarayın şüşə qapılarını yumruqlarıya döyəcləyib o ki, var çığırdı.. deyirdi: «məni bu imperiya qorxulu qaladan azad eləməsəniz, intihar edəcəyəm...»
…Deyilənə görə, daha doğrusu, mühafizə xidməti işçiləri danışırdılar ki, həmin gecə üsyankar prezident iqamətgahın ikinci mərtəbəsinə - onun üçün hazırlanıb bəzənmiş otağına qalxmamış, bir müddət çağırıb qapıları döyəcləməkdən yorularaq, elə vestibüldəcə - şüşəli qapıların yanındakı kresloda yuxulayıbmış... Deyilənə görə, hökümət üzvləri prezidenti saraya bir təhər öyrəşdirmək məqsədi ilə, təcili surətdə onun, şəhərdən uzaq, dağ kəndlərinin birində yaşayan ailəsini də iqamətgaha köçürməyə məcbur oldular... Sonradan bu iqamətgahda baş verənlər haqqında camaat arasında dildən-dilə gəzən gülməli lətifələrin tarixçəsi də məhz həmin o günlərdən başladı…
Deyilənə görə, iqamətgahın mərmər sütunlu qəbul otağı, nadir Şirvan xalıları döşənmiş vestibülü bircə həftənin içində, prezidentin xanımının uzaq kənddən özü ilə gətirib gəldiyi şoraba balonları ilə dolmuşdu… Deyirdilər, bürkülü gecələrdə şorabalardan bəziləri qıcqırıb qapağını güllə kimi tavana atanda və yarıduzlu, qara badımcanlar balonlardan sıçrayıb qara, kök zəlilər kimi ağ, mərmər sütunlara yapışanda, prezidentin mühafizə dəstəsi təşvişə düşür, sarayın vestibülündə qəfildən başlanan bu «gülləbaranın», «qıcqırmış şoraba əməliyyatı» olduğunu aydınlaşdıranacan, az qala bütün şəhəri ayağa qaldırırdılar… həmin dəqiqə sarayın dörd bir yanı silahlı dəstələrlə dolur, küçələrdə, şəhərin girişlərində təcili polis postları qoyulur, sərhəd qoşunu aldığı xüsiusi göstərişə görə, sərhəd zolağını gücləndirir, güc nazirləri öz müşaiyət dəstələri ilə hadisə yerində peyda olurdular...
Deyirdilər, bir dəfə vestibülün çoxsaylı künclərindən birində, adam boyu hündürlüyündə adamaoxşar balonvari bir qabda qıcqıran üzüm sirkəsi, ağzı möhkəm tıxaclandığından, köpüklənib balonu necə partlatmışdısa, iqamətgahın mərmər sütunlardan biri tən ortasından sökülüb uçmuşdu…
- …O gurultuya biz hərbi vertolyotları çağırdıq… - mühafizə dəstəsinin rəisi danışırdı - vertolyotlar dama xüsusi qumbarayoxlayıcı radarlarla qondu… biz isə birinci mərtəbəni mühasirəyə aldıq, pəncərələri qırıb içəri doluşduq…
…Deyirdilər, saraya daxil olan silahlı dəstə qatı sirkə iyindən boğula-boğula, gözləri acışa-acışa, əvvəl bu şəbhəli, kəskin qoxunu

gözyaşardan zəhərli qaz bilərək, geriyə çəkilmək istəmişdisə də, sonradan sonraya, vestibülün yuxarı başında dizi üstə düşüb, döşəməyə dağılmış sirkəni yekə döşəmə əskiləri ilə silən xidmət personalının işçilərini gördükdə çaşıb qalmışdılar...
Camaat deyirdi, hamısı prezidentin ürəyiyumşaqlığının, sadılöhvlünün nəticəsidi... Deyirdilər, prezident aparatının binasının da, qısa müddət ərzində it gününə düşməsi, prezidentin həmin bu üzüyumşaqlığının nəticəsi idi…
Prezident aparatına yolu düşənlər oranın mənzərəsindən uzun müddət özlərinə gələ bilmirdilər. Deyirdilər, binanın vestibülündəki al-əlvan gül-çiçəklə dolü bürünc dibçəklərindən əsər-əlamət qalmamışdı… güllər, siqaret kötüklərinin zəhərindən yanıb qaralmış, adamboylu pəncərələrin şüşələri his çəkmiş, qranit sütunlar tanınmaz hala düşmüşdü…
Deyirdilər, bir vaxtlar ağ, buz parçası kimi par - par parıldayan bu sütunların üstündə o qədər söyüş, hansısa tarixlər, ad-familiyalar və «azadlıq» sözləri cızılmışdı ki, sütunlar son vaxtlar xaraba qəbiristanlığın başdaşlarını xatırlatmağa başlamışdı...
Pilləkənlərin, dəhlizlərin xəlçələri top-top daşınıb binadan çıxarılmış, qızğın mübahisələrin sonuna yaddaqalan nöqtə qoyan sınıq stul qalaqları künclərə qalanmış, bir vaxtlar dəhlizlərin divarlarını bəzəyən plafonlarından əsər-əlamət qalmamışdı…
Deyirdilər, ölkə müstəqillik statusu alandan, xalq müstəqillik və azadlıq yoluna qədəm qoyandan çox-çox sonralar da, prezident artıq müstəqil yaşayan ölkəsinin müstəqilliyi, azad xalqının azadlığı haqqında, yenə əvvəlki qaydada - on beş-iyirmi ilə əvvəl, universitetdə təşkil etdiyi gizli dərnəklərdə danışdığı kimi, əlçatmaz bir xəyal kimi danışıb kövrəlir, sonra yanındakılardan kimisə stulun, ya stolun üstünə çıxarır: «Yaşasın azadlıq!» - çığırmağa məcbur edir, özü isə əlləri ilə üzünü tutub olsun ki, ağlayırdı…
- …balam, bu adamı heç cür, o «azadlıq» bataqlığından çıxarmaq mümkün deyildi… - prezidentin yaxın qohumları deyirdi -…bu insanı nə uşaq, nə arvad maraqlandırırdı… nə qarnının, nə evinin hayına qalırdı… cavanlığından beləydi, bədbəxt… elə «azadlıq» deyib özündən gedirdi, vəssalam…
- …Belə çıxır ki, - müxalif partiyaların rəhbərlərindən biri deyirdi - …prezidentə xalqın azadlığı, dövlətin müstəqilliyi yox, bu azadlıq və müstəqillik yolunda əbədi mübarizə əhvalı lazımmış…

Bəziləri deyirdi ki, prezident uzun illərin arzularının həyata keçmədiyndən, ölkəsinin alınmayan kağız müstəqilliyindən, yalançı azadlığından ağlayırdı... son vaxtlar keflənib: - Bu o deyil… Bu, o azadlıq deyil… - deyib sümüklü yumruğunu stola çırpasının səbəbi də elə bu idi…
-…başa düşmək olmurdu ki, bu bədbəxt hansı azadlığı deyir... - camaat çaşqın üzlərlə, nəfəsləri darala - darala bir-birinin üzünə baxırdılar - o deyən hansı azadlıq idi?.. Əgər azadlıq bu deyildisə, onda bəs azadlıq nə idi?..
Deyirdilər, iqtidar heyətinin içində prezidenti ən çox sevən, ona ana qayğısıyla yanaşan yeganə adam - həlim xasiyyətli, gülümsər üzlü, nəzakətli müdafiə naziri idi... Nazir olmazdan əvvəl, ömrü boyu yeməkxanalarda aşpaz işləyən bu qayğıkeş insan deyilənə görə, düşmən ordusu ölkənin daha bir bölgəsini zəbt elədiyi vaxtlar belə, prezidenti baxımsız qoymur, nahar vaxtı iş otağının arxasındakı balaca artırmada, prezidentin sevimli yeməyini - elektrik plitəsinin üstə qızdırdığı göbələk qovurmasını çörəyin arasına yığıb qəzetə bükür, gözlə-qaş arasında özünü saraya çatdırırdı... Meşə göbələyinin həvəskarı olan prezident, yalnız bu ləzzətli bükməni yeyib qurtarandan sonra, naharın üstündən bir stəkan pürrəngi çay içib rahatlanandan sonra, nəzakətli nazir tədricən işgüzar görkəm alır, bir əli ilə naharın qırıntılarını stolun üstündən yığa - yığa, yenicə zəbt olunmuş bölgə barədə qara xəbəri prezidentə üstüörtülü eyhamlarla, çəhrayı rənglər artıra-artıra ehtiyatla elə təqdim edirdi ki, canı, onsuz da üzülmüş prezidentin olan-qalanını da üzməsin…
Təhlükəsizlik naziri isə deyirlər, prezidenti, hələ o prezident olmamışdan əvvəl də, öz qüvvətli əzələli qolları ilə bütün təhlükələrdən, qəfil dava-dalaşdan qoruyan sağlam bədənli, gümrah üzlü, alyanaq dağ adam idi… Səhər-axşam yeyib-içib qarmon çalan, ürək oxşayan ahəstə səsiylə muğamat oxuyan bu həyatsevər adamın, gizli dövlət məsələləri ilə, məxfi rəsmi sənədlərlə işlədiyinə inanmaq olmurdu… - camaat danışırdı...
Təhlükəsizlik naziri, bədəncə iqtidarın bütün nümayəndələrindən canlı idi. Deyilənə görə, o, Azadlıq partiyası hakimiyyətə gələnəcən uzaq kəndlərin birində idman müəllimi işləmiş, ağır çəkili güləşçi olmuşdu. Deyirdilər, prezidentin otağında şuluqluq düşən kimi, prezidentin həyatı təhlükə altına düşən kimi, həmin bu alyanaq təhlükəsizlik naziri göz qırpımında özünü saraya yetirir, ya gözlənilmədən hardansa -

pəncərədən, yaxud stolun altından peyda olur, «dövlət-prezident, prezident-dövlət!» - şüarlarıyla çığıra -çığıra müxtəlif səpkili söz - söhbəti bircə dəfə kəllə atmağıyla həll eləyirdi...
…Deyirdilər, belə günlərin birində həmin bu ağır çəkili güləşçi, prezidentlə nə üstəsə mübahisəsi düşən baş nazirə necə kəllə atmışdısa, o biri milçək kimi divara yapışmışdı... deyirdilər, sonralar da nazirin divarda qalan biabırçı qövsvari silueti nə qaşınmaqla, nə də yuyulmaqla prezidentin divarından getmədiyindən, məcbur olub divarların məxmərini dəyişmişdilər...
-…O günün səhərisi isə… - camaat deyirdi - …milli istiqlal bayramı günü onlar üçü də, heç bir şey olmayıbmış kimi, dəyirmi stol arxasında yanaşı oturub bir - birin tərifləyə - tərifləyə millətin azadlığına, dövlətin müstəqilliyinə aparan tarixi qanunauyğunluqlardan danışır, bir-birini və xalqı bu müqəddəs bayram münasibəti ilə səmimi qəlbdən təbrik edirmişlər…
-…Bir sözlə, dəlixana idi… - camaat danışırdı -…heç nədən baş açmaq olmurdu… səhərlər nazirlər televiziyanın canlı yayımla verdiyi müşavirələrdə söyüşür, günortalar bir yerdə ailəvi nahar edir, parlamentin axşam iclaslarında təpikləşir, axşamlarsa bilyard oynayırdılar…
-…Şükür Allaha!.. - camaat deyirdi - Axır ki, Allah bu binəva camaatın səsini eşitdi...
Deyirdilər, prezident elə bu gecə başını götürüb harasa qaçmışdı…
- Axı belə baxanda, - camaat deyirdi - prezidentin nə günahı vardı ki?!.. Sonradan acgöz nazirlərə, quldur - müşavirələrə çevrilən bu səmimi kənd adamlarına, o bədbəxt kimi, onlar da inanmışdı axı...
Deyilənə görə, prezident əsasən baş nazirin əlindən baş götürüb qaçmışdı… Baş nazir özü isə deyirdilər, Afrikaya qaçmışdı... Niyə məhz Afrikaya, burası heç kimə məlum deyildi... Məlum olanı, bircə bu idi ki, baş nazir hələ nazir olmamışdan çox-çox əvvəl, coğrafiyadan dərs dediyi kənd məktəbində Afrikadan danışanda qəribə, anlaşılmaz bir niskillə doluxsunurmuş… bəziləri yarıdoğru, yarızarafat, deyirdilər, guya baş nazirin ulu babaları o torpaqlardandı… Bəlkə də, baş nazirin Afrikaya bağlılığı haqqında gedən bu söz-söhbət, onun zənci dərisinə oxşar qəhvəyi dərisinə, qıvrım, cod saçlarına, qalın dodaqlarına, iri pərəkli enli burnuna görə ortaya çıxmışdı?!.. Bu görünüşlə, nazirin Afrikaya qaçması xəbərində nə isə qəribə bir uyarlıq, sirli bir romantika vardı…

Çoxu da deyirdi ki, nazir qaçmamışdı, onu doğma, isti vətəni - ətirli kakos və manqo ağacları arasında qayğısız bolluq dünyasında günəşin istisinə sevinə-sevinə yaşayan qardaş-bacılarının qaynar qanı çəkib aparmışdı… Amma deyirdilər, Afrika olmur, lap belə Antraktida olsun, xeyri yoxdu, onu, harda olsa, tutub dərisini boğazından çıxaracaqlar... çünki, deyirdilər, bu bir il ərzində baş nazir, ölkənin neçə illik yanacaq ehtiyatını, ata malı kimi vaqon-vaqon xarici şirkətlərə dəyər-dəyməzinə satıb pulunu altına vurmuşdu, dünənki hadisədən sonra olsun ki, həmin o yığdıqlarını qoltuğuna vurub, ya çantasına basıb qorxaq fərari kimi aradan çıxmışdı… Allah bilə, indi - ölkənin üstünü qara buludlar aldığı bu vaxtında, yazın yam-yaşıl təravəti ilə gəldiyi yerdə döyüküb bozardığı, ölkənin, şəhərdən uzaq kazarmada ölən iyirmi yeddi igidə görə qara matəm libası geydiyi bir vaxt, baş nazir həmin o doğma, günəşli Afrikasında şirin banan və baobab ağaclarının kölgəsində şellənir, yığdığı pulları bu azab məmləkətdə nəyə xərcləyəcəyini götür-qoy eləyirdi…

-…Burnundan gəlsin… - camaat deyirdisə də, hamı başa düşürdü ki, afrikalı baş nazirin burnundan heç nə gəlib eləməyəcək.

…Günortaya yaxın isə, yeni xəbərlər dalğası şəhəri gizli-gizli çalxaladı… Deyilənə görə, bir saat bundan əvvəl Daxili İşlər nazirini - qara eynəkli, çəlimsiz, əsəbi generalı həbs etmişdilər.

Bir qisim adam deyirdi ki, naziri aeroportda - iki konteyner silahı uçuş xəttinə keçirərkən tutmuşdular… Guya nazir aeroportu zəbt etmək istəyirmiş… bəziləri də deyirdi ki, generalı, şəhərin mərkəzi küçələrindən birində, kiməsə şillə vuran yerdə yaxalayıblar. Görünür dünənki faciə də - dövlət rəhbərlərinin, qəfil zərbə almış bilyard şarları kimi pərən-pərən olub, hərənin bir deşikdə gizlənməsi, əldəqayırma hakimiyyətin açıq-aşkar süqutu belə çılğın nazirə, bu üzdəniraq «şilləvuranlıq» adətini tərgitdirməmişdi.

Deyirdilər, nazir öz müşaiyət dəstəsi ilə - altı polis maşını, dörd motosikllə yoldan güllə kimi ötərkən, hansısa yol maşını təsadüfən müşaiyət karvanının qarşısından vıyıltıyla keçərək, balaca nazirin əsəblərinə toxunduğundan, o, maşınlarından ikisini o «jəsarətli» maşın sahibinin ardınca göndərmiş, maşının sürücüsünü tapdırıb hüzuruna gətizdirmiş, maşından düşüb, balaca, nazik bədəni ilə, özündən iki dəfə hündür, yekəpər sürücüyə yaxınlaşmış, əlindəki qara, dəri əlcəyini tarıma çəkərək, qəfildən bu qanacaqsız sürücüyə məşhur şilləsini

ilişdiribmiş…
…Nazirin bu şillə xəstəliyi, deyilənə görə onu, hələ lap tələbəlik illərindən məşhurlaşdırıbmış… Deyirdilər, nazirin özünün dediyinə görə, balaca bədəninə uyuşmayan yekə, əzələli əlləri, hələ lap tələbəlik vaxtlarından ona tabe olmurmuş… Deyilənə görə, nazir hələ o vaxtlar da, adamlarla əsəbsiz - filansı, mülayim səslə danışdığı yerdə, əlləri birdən-birə elə bil özü-özünə cinlənir, cərəyan vuran kimi atılıb üzbəüzdəkinin sifətinə ilişimiş… Deyirlər, guya nazir dəfələrlə, dönə-dönə bu tərbiyəsiz əllərinə görə həmsöhbətlərindən üzr istəyir, təhqir olunanların yerinə özü də ölüb yerə girir, hətta kövrəlirmiş də, amma heç cür bu dikbaş əllərini ram eləyə bilmirmiş...
Bəziləri isə deyirdi ki, əlləri haqqında qurub düzəltdiyi bu nağıl nazirin öz uydurması idi…
- Əgər həqiqətən elə idisə, əlləri doğrudan da nazirə tabe olmurdularsa, onda niyə bir dəfə də şillənin biri çaşıb onun öz sifətinə dəymirdi?!.. Bu, ətrafdakıların, bir növ gözünün odunu almaq, təhlükəli ola biləcək fikirləri, hələ fikir olmaq ərəfəsində kökündən vurmaq, hamını öz cılız vücuduna tabe elətdirməyin bir üsulu idi… - camaat deyirdi…
Bir qisim adam da deyirdi ki, nazir lap uşaq vaxtları kəndlərindəki mal tövləsinin damından yıxılaraq başından zədə alıbmış və hər şey də, deyilənə görə, bu zədədən sonra başlayıbmış… Odu ki, deyirdilər, onu yaxalayarkən, birinci növbədə əllərini bağlayıbmışlar...
Deyirdilər, nazirin bu ədəbsiz adətindən nazirliyin qalan işçiləri də yoluxmumuşlar. Nazirliyin işinə aid məsələlərin, nazirliyin otaqlarında, dəhlizlərində şillə ilə həll olunması, deyilənə görə adət halını alıbmış. Deyirdilər, bəzən bu şillə mərasimləri yoğunlayıb əlbəyaxa dava-dalaşla, hərdən lap güllə-baranla qurtarırmış…
- …Bir də görürdün… - nazirliyə yaxın ərazilərdə yaşayanlar danışırdı - …gecənin bir aləmi nazirliyin binası mühasirəyə alındı… içəridən atışa-atışa bir dəstə silahlı adam sivişib, nazirliyin yuxarı mərtəbələrinin pəncərələrindən atılan güllələrə cavab atəşi açа-açа kol-kosun dibində gizləndilər... deyirdik, bəs olsun ki, şəhərdə düşmən var… ya hərbi vəziyyət elan olunub… Sonra məlum olurdu ki, atışanlar - nazirliyin müxtəlif idarələrinin, sözləri düz gəlməyən əməkdaşları imiş… mübahisələrini həll edirlərmiş…
- …Bu, bir növ elə döyüş idi… amma bu döyüşlərdə, qəribədi ki, ölən, ya yaralanan olmurdu… - camaat danışırdı - …başa düşmək olmurdu,

güllələr kimisə qorxutmaq üçün atılırdı, yoxsa güllələr yalançı idi?!..
…Belə döyüşləri adətən balaca, əsəbi generalın, nazirliyin yuxarı mərtəbəsindəki otağının döşəməsinə atdığı iri kalibrli güllə sakitləşdirirdi… Yalan-doğru, deyirlər, generalın gülləsi yeddi mərtəbənin tavan - döşəməsindən keçə-keçə, gəlib vestibülün mərmər döşəməsinə düşəndcə güllə baranın səsi kəsilir, kol-kosda gizlənənlər ayağa qalxıb üst-başlarını çırpa-çırpa binaya daxil olur, heç bir şey olmayıbmış kimi, öz otaqlarına çəkilib hərə öz işiylə məşğul olmağa başlayırdı….
Deyilənə görə, prezidentin özü də, prezidentliyə, həmin bu cinli generalın qorxusundan razılıq vermişdi… Bədnam «Azadlıq» partiyasının hakimiyyətə gəldyi günün səhəri, təzəcə zəbt olunmuş prezident aparatındakı yığıncaqda deyilənə görə, prezident, yerə çatmayan arıq, uzun qıçlarını bir-birinin üstə aşırdıb küncdəki kresloda oturduğu zaman qəfildən - gözü, üzbəüzdəki küncdən ona, qara eynəyin altından zillənən əsəbi generalın qəzəbli baxışlarına tab gətirmədiyindən prezident olmağa razılıq veribmiş…
Deyirdilər, dünən şəhərdən uzaq kazarmada baş verən faciənin hərbi əməliyyatı hazırlandığı gün prezident aparatının binasında keçirilən gizli yığıncaqda da, balaca, əsəbi general həmin o baxışlarını işə salmış və bu qəddar aktla heç cür razılaşmayan humanist prezidenti ram eləmişmiş…
Mühafizə dəstəsinin əsgərlərinin dediyinə görə, o gecə - gizli yığıncağın sonuna yaxın, prezident, ani olaraq, iqamətgahın cıqqavari artırmasında görünmüş, qəhərli səsiylə harasa şəhər tərəfə qışqıra-qışqıra: «- Ay camaat, eşidin məni!.. Mən - bədbəxt belə demirdim!..» - deyibmişsə də, əsgərlər and içirdilər ki, artırmanın məhəccərindən asılıb az qala ağlaya-ağlaya özünü aşağı atmaq istəyən prezidenti, danışdığı yerdəcə, otaqdan eyvana atılan üç-dörd silahlı adamın sürütləyib içəri apardıqlarını görüblərmiş…. Qaranlıq olduğundan, əsgərlər, silahlı adamların kimliyini dəqiqləşdirə bilməsələr də, bu adamların iqtidar nümayəndələrindən olduğunu da istisna etməyiblər. Əsgərlərin bu ehtimalına səsbəb isə, yığıncaq vaxtı iqamətgahın yan qapısından bir-bir həyətə çıxaraq, orda kol-kosun dibində xısınlaşan, aradan bir, gizli-gizli künc bucağa qusan adamların güc nazirliklərinin rəhbərlərinə oxşaması olub …
- Allah bilə, onları, verdikləri ədalətsiz qərarın vahiməsindən qusmaq tutub…- camaat deyirdi - …bu qərarla, olsun ki, özlərinə oxuduqları ölüm

hökmünün havası ürəklərini bulandırıb…
Deyilənə görə, o gecə nazirlər, coşub özündən çıxan prezidenti uzun müddət sakitləşdirə bilməmişdilər... Prezident əllərdən çıxıb düz divara dırmaşır, stolun altına girir, pərdəni ip əvəzinə boğazına dolayıb: «Öldürün məni!.. Məni öldürün!..» - deyə - deyə, səsi gəldikcə çığırırmış…
Deyirlər, bu mənzərəyə tab gətirməyən, əsəbləri zəif daxili işlər naziri həmin o gecə nəyə görəsə müdafiə nazirini şillələmiş, müdafiə naziri kəllə atıb baş nazirin gözünün altını göyərtmiş, təhlükəsizlik naziri - keçmiş idman müəllimi, havalı nazirləri sakitləşdirmək üçün ortaya girməyə məcbur olmuş, bir-iki qapaz da o alandan sonra, püskürüb nərildəyə - nərildəyə o da meydana atıldmış və birjə yumruğuyla azğın nazirlərin ikisini də birdən yerə sərmişmiş…
- O gecə iqamətgah az qala uçulurdu… - əsgərlər danışırdı - …pəncərələrdən, qucaqlaşıb otaq boyu o yan-bu yana süpürləşən nazirlərin kölgələrindən başa düşürdük ki, dalaşırlar… sonra kim idisə, bir də gördük, top kimi pəncərəyə dəydi, şüşəni başıyla qırdı… yuxarıdan nəsə sıçrayıb həyətə düşdü… baxıb gördük, generalın qara eynəyidi…
…Sonra deyilənə görə, nazirlər aşağı düşüb bir müddət də qaranlıq həyətdə söyüşüblərmiş… sonra haçandan - haçana, səhərə az qalmış maşınlarına minib, hərəsi bir yana gedibmiş… Bir qədər sonra isə, iqamətgahın işıqları sönüb ətrafına yuxulu sükut çökəndən sonra, iqamətgahdan ev paltarında çıxıb, pay - piyada şəhərin yuxarı başına - dağətəyi parkda salınmış şəhidlər xiyabanına yollanan prezidenti görüblərmiş…
-….eynilə «Min bir gecə»nin qorxulu nağıllarındakı kimi… - mühafizə dəstəsinin əsgərləri danışırdı - …sakitlik çökəndən sonra bir də gördük, iqamətgahın birinci mərtəbəsindəki pəncərədən kimsə sivişib çölə tullandı… Əvvəl istədik atəş açaq, sonra baxıb gördük ki, prezidentin özüdü… idman formasının üstündən geydiyi yüngül gödəkçədə pəncərədən düşüb özünü ağaclığa saldı... dedik, bəlkə onun da ürəyi bulanır?!.. Sonra bir də gördük, ağaclığın o başından şəhərə aparan maşın yoluna çıxdı… Tez rəisə xəbər verdik və o dəqiqə əmr aldıq ki, hay-küy salmadan, prezidenti hürkütmədən, gizlicə onun ardınca gedək... biz də getdik... Prezident küçəyə çıxıb oğrun-oğrun, divarlara qısıla-qısıla harasa üzüyuxarı gedirdi... bir qədər getdikdən sonra bir də

gördük, şəhidlər xiyabanına döndü… biz də bir qədər gözləyib özümüzü xiyabana böyür tərəfdən saldıq... qaranlıq idi deyə, bir müddət onu orda - sıx ağaclıqların arasında tapa bilmədik… sonra ayaq saxlayıb sakitliyə qulaq asdıq ki, bəlkə hənirtisini eşidək… Bir qədər keçmişdi ki, hardasa lap yaxınlıqdan inilti səsi gəlməyə başladı… kolların arasında gizlənə - gizlənə səs gələn tərəfə getdik və baxıb gördük ki, prezident budu burda, lap yaxınlığımızdadı… üstü yalançı dəmir güllərlə bəzənmiş qəbirlərin arasında üzüqoyulu yerə uzanıb… orda da inildəyir… dedik, kömək eləsək, yaxşıdı… gəlib yaxınlaşanda o bizi gördü, yerə dirsəklənib ağzına dolan torpağı o yan - bu yana tüpürə - tüpürə:
- Öldürün məni... - deyib ağlamağa başladı…
Deyilənə görə, prezident şəhidlər xiyabanına tez-tez, əsasən gecələr, bütün şəhər dərin yuxuya qərq olandan sonra, küçələrdən əl-ayaq çəkiləndən sonra gedirmiş… Onu beləcə gecələr şəhərin bəzi küçələrində də - pencəyi çiynində, səkilərlə, bəzən maşın yollarıyla tək-tənha gəzən, gəzə - gəzə hansısa xalq mahnısını oxuyan yerdə görənlər də olmuşdu… Bir dəfə isə, deyilənə görə, mühafizə dəstəsinin əsgərləri onu, şəhər bazarlarının birinin çirkli qarovul kökündə, qoca, sərxoş qarovulçu ilə oturub çaxır içən yerdə tapmışlarmış… Deyirdilər, onu qarovul köşkündə tapanda, o, yenə nə isə azadlıq haqqında danışırmış… əynində sırıqlı kürk, başında kirli beret, yarım kilometrdən soğan iyi verən kefli qarovulçu da deyirlər, ona qulaq asa-asa ağlayırmış…
Bir qisim adam prezidentin bu gecə sərgərdanlığını, prezidentin kiməsə aşiq olmasıyla bağlayırdı. Bir qisim adam isə deyirdi ki, onun aşiq olub sevdiyi, sevə-sevə başını itirdiyi və heç cür qovuşa bilmədiyi bir gözəl vardısa da, o da azadlıq idi…
- Bu azadlıq nə olan şeymiş ki, o boyda adamı o günə salmışdı, dəli - divanəyə çevirib məcnuna döndərmişdə?!.. - camaat danışırdı…
…Həmin o gecə - şəhərdən uzaq kazarmada baş verən faciənin hərbi planı təsdiqlənən həmin o taleyüklü, məşum gecə nazirlər prezidentə verdikləri sözün üstündə durdular.
Deyilənə görə, səhəri gün prezident iqamətgahının həyəti əlimikrofonlu çəkiliş qrupları ilə, nəhəng ötürücü avadanlıqlarıyla dolmuşdu… Projektorlar, mikrofonlar prezidentin otağında qurulmuş, kameralar işə düşmüşdü…. Deyirdilər, o gün prezident hündür, çəkisiz bədəni ilə otağa daxil olub yuxarı başa keçəndə, öz yerinə - kameraların tuşlandığı

prezident kreslosuna əyləşəndə hamının ona ürəyi ağrımışdı…
- Prezidentin üzü eləydi…- operatorlar danışırdı… - …elə bil bura, uzun müddət yatdığı işgəncələr kamerasından çıxıb gəlirdi…
Deyirdilər, prezident bir müddət projektorların gur işığından qamaşan üz-gözünü yığıb, don vuran kimi, susub qalmış, bir qədərdən sonra, özünü ələ almaqdan ötrü, bir-iki dəfə dərindən nəfəs dərmiş, sonra günah və əzab dolu üzü ilə, titrək səsi ilə çıxışına başlamışmış…
- Əziz xalqım!.. - deyibmişsə də, bu yerdə prezidentin boğazının qəhərdən tutulduğunu, çəkiliş aparanların hamısı bir adam kimi hiss edibmiş… - İndi deyəcəyim sözlər qoy qəlbinizi ağrıtmasın… Mən… - deyirlər prezident bu yerdə sözünün dalını gətirə bilməmiş, bir müddət susub sonra sözünü davam etdirmişmiş - …ömrümün böyük və əsaslı hissəsini millətimin azadlığı, ölkəmin müstəqillliyi uğrunda gizli və aşkar mübarizələrə həsr etmişəm… və elə bilirəm, yanılmamışam… Həmin bu məslək uğrunda mən həbsxanada da yatmışam, bilirsiz… və bununla yalnız qürur duyuram. İstəyirəm bunu da biləsiz ki, o vaxt mən Dövlət Təhlükəsizlik Komitəsinə ilk dindirmələrə çağrılanda, tutulmaya da bilərdim... Bu məlum çıxış yolu - tutduğum bu müqəddəs yoldan əl çəkəcəyimi, tövbə edəcəyimi rəsmi izahatla bildirmək və canımı smonrakı işgəncələrdən qurtarmaq idi… Lakin mən buna getmədim. Ona görə getmədim ki, istəyirdim xalqımın - oğurluq, fırıldaq, zor, ölüm üstə tutulub dustaqxanalarda yatmaqdan çəkinməyən oğulları, siyasi məhbusluqdan da beləcə qorxmasın! Xalq nəhayət başa düşsün ki, bu dünyada siyasi mübarizə adında da «cinayət» var və bu cinayətin o birilərindən fərqi budur ki, bu cinayəti törədib məhbəslərdə çürüyənlər, özlərini işıqlı amal uğrunda - xalqın azadlığı və müstəqilliyi yolunda qurban verirlər!
İstəyirəm, bunu da biləsiz ki, mən özümü, keçib gəldiyim həmin o həyatımla, çəkdiyim min bir işgəncə və əzablarımla xoşbəxt sanıram… Bu gün biz artıq müstəqillik yoluna qədəm qoymuşuq, öz taleyimizi özümüz həll etməyə qadirik. Lakin, mən bir incə məsələdə səhv etmişəm. Xalqıma, azadlığa çıxarmağın yollarını arayıb axtararkən, azad olacaq millətimin, müstəqil vətənimin taleyinin etibar ediləcəyi rəhbər haqqında fikirləşməmişəm… - deyilənə görə, bu yerdə prezident susub başını aşağı salmışdı, elə bil deyəcəyi sözə görə utanmışdı… - Mənə inanın… Mən - o prezident mən deyiləm… - deyirlər bu yerdə çəkiliş meydanına səssiz çaxnaşma düşmüşdüsə də, prezident buna məhəl

qoymayıb sözünə davam eləmişdi - Məni bağışlayın… bağışlayın ki, nə həmin o qanlı gecə, nə ondan sonra, nə də müharibə bölgələrində ölmədim… bağışlayın ki, istədiyim dövləti qura bilmədim… buna qadir olmadım… bağışlayın ki…
…Prezidentin bu qısa və kövrək müraciəti deyirlər, hamını - çəkiliş qrupunu da, onların arxasında, əlləri qoynunda dayannan iqtidar nümayəndələrini də kövrəltmişdi… Prezidentin bu çıxışından sonra otağa çökən uzun-uzadı hüznlü sakitliyinə, deyilənə görə, nazirlər də riayət etmiş, incə qəlbli müdafiə naziri üzünü divara çevirib, deyilənə görə, ağlamışdı...
Lakin, deyirdilər, prezidentin bu kövrək çıxışını nə o gün, nə də sonra ölkə əhalisi eşidə bilməmişdi. Çünki, elə həmin gün, prezident çıxışını başa vurub sarsılmış vücudu ilə, ruha bənzəyən arıq, çəkisiz bədəni ilə adamların arasından keçərək yuxarı - öz istirahət otağına qalxandan sonra, çəkiliş yerində hardansa peyda olan təhlükəsizlik nazirliyinin iki əməkdaşı operatorlara yaxınlaşmış və çıxışın kasetlərini zor bəla ilə də olsa, onlardan almışdılar. Təhlükəsizlik əməkdaşlarının bu hərəkətindən hiddətlənən telejurnalistlər iş yerlərinə qayıdıb şirkət rəhbərlərinə şikayət etmişdilərsə də, sədrlərdən aydın bir cavab ala bilməmişdilər…
…Dövlət televiziyası şirkətinin sədri isə, deyilənə görə, hakimiyyətə gələnəcən ölkənin dağ rayonlarında aşıq kimi məşhurlaşmış sənətpərvər bir adam idi. Deyirdilər, onu tez-tez kənd toylarında, sazı sinəsinə basıb vətənə və partiyaya qoşduğu şerlərindən oxuya-oxuya oynayan görürdülər… Oktyabr inqilabına qoşduğu məşhur «Oktyabr» mahnısını oxuyarkən deyirlər, aşıq sazı sinəsinə basıb gözünü yumub: «Oktu… Oktu…» - deyə-deyə əvvəl hamını gözlətdirir, camaat əl çalandan sonra, sözünün dalını gətirə - gətirə: «…yabr qadan allam, yabr qadan allam!.. Uh-hey!..» - deyib, yayın cırhacırı da olsa, qara, meşin uzunboğazlı ayaqlarını, dümbək ağaclarının becid ritmi ilə tərpədə-tərpədə oynayır, bu «uh-hey» siz də heç cür keçinə bilmirdi…
Deyirdilər, sədr parlamentin iclaslarına, dövlət müşavirələrinə və konfranslara da həmin bu uzunboğazlarında, çiyninə aşırdığı sazı ilə gəlirdi. Elə ki, iclaslarda söz vətəndən, ya millətdən düşürdü, şirkətin sədrini heç kim saxlaya bilmirdi… sədr sazı sinəsinə basıb, vətənə qoşduğu kövrək şerlərindən deməyə başlayırdı… belə məqamlar, deyirdilər, bir kimsə sazını onun əlindən ala bilməzdi…. Sədr: «Bu, mənim silahımdı!..» deyib, əzmlə kürsüyə qalxır, sazı sinəsinə basıb,

gözünü yumurdu… İclasa dığ-dığ düşür, bəzilər yerə tüpürüb ayağa qalxır, zalın qapısını çırpıb çıxır, o birilər üç-üç, beş-beş bufetə axışır, qalanları da qəzet oxuyur, yaxud, sədrin poetik çıxışı bitənəcən, başlarını söykənəcəyə atıb mürgüləyirdilər…
Deyirdilər, sədrin bu yanıqlı mahnılarına bircə prezident məmnunluqla qulaq asırdı... Prezidiumun arxa kreslolarından birində tək tənha otura - otura, siqaretin tüstülədə-tüstülədə, gözləri yol çəkə-çəkə qulaq asır, bəzən başını qollarının üstə qoyub elə bil yuxuya getməyə çalışırdı…
…Devrilməkdə olan bu əldəqayırma iqtidar barədə söz-söhbət saatbasaat, mayası qıcqıran xəmir kimi aşıb-daşır, bir ucdan elə hey yeni - yeni «xoruz səsi eşitməyən» xəbərlər dalğası axıb gəlir, xəbərlər artdıqca, camaatın çaşqınlığı da elə bil bir az da artırdı… Axşam düşdükcə, hava qaraldıqca camaatın çaşqınlığı, səbəbini özləri də dərk etmədikləri kütləvi xofla əvəz olunmağa başlayır, bu qapısız - bacasız, yiyəsiz ölkəni bürüməkdə olan acı tənhalıq qoxusu vahiməli, tutqun duman kimi tədricən adamların canına yeriyirdi…
Gecə, küçələrdən əl-ayaq çəkiləndən sonra şəhərə daha qorxunc bir sakitlik - ölüm sükutu çökdü… Hamı evlərə çəkilib, hərə öz qaranlıq otağında, tənha yatağında, gün ərzində şəhəri, dəmə qoyulan xörək kimi xırda-xırda qaynadan söhbətləri - hakimiyyətə öz çiyinlərində gətirdikləri, yaxın günlərədək ümid bağlayıb göz dikdikləri adamların son illər törətdikləri bir - birindən qəribə əməllərini yadına salır və bütün bu xatirələrdən daha pis qorxuya düşürdülər… Bu əcayib insanların belə qısa müddət ərzində, hakimiyyətə cəldikləri cəmi bir ilin ərzində ölkə boyu törətdikləri bu qədər haqq-hesabı saf-çürük eləmək, nəyin doğru, nəyin əyri olduğunu ayırd eləyib ümumi mənzərəni aydınlaşdırmaq, başları, gün ərzində şəhərin dörd bir yanından axıb gələn söz-söhbətlərdən şişən ölkə əhalisi üçün bir o qədər də asan deyildi… Hər şey olduqca qəliz və anlaşılmaz idi… Aydın olan bir o idi ki, ölkənin, əyri - üyrü yolu gedə - gedə qəfildən dərin quyuya düşən maşın təki, düşdüyü bu ağır böhran vəziyyəti, belə məlum olurdu ki, onların, coşqun vətən yanğısıyla küçələrə, meydanlara tökülüşüb, orda yayın istisində, qışın soyuğunda yumruqlarını havaya döyə-döyə tələb etdikləri və qazandıqları həmin bu «azadlıq» deyilən məfhumun nəticəsiydi…
Bu qənaətlərlə əli hər yandan üzülmüş insanları ertəsi günün sübh çağı növbəti möhtəşəm bir xəbər çalxaladı…
Deyilənə görə, bütün hesablamaların, uzaqdan-yaxından alınan irili -

xırdalı məlumatların nəticəsi kimi, ortaya belə bir ehtimal çıxırdı ki, ölkəni, düşdüyü bu çaxalmaz vəziyyətdən çıxara bilməyin yeganə yolu - bir vaxt ölkəyə uzun müddət başçılıq edən və həmin illər ölkəni hər sahıdı, sözün əsil mənasında çiçəkləndirən qəzəbli, qüdrətli Millət Atasının ölkəyə çağırılması idi. Bu qəfil ehtimal, ölkədə baş verən son hadisələrdən sonra hər şeydən çəkinməyə başlayan əhalini sevindirmək əvəzinə, bir az da qorxutdu…. şəhərin bozarmış sakitliyinə qəribə bir qorxu qatıldı…
Qorxunun əsas və başlıca səbəbi - Atanın, idarəçiliyi dövründən yaddaşlara həkk olunmuş təhlükə və qəzəb saçan boz gözləri idi…
Camaat danışırdı ki, burdan - ölkədən gedəndən sonra uzun illər paytaxtdan neçə yüz kilometr aralıda, anadan olduğu kəndində təvazökar kəndli həyatı sürən, uzaqdan - uzağa ölkədə baş verən hadisələrdən xəbər tutan bu ahıl yaşlı, təcrübəli dövlət məmuru, faciələr burulğanına düşmüş «qədirbilən xalqının» çağırışını gözləyə - gözləyə, onu qoyub, dünənin uşaq-muşağını «vurreylə» hakimiyyətə gətirməklərini onlara heç cür bağışlanmayacaq…
- …Ata belə şeyləri bağışlamır… - hamı hüznlü üzlərlə deyirdi…
Bəziləri də deyirdilər ki, xalqın burda nə təqsiri var axı?!.. Millət Atası bunu da yəqin ki, gözəl bilir ki, tarix boyu heç bir dövrdə, heç bir məmləkətdə xalq heç bir şeyə həll eləməyib…
…Deyirdilər, Millət Atasının ölkədə gedən bütün gizli və aşkar hadisələrdən, xüsusən son ilin «möcüzələrindən», bütün incəliklərinəcən xəbəri vardı... Deyilənə görə, bütün bu «tamaşalara» o, günəşli paytaxtdan çox-çox uzaqlarda - başı qarlı dağların ətəyində yerləşən balaca, yaşıl kəndindəki təmirsiz evində - yırğalanan kreslosunda oturub çay içə - içə, asta-asta yırğalana-yırğalana baxıbmış… Odu ki, deyirdilər, o, nəinki ölkədə gedən hadisələrin gedişatından, hər bir adamın qarnının içindəkilərdən, qəlbinin «dəruni guşələrində» tutduğu mövqeyindən belə xəbərdardı. Onunla son vaxtlar görüşənlər danışırdılar ki, onun əfsanəvi duyma qabiliyyəti, analitik düşüncəsi, boz gözlərinin sehri olduğu kimi qalmışdı… hələ elə bil bir az da artmışdı… Onunla üzbəüz oturmağa müvəffəq olanlar yenə əvvəlki qaydada, uzaq illərdə olduğu kimi, harda olduqlarını, kimliyini unudub, bütün vücudlarıyla onun baxışlarına tabe olmuşdular…
-…Ən qorxulusu da elə budu… - camaat deyirdi - Onun ölkəyə qayıdışı bizlərə elə-belə, havayı başa gəlməyəcəkdi…

Odu ki, uşaqdan böyüyə hamı bir nəfər kimi, son dövrlər etdiyi bütün hərəkətləri, atdıqları addımları, dedikləri sözləri bircə-bircə yadlarına salır, götür-qoy edib özü - özlərindən xoflanır, bundan bir az da qorxuya düşüb həyəcanlanırdılar…
Bəziləri isə ümumiyyətlə, Millət Atasının, olsun ki, hardansa, hansı deşikdənsə gizlicə onlara qulaq asdığından ehtiyat edib dil boğaza qoymadan, onun bir vaxt ölkədə gördüyü böyük işlərdən -fenomenal yaddaşından, hər şeyi əvvəlcədən duymaq qabiliyyətndən danışır, vətəni üçün gördüyü əvəzsiz işlərini gah «Azadlıq» partiyasının ütük komandasının biabırçı əməlləri ilə, gah da onlardan əvvəlki acgöz prezidentlərin vecsiz idarəsi ilə müqayisə edir, bundan izaholunmaz bir rahatlıq tapırdılar…
-…Biz, dərisi soyulan millət olduğumuzu kitablarda oxumuşduq, amma daha bunu öz gözlərimizlə gördük... Qoy gəlib bizim dərimizi soysun, «azadlıq» deyən dilimizi kəssin. Ən gözəl günlərimizi, sən demə, o kişinin vaxtında yaşamışıq. Hər şey bir yana, evimizdə rahat yatıb-dururduq. Bilirdik ki, dövlət var, evimizin, canımızın keşiyini çəkən qanunlar var. Gəlsin, yiyəsiz millətinə yiyə dursun.
- …Bunu daha uşaqdan-böyüyə hamı başa düşdü ki, bu başsız, köməksiz, əlindən bir iş gəlməyən yazıq millətin yiyəsi bircə Odur. Bu Böyük Yer kürəsinin bircə Allahı olduğu kimi, bu məmləkətin də bir Allahı Odur. O kişi zülümkardısa da, əmmələri göz qabağındadı. Evlər, imarətlər ucaltdı, yaşıllıqlar saldı, şəhərlərə su çəkdirdi, körpülər tikdirdi, yollar saldırdı, nəhəng zavodlar açdı…
-…İlk dəfə, ana dilimizi o, dövlət dili elan elədi… - ziyalılar xatırlayırdı.
-…O birilər neylədi?!.. - camaat Millət Atasından sonra hakimiyyətə gələnləri xatırlayırdı - …Allaha şükür, ondan sonra gələn prezidentləri də gördük… Ağ gül, qırmızı gül, bir də sarı gül…
-…Millət Atasından sonra gələn balığa oxşayırdı... Sarı, donba gözləri ilə daş-divara baxa-baxa, ağzını balıq ağzı kimi güclə açıb-bağlaya - bağlaya elə bil söz yox, bomboş hava qabarcıqları buraxırdı… onun dövründə ölkə həyatı - sürətlə getdiyi yerdə, qəfildən yolun yarısında mühərriki sönüb, asta - asta üzüaşağı sürüşən köhnə maşina bənzəməyə başlamışdı… getdikcə də hər şeyin elə bil gücü azalırdı, heyi tükənirdi… o dövrlər ölkənin özü də durğun gölə, camaat da, ağızlarından qabarcıq buraxan balıqlara oxşayırdı…
-…O birisininsə nazlı işvələrindən adamın əti tökülürdü... Çənəsinin

yumru çuxuru ilə, bir də danışdığı rəvan rus nitqi ilə fəxr eləməkdən savayı, onun da əlindən bir iş gəlmədi... deyirlər, guya balet məktəbində də oxumuşdu, odu ki, hərəkətləri balerun hərəkətlərini xatırladırdı…
-…Bu birisi ağ dəli idi… Kişi, iraq olsun, elə bil ipləməydi… Gecə-gündüz, dalınca qaçırlar kimi, tələsə-tələsə, göz vurub az qala dombalaq aşa-aşa, qaça-qaça, yarırus, yarıazərbaycan sözlərinin axırlarını yeyə-yeyə havaya tullayır, dediklərindən deyəsən özü də baş açmırdı…
-…Axırıncısı da ki, - millət aşiqi, axır - axıra lap qan elədi… «millət» deyə-deyə milləti qara günə qoydu...
Deyirdilər, Millət Atasını paytaxta gətirmək üçün, dünəndən bəri dörd nümayəndə heyəti paytaxtdan uzaq şəhərə yollanmışdı. Elçilərin bir hissəsi təyyarə ilə, o biri hissəsi maşınla getmişdilər. Adlı-sanlı sənət adamlarından, qocaman akademik və hərbçilərdən ibarət nümayəndə heyətləri, deyilənə görə, heç cür onu, paytaxta qayıtmaq üçün yola gətirə bilməmişdilər.
-…Bu o demək idi ki… - camaat deyirdi - kişi xalqından üz döndərib…
Tele - kanallar səhər açılandan bəri ölkədə yaranan ağır böhran vəziyyətin aradan qaldırılması üçün, Millət Atasının paytaxta təcili çağırışı ilə bağlı müxtəlif idarə kollektivlərinin çıxışları yayımlanır, ayrı-ayrı görkəmli ictimayi xadimlərin həyəcanlı teleqramları oxunurdu…
Bəziləri deyirdilər ki, Millət Atası qəsdən paytaxta gəlmir ki, qoy əvvəl xalq özü-özünə, öz elədikləri əməllərinə yaxşı-yaxşı qiymət versin, toxuduğu bu eybəcər düyünü açа bilirsə, özü açsın…
Bəziləri də deyirdi ki, işdən çıxdığı dövrlər doğma xalqının soyuq münasibətini gör Millət Atası bu xalqdan ümumiyyətlə birdəfəlik iyrənib... və onu gözləməyin mənası yoxdu…
O birilərsə deyirdi ki, bu balaca, qarmaqarışıq məmləkətə gəlib hər şeyi bir də yenidən qurmaq, yaşı ötmüş, səhhəti zəifləmiş Millət Atasının nəyinə gərəkdi axı?!..
Atanın ölkəyə fövqəladə gəlişi ilə bağlı söz-söhbət getdikcə çoxalır, televiziyanın xəbərlər bülleteni axşama yaxın bir saatdan bir müharibə bölgələrində ağırlaşan vəziyyətdən, son kiloqramları işlənib qurtarmaq üzrə olan taxıl ehtiyatından, yanacağın çatışmamazlığı üzündən, yolların kənarlarına, daoğanın sahilə atdığı ölü balıqlar kimi yığılan maşın hərəkətsizliyindən, hərəkəti həmin səbəbdən dayandırılan dəmiryolu nəqliyyatının çətinliklərindən xəbər verir, siyasi icmalçılar, hüquqşünaslar, ölkədə yaranan ağır siyasi-iqtisadi-sosial vəziyyətin

çıxılmazlıqlarından, keçmiş iqtidarın törətdiyi əməllərin ağır nəticələrindən danışır, şəhəri çüğlayan narahat gərginliyi bir az da artırırdılar…
-…Son illər ərzində işğal olunmuş torpaqlardan ayağıyalın, başıaçıq qaçıb gələn qaçqınlarımız neçə vaxtdan bəri yaşadıqları natəmiz, antigigiyenik şəraitdən qazandıqları yoluxucu xəstəlikləri ölkə əhalisi arasında yaydılar… epidemiyalarla mübarizə aparmağa, qonşu dövlətlərdən, yaxud xarici ölkələrdən dərman ləvazimatı gətizdirməyə, nə xəstəxanaların, nə də səhiyyə nazirliyinin imkanı yoxdur. Belə gedərsə, yaxın aylar ərzində ölkə əhalisinin sağlamlıq durumu ciddi təhlükəyə məruz qalacaq…
-…Torpaqların dörddə bir hissəsi əldən gedib… təbii ehtiyatlar dəyər-dəyməzinə qonşu ölkələrə satılıb… bölgələrdə quldurluq və basqınlar qeydə alınır… kənd təsərrüfatı bərbad vəziyyətdədir…. Ümumölkə aclığı gözlənilir… Şəhər əhalisini təmin edəcək çörək istehsalına cəmi iki günlük un ehtiyatı qalır…
-…Ölkənin bir sıra bölgələrində əhali arasında silahlı toqquşmalar baş verir… ölənlər və yaralananlar var…
- …Ölkə parçalanmaq təhlükəsi altındadır!.. Uzun illər
- çiyin - çiyinə bir xalq kimi yaşayan azsaylı xalqlar arasında, düşmən hiyləsiylə siyasi çaxnaşmalar qeydə alınır…
- …İndi, ölkənin bu vəziyyətində əgər Millət Atası Allah eləməmiş, ölkəyə qayıtmaqdan imtina etsə, yaxın bir neçə gün ərzində paytaxta gəlib ölkəni bu bərbad vəziyyətdən çıxarmağa razılıq verməsə, onların halı necə olacaq?.. Dəqiqəbədəqiqə bulanıq göl kimi harasa çökən bu məmləkətin, bu binəva xalqın taleyinə kim yiyə duracaq?!.. - hamı sarsıntı içində danışırdı…
…Yalnız o biri gün, axşama yaxın respublika televiziyası ilə xəbər verildi ki, Millət Atası uzun-uzadı söhbətlərdən sonra paytaxta qayıtmağa axır ki, razılıq verib... Deyilənə görə, ehtimal var ki, o, sabah, günortadan sonra təyyarə ilə hava limanına düşəcək…
Bu xəbərdən sonra camaat elə bil azacıq da olsa toxtadı, iki gündən bəri şəhəri qaynadan söz-söhbətlər də elə bil səngidi... ya da ola bilsin, camaat özü yoruldu…

* * *

…Səhəri gün şəhər bir-birinə dəymişdi… Hər yerdə Atanı qarşılamaq üçün hazırlıq işləri gedirdi...
Təcili surətdə Atanın rəngli portretləri çəkilir, foto-şəkilləri böyüdülür, iri, ağ ipək parçalarında: «Var olsun!» «Yaşasın!» şüarları yazılır, küçələrə, yollara milli bayraqlar vurulur, bayram işıqları çəkilirdi…
…Günortaya yaxın şəhərdən uzaq hava limanı, deyilənə görə, adam dənizi ilə aşıb daşırdı… Bir yanda - Atanın ayağı altında kəsiləcək qoyunlar sıraya düzülmüşdü, bu biri tərəfdə - uçuş xəttinin yaxınlığında, əlləri gül-çiçəklə, transporantlar və portretlərlə dolu camaat dayanmışdı…
Transporantlarda Atanın şərəfinə yazıln: «Yaşasın Millət Atası!», «Gəl ey xilaskarımız!», «Sən gələn yollara qurban olaq!..» - sözlərini oxuyanda, deyirdilər çoxlarının boğazını qəhər tutmuşdu…
Deyirlər, axşama yaxın hava limanına axışan adamların sayı birdən-birə birə-on artmışdı, aeroportun ikimərtəbəli binası ağzınacan adamla dolmuş, o biri girişlər bağlandığından, gələnlərin çox hissəsi liman yolunu tutub dayanmışdı…
…Deyirdilər, Atanın uçduğu təyyarənin limanın üzərində görünməyi ilə, camaatın çığırışıb bir-birinə qarışmağı bir olmuşdu…
…Təyyarə bir müddət ağır ləngərlər vura-vura limanın üstü ilə hərlənib sonra tədricən yerə enmişdi. Deyirlər, hamı təyyarəyə əl çalır, səsləri gəldikcə «Var ol!» - deyib qışqırır, özləri ilə gətirdikləri al əlvan fişəngləri göyə buraxırdılar...
Təyyarə yerə enəndən sonra bir müddət də uçuş xətti ilə hərlənib axır ki, dayanıbmış… bir müddətdən sonra təyyarənin qapıları açılıbmış və qapıda Atanın nəhəng, zəhmli cüssəsi, yorğunluq və qəzəb dolu gözlərinin görünməyi ilə, əlvan fişənglərin havadaca sönməyi bir olmuş, camaatın qışqırığı səngiyibmiş…
Ata bir müddət təyyarənin açıq qapısında, arxasından çevik-çevik o yan-bu yana boylanan mühafizəçilərin qarşısını kürəyi ilə kəsərək dayanıb durmuş, sonra təyyarədən bir qədər aralıda, əllərindəki gül dəstələrini, transporantları və onun portretlərini yellədən camaata nəzər salmış, sonra, əvvəllər elədiyi kimi, gülümsəyib əl eləmədən, başını qaldırıb nədənsə göy baxıbmış…
-…Kişi elə bil şəhərin göyü üçün darıxmışdı…
Deyirlər, Ata həmin o qəzəbli üzü ilə, boz gözləri ilə bir müddət beləcə göyə - göyün üzünü neçə gündən bəri tutan boz buludlara baxıbmış…

Deyirdilər, Atanın bu baxışından hava limanına vahiməli bir sükut çökübmüş…
Camaat and içirdi ki, çox keçməmiş, göyün üzünü neçə gündən bəri zəbt edən acıqlı buludlar elə bil Atanın bu qəzəbli baxışlarına davam gətirməyib əfsanəvi qala qapıları kimi aralanıbmış, axşam günəşinin zəif şəfəqləri limana elə bil rahat bir istilik gətiribmiş…
Sonra, deyirdilər, Ata tələsmədən, bir növ həvəssiz, ağır addımlarla təyyarənin pillələrini enmiş, uçuş xəttinin önündə xalılarla bəzədilmiş kürsünün arxasına keçərək, həmin o qəzəbli gözləriylə bir müddət də ordan camaata baxmışdı…
-…Onun o vahiməli baxışlarına davam gətirmək çətin idi… - camaat deyirdi - …baxdıqca, elə bil hamımız özümüzdən xəbərsiz, ayağımızın altından yer qaça -qaça ona tərəf gedirdik… Bizi elə bil yerin özü ona sarı çəkib aparırdı…
Deyirlər, Ata bir müddət beləcə, dinməz-söyləməz camaata baxandan sonra, üzünü mikrofona yaxınlaşdırıb sakit səslə:
- Yaşasın azadlıq!.. - deyibmiş...
Deyirlər, onun bu sözündən camaat çaşıb donuxmuş, sonra nəfəslərini dərib qəribə bir nagümanlıqla:
- Yaşasın... - deyərək qışqırışmışdılar...

II FƏSİL

…Şəhərin tanınmış psixiatoru, professor N.Veyisov həmişəki kimi, bu gün də yuxudan, dan yeri sökülməmiş, havasızlıqdan qulaqları uğuldaya-uğuldaya ayıldı.
Əvvəl bir müddət, yerinin içində vurnuxa-vurnuxa, bu gecəki yuxusunu yadına salmağa çalışdı və tam da olmasa, bəzi məqamları xatırladı…
Bu gecə professor, yenə yuxunun ən ürəkdağıdan yerindən – özünü zorla yetirdiyi qapılarının ağzından, bir qulağı qaranlıq blokun aşağı mərtəbələrindən eşidilən hənirtiyə kəsildiyi an oyanmışdı…
…Professor, hər gecə bir-birindən maraqlı, maraqlı olduğu qədər də, qorxulu yuxular görürdü. Hər dəfə də, dənizin qaranlıq dibindən təkan alıb suyun üzünə çıxan kimi, özünü, yuxunun ən çıxılmaz yerindən, havasız döngəsindən çəkib çıxarmağa, bir növ adət eləmişdi.
Yuxularının istədtyi yerindən ustalıqla silkinib çıxmağı da, professor, son

bir neçə ayı, elə yuxunun içindəcə öyrənmişdi. Bu yuxu sıçrayışları professor üçün o qədər asanlaşmışdı ki, o, ən qorxulu məqamlarda belə, özünü itirmədən, tələsmədən, bədəninə sulu sarmaşıq kimi sarılan, ilanabənzər canlıları boyun-boğazından ehmalca qoparıb, tədqiqat üçün çantasına yığmaqdan, yaxud, gecənin bir aləmi, hansı möcüzə iləsə peyda olduğu kimsəsiz, küləkli səhralarda, vahimədən bağrı yarıla-yarıla çığırmaq əvəzinə, çömələb sakitcə oturmaqdan, qəribə bir səbrlə, buralara necə, hardan, hansı yollarla gəlib çıxdığını yadına salmaqdan, ya da, evinə necəsə daxil olub, pərdələrin, şkafların arxasıyla qorxunc-qorxunc sürünən oğruyla söhbətə girişməkdən, onu, evində köhnə mebeldən, tozlu kitablarından savayı heç nəyi olmadığına inandırıb, peşman oğrunu, qapıdan yola salmaqdan zövq almağa da başlamışdı. Bəzi hallarda isə – yuxunu istədiyi səmtə yönəldə bilməyəndə, yuxunun qorxunc məngənəsi, professorun əl-qolunu bağlayıb, bədəninə soyuq vahimə cərəyanı yeridəndə, professor, nəfəsini içinə yığıb saxlamağa məcbur olurdu, vahimədən ürəyi partlayanacan, ürəyinin döyüntüsü zəifləyib nəhayət susanacan səbrlə gözləyirdi, sonra bədəninin min bir həyat eşqli toxumalarıyla, tapançadan açılan qəfil güllə kimi yuxudan sıçrayırdı…

Belə yuxulardan sonra, ala-bula xırdaçılıqlarından bezib zinhara gəldiyi yeknəsəq həyatı, elə bil təzələnir, hər şeyin rəngi, dadı dəyişilir, sirli mənalar kəsb etməyə başlayırdı… Odu ki, bu yuxularını görməyəndə, professor onların həsrətini çəkir, kimsəsiz yuxu səhraları üçün, qorxulu, tapmaca kölgələr üçün uşaq kimi darıxırdı.

Əvvəli- axırı, qapısı- ünvanı olmayan bu sirli aləmə, yenə və yenə daxil olmaqdan ötrü, professor, yatmazdan əvvəl ciddi hazırlıq işləri aparırdı. Otağına çəkilib orda, köhnə vallarını işə salır, Motsartın, ecazkar sədaları altında, öz zəngin kitabxanasında saatlarla eşələnir, orda, mistikaya, yuxulara və ruhlara, dünyada, nə vaxtsa baş vermiş cürbəcür əcaib, sirli möcüzələrə açan qədim kitabları, əlyazmaları tapıb çıxarır, onları, işığı söndürüb yerində uzanandan sonra, stolüstü lampanın zəif işığında, susuz adam su içən kimi, birnəfəsə oxuyur, eləcə oxuya-oxuya da, kitab sinəsində, eynəyi burnunda, sirli yollarla, qaranlıq cığırlarla, asta-asta yuxularına qərq olurdu…

Hər gecə, maraqdan az qala nəfəsi tutula-tutula, səylə apardığı bu hazırlıq işləri, hər dəfə professorun gözlədiyi bəhrəni vermirdi. Məsələn, bir neçə ay bundan əvvəl, yuxuya getməzdən, ötən əsrin axırlarında,

Rusiyanın uzaq Saxalin dustaqxanasından, ətli-canlı dustaqları, «azadlıq» fitvası ilə yoldan çıxarıb, özü ilə qarlı Tayqa meşələri boyu, guya evlərinə yola salan və zavallıları, elə oradaca, sıx ağaclıqların arasında, çovğunun uğultusu altında diri-diri yeyib, geriyə qayıdan Qubar adlı adamyeyən haqqında oxuyandan sonra və kitabın saralıb qurumuş səhifələrinin birində, bütün səhifə ölçüsündə, adamyeyən olduğu bilinsin deyə, başının tən yarısı qırxılmış, öküzəbənzər casusun vahiməli şəklinə uzun-uzadı baxdıqdan sonra, professor yuxuda, nəyə görəsə, bir neçə il bundan əvvəl dünyasını dəyişmiş balaca qarısını görmüşdü…
Qarısı mətbəxdə oturub, dinməz-söyləməz, iki əli ilə xırçahxırçla başını qaşıyırdı, sonra, seyrək saçlarının arasından tapıb çıxartdığı rəngbərəng bitləri stolun üstünə buraxıb, başmağının tayı ilə bir-bir öldürürdü…
…O yuxudan sonra, professor bir müddət özünə gələ bilməmişdi. Gecələrlə, tənha evinin dəhlizindən, qaranlıq mətbəxdən ara-sıra eşidilən hənirtilərdən vahimələnib, səhəri diri gözü ilə açа-açа, bütün bunların, elə bil, yuxu olmadığından, bu sayaq gerçək yuxuların cəngindən, öz usta fəndləri ilə belə, qurtara bilməyəcəyindən şübhələnə-şübhələnə, tənha yorğan-döşəyində titrədə-titrədə qalmışdı.
O xəstəhal gecələrdən sonra, professor bir müddət «yuxu hazırlıqlarına» son qoymuşdu. Bir müddət axşamlarını, sirli əlyazmalara sarı baxmadan, meynəli eyvanında, min bir rəngli cücülərin arasında keçirə-keçirə, bu axmaq adətinə görə özünü dönə-dönə danlamışdısa da, bir neçə gündən sonra, bütün qırışları və çatları ilə ürəyini bulandıran yeknəsəq həyatı, həmin bu min bir rəngli cücülərlə bərabər, onu əvvəlki qaydada darıxdırmağa başlamışdı və professor özünü, bu sevimli gecə əməliyyatlarını davam etdirməkdən heç cür saxlaya bilməyəcəyini anlamışdı. Son vaxtların gecə məşğələləri isə professoru yuxularında daha əcaib yerlərə aparıb çıxarmağa başlamışdı…
…Bir dəfə professor, yeri-göyü, ağacları ağlasığmaz rənglərə çalan qəribə bir yerdə peyda olub, uzun müddət bu qırmızımtıl işıqlı məmləkətdə tək-tənha gəzmiş, bu naməlum məkanın ağaclarından asılan diri adamlarla söhbətə girişmişdi…
…Bir dəfə də, hardasa, bomboz, fırtınalı dənizin sahilində peyda olmuş, sahildən nəhəng boz gəmiyə, iri-iri yeşiklərdə daşınan diri adamların iniltililərini, öz qulaqları ilə eşitmişdi… Onda professor, bu daşınmaya rəhbərlik edən irigövdəli, nəhəng adamabənzər məxluqa yaxınlaşıb, məsələnin mahiyyətini öyrənməyə heç cür ürək edə bilməmişdi,

qayaların arxasında gizlənib, külək, pal-paltarını əynindən soyub çıxara-çıxara, sahilin qumu, ağız-burnuna dola-dola, bu vahiməli, sirli mənzərəni müşahidə etməklə kifayətlənmişdi…
Bu yaxınlarda isə…
…Hər dəfə professor bu yuxusunu yadına salanda, ürəyi pis-pis bulanırdı.
O, yuxudan qabaq nə oxuduğunu professor heç cür yadına sala bilmirdi, amma yuxusu dəqiq yadındaydı.
Bu yaxınlarda, yuxuda, professor kimisə səylə təqib edirdi… Gah qan-tər içində çardağa qalxıb, hərifi ordan güdürdü, gah maşınların altına girib həyəcandan boğula-boğula nəyisə, kimisə gözləyirdi, gah da dizləri əsə-əsə, tanımadığı adamlarla kimin barədə isə gizli məlumatlar toplayırdı…
İşin qəribəsi bu idi ki, professorun, yuxuda inadla təqib etdiyi bu adam özü də, elə bil kimisə təqib edirdi, dəhlizlərdən oğrun-oğrun adlayıb qapıların arxasında gizlənirdi, tinlərdə ayaq saxlayıb, professora məhəl qoymadan, qanrıla-qanrıla kimisə güdürdü…
…Professor, qətiyyən tanımadığı bu adamı hansı səbəbdən təqib etdiyini, elə bil yuxuda bilirdi və nəyə görəsə, bu adamın gözünə çarpmaqdan dəhşətli qorxurdu.
…O gecə, professor bütün məharətini işə salıb, yuxunun ən gərgin məqamından, ən ürəküzən yerindən, bir təhər, zorla sivişib çıxa bilmişdi.
Professorun o gecə, xəbis bir inadla güddüyü həmin o boz gödəkçəli adam, İstiqlaliyyət küçəsindəki Elmlər Akademiyasının binasına daxil olarkən, gözlənilmədən ayaq saxlayıb geriyə çönmüş və… üzbəüz səkinin tinində gizlənmiş professoru axır ki, görmüşdü…
O gecə yuxudan tıxac kimi sıçrayıb ayılandan sonra, professor, heç cür həmin boz gödəkçəli adamın üzünün vahiməsindən xilas ola bilməmişdi… Bir müddət qorxudan qulaqları uğuldaya-uğuldaya yerinin içində vurnuxmuş, sonra ayağa qalxıb balaca evinin bütün işıqlarını yandırmışdısa da, qorxunun cəngindən xilas ola bilməmişdi. Onda professor məcbur olub pəncərələri taybatay açmışdı, səhərin gözü açılanacan, balaca evinin ölüm sakitliyini, küçə hənirtiləri ilə dağıtmaqla məşğul olmuşdu.
…O əlamətdar gecədən sonra isə, məsələlər bir ayrı cür qəlizləşmişdi. O gecədən sonra, yuxularında, professorun özünü təqib eləməyə başlamışdılar. Təqib edən isə, professorun, bir gecə əvvəl yuxuda gördüyü həmin o boz gödəkçəli adam idi…

* * *

…Yuxu ondan başlamışdı ki, professor həmin bu adamla, klinikanın qarşısındakı tramvay dayanacağında, tamamilə təsadüfən rastlaşmışdı. Professorun ürəyi, bu xoşagəlməz görüşdən pis-pis bulanmışdısa da, özünü o yerə qoymamışdı. Heç bir şey olmamış kimi, tramvaya minib qabaq oturacaqların birində oturmuşdu. Bütün yolu, geriyə çönmədən, boz gödəkçəli adamın hardasa arxada dayanıb, adamların arasından, düz onun boynunun ardına baxdığını hiss edə-edə getmişdi…
Tramvayın axırıncı dayanacağında düşüb, kimsəsiz, qaranlıq küçələrlə addımladıqca, qorxunc kölgə kimi arxasınca sürünən bu adamın təqibindən, vahimələnib, özünü, nəfəsi kəsilə-kəsilə, qaranlıq həyətlərinə salmış, orda – evlərin arasındakı sıx ağaclıqda gizlənmişdi. Bir müddət qaranlıq ağaclıqda, qorxudan ürəyi sıxıla-sıxıla dayanıb gözləmiş, ətrafın sakitliyindən arxayın olduqdan sonra sivişib özünü, bloka salmışdı. Orda pillələri üç-üç qalxıb, qapının ağzında, həyəcandan əl-ayağı əsə-əsə, açarlarını axtarmışdı… Açarlar heç cür tapılmadıqda isə, professor, həmişəki üsuluna əl atmış, özünü toplayıb, nəfəsini saxlamış, yalnız ürəyi dayandıqdan sonra, yuxudan sıçramışdı...
İndi, o gecədən bu yana, professor düz iki həftə idi, hər axşam eyni yuxunu görməyə başlamışdı. Hər gecə yuxuda ürəyi ağzına gələ-gələ, bu naməlum adamın təqibindən canını qurtarmaqla məşğul olur və yuxunun eyni yerindən, ən gərgin anından – qapılarının ağzına çatdığı yerdən, az qala partlayan ürəyinin, kəsilən nəfəsinin hesabına sivişib çıxırdı. Sonra bir müddət, heç cür yerinə oturmayan xəstə ürəyi ilə əlləşir, səhər açılanacan, yataq otağıyla mətbəx arasında vurnuxa-vurnuxa qalırdı.
Ən qorxulusu isə bu idi ki, – professor, o biri böyrü üstə çönüb fikirləşdi – …bu yuxuların məzmununda da, qəribə, anlaşılmaz dəyişikliklər getməyə başlamışdı. Son günlər, professor, yuxularında, havanın temperaturunu, ağacların ətrini, becid yerişindən tərləyən bədəninin qoxusunu, ayağının altında əzilən torpağ xışıltısını hiss etməyə, ən xırda, əhəmiyyətsiz detalları belə, sezməyə başlamışdı.
Məsələn, dünənki yuxusunda, o, hansı möcüzəyləsə, boz gödəkçəli oğlanın üzündəki çapığı, qaranlıq küçələrlə qaçarkən, ayağının altında qalıb, onu büdrədən düyməyəbənzər dəyirmi dəmir qırığını, həyətlərinə

dönərkən, qonşu həyətdən oğrun-oğrun çıxan iki adam kölgəsini bütün dəqiqliyi ilə görmüşdü, həyətin sıx ağaclığında, nəfəsi kəsilə-kəsilə dayandığı yerdə, hansı mərtəbədəsə, kiminsə evində yanan ət qovurmasının iyindən ürəyi bulanmışdı. Yuxusuzluqdaq gicişən gözləri gizildəyə-gizildəyə fikirləşdi ki, yuxuları, gün-gündən, hansısa naməlum qanunauyğunluqla dəyişə-dəyişə, yetişə-yetişə, nizamlı bir ardıcıllıqla, onunla nə isə eləməklə məşğuldu.
Yuxuların məzmunu dəyişdikcə, gün-gündən dəqiqləşib təfərrüatlandıqca, professor, səhhətinin korlandığını, onsuz da xəstə ürəyinin, olan-qalan qüvvəsini itirdiyini anlayırdı.
Bu müəmmalı yuxuları görməyə başlayandan bəri, professor gecə məşğələlərinə birdəfəlik son qoymağı qərara almışdı. Motsartın valını, qonşular görməsin deyə, qəzetə büküb, hələ bir həftə bundan əvvəl, gecəylə, həyətlərindəki zibil yeşiyinə atmış, valları, üst mərtəbədə yaşayan kasıb qonşusuna bağışlamışdı. Qədim əlyazmaları zənbilə yığıb, dəhlizin divar şkafında, gözdən-könüldən uzaq bir yerdə gizlətmişdi. Sağlam yuxular görməkdən ötrü, son günlər özünü, hər axşam havada gəzməyə, televizorda, yalnız əyləncəli verilişlərə baxmağa, yatmazdan əvvəl qatıq içməyə məcbur edirdisə də, bütün bu təbdirlər bir o qədər də kara gəlmirdi… İnadkar yuxuları professoru, hələ işığı keçirib yatağına girməzdən əvvəl, televizorla üzbəüz oturduğu kreslosundaca yaxalayırdı, ilıq duman kimi əl-ayağını sarılır, gözəgörünməz şırmaqlarla çəkib ağuşuna salır, özü ilə aparırdı…
…Bu gecəki yuxudan isə, professor, demək olar ki, ürəyini tam dayandırandan sonra, gözləri, yuxudaca qaralıb huşu itəndən sonra ayılmışdı.
Bu gecəki yuxusu, professorun iş otağından başlamışdı. Həmin o boz gödəkçəlini, professor öz iş otağında oturduğu yerdə, qəbuluna gələn xəstə ilə söhbət əsnasında, otağın dəhlizə açılan qapısının arasından görmüşdü. Professor onu, həmişəki kimi, təptəzə, sumağı ayaqqabılarından, bir də, dama-dama, boz gödəkçəsindən tanımışdı. Yuxuda, otağının qapısı həmişəki kimi, özü-özünə aralanmış, yarıaçıq qapıdan, dəhlizdə kiminləsə, onun barədə asta-asta danışan, danışa-danışa, ehtiyatla yan-yörəsinə baxan boz gödəkçəli adamın kürəyi görünmüşdü… Xəstəsini yerində qoyub, ehtiyatla dəhlizə çıxmışdısa da, onu orda tapa bilməmişdi. O adamı, professor, bir də işdən çıxanda, xəstəxananın qarşısındakı tramvay dayanacağında görmüşdü. Bir

müddət yağış çətirini döyəcləyə-döyəcləyə tramvayı gözləmişdi, tramvay dayanacağa çatıb dayananda isə, professor, qorxudan döyünən sol gözünün ucuyla, boz gödəkçəlinin, tramvayın arxa qapısından içəri girib adamlara qarışdığını, yol boyu, əsəbi sərnişinlərin arasından, qırpım-qırpım görünən boz gödəkçəsini müşahidə etmişdi. Tramvaydan düşəndən sonra isə, professor, son yuxuların qanunu ilə, arxasınca kölgə kimi sürünən naməlum cənabı, uzun müddət, evinin yan-yörəsindəki qaranlıq dalanlarda, ağaclıqlarda azdırmaqla məşğul olmuşdu… Yalnız qapılarına çatanda, nəfəsini bilərəkdən saxlayıb ürəyini dayandırandan sonra, boğulub havasızlıqdan çabalayan toxumlarının hesabına yuxudan ayılmışdı.
Keçən həftədən bu yana gördüyü bu eyni məzmunlu, eyni mənzərəli yuxularını yadına saldıqca, incə bir məqam professorun fikrini cəlb etməyə bilmirdi. Bu da, yuxuların sonunda, yuxudan-yuxuya ləngiyən, ağırlaşan, professorun əl-ayağına, yapışqan bataqlıq kimi sarılıb, onu harasa geriyə, dərinə çəkən ayılma məqamı idi…
Qəribəydi ki, əvvəlkilərdən fərqli olaraq, son yuxularında, professorun peşəkar «sıçrayış» fəndləri niyəsə kara gəlmir, yuxunun sonunda, tövşüyə-tövşüyə çatdığı qapısının ağzında, əvvəlkilərdən daha çox ləngiyir, ayılandan sonra isə, yuxudan sıçramaq üçün sıxıb saxladığı ürəyini zorla hərəkətə gətirirdi.
Bu gecəki yuxuda isə, qapılarına çatıb həyəcandan əl-ayağı əsə-əsə, vahimədən bağrı yarıla-yarıla açar üçün ciblərini gəzəndə, professor, aşağı mərtəbələrdən, çəkmə taqqıltıları eşidilmişdi…
…Bu o demək idi ki… – professor fikirləşirdi – …bu, yenə o demək idi ki, yuxuları, gecədən-gecəyə hansı qanunauyğunluqlasa dəyişir, ha yanasa yön alır…
Fikirləşdi ki, bu yuxuların birində, o qorxunc adam axır ki, özünü ona yetirəcəkdi, ağız-burnunu bağlayıb, onsuz da dayanmaq üzrə olan xəstə ürəyini, birdəfəlik susduracaqdı.
Bu fikirdən, professor ürək döyüntülərinin sürətləndiyini hiss etdi və fikirləşdi ki, təcili surətdə, bütün iradəsini toplayıb, o adama yaxınlaşmalıdı, peşəkar yanaşma üsullarından işə salıb, bir neçə gün bundan əvvəlki yuxuda güdükçülüklə məşğul olduğuna görə, ondan üzr istəməlidi, onu, bu təqibin, tamamilə təsadüfi, səbəbsiz, şüursuz bir hərəkət olduğuna inandırmalı və bu inadkar yuxuların tilsimini qırmalıdı.
Əslinə qalsa, professor, bu gecəki yuxusunda buna cəhd eləmişdi də.

Amma oğlanın, dəhlizin aşağı başından eşidilən sehrli pıçıltısının xofundan yerində donub qalmış, heç cür otağından çıxa bilməmişdi.
Yenə iş gününün axırına yaxın, taqətsiz halda küçəyə çıxıb xəstəxanayla üzbəüzdəki dayanacağa yollanmış və səhərəcən bu inadkar cavanı qaranlıq dalanlarda, sıx ağaclıqlarda azdırmağa məşğul olmuşdu.
…Ayağa qalxıb xalatını geyindi. Nəbzi, getdikcə uzaqlaşan qatarın səsi kimi zəifləyib itirdi. Yorğanı çiyninə salıb eyvana çıxdı. Bir müddət, sübhün şehli havasını ciyərlərinə çəkə-çəkə, eyvan boyu var-gəl elədi. Sonra, alnını eyvanın şüşəli qapısına söykəyib ordan içəri – balaca otağına, tənha çarpayısına, rəflərdə üst-üstə qalanan tozlu kitablara, bir neçə gün bundan əvvəl üst mərtəbədəki qonşusuna bağışladığı, valların boş yerinə, yaxın günlərəcən gecə məşğələlərində yandırdığı stolüstü lampasına baxdı...
Otaq, mənzildən çox, elmi-tədqiqat laboratoriyasını xatırladırdı.
…Təcrübə başa çatmışdı… – professor içəri baxa-baxa fikirləşirdi –
…nəticə göz qabağındaydı.

* * *

…Klinikanın hay-küylü dəhlizlərinin, həmişəki kimi, elə bil şəhərin yuxulu küçələrinə aidiyyatı yox idi.
Klinikaya daxil olub, rastlaşacaq kimlərləsə süni təbəssümlə salamlaşmaq mərasimindən yan ötmək məqsədilə, döşəməsi ağ nöyütlə yağlanmış, yarıqaranlıq dəhlizlərdən tələm-tələsik, arada bir dabanı yağlı döşəmənin üstündə sürüşə-sürüşə ötüşüb, özünü, dəhlizin qurtaracağındakı kabinetinə saldı.
Son vaxtlar, insanların yöndəmsiz həyatsevərliyi, becid yerişləri, gümrah səsləri, professorun, onsuz da zəif əsəblərinə toxunurdu.
…Otağına girib nəfəsini dərdi, paltosunu soyunub asılqana keçirdi, şkafdan ağ, nişastalı xalatını çıxarıb əyninə geyinəndə, yenə adəti üzrə, üç il bundan əvvəl dünyasını dəyişmiş qarısını xatırladı…
Qarısının vəfatından sonra, professor xalatını, klinikanın xadimələrinə yudurdursa da, hər səhər bu xalat yenə professora, əziz qarısını çatırladırdı.
Bayaq evdə yuduğu əllərini bir də, yaxşı-yaxşı yuyub, əl-üzyuyanın üstündəki balaca güzgüdə çal bığlarını, saçlarını daradı.

Stolunun arxasına keçib, xəstəlik vərəqələrini bir-bir gözdən keçirməyə başladı.
…Qapı döyüldü və aralandı. Qeydiyyat şöbəsində işləyən qızın ağ papaqlı başı göründü.
– Sabahınız xeyir, professor.
– Sabahın xeyir… – professor, başını qaldırmadan ağızucu dedi.
– Sizə kimsə zəng eləmişdi… Adını dedi, yaxşı eşitmədim. Soruşdu, bu gün qəbul saatınız neçədədi, mən də dedim.
– Yaxşı elədin… – professor yenə başını qaldırmadan
dedi və ürəyi əsəbi-əsəbi döyünə-döyünə, qızın çıxıb getməsini gözlədi.
Tabelçi qız bir müddət beləcə qapıdan asıla-asıla professora baxdı, sonra qapını örtüb ha yanasa uzaqlaşdı. Sonra, bir müddət dəhlizdən, qızın, uzun-uzadı, isterik gülüşü eşidildi.
…Son vaxtlar ruhi xəstələrin müalicəsi ilə məşğul olan bu mərkəzi klinikanın xidmət personalının, adlı-sanlı professor heyətinin belə, özlərini qəribə aparması, yaşlarına, təbiətlərinə uyğun olmayan hərəkətlər etməsi, bu tibb ocağında da işə düşən hansısa naməlum, gizli proseslərdən xəbər verirdi.
Professorun yadına, srağagün, qapısını içəri üzdən açarlayıb. bütün günü otağına heç kimi buraxmayan, selektora, qapının döyülməsinə cavab verməyən, iş gününün axırında isə, içəridən pörtmüş halda çıxıb zümzümə edə-edə, dəhliz boyu ona-buna şit sözlər ata-ata, evə yollanan baş həkim düşdü...
Dünən isə, ruhi terapiya şöbəsinin müdiri, nəyə görəsə, xəstələrə geydirilən, qollarının ağzı tikili, uzunətəkli xəstəxana köynəyini əyninə keçirmiş və özünü, hansı möcüzə iləsə sarımışdı.
…Klinika öz xəstələrinə oxşamağa başlayır… – professor fikirləşdi və xəstəlik vərəqələrini bir-bir oxumağa başladı. «İyirmi yeddi yaş…
Təqribi diaqnoz: – yüngül nevrosteniya.
Simptomlar: həyatdan küskünlük, kinli yaddaş, təkliyə meyl».
«Qırx üç yaş…
Təqribi diaqnoz – ağır psixopatiya.
Simptomlar: həyatdan küskünlük, təhlükə hissi, ümumi aqressiya, təkliyə meyli».
…Qapı xırda-xırda döyüldü və açıldı:
– Buyurun… – professor vərəqləri, necə gəldi, üst-üstə yığıb saata baxdı. Ona on dəqiqə işləyirdi.

…İçəri, balacaboy, yaşlı bir kişi daxil oldu, heç nə demədən, xırda addımlarla yeriyib onunla üzbəüz oturdu, cılız bədəninə uyuşmayan yekə çantasını dizləri üstə qoyub balaca gözlərini professora zillədi.
Kişinin üzü tanış gəldisə də, onu harada gördüyünü professor dəqiq yadına sala bilmədi, eynəyini alnına qaldırıb:
– Eşidirəm sizi – dedi.
– Tanış olaq… – kişi oturan yerdə balaca əlini professora uzatdı. – Akademik Siracov.
– Çox gözəl. – professor akademikin, buz kimi soyuq əlini sıxdı.
– Mən fəlsəfə ilə məşğulam. Necə deyərlər, filosofam. Həm də universitetdə dərs deyirəm… – akademik həyəcanlı idi, danışa-danışa, balaca əlləri çantasını sinəsinə sıxıb içindəkiləri əzirdi.
Professor, xəstəyə qulaq asdıqca, vərəqələri stolun üstünə yaydı, onların arasında. akademikin familiyasını axtardısa da, tapmadı.
…Müayinə vərəqəsi akademikin özündə idi. Akademik onu, çantasından çıxarıb stolun üstünə qoydu:
– Dedilər, vərəqəsiz qəbul etmirsiz, mən də hər ehtimala qarşı aldım.
Professor vərəqəni qabağına çəkib oxudu:
«Siracov K.N. – 71 yaş – təqribi diaqnoz: ahıllıq psixozu.
Simptomlar: Təqib və təhlükə hissi, qorxu, skleroz».
– Professor, – akademik altındakı stulu irəli çəkdi – sizdən bir xahişim var… Mənə xəstə kimi yanaşmayın. Mən sizin yanınıza müalicə üçün gəlməmişəm.
…Akademikin bu sözlərindən nəyə görəsə, professorun ürəyi sıxıldı.
– Məni düzgün başa düşün. Biz hər ikimiz alimik… – akademik elə danışırdı, elə bil harasa tələsirdi. – Siz insanların psixikası ilə məşğulsuz, mən dünya qavrayışı ilə… Peşələrimiz hardasa qohumdu.
– Mən sizi eşidirəm. – professorun, bu uzun-uzadı girişdən ürəyi sıxıldı – Buyurun, danışın.
Balaca akademik bu sözdən elə bil azca toxtadı, əlini daraq əvəzi, seyrək saçlarına keçirib geriyə daradı, bir müddət professorun üzünə baxa-baxa tərəddüd içində susdu. Sonra astaca:
– Mən qorxulu yuxular görürəm, professor… – dedi.
– Çox əcəb… – professoru nədənsə əsəbi gülmək tutdu – …qorxulu yuxular görmək bizim peşəmizdir.
– Yox, elə deyil… – akademik elə bil birdən-birə həyəcanlandı. – Mən vahiməli yuxular görürəm… Yuxudan qan-tər içində, çığıra-çığıra

ayılıram… Bir də görürsən, ayıla bilmirəm… Ordan özümü, ürəyim dayana-dayana, boğula-boğula, bir təhər sürüyüb çıxarıram… Sonra nə qədər dava-dərman içirəmsə də, xeyri olmur. Ürəyim az qalır dayana. Özüm də keçən il infarkt keçirmişəm…
…Akademik danışdıqca, professor fikirləşirdi ki, qorxulu yuxuların axırı bax, budur. Tipik psixoz. Belə günlər, inşaallah, onu da gözləyir. Bəlkə də artıq «arzusuna» çatıb. Hansı dəli öz dəliliyini boynuna alır ki?!. Axır günlər, bütün klinika kimi, o da yavaş-yavaş öz xəstələrinə oxşamağa başlayır.
…Akademik həyəcanlı idi… Elə danışırdı, elə bil bu dəqiqə nə isə baş verəcəkdi.
–…Arvadım, demək olar hər gecə təcili yardıma zəng vurur. Təcili yardımın həkimləri də hər gecə ürəyimə qulaq asandan sonra, üzümə elə baxırlar, elə bil axırıncı dəfə görürlər məni. Mən qorxuram, professor… – akademik bunu deyib elə bil titrətdi.
Professor, akademikin balaca üzünə, quş caynağına oxşar xırda əllərinə baxdı:
– Sakit olun, əzizim, tələsməyin. Burda ki, allaha şükür, qorxmursuz?!. Qorxu, adətən əsəb gərginliyinin, beyin yorğunluğunun, yaxud uzun müddətli depressiyaların yaratdığı normal hissdir. Burda təhlükəli bir şey yoxdu, özünüzü qorxutmayın. Yaxşı olardı, üzümə baxasız və suallarıma cavab verəsiz. Deyirsiz, qorxulu yuxular görürsüz. Deyə bilərsizmi, nə vaxtdan?..
Bu sualdan, akademikin gözləri elə bil dərinə getdi.
– Üç -dörd ay olar… – dedi, sonra yenə nə isə demək istədi, amma demədi, susub bulanıq gözləriylə professora baxdı.
– Danışa bilərsiz, yuxuda nə görürsüz?..
Akademik bayaqdan bəri bu sualı gözləyirmiş kimi, professora sarı əyilib elə bil kiminsə onu eşidəcəyindən ehtiyat edə-edə, astadan:
– Məni güdürlər, professor… – dedi.
Akademikin bu sözündən professorun ürəyi düşdüsə də, bunun fərqinə varmadı:
– Güdürlər?..
Akademik professorun sualını, bu dəfə başı ilə təsdiq elədi.
– Kimdir sizi güdən, onu tanıyırsız?..
– Onu bilə bilmirəm… – akademik hələ də yarıpıçıltı ilə danışırdı.
– Demək, onu tanımırsız. Kimdənsə şübhələnirsiz?.. Məsələn, ola bilər,

həyatınızda, lap belə gənclik illərində kiminsə ürəyini sındırmısız, ya kiməsə borclu qalmısız…
Akademik professorun üzünə elə baxırdı, elə bil onun dediklərini ya eşitmirdi, ya da başa düşmürdü.
– Deyirəm, belə şeylər ola bilərmi, kolleqa?.. – professor dedi və karandaşla akademikin xəstəlik vərəqəsində yazılmış «maniakal» sözünün altından xətt çəkdi.
– Yox, qətiyyən… – akademik elə bil yuxudan ayıldı.
– Yuxunuzu tam təfsilatı ilə danışa bilərsiz?..
– Danışa bilərəm… – akademik dedi və elə bil özü öz dediyindən qorxdu.
– Buyurun, danışın. Özü də tələsməyin, bizə heç kim mane olmur. Özünüzü tam rahat hiss eləyin. Biz ki, həmkarıq, həm də yaşıdıq. Elə təsəvvür edin biz sizinlə balaca bir parkda oturmuşuq…
Professor bunu deyib, stolun siyirtməsindən qəlyanını çıxartdı, içini tütünlə doldurdu.
Akademikin üzünün qorxusu bir anın içində elə bil gözlərinə yığıldı, bəbəkləri qaraldı:
– Mən… onu həmişə tramvay dayanacağında görürəm… – akademik dedi. – …dayanacaqda, adamların arasında dayanıb, guya kiminləsə danışır, amma əslində fikri məndədi… Görürəm axı… arada bir gözucu baxır…
Professorun, akademikin bu təsvirindən əvvəl ürəyi düşdü, sonra ürək döyüntülərinin birdən-birə tezləşdiyini hiss etdi. Tüstünü, böyük udumla ciyərlərinə çəkdi.
Akademik qırıq-qırıq danışırdı, arada bir, cümlələrdə büdrəyib susurdu. Elə bil yuxusu yadından çıxırdı, ya danışmağa heyi çatmırdı. Həm də elə bil üşüyürdü. Danışdıqca, bədənini yığır, əllərini gah qoltuğunda, gah da arıq dizlərinin arasında gizlədirdi.
–…həmişə də adamların arasından görürəm onu…
Akademik susub fikrə getdi.
– Danışın, danışın… – professor, qəlyanının sönük külünü külqabıya boşaltdı – …demək o, gözaltı sizə baxır…
– O, həmişə eyni yerdə dayanıb kiminləsə asta-asta danışır… Özü də bilirəm, həmişə məndən danışır… Sonra tramvay gəlir, mən tramvaya minirəm. O da minir, özü də ayaq üstə dayanır, həmişə də arxada dayanır. Bütün yolu gözünü məndən çəkmir…

– Bu yuxunu hər dəfə eynilə bu cür görürsüz?.. – professor qəlyanı alışdıranda barmaqlarının əsdiyini hiss elədi. Əllərini xalatının cibinə saldı.
– Eynilə, eynilə. Mən bilmirəm, neyləyim, harda gizlənim… Özü də həmişə axırıncı dayanacağacan, camaat düşüb dağılışanacan mənimlə bir gedir. Gözləyir ki, mənimlə təkbətək qalsın.
…Akademik danışdıqca, halbahal olur, gah qorxaq uşağa, gah da əsəbi zərərçəkənə oxşayır, gözləri gah böyüyür, gah da yığılıb qorxulu nöqtələrə dönürdü.
Professor hiss elədi ki, akademikin dodağının titrəyişindən sol gözü atmağa başladı. Sol gözü, çoxdannan bəri yadırğadığı köhnə adəti üzrə, yığılıb xırda-xırda əsdi.
–…axır mən düşürəm, o da düşür… Sonra bir xeyli onunla, vahimədən bağrım çatlaya-çatlaya, qaranlıq küçələrdə gizlənpaç oynayıram…
– Anlamadım… – professorun səsi xırıldadı, boğazını arıtlayıb – Deyirəm, gizlənpaç məsələsini başa düşmədim…
– Mən onu evimin yan-yörəsində azdırıram ki, mənzilimi tanımasın. Gah ağaclıqlarda gizlənirəm, gah da dalanlarda gözləyirəm… Özüm də qorxuram, professor… Qorxunu elə bil tıxac kimi boğazıma tıxayırlar.
…Professorun gözünün qabağına, bu gecəki yuxusu gəldi... Boz gödəkçəli oğlanın cəngindən qurtulub, özünü kimsəsiz bloka salmağı, pillələri iki-iki qalxıb qapının ağzında, vahimədən bağrı yarıla-yarıla, əl-ayağı əsə-əsə açarları axtarmağı yadına düşdü.
–…Bu gecə isə… – akademiki öskürək tutmuşdu. …o lap qapının ağzına çatmışdı… Mən elə hey zəngin düyməsini basıram… zəng çalınır, içəridən arvadımın hənirtisi eşidilir, qapı isə heç cür açılmır ki, açılmır… Aşağıdan ayaq səslərini eşidirəm… qapını ikiəlli döyürəm, qışqırıram… Arvadım qapının o üzündən, içəridən nə isə deyir, amma qapını açmır… Qorxudan az qalır ürəyim dayana, qapı isə yenə açılmır ki, açılmır… Bir də hiss elədim ki, kimsə arxadan əlini çiynimə qoydu… Az qaldım, yerimdəcə öləm… – akademik bunu deyib ölən adamlar kimi ağardı – ...İstədim qışqıram... adamları köməyə çağıram, səsim çıxmadı, havam çatmadı…
…Professor hiss elədi ki, o da ağlamaq istəyir. Boğazını sıxan qəhəri udub toxtadı, özünü bir təhər ələ alıb akademikə qulaq asmağına davam elədi.
Akademikin gözləri çökəyə düşmüş, burnunun ucu saralmışdı…

– Mənə kömək edin… Bu, heç bir yorğunluq-filan deyil, professor. Bircə siz mənə əlac eləyə bilərsiz… Mən bilirəm… Mən hər şeyi bilirəm… Qorxudan dili, ayağı tutulan, neçə adamın xəstə nöqtələrini sıradan çıxarmısız…
– Mən heç nəyi sıradan çıxarmamışam, sizə səhv məlumat veriblər… – professor birdən-birə nəyə görəsə əsəbiləşdi.
– Mənə kömək etməkdən imtina etsəniz, ömrünüzün axırınadək özünüzü bağışlaya bilməyəcəksiz… – akademik sakitcə dedi, sonra başını qolunun üstə qoyub yenə qırıq-qırıq öskürdü.
…Akademik ürək çatışmamazlığından öskürür… – professor akademikə baxa-baxa fikirləşirdi.
– Əvvəla… – professorun ürəyi əzildi, – mən demədim ki, sizə kömək eləmək istəmirəm. Sadəcə, istəyirəm biləsiniz ki, beyində nəyisə sıradan çıxarmaq mümkün deyil. Dediyiniz o müalicə – müxtəlif növ psixi terapiya üsullarıdır.
– Məni xilas edin, professor…
– Siz demək istəyirsiz ki…
– Hə, hə… mən demək istəyirəm ki, elə edin ki, mən daha o darısqal yuxulara düşməyim. Yalvarıram sizə professor… Onlar məni yuxuda aparacaqlar, professor…
Akademik bunu deyib, yüngül bədəni ilə oturduğu yerdə yelləndi.
– Kim onlar?..
– Sizə bir sirr açım, professor… – akademik elə bil professorun sualını eşitmədi, üzünü üzünə yaxınlaşdırdı – mən bir şeyi dəqiq bilirəm: bu yuxular, əslində yuxu deyil…
– Yuxu deyil?.. – professor akademikin gözünün içinə baxdı.
Akademik dəliyə oxşayırdı…

* * *

– Bütün bu danışdıqlarım, əslində yuxu deyil, professor… – akademik bunu deyib, sirli eyhamla başını yellədi. – Bunu mən yalnız bu yaxınlarda anlamışam. Sizi necə başa salım… Bütün bunları mən əlbəttə ki, yatandan sonra görürəm… amma, bu, yuxu deyil… Bu… – akademik bir anlıq, gözlərindən xəstə parıltı keçə- keçə susdu –…Bu, Ora aparan yolun başlanğıcıdır. – akademik deyib, balaca barmağı ilə haranısa arxanı göstərdi.

– Hara, ora?..
– Ora… – akademik vahimədən böyümüş gözləri ilə bir də dedi, sonra dodaqları, uşaq dodağı kimi büzüldü. – …Mən ölümdən qorxmuram, professor… Mən… – akademik yenə pıçıltıya keçdi – …mən o yuxularda itib-batmaqdan qorxuram. Yuxuda ölümün vaxtı hüdudsuzdu, professor… Mən, vahimədən bağrım yarıla-yarıla, o cəladdan qaçıb canımı qurtara-qurtara, həmin o qaranlıq dalanlarda əbədi qalmaqdan qorxuram, professor… Siz məni başa düşürsüz?..
– Başa düşürəm.
…Professor heç nə başa düşmürdü…
Akademikin yuxuları, onun yuxularına qarışıb vahiməli, anlaşılmaz nə isə yaradırdı... Tramvay dayanacağı, qaranlıq dalanlar, inadkar təqib… Hər şey dəhşətli dərəcədə eyni idi.
– Mən bilirəm, onsuz da əvvəl-axır bu yuxulardan çıxmayacağam… – akademik üzünü çöndərib harasa yana baxdı, elə bil təslim oldu. – Amma, qorxulu bu deyil… Qorxulu odur ki, mən öləcəyəm, amma o dalanlardan çıxa bilməyəcəyəm…
Akademik bunu deyib susdu, elə bil danışmaqdan yoruldu, gözlərinin işığı da elə bil söndü, heysiz səslə:
– Bu yuxular cəhənnəmin özüdü… – dedi və sönük gözlərlə professora baxdı.
Professor qəlyanı özü-özünə tüstüləyə-tüstüləyə, eynəyi burnunun ucundan asıla-asıla, dinməz-söyləməz akademikə baxırdı…
– Neçə aydan bəridi bir mövzu üzərində işləyirdim… – akademik elə danışırdı, elə bil danışdıqlarının, artıq heç bir əhəmiyyəti yox idi –… İndi başa düşürəm ki, həmin o işə görə tora keçmişəm. Tələyə düşmüşəm. Arada bir, o yazıları yandırmaq istədim, əlim gəlmədi.
Akademik bunu deyib bir müddət professora baxdı, sonra yenə yorğun-yorğun nəfəs dərdi:
– …Orda mən müəyyən qadağa mətləblərə toxunmuşam… Bütün bu qaçdı-qovdular da ondan başladı…
– Qadağa mətləblər… – professor dedi. – Siz nəyi deyirsiz?..
…Professorun bütün bu qarmaqarışıqlıqdan ürəyi sıxılırdı... Akademikin səhhəti, artıq bir o qədər də maraq kəsb etmirdi. Professorun ürəyini sıxan da elə bu idi.
…Qapı astaca döyüldü və cırıldadı. Növbətçi qızın ağ papaqlı başı göründü:

– Professor, burda xəstələr maraqlanırlar, bu gün qəbul olacaq, ya yox?..
Professor bir müddət qızın üzünə baxıb elə bil heç nə başa düşmədi, sonra tələm-tələsik nə isə dedi.
…Akademik, elə bil sözünü bitirmişdi, indi dinməz-söyləməz, döşəmədə tapıb seçdiyi hansısa nöqtəyə baxırdı…
Professor heç cür fikirlərini sahmanlaya bilmirdi. Ötən həftədən bəri gördüyü yuxuları, akademikin yuxuları, bütün bu qorxunc uyarlıq… Cəhənnəm… qadağa… əzablar…
…Bircə şey professora aydın idi: akademik xəstə deyildi.
Akademikin danışığında, gözünün içində, normal adam sarsıntısının əlamətləri var idi.
Üstəlik, akademik, ötən həftədən bura, onun yuxularını görürdü.
Akademikin psixi halına şübhə etmək – özünə şübhə eləmək kimi bir şey idi… – professor, saçlarının dibi gizildəyə-gizildəyə fikirləşdi və gözü döşəmədə, fikrə dalan akademiki bir də, diqqətlə nəzərdən keçirdi.
Qəribəydi ki, akademik həm də dəliyə oxşayırdı.
Bayaqdan bəri akademikə qulaq asa-asa, oxuduğu yüzlərlə kitabları, əlyazmaları, psixiatriya nəzəriyyəsinə dair əlinə keçən irili-xırdalı, köhnə-yeni məlumatları yadına salıb, iki adamın eyni vaxtda eyni yuxu görməsi barədə, nə isə xatırlamağa çalışsa da, bir şey alınmırdı.
Bircə, keçən il, «Elm və texnika» jurnalında – bir gecə yuxuda eyni bir yerdə olduqlarını görən iki bacı haqqında oxuduğu xırda məlumatda, buna bənzər kiçicik bir yazını xatırlaya bildi. Bəs bu nə demək idi?..
– O adamı… – professor ayağa qalxıb, əllərini cibinə saldı-… təsvir edə bilərsiniz?..
– Təsvir?.. – akademik elə bil yuxudan oyandı.
– Deyə bilərsiz, məsələn, o adamın görünüşü necəydi, cavan idi, qoca idi?!.
– Cavandı… – akademik dedi. – Üzü dəqiq yadıma gəlmir, amma boyu hündürdü, özü də çiyinlidi… Belə bozumtul, dama-dama gödəkçəsi də var…
Akademikin son təsvirindən, professor birdən-birə bədəninin süstləşdiyini hiss etdi…
…Bəlkə o, nəyisə qarışdırırdı?!. – hövsələsi darala-darala fikirləşdi – …Bəlkə akademik nəyisə qarışdırırdı?!. Ya bəlkə, nə isə nəyəsə, hansısa qəsdlə, səhv bir uyarlıqla oxşayırdı?! P Pəncərənin qabağına

keçib, arxası akademikə, qulaqları uğuldaya-uğuldaya küçəyə baxdı.
…Ola bilməzdi… Heç cür ola bilməzdi…
– Professor, yalvarıram sizə… Mən görürəm, siz nə isə eləyə bilərsiz. Məndən heç nə gizlətməyin… –…akademik arxasında dayanmışdı –
…Axı söz verdiniz, dediniz ki, mənimlə həmkar kimi danışacaqsız…
…O, akademikə heç nə deyə bilməzdi. Xəstəsi ilə, tərəf müqabili kimi danışmağa ixtiyarı yox idi. Nə də bu, onun, ömrü boyu hər şeydən üstün tutduğu, həkimlik ləyaqətinə yaraşardı.
…Çönüb akademikin üzünə – çölün işığında açıq maviyə çalan gözlərinə, solğun, qırışlı dərisinə baxdı…
O, akademikə heç nə deyə bilməzdi. Bu söhbət akademikin, onsuz da laxlaq sinirlərini birdəfəlik sıradan çıxarırdı.
Odu ki:
– Əyləşin, əzizim... – dedi və akademikin, uşaq çiyinlərini xatırladan çəlimsiz çiyinlərini qucaqlayıb stula oturtdu.
İndi, o, akademiki öz peşəkar üsulları ilə sakitləşdirib evinə göndərəcəkdi, özü isə o təhlükəli yuxularıyla burda – dörd bir yanı ruhi xəstələr, xəstəhal həkimlər dolu xəstəxanada təkbətək qalacaqdı.
Fikirləri yenə bir-birinə qarışdı… Bir şey aydın idi: o, gözləmədiyi halda, başını aşağı salıb, öz yoluyla düz gedib – düz gəldiyi yerdə, öz evindəcə, öz yorğan-döşəyindəcə dərin, çıxılmaz quyuya düşmüşdü. Həmin bu sirli quyuda, ondan başqa bir nəfər də vardı: həmin bu mavi gözlü, kövrək akademik…
O, indi akademikə – vahiməli yuxuların, onsuz da üzüb əldən saldığı bu xəstəhal, zəif adama heç nə deyə bilməzdi. Ən azı, qırx beş il əvvəl, həkimlik diplomu alarkən, içdiyi Hippokrat andına xilaf çıxmamaq üçün. Bir də, fikirləşmək, yaxşı-yaxşı fikirləşmək, bu qorxunc yuxu kilkəsini ayırd eləmək lazım idi.
…Hiss elədi ki, boğazı, dili quruyub. Stolun üstündəki qrafindən su töküb akademikə təklif etmədən, iri qurtumlarla içdi.
Baş həkimin selektorunun, yanğın maşınının siqnalına oxşar zəngi çalındı:
– Kolleqa?!.
– Bəli…
– Camaatı niyə qəbul eləmirsiz?.. Bu da təzə çıxdı?.. – baş həkimin səsi elə idi, elə bil onunla uzanan yerdə danışırdı.
– Xəstəm var… vəziyyəti ağırdı.

– Lap elə ağırdı?..
– Ağırdı, ağırdı… – professor tələm-tələsik dedi.
– Nə deyirəm?!. – baş həkim dəstəyi qoydu.
Dəstəyi qoyub akademikə baxdı:
– Bilirsiz əzizim… indi mən sizə deyim… Sizə bir qədər dincəlmək, bir sıra yüngül trankfilizatorlar qəbul eləmək lazımdı. Bir də pis olmaz ki…
Akademik dinmirdi. Balaca gözlərində get-gedə nifrətəbənzər qəribə bir ifadə yaranırdı. Sonra, nə oldusa, akademik oturduğu yerdə, qəribə bir hikkəylə qurcanıb:
– Mən yoruldum… – dedi və ayağa qalxdı – mən elə bilirdim, siz başa düşərsiz… – dedi, sonra çantasını götürüb beli bükülü qapıya yönəldi.
Qapıya çatar-çatmaz ayaq saxlayıb geriyə döndü:
– Professor, siz bilirsiz cəhənnəm nə rəngdədi?.. Boz dənizin, boz sahilində bomboz gəmiyə mindirilən adamlar…
Akademik bunu deyib susdu, elə bil boğazını yenə qəhər tutdu. Ya bu, professora elə gəldi?..
…Akademik bir müddət balaca, doluxsunmuş vücuduyla qapının ağzında dayandı, sonra çönüb:
– Sağ olun, professor… – dedi və ehmal addımlarla otaqdan çıxıb qapını arxasınca bağladı.
Akademik gedəndən sonra, professor bir müddət otağın ortasında, tarazlığını itirən kimi, yöndəmsiz vəziyyətdə qaldı.
Fikirləşmək lazım idi. Tələsmədən, səbrlə, son ayları, bəlkə illəri də bir-bir ələk-vələkdən keçirib hər şeyi diqqətlə araşdırmaq, yuxular barədə olan-qalan ədəbiyyatları bir də, diqqətlə gözdən keçirmək lazım olacaqdı.
…Professor xəstəxanadan çıxanda, yağış yağırdı. Tramvay dayanacağı adamla dolu idi. Adamların arasında dayananda, nədənsə özünü pts hiss edirdi, elə bil nədənsə yoluxurdu.
Üzbəüz səkidən bir dəstə adam, əllərində milli bayraqlar, «Azadlıq» deyə-deyə, üzüaşağı, «Azadlıq» meydanına sarı gedirdilər...

* * *

* * *

…Tramvay küçənin başında görünər-görünməz, dişlərini bir-birinə sıxa-sıxa qərara aldı ki, bu gün nə olur-olsun, boz gödəkçəlini tapıb ona yaxalamalıdı, yaxasından tutub silkələyə-silkələyə, bağıra-bağıra ondan nə istədiyini, ona niyə bu qədər əzab verdiyini soruşmalıdı.
…Çönüb gözünün ucu ilə, bir qədər aralıda, adamların arasında dayanan boz gödəkçəliyə baxdı... Boz gödəkçəlinin üzünün üçdə bir hissəsi görünürdü. Arxası ona dayanıb, kiminləsə astadan danışa-danışa, arada bir, ötəri nəzərlərlə ona sarı boylanırdı.
…Professor , içini titrədən qorxusunu gizləməkdən ötrü, paltosunun yaxalığını qaldırıb, üşüyən adamlar kimi, var-gəl eləməyə başladı. Sonra birdən, gedəcəyi yolun vahiməli marşrutunu, evinin ətrafında gicəllənəcəyi qaranlıq dalanları, qorxunc döngələri xatırlayıb duruxdu.
…Nəyin bahasına olursa-olsun, bunu eləməlidi: özünü ələ alıb bütün vücudu ilə təhlükə saçan bu qamətli adama yaxınlaşmalıydı, ondan dönə-dönə üzr istəyib, bu anlaşılmazlığa bir aydınlıq gətirməliydi…
Bu an, dayanacağın tən ortasında, adamların sıx yerində dayanan cavan qadın geriyə çönüb, ətəyini didişdirən uşağın ağzının üstündən sillə vurdu, uşaq yerə yıxılıb üst-başını palçığa bulaya-bulaya ağlamağa, ayaqlarını yerə döyüb cır səslə çığırmağa başladı…
Bu çığırtıdan, professorun içində qəribə bir rahatlıq yarandı. Yaxalığını düzəldib, özünü toplayıb, iti addımlarla boz gödəkçəliyə sarı getdi... Boz gödəkçəli, enli kürəyi ilə arxası ona dayanıb, hələ də kiminləsə asta-asta danışırdı...
…Onu necə çağırmalıydı?.. Adını bilmirdi. Nə deməliydi, «ay oğlan», yoxsa, «ay vətəndaş», ya bəlkə «a bala»?! Müraciətlərin heç biri düz gəlmirdi. Biri kobud çıxırdı, o biri rəsmi, bu biri …
…Yaxşısı budu… – professor fikirləşdi – ehmalca onun kürəyinə toxunsun. Onda oğlan geriyə qanrılıb ona baxacaqdı… Boz gödəkçəlının aramla geriyə çönməsindən, onunla üzbəüz gələcək üzünün vahiməsindən bu fikrindən daşındı.
Boz gödəkçəli, professora məhəl qoymadan, yanındakı arıq, donqar bir adamla tramvaya minib adamlara qarışdı.
…Deyəsən bu, heç o deyil… – professor ürəyi döyünə-döyünə fikirləşdi

– Axı o, mütləq professorun tramvaya minməyini gözləməliydi, sonra özünü, arxa qapıdan oğrun-oğrun tramvaya salıb, yol boyu neştər gözlərini boynunun ardına zilləməliydi…
…Professor tramvaya minib nə qədər gizli-gizli o yan-bu yana boylandısa da, boz gödəkçəlini adamların arasında tapmadı. Adətən, onun oturduğu arxa oturacaqda, bayaqkı əsəbi gəlinlə uşaq oturmuşdu. Uşaq daha ağlamırdı, burnunun suyu axa-axa palçığı quruyan çirkli əlləri ilə nə isə təpişdirirdi…
Axırıncı dayanacağa çatanacan, qəribəydi ki, düşən olmadı. Axırıncı dayanacağın dairəsində, professor düşüb evlərinə sarı yollananda, içi sərnişin dolu tramvayın hərlənib geriyə – bayaqdan gəldiyi səmtə yönəlməsindən ürəyi düşdü…
Əllərini paltosunun cibinə salıb becid addımlarla qaranlıq, adamsız küçə boyu yeriyə-yeriyə evinə yollandı…
…Hər şey dəyişmişdi… – professor fikirləşdi – …o biri yuxularında, uşağını döyən əsəbi qadın yox idi. Bir də o biri yuxularda tramvayın salonu adətən axırıncı dayanacağa çathaçatda bomboş boşalırdı. İndi isə tramvayın içi adamla dolu idi…
Çönüb geriyə baxdı… Küçə bomboş idi.
…Bu fikirdən içinin yüngülləşdiyini hiss edib addımlarını yavaşıtdı. Gecənin sakitliyinə diqqət kəsilib yaş asfaltın üstündə sayrışan işıqlara baxa-baxa, küləyin, arada bir tərpədib yellətdiyi ağacların xışıltısından üşüyə-üşüyə yeridi… Həyətlərinə çatmağa bircə tin qalmış arxadan, yenə becid-becid yeriyən tanış addım səsləri eşidilməyə başladı. Professor addımlarını yeyinlədib geri çöndü və az qaldı büdrəyə… Bu, yenə o idi.
Yarıqaranlıq küçənin zəif işığında qamətli bədənini bəbirsayağı yığıb əlləri cibində yaş asfaltın üstü ilə ona tərəf yeriyən siluet, professorun həyatı boyu eşitdiyi və gördüyü mənzərələrin ən vahiməlisi idi.
Nəfəsi darala-darala, ayaqları bir-birinə dolaşa-dolaşa özünü hövlnak binalarına yetirib tini buruldu…
Həyət həmişəki kimi zülmət qaranlıq idi. İndi binaya girmək, mənzilin qapısını ona tanıtmaq olmazdı… – professor həmişəki kimi fikirləşdi. Onu, həmişə elədiyi kimi, həyətin ortasındakı sıx ağaclıqda azdırmaq, sonra sivişib göz qırpımında binaya daxil olmaq lazım idi.
Həyəcandan idi, ya yüyrək gəldiyindən idi, nəydisə, bir-birinə dolaşıb dəqiqəbaşı onu büdrədən ayaqlarını heç cür nizama sala bilmirdi…

Özünü, ağaclığa zorla çatdırdı...
Həyət sakit idi, arada bir, külək ağacların budaqlarını tərpədib vahiməli-vahiməli xışıldadırdı…
– …Professor!.. – hardansa yaxınlıqdan, kiminsə yarıpıçıltılı, xırıltılı səsi eşidildi.
Ürəyi qırıldı…
– Professor, yalvarıram, kömək edin… professor…
…Bu, akademikin səsiydi, soyuq dəymiş adamın səsi kimi xırıldayırdı…
–…O, yenə güdür, professor… Bu dəfə daha məni buraxmayacaq… Daha nəfəsim çatmır, professor…
– Siz… – professor gözləri ilə akademiki qaranlıq ağaclıq boyu axtardısa da, tapmadı. – …siz hardasız?.. Mən sizi görmürəm…
Professor sözünü bitirməmiş, kimsə tini burulub qaça-qaça həyətə, ordan birbaş ağaclığa girdi… Sonra hardansa lap yaxınlıqdan, ağacların sıx yerindən tarappıltı səsləri eşidildi…
– Professor!.. – akademikin xırıltılı səslə çığırıb, bu dəfə elə bil kiminləsə əlbəyaxa süpürləşdi – …kömək…ed…profes…
…Professor, qorxudan ağırlaşan ayaqlarını zorla sürüyə-sürüyə, ağaclıqdan çıxdı, özünü tələsik binaya saldı, vahimədən nəfəsi kəsilə-kəsilə pillələri üç-üç qalxıb bir müddət qapının ağzında, əl-ayağı əsə-əsə tələm-tələsik açarları, axtardı… Açarlar, həmişəki kimi, professorun paltosunun astarının içindən tapıldı. Professor cırıq cibini tikməyi unutduğu üçün ürəyində özünü söyə-söyə açarı dəliyinə keçirib iki dəfə burdu və dəhşətdən yerindəcə donub qaldı…
…Arxasında kimsə dayanmışdı, buz kimi soyuq əlini onun çiyninə qoymuşdu…
…Professor əlini açardan çəkib geri çönmək istədisə də, çiyninə qonan əlin ağırlığından tərpənə bilmədi. Odu ki, geriyə baxmadan, sakit-sakit:
– Nə istəyirsən?.. – dedi və hiss elədi ki, boğazını qəhər tuturdu.
…Arxadan cavab gəlmirdi…
Onda o, titrədə-titrədə, donu heç cür açılmayan çənəsini zorla tərpədə-tərpədə:
– Nə istəyirsən məndən?.. – dedi, sonra özünü saxlaya bilməyib vəhşi bir səslə elə bağırdı ki, öz səsindən az qaldı ürəyi dayana…
Sonra çiyninə qonan zindan əlin ağırlığı altında uzun müddət çırpındı, it kimi zingildədi, ağlayıb səsi gəldikcə çığırdı və özü öz səsinə ayıldı…
Bir müddət yarıqaranlıq otağın tavanına baxdı. Nəfəsi çatmırdı…Yorğanı

üstündən atıb qalxmaq istədi, iflic vuran kimi ağırlaşıb keyiyən əl-qolunu tərpədə bilmədi.
Otaq sakit idi. Aşağıda həyəti süpürürdülər. Görünür səhərə az qalırdı. Özünü toplayıb tərpənmədən, bədəninin vəziyyətini yoxladı. Ürəyinin döyüntüsü zəif idi, nəfəsi arada bir ciyərlərində ləngiyir, ordan sinəsinə zorla, qırıq-qırıq sızırdı…
Hamısı yuxu dərmanının təsiridi… – fikirləşdi – bir də yuxudan süstləşmiş bədəninin reaksiyası.
…Eynəyini gözünə taxıb, üzbəüz divardan asılan saata baxdı. Beşə on dəqiqə işləyirdi. Düz on saat yatmışdı.
Qəribədi, demək belə çıxır ki, düz yeddi saat idi, bayaqkı ətürpədən mənzərənin içində çabalamaqla məşğul idi. Amma, klinikadan evinə aparan gündəlik marşrutunun vaxtı adətən qırx dəqiqədən artıq çəkmirdi. Yuxuda vaxt hüdudu qəribədi… – fikirləşdi. Ya bəlkə yuxunun əvvəlini unutmuşdu?..
…Əl-qolunu ovub keyini yumşalda-yumşalda ayağa qalxdı, xalatını geyib, ayaqlarını sürüyə-sürüyə pəncərənin qabağına gəldi qaranlıq həyətə baxdı.
Həyətin tən ortasında kol kimi sıxlaşan ağaclar, yuxudakı kimi vahiməli-vahiməli xışıldayırdı.
Professor ağacların bu mənzərəsindən üşünüb geri çəkildi, yorğanı çiynində, mətbəxə getdi, orda işığı yandırıb, fincan-nəlbəkilərin arasında gizlədiyi ürək dərmanını tapdı, fincana damcıladıb fikirləşdi ki, bu gün hökmən akademiki tapmalıdı, xəstəni bu dəfə ciddi müayinədən keçirməlidi. Bu, hər şey bir yana qalsın, onun həkimlik və insanlıq borcudu… – dərmanı içib fincanı stola qoydu.
Akademikin onun yuxusuna girməyi, hər halda elə belə deyildi… – professor yorğanı çiynində otağa qayıda-qayıda fikirləşdi – …görünür zavallının vəziyyəti həqiqətən ağır idi.
İnsanların mənəvi, fiziki çətinliklərinin, təhlükəli vəziyyətlərinin, yuxular vasitəsilə çatdırılması barədə, professor hələ çox-çox illər bundan əvvəl, yuxulara aid yığdığı əlyazmalarda oxumuşdu.
Akademiklə dünənki söhbətini xatırladı.
Dünənki söhbəti, – akademikin monoloqu hesab etmək olardı. Sinirləri pozğun köməksiz xəstə, həkimin hüzurunda öz-özü ilə danışıb sonra da ümidsizlik içində klinikanı tərk etmişdi.
Akademikin pasport qeydləri klinikanın qəbul şöbəsində olmamış

olmazdı. Bunsuz, akademikə xəstəlik vərəqəsi açmazdılar. – professor, ürəyi yerinə gələ-gələ fikirləşdi və bu fikirdən ürəyinin ağrısı elə bil bir qədər sakitləşdi.
Bundan sonra o, daha heç nə fikirləşmədi. Yorğanı çiynindən atıb işə hazırlaşmaq üçün hamama keçdi və orda bir müddət əl-üzünü yudu.

* * *

…Akademikin pasportunun nömrələri və ünvanı qeydiyyat kitabçasında, uzun bir siyahının ortasında, cürbəcür ad-familiyaların arasında səliqəli xətlə yazılmışdı…
Professor bu rəqəmləri balaca kağıza köçürüb cibinə qoydu, otağına qalxıb paltosunu soyunmadan arayış telefonuna zəng vurdu, akademikin ünvanını deyib nömrəsini həmin kağıza, akademikin familiyasının yanına yazdı, sonra tələsmədən nömrələri yığdı.
Telefona, uzun-uzadı zənglərdən sonra cavan oğlan səsi cavab verdi:
– Bəli…
– Alo, salam… Sabahınız xeyir… – professorun dili dolaşdı – mənə akademik Siracov lazımdır.
…Telefonun o başında bir müddət susdular, sonra sakit səslə:
– Kimdir soruşan?.. – dedilər.
– Bu, …həkimdir, onun həkimi… professor Veyisov… Bilirsiz, dünən o, bura gəlmişdi, mənim yanıma…
– Bəli…
– Mən onunla danışmaq istərdim… bəzi məsələlərlə əlaqədar… – professor səsinin əsdiyindən əsəbiləşdi. Bu nə həyəcan idi axı?.. İndi nədən həyəcanlanırdı?!. Bu da o vahiməli yuxusu deyildi ki…
…Telefonun o başında yenə susmuşdular…
– Alo?!. – professor bir də dedi – …Əgər o, evdə yoxdursa, onda iş nömrəsini verin, xahiş edirəm.
– Bilirsiz… – oğlanın səsi elə bil ağırlaşdı – o, bu gecə… vəfat edib…
– Vəfat edib?.. – professor dedi və özü də, sualının yersiz olduğunu başa düşdü – …Akademik Siracov?..
– Bəli…
…Professor telefon dəstəyi əlində, dünənki yuxusunu göz qırpımında bir də gördü… Qaranlıq sıx ağaclıqda, kiminləsə süpürləşən akademikin xırıltılı səsini eşitdi…

– Cənazə bu gün saat beşdə, Elmlər Akademiyasının binasından götürüləcək… – oğlan bu dəfə rəsmi dedi.
– Sağ olun… – professor deyib dəstəyi yerinə asdı.
…Bir müddət oturduğu vəziyyətdə, gözü, indicə dəstəyini asdığı telefon aparatında qaldı. Sonra boşalıb sustalmış dizlərini ovdu. Dizlərinin keyi üzüaşağı, topuqlarına yayılırdı.
Həyatında ilk dəfə professor özünü, kiminsə taleyinə çalın-çarpaz qara xətt çəkmiş, ölümünə hökm oxumuş müqəssir hiss etdi. Cibindən çıxardığı burun yaylığıyla üz-gözünün tərini sildi, sonra nə fikirləşdisə, dəstəyi qaldırıb bayaqkı nömrəni bir də yığdı. Bu dəfə dəstəyi ikinci zəngdə qaldırdılar. Danışan yaşlı qadın idi.
– Alo… salam əleyküm… – professor astadan dedi.
– Salam.
– Mən… mən üzr istəyirəm, sizdən bir söz soruşmalıyam… Bura akademik Siracovun evidi?.. Fəlsəfə elmləri doktoru, akademik Siracovun mənzilidi?..
– Bəli… – qadın hüznlə dedi.
– Mən bir kədərli xəbər eşitmişəm…
– Bəli, düz eşitmisiz. Cənazə bu gün, saat beşdə Elmlər Akademiyasının binasından götürüləcək.
– Sağ olun… …e, üzr istəyirəm, üzr istəyirəm… – professorun zehni birdən-birə elə bil açıldı. – Bu… danışan professor Veyisovdu… o, dünən mənim yanıma gəlmişdi…
– Veyisov?!. – qadın elə bil yüngülcə təəccübləndi.
– Mən həkiməm. Psixiator…
– A-ah… – qadının səsi endi – …professor Veyisov… Onun son ümidi. Neçə vaxt idi o, yuxularından əziyyət çəkirdi. Sizin yanınıza da buna görə getdi. Ümidi bircə sizə idi…
– Mən… – professor hiss elədi ki, qızarıb tərləyir. – …mən…
– Sizdən sonra onun ümidi tamam qırıldı… Axır ki, apardılar onu…
Qadının axırıncı sözləri telefon xəttinin xırıltısına qarışıb anlaşılmaz oldu.
– Apardılar deyirsiz?.. – professorun içi əsdi.
– …elə dediyi kimi də oldu… yuxuda keçindi… – qadın sakit-sakit dedi. – …saat üçlə dörd arasında…
– Yuxuda?..
– …axır bu yuxular axırına çıxdı onun…
…Qadın sonra yenə nə isə dedi. Deyəsən akademikin son aylarından,

yazdığı elmi işindən, səhhətindən danışdı.
…Professorun beyni yenə elə bil dumanlandı.
Akademik bu gecə, saat üçlə dörd arası yuxuda ölmüşdü. Akademikin bu xəbis ölüm aktı həmin radələri həm də onun yuxusunda getmişdi…
Bu, necə ola bilərdi?.. – professor hiss elədi ki, bədəni tədricən soyusur.
– …Deyirdi yanımda yat… qorxuram. Yuxuları onu bir neçə ayın içində tamam üzmüşdü. Keçinəndə, səsinə ayıldım. Yuxuda da sizi çağırırdı yazıq. «Kömək edin, professor…» deyirdi, «…daha nəfəsim çatmır…» deyirdi… çabalayırdı yazıq… – qadının boğazını qəhər tutdu – …elə bil kiminləsə əlbəyaxa əlləşirdi. Çiynindən tutub nə qədər silkələdim ki, ayıla, oyanmadı ki, oyanmadı. Elə əlləşə-əlləşə də getdi…
Professor hiss elədi ki, daha danışmaq istəmir. Danışmağa heyi yoxdu. Bir də qadının kövrək səsi əsəblərinə toxunurdu, odu ki, söhbəti yekunlaşdırıb dəstəyi asdı.
…Akademiki onun yuxusunda öldürmüşdülər. Bu, dəqiq idi. Ya bəlkə o, hansı möcüzəyləsə akademikin yuxusuna düşmüşdü?..
…Siyirtməni çəkib qəlyanını axtardı. Dünənki yuxusunun hardan başladığını yadına salmağa çalışdı. O, yuxuda öz gündəlik marşrutu ilə – 12 nömrəli tramvayla gedib öz küçələrində düşmüşdü, öz həyətlərinə girib akademikə də orda rast gəlmişdi… Bəlkə bu?!. – professor ağlına gələn fikirdən qəfil zərbə alan kimi süstləşdi…
…Bəlkə bütün bunlar, akademikin dediyi kimi, əslində yuxu deyildi?!. Və əgər yuxu deyildisə, onda ora hara idi?.. O necə yer idi ki, akademik şəhərin tamam başqa bir başında, öz mənzilində, yorğan-döşəyində yata-yata, onların həyətində, onun gözünün qabağında, qulağının dibində qətlə yetirilmişdi?..
Sonra yenə professorun yadına, akademikin çaşqın üzü, xəstəhal gözləri düşdü.
Bəlkə… – professor ayağa qalxıb şlyapasını çıxartdı – …bəlkə hər şey çox sadə idi?.. Akademik də, o da– ruhi pozğunluq keçirən xəstələr, idi?.. Əgər eləydisə, onda niyə akademikin, bu gecə qaranlıq ağacda çığırdığı son sözlərini arvadı da eşitmişdi?..
…Yox, yox, hər şey ağlasığmaz dərəcədə qəliz idi… – professor fikirləşdi və əl-üzyuyanın qabağına keçib paltosunu çıxarmadan üzünə su vurdu, sonra, onsuz da soyuq bədənini bir az da soyudan sudan üşüyə-üşüyə üzünü quruladı. Yorğunluqdan idi, ya yuxusuzluqdan idi, nəydisə, başı, ürəyini bulandıra-bulandıra gicəlləndi.

…Demək belə, tələsik nəticə çıxarmaq, təftişə düşmək lazım deyildi… – professor fikirlərini sahmanlamağa çalışdı – …hər şeyi soyuq ağılla, səbrlə düşünüb təhlil eləmək, bu düyünlü tələnin açarını tapmaq lazım idi.
…Demək akademik xəstə deyildi. Akademikin, dünən bu otaqda onunla üzbəüz otura-otura, dərdini anlayacaq bir alim kimi ona dedikləri, bütün o yarıcəfəng, yarısayıqlamaya oxşayan sözləri belə çıxır ki, həqiqət idi. Akademik, həqiqətən tələyə keçmişdi. Akademiki o gözəgörünməz ölüm toruna, özü dediyi kimi, elmi işində toxunduğu bəzi qadağa mətləblərə görə salmışdılar. İndi belə məlum olurdu ki, son günlər gördüyü öldürücü, inadkar yuxularına görə, həmin o tora o da keçmişdi. Akademiki neçə aydan bəri güdə-güdə, axır ki, canını alan o naməlum niyəsə adam həm də onu güdürdü. Bu gecə qapılarının ağzına çatıb əlini çiyninə qoymuşdu. Bu, o demək idi ki, onun da vaxtına az qalırdı…
…Bu fikirdən professorun saçının dibi gizildədi. Birdən-birə qapını açıb dəhlizə atılmaq, səsi gəldikcə bağırıb bütün klinikanı titrətmək, adamları başına yığıb onların arasında gizlənmək istədi… Sonra gözü qarala-qarala anladı ki, bu dəqiqə qapını açıb, dəhliz boyu bağırsa da, başına gələn bu alğasığmaz dəhşətləri adamlara danışsa da, gizlətsə də, boz gödəkçəlidən qurtula bilməyəcək. Yuxuda kimin kimi qorumaq gücü var?..
Bir də axı ona kim inanacaqdı ki?! Ona heç kim inanmayacaqdı… – professor fikirləşdi. – Dünən, bu vaxtlar həmin bu otaqdan akademikə inanmadığı kimi…
Uzaqbaşı onu ehtiramla klinikanın təcili yardım maşınına oturdacaqdılar, evə – istirahətə göndərəcəkdilər.
Bu fikirdən professora elə gəldi ki, otağın tavanı aşağı enib onun başından basdı.
Başını əlləri arasına alıb sıxdı.
Axı niyə?.. O, nə günahın sahibi olmuşdu?.. O ki, akademik kimi elmi iş yazıb qadağalı məsələlərə toxunmamışdı?..
Professor, başı əllərinin arasında, tələm-tələsik, son günlərini, danışdığı sözləri, getdiyi yerləri, hərəkətlərini hövsələsi darala-darala yadına saldı… və anladı ki, nəinki son aylar, qarısının ölümündən sonrakı üç ili, ümumiyyətlə, heç yerə getməyib, xəstələrindən savayı demək olar ki, heç kimi görməyib.
…Bəs onda bütün bunlar nə idi?.. Bəlkə… – professor fikirləşdi – günahı

o idi ki, yuxuda, özü də bilmələn, akademiki təqib edən, həmin o bozgödəkçəlinin izinə düşmüşdü?..
Yaddaşını cilovlayıb o gecə, bozgödəkçəlinin izinə hardan, necə düşdüyünü, onu niyə elə səylə, qorxudan az qala ölə-ölə, addımbaaddım izlədiyini yadına salmağa çalışdısa da, bir şey alınmadı.
…Qapını tıqqıldatdılar…
…Professor dik atılıb cib saatını çıxartdı. On birin yarısı idi.
– Bir dəqiqə… – ucadan deyib ayağa qalxdı, əlləri bir-birinə dolaşa-dolaşa paltosunu soyunub xalatını geydi, qapını açıb yerinə qayıtdı. Bu barədə o, sonra fikirləşəcəkdi.
…İçəri, orta yaşlı, səliqəli geyimli, yaraşıqlı bir adam daxil oldu.
– Olar?..
– Buyurun… – professor stolunun üstünü sahmana sala-sala fikirləşdi ki, hansı ağılla xəstə qəbul eləyir?!. İndi müayinə vaxtıdı?.. Yerlə-göy arasında ləngər vura-vura kimisə becərməyin yeridi?..
Xəstə professorun təklif etdiyi kresloda oturdu.
– Müayinə vərəqəsi almısız.
– Bəli, bəli, hələ dünən almışam. Gərək ki, burda sizdə olmalıdı?..
– Buyurun, danışın… nə kimi şikayətləriniz var?.. – professor deyib guya vərəqələri gözdən keçirməklə məşğul oldu.
– Məncə əsəb pozğunluğu.
– Bunu nədən hiss edirsiz?..
– Əsasən həyat yoldaşım deyir. Xəstə elə bil utandı – …dostlarım, tanış-biliş də deyir… elə özüm də hiss eləyirəm. Bura da məni, düzünü desəm, elə arvadım göndərdi.
Onlar nə deyir, özünüz nə hiss edirsiniz?.. – professor candərdi sıravi müayinə sualları verdi.
– Arvadım deyir, axır vaxtlar vasvası olmuşam, hər şeydən əsəbiləşirəm, acıdillik eləyirəm.
Xəstə bunu deyib susdu. Elə bil gəlişinin yersizliyini yalnız indi hiss etdi.
– Danışın, danışın… qulağım sizdədi. – professor deyib çantasından qəlyanını çıxartdı, içini tütünlə doldura-doldura müsahibinə baxdı.
– Bilirsiz, son vaxtlar məndə təkliyə qəribə bir meyl yaranıb. Yavaş-yavaş, özüm də hiss eləmədən tanışlardan, son vaxtlar isə ən yaxşı dostlarımdan da qaçmağa başlamışam. İşdə qapını arxadan açarlayıram ki, içəri girən olmasın. Başa düşürəm, belə olmaz, bu, pisdi… amma, özümlə bacara bilmirəm.

– Adamlardan qaçmağınızın səbəbi özünüzə aydındır?..
Xəstə çiyinlərini çəkib susdu.
– Bəlkə adamlardan pislik görmüsüz, onlardan qorxursuz, yoxsa onlarla darıxırsız? Dəqiqləşdirə bilərsiz?..
– Adamlardan əsəbiləşirəm.
– Səbəbi nədir?..
– Səbəbi?.. Səbəbini dəqiq bilmirəm. Məncə odu ki, mənimki onlarla tutmur.
– Deyirsiz, dostlarınız olub, indi birdən-birə tutmur. Bunun bir səbəbi olmalıdır axı?!.. – professor dedi və fikirləşdi ki, bu dəqiqə onun nəyinə lazımdı axı, kimin sözü kiminlə tutur, ya tutmur.
– Elə arvadım da bunu deyir. Elə ona görə də məni bura göndərdi.
Professor canında birdən-birə dəhşətli bir darıxma hiss elədi:
– Tək qalanda nə edirsiz, nə ilə məşğul olursuz? – dedi.
– Əsasən kitab oxuyuram, dini kitablar.
– Belə de… Peşəniz nədi?
– Əlyazmalar İnstitutunda işləyirəm. Özüm dilçiyəm. Tərcümə ilə məşğul oluram. Bu dəqiqə əlimdə qədim Misir rəmmallarının «Yuxu məkanı» adlı maraqlı əlyazmasını tərcümə edirəm. Düzünü deyim, əsəblərim ən çox da elə bundan pozuldu.
«Yuxu» sözündən professorun ürəyi düşdü.
– Deyirsiz əsəbləriniz bundan pozulub? İzah edə bilərsiz niyə?..
– Niyə?.. – xəstə elə bil bu sualdan çaşdı. – Onu deyə bilmərəm...
– Siz o əlyazmanı əvvəldən axıra qədər oxumusunuz?..
– Bəli, oxumuşam. Əlyazma elə də böyük deyil, təxminən iki yüz səhifə olar. Arada bəzi səhifələri itib, bəzilərində mətn pozulub.
– Maraqlıdır… – professor həyəcandan təngiyən nəfəsini nizama sala-sala bayaqkı təmkinlə dedi. – Bilirsiz, açığı, mən də qədim yazılar həvəskarıyam. Yaxşı kitabxanam, arxivim var. Yuxular barədə məndə olanlar, sırf tibb ədəbiyyatıdır…
– Yox, professor, dilimdə Misir deyirəm. Qədim, əfsanəvi Misir… – bu sözdən nədənsə xəstənin yanaqları qızardı. – Bu, əlyazmanın əsli deyil, surətidi. Bunun əsli ələ düşməz. Təsəvvür edin, bu əlyazmanın tarixi bilinmir.
Professor xəstəyə qulaq asa-asa fikirləşdi ki, gözündə zərrə qədər xəstəlik əlaməti olmayan gümrah adamın bu təşrifinin, yuxuları kimi, məqsədi var.

– …və bu yuxular, insanın fizioloji halı kimi yox, insanı o dünyayla bağlayan yeganə körpü kimi təhlil edilir.
Professor yenə xəstə titrətmə ilə üşüdü, ayağa qalxıb asılqandan paltosunu götürdü, çiyninə salıb yerinə otura-otura fikirləşdi ki, özünü ələ almalıdı. O, hər şey bir yana, həkimdi. Qarşısında oturan adamın, onun köməyinə ehtiyacı var. Bu dəqiqə o yalnız onu dinləməlidi, özü də mümkün qədər təmkinlə. Öz xəstə yuxularını, müvəqqəti də olsa, qırx beş il bundan Tibb İnstitutunun iclas zalındakı təntənəli mərasimdə içdiyi müqəddəs Hippokrat andının naminə də olsa, unutmalıdı.
– Maraqlıdı… – professor sönmüş qəlyanını yandırdı.
– Çox maraqlıdı. – xəstə həvəslə danışırdı – Orda deyilir ki, yuxu – insanın ruhunun bədənini müvəqqəti tərk edib hansısa görünməz aləmlərlə əlaqəyə girmə məqamıdır. Bu aləmlərin, daha doğrusu, bu məkanların mövcudluğu orda elmi dəlillərlə sübut edilir. O dəlillərə görə, yuxu, bu dünyayla o dünya arasında asılan görünməz laydır…
Min bir möcüzə və sirlər dolu yuxuları professorun gözü qarşısından keçdi…
Əgər bu xəstə tərcüməçinin sözündə həqiqət var idisə, demək professor bu mənzərələri – öz evində, yorğan-döşəyinin içində uzana-uzana yox, ayağının altını hiss etmədən o yerlərə səyahətə çıxanda görmüşdü.
– …odu ki, adəm əhlinə qadağan edilir.
– …Üzr istəyirəm, fikrim yayındı. Deyirsiz nə qadağan edilir?..
– Yuxuları yadda saxlamaq. Orda deyilir ki, insan, yuxusunu yadında saxlasa, istər-istəməz o adamın bir ayağı bu dünyadan üzülməyə başlayır.
– Necə yəni?..
– Orda yazılır ki, yuxuları yadında qalan adam artıq burda yaşaya bilmir. Daim ora, həmin o məkana can atır... Mən bunu başa düşürəm. Yəqin orda insan tam azaddır.
– Nə mənada?.. – professor elə bil diksindi.
– Orda bu barədə dəqiq bir söz yazılmır. Məncə orda gündəlik həyatın çərçivə və qanunlarından azad olmaq olur.
Oğlan bunu deyib elə bil fikrə getdi. Elə bil daha nə isə deyəcəyini yadına salmağa çalışdı.
– Hə… O məkana düşənlər bəzən yollarını azıb oraların təhlükəli yerlərinə də ilişirlər.
…Professorun ürəyi düşdü. Dünən bədbəxt akademikin burda, qapının

ağzında çönüb ümidsiz vücudu ilə təsvir etdiyi boz mənzərənin, ona hardan tanış gəldiyini xatırladı… Professor o mənzərəni təxminən iyirmi gün bundan əvvəl yuxusunda görmüşdü. Deməli… – professor, ürəyinin döyüntülərini eşitdi. – …Deməli o, akademikin təsvir elədiyi həmin o yerdə olmuşdu… Akademikin dediyi kimi, oralar həqiqətən yuxu deyildi… Yoxsa, o yeri akademik, eynilə onun gördüyü kimi təsvir edə bilməzdi… Sonra, professorun yadına düşən növbəti fikirlər az qaldı ürəyi dayana… …Akademik, təsvir elədiyi həmin o yeri cəhənnəm adlandırmışdı… Demək, yuxunu yadda saxlamaq – həmin məkanın ixtiyarına keçməkdi.
– …yuxu məkanının ixtiyarına…
…Professor nə dediyini özü də bilmirdi, bir onu bilirdi ki, hər şey durulub açılmaq əvəzinə, get-gedə düyünlənib qəlizləşirdi.
– Bəli, bəli, – xəstə artıq müəllim kimi danışırdı – …yuxu məkanının. Həmin o yuxu məkanının ixtiyarına keçmək – o dünyanın astanasına keçmək deməkdi. Orda bir fəsil ancaq bu barədədi. Əlyazmanın ən sehrli yeri də odur. Orda deyilir ki… – bu yerdə xəstə, nəyə görəsə səsini azaltdı – yuxu məkanının ixtiyarına keçmək – İblisin nəzarəti altına – Zonaya düşməkdi…
…Bir anda professorun burnunun ucu, sağ qulağı və çənəsi – üçü də birdən elə gicişdi, professor özünü vəhşi ehtirasla qaşınmaqdan zorladı.
– Yuxuya aludəlik, yəni yuxuya meyl, bu dünyadan küsmək kimi bir şeydi. Bu cür yuxu aludəliyi orda, Allahı qəzəbləndirən intiharla müqayisə edilir. Yuxuya can atmaq, yuxuda yaşamaq, Allahın yaratdığı işıqlı dünyadan üz çevirib küsməkdi. Allahdan küsmək.
– Maraqlıdı. – professor yenə süni laqeydliklə dedi və hiss elədi ki, başı gicəllənir.
– Orda yazılıb ki, həmin o məkana, təkcə yuxuya aludə olanlar düşmür. Allahın qarşısında bağışlanmaz günahı olanları da yuxularından çəkib ora salırlar.
Professor yenə bədbəxt akademiki xatırladı… Akademik öz günahını bilirdi. İndi daha onun da günahı özünə aydın idi. O, yuxuda yaşamaqla, sən demə, özü də bilmədən, Allahdan üz çevirmişdi.
– …Bunlar xırda şeylərdi… – xəstə susmaq bilmirdi, elə danışırdı, elə bil neçə vaxtdan bəri həsrətlə bu əlyazma haqqında ona mühazirə deməyə hazırlaşmışdı, - …Orda yazılıb ki, Allahı ən çox qəzəbləndirən, onun adına, yaratdığına, dərgahına toxunmaqdı.
…Professor fikirləşdi ki, akademikin yazdığı o elmi işi, mütləq, günü elə

bu gün, nəyin bahasına olursa-olsun, əldə etməlidi. Bu qarmaqarışıq, kilkəli tilsimdən çıxmağın yolunu ona, yalnız və yalnız balaca akademikin o qadağalı yazıları göstərəcəkdi.
– …Ordan geriyə yol yoxdu. – xəstə deyib, qəribə bir hüznlə professora baxdı.
– Ordan, yəni…
– Həmin o məkandan. Orda elə-belə də yazılıb.
Professor fikirləşdi ki, qəribədi bu oğlan onun fikirlərini elə bil beynindəcə oxuyur, ürəyində bitən ani suallara o andaca cavab verir. Sonra nə oldusa, birdən-birə, bu cavan adamın üzü professora şübhəli gəldi. Oğlanın nazik burnu, qövsvari qaşları, qulaqlarının iti ucları – onu balaca, fitnəkar şeytana oxşadırdı.
Professor ürəyi sıxıla-sıxıla fikirləşdi ki, niyə bu adam, gələndən bəri yuxulardan danışır?.. Bəlkə bura elə bundan ötrü gəlib?.. Bəlkə onu bura göndəriblər?!. Göndəriblər ki, neçə vaxtdan bəri başını sındıra-sındıra açmaq istədiyi düyünü ona açsınlar, hansı əməlinə görə ölüm hökmünə məhkum olduğunu, bu başdan izah etsinlər…
– Hə, belə-belə işlər. – professor bunu həm fikirləşdi, həm də dedi. Sonra yenə başı gicəlləndi…
…Hamısı yorğunluqdu… beyin və əsəb yorğunluğu… bir də yuxu dərmanı… – professor düşünüb eynəyini çıxartdı, üz-gözünü ovuşdurdu. …Bu, son idi… – fikirləşdi – hər şey – hadisələr, yuxular və əlyazmalar bir şey deyirdi: o, – astanada idi…
– Maraqlanırsızsa, mən o yazını sizə gətirə bilərəm. – xəstə dedı.
– Yox, yox, lazım deyil, təşəkkür edirəm. – professor dedi və nə qədər gözlərini açıb-yığdısa da, heç cür başgicəllənməsini saxlaya bilmədi. Başı get-gedə lap sürətlə hərləndi.
– Deyəsən özünüzü pis hiss edirsiz, professor. – oğlan dedi.
Professor həqiqətən özünü pis hiss edir. Gözləri qaralır, qulaqları uğuldayır, ürəyi bulanırdı.
Oğlan stolun ütündəki qrafindən su töküb stəkanı professora uzatdı… Oğlanın əli titrəyirdi deyə stəkanın içindəki suyu xırda-xırda çalxalayırdı. Görünür əsəbləri əməlli-başlı pozulub… – professor gözləri qarala-qarala, oğlanın əlindəki stəkana baxa-baxa fikirləşdi. Sonra professor əlini stəkana sarı uzatdısa da, heç cür stəkanı oğlanın əlindən ala bilmədi, eləcə oturduğu yerdə, harasa arxaya getdi, otaq başına hərlənə-hərlənə qaldı… Bulanıq gözləri ilə, oğlanın ayağa qalxıb ona sarı

gəldiyini, əyilib ucuiti qulaqlarıyla, sivri burnuyla, qırmızı gözləriylə üzünə yaxından baxdığını, sonra dikəlib ehmal addımlarla barmaqlarının ucunda qapıya sarı getdiyini gördü…
Sonra professor nəfəsi kəsilə-kəsinə, oğlanın ayağında işım-işım işıldayan təptəzə dikbadan, sumağı çəkmələri, gedə-gedə əyninə geydiyi tanış, boz gödəkçəsini gördü və havasızlıqdan gözlərinə qaranlıq çökdü…
Bir qədər sonra o, hardansa başıaşağı vəziyyətdə asılmışdı… Bədəninin qanı, görünür uzun müddət başıaşağı asıldığından təpəsinin ortasında lükküldəyirdi... Sonra elə bil təpəsinin hansısa damarı lükkültüyə davam gətirməyib çatladı və qanı ağır damcılarla harasa dərin dibsizliyə damcıladı… Damcıların səsi hardansa lap uzaqdan, elə bil yerin o üzündən eşidildi… Həm də üşüdü… Çənəsi əsəbi bir titrəyişlə əsib dişlərini bir-birinə dəydi... Biləklərinə, topuqlarına, sarılan soyuq, sürüşkən dərili ilanabənzər əcaib heyvanlar… kor başlarını professorun biləklərinə dirəyib qanını sümürdülər… Tərpənməyə, qışqırmağa heyi yox idi… Tərpəndikcə təpəsindən süzülən qanın axını güclənirdi, biləyindəki kor ilanların dişsiz ağızlarını bir az da dərinə yeridirdilər… Bu rəzillikdən gözlərini yumub özünü yuxuya verməyə çalışdı. Qan itkisinin, ölümün ən asan yoludur – yuxu yolu olduğunu yaxşı bilirdi.
…Sonra onu elə asıldığı yerdəcə silkələdilər… Canı sızıldadı…Kimsə ağır əlini çiyninə dirəyib kobud-kobud tərpətdi, aradabir üzünə su çilədi…
…Gözünü zorla açdı…
…Klinikanın bir neçə həkimi, tibb bacıları, ətrafına yığışmışdılar. Qollarında, yalın topuqlarında kardioqram cihazının sulu əmzikləri vardı. Bayaqkı xəstə də burda idi, ağarmış bənizi ilə həkimlərin arasından ona baxırdı. Xəstənin qulaqları bayaqkı kimi ucuiti deyildi.
– Deyəsən, özünə gəldi. – kimsə başının üstündə dedi, sonra üstünə əyilib üzünə lap yaxından baxdı:
– Professor, indi necəsiz?.. – dedi.
Baş həkim də burda idi, qapının ağzında dayanıb qəhərli səsi ilə astadan kiməsə:
– Hamımızın axırı budu. – deyirdi…
Gözləri yenə bulanıq idi… başı hərlənmirdi. Sinəsinin üstündə ağırlıq var idi.
…Sonra həkimlər köməkləşib deyəsən onu xərəyə keçirmək istədilər.
– Lazım deyil… – professor dedi, dilinə sızan dərmanın kəskin iyindən

elə bil özünə gəldi.
– Bəlkə sizi evə aparaq, professor?.. – bayaqkı xəstə günahkar üzü ilə dedi. – Sizi mən yordum.
– Lazım deyil, əziyyət çəkməyin. – professor dedi və yenə bu qayğıkeş xəstənin Misir əlyazmasını xatırladı. – yaxşıyam daha.
…Professor heç cür evə gedə bilməzdi, özünü bilə-bilə ölüm qoxulu yuxularının, qollarını qoynunda çarpazlayıb səbirsizliklə yolunu gözləyən yuxu məkanının elçisinin – boz gödəkçəli oğlanın ixtiyarına verə bilməzdi…
– Daha yaxşıyam… – professor dedi – narahat olmayın, bir azdan özüm, asta-asta gedəcəyəm.
Bayaqkı xəstə, həkimlər dağılışandan sonra da, getmədi, qapının ağzında dayanıb əllərini arxasında didişdirə-didişdirə:
– Məni bağışlayın, professor… – dedi. – Sizin işiniz onsuz da ağırdı… Mən də bu yandan…
…Professor bu dəqiqə bircə onu istəyirdi ki, bu bədniyabət amöbəbənzər adam tezliklə çıxıb getsin.
…Xəstə bir müddət də qapının ağzında dayanıb astadan, arada bir ağzının içində nə isə deyə-deyə qayğıkeş gözlərlə professora baxdı, sonra çönüb çıxdı.
…Xəstə gedəndən sonra, professor bir müddət gözü qara telefon aparatında, oturduğu vəziyyətdə qaldı…
…Balaca akademiki elə bil bu aparatın içində basdırmışdılar…
…Hər şey qəliz və mürəkkəb idi… – professor özünə gələ-gələ fikirləşdi.
– …Otağına girəndən bəri, qədim əlyazması ilə, ona kəsilən ölüm hökmünün səbəblərini açan bu adam, bura, onun yanına, bu qəddar hökmün ona, hansı günahlarına görə kəsildiyini başa salmaq üçün göndərilmişdi.
…Hiss elədi ki, yenə alnına soyuq tər gəldi…
…Demək… – xalatının cibindən burun yaylığını çıxarıb alnına hopdurdu – …demək, öz yuxu səyahətləri ilə gör bir gedib haralara ilişmişdi?!..
…Sonra professor, başının tükləri qabara-qabara, yuxuda təsadüfən izinə düşdüyü boz gödəkçəli adamın, İstiqlaliyyət küçəsindəki Elmlər Akademiyasının girəcəyində ayaq saxlamasını, qəfildən geriyə çönüb onu görməsini xatırladı…
Görünür, bu ehmal hərəkətli yuxu casusu, həmin an akademiyanın binasına, Siracova görə girirmiş… Olsun ki, akademik həmin o gecə,

yuxuda, həmin o İstiqlaliyyət küçəsindəki akademiyanın binasında imiş…
… Hiss elədi ki, nəfəsi daralır.
Ayağa qalxıb nəfəsliyi açdı, bir müddət pəncərənin qabağında dayanıb içəri dolan təmiz havadan uda-uda küçəyə baxdı…
…Yağış yağırdı…
…İlahi, hər şey necə də dəqiq idi?.. Niyə hər şey bu qədər dəqiq idi?!. Hər şey, dahiyanə ustalıqla işlənmiş simmetrik naxışlarla yan-yana, üst-üstə, ağlasızmaz, lakin hansısa qorxunc məntiqli mənzərə yaradırdı. Bütün bunları səhv fərziyyəyə, adi təsadüfə, yaxud anlaşılmaz uyğunluğa oxşatmaq üçün professor, xırdaca da olsun, çıxış nöqtəsi, işıq ucu tapa bilmirdi. Hər şey ovuc içi kimi aydın idi: – o, qarısının axtarışlarında məskən saldığı yuxularında, özü də bilmədən, ölümə məhkum kəsin ovlanma əməliyyatına düşmüşdü, bu məxfi aktın iştirakçısına çevrilmişdi…
…Aydın olmayan və bütün bu aydınlığı çalxalayıb qarışdıra bilən bir şey qalırdı. Akademikin əlyazması. O əlyazmanı professor mütləq tapmalıydı. Yoxsa, başını aşağı salıb, qurbanlıq qoyun kimi evinə yollana bilməzdi, özünü, o qırmaqlı yuxuların ixtiyarına verə bilməzdi.
Stolunun arxasına keçib siyirtməni çəkdi, sonra döyüntüsü hələ də qaydasına düşməyən ürəyini xatırlayıb qəlyanı siyirtmənin dibinə itələdi. Qapı yenə xırda-xırda döyüldü.
Gələn yenə tibb bacısı idi, armudu stəkanda çay gətirmişdi, stəkanı professorun qabağına qoyub:
– Limon tapa bilmədim… – dedi – için professor, təzə dəmləmişəm.
Qız gedəndən sonra, professor qaşığı, çayın içində hərləyə –hərləyə fikirləşdi ki, demək o, heç kimə dəyib-dolaşmadan, bir işə qarışmadan, səhərlər – klinikasındakı iş otağına, axşamlar – tənha evinə gedib gələ-gələ, öz yorğan-döşəyinin içində, öz yuxularında, özündən xəbərsiz, bağışlanmaz, yuyulmaz səhvə yol vermişdi. Demək…- professor ağlına cələn növbəti fikrin təsirindən qəribə btr kövrəkliklə kövrəldi…- bütün bunlardan belə çıxır ki, insan yuxularında belə, azad deyil… Qadağa-qanunların ən təhlükəlisi, ən qəddarı, sən demə, insanın özündə, heç kimin müdaxilə edə bilmədiyi içindədi…
Sonra professor, bir xeyli də, psixiatriya nəzəriyyəsinə və praktikasına dair oxuduğu kitablarda, bu fikrinə dair nə isə yadına salmağa çalışdısa da, yadına heç nə düşmədi…

* * *

…Akademikin cənazəsi, akademiyanın böyük iclas zalında, gül səbətləri ilə dolu dəyirmi səhnənin ortasında, qırmızı məxmər üzlü hündür pyedistalın üstündə idi deyə, meyitin rəngsiz üzü, qarnının üstə çarpazladığı cansız əlləri, cərgələrdən aydın görünürdü.
…Akademikin üzünün tanış qorxu ifadəsi, dünəndən bəri olduğu kimi qalmışdı. Burun pərəkləri iri-iri açılmış, çənəsi, ağlamsınan tək, büzülmüşdü. Həmin bu ifadəylə bir gün bundan əvvəl o,onunla üzbəüz oturmuşdu, çöpdən yapışan kimi, əlacsız gözlərlə yaxasından asılmışdı.
…Bu fikirdən, professorun içinə qəribə bir üzüntü çökdü. Akademikin ölümündə, həm də elə bil necəsə, onun da təqsiri var idi… – professor bığının uclarını çeynəyə-çeynəyə fikirləşdi – və bundan sonra, alnına yazılan ömrünü, bəlkə də artıq barmaqla sayılası günlərini, bu günah hissi ilə yaşayacaqdı.
…Zalda, qabaq cərgədə oturan yeddi-səkkiz qadından, beş-on kişidən, bir də növbə dəyişməyə adam olmadığından, fəxri qarovulda dayanmaqdan, hərəsi bir yana əyilən, döşü ordenli qocalardan savayı heç kəs yox idi. Onlar da, cənazənin yanında dayana-dayana, meyitə vurulan formalinin iyini canlarına çəkə – çəkə, tabutda yatan akademikə oxşamağa başlayırdılar.
…Formalinin iyini, zalın orta cərgələrində əyləşən professor da hiss eləyirdi və bu iyin, cənazədə uyuyan akademikdən çox, ona aid olduğu barədə düşündü. Ağır matəm musiqisi də, elə bil bu dəqiqə, akademikin hüzür mərasiminə yox, professorun, yuxularında ilişdiyi gedər-gəlməzə çalınırdı…
Professor, akademiki qəbiristanlığa qədər müşayiət etməyin mənasız bir iş olduğu barədə hələ bura gələrkən, yolda fikirləşmişdi. Bu dəqiqə səhnədə, qırmızı məxmər üzlü pyedistalın üstündə, gül-çiçək dağının altında uyuyan əhəng rəngli bu cansız vücudun, əslində, akademikə heç bir dəxliyyəti olmadığını professor yaxhı bilirdi.
Akademik bu dəqiqə, bəlkə də həmin o boz, fırtınalı dənizin sahilinə çathaçatdaydı… Bəlkə də, zavallı alimi, elə indilərdə, o birilərə qatıb yeşiklərə yığırdılar…
…Saatına baxdı. Dördə qalırdı. On beş dəqiqədən sonra cənazə götürüləcəkdi.
…Ayağa qalxıb, ehmal addımlarla cərgələrin arası ilə qabağa keçdi,

qabaq cərgədə oturan qara örtüklü qadının arxasında əyləşib, bir müddət də, səhnəyə ordan baxdı.
…Akademikin cəsədi, yaxından baxanda, qətiyyən özünə oxşamırdı. Elə bil üzü kökəlmişdi. Bədəni də, elə bil, akademikin cılız bədənindən cüssəli idi. Ya bəlkə bu, ona elə gəlirdi? Ya da ola bilsin, akademikin meyiti havadan şişib beləcə üfürlənmişdi?!.
Qabaqda oturanlar dinməz-söyləməz səhnəyə baxırdılar, arada bir, kimsə burun yaylığını ehmalca gözlərinin kənarlarına toxundururdu.
…Professor qabağa əyilib qara örtüklü qadının qulağına:
– Allah rəhmət eləsin… axır qəminiz olsun… – dedi.
Qadın çönüb, yaşlı gözlərlə professora elə baxdı, elə bil professor, onun qulağına nə isə biədəb bir söz demişdi. Sonra incik ifadə ilə yanındakı nərmənazik qadını göstərib:
– Mərhumun yoldaşı budu… – dedi.
…Akademikin arvadı, orta yaşlı, şiv bədənli, gözəl qadın idi. Üzünün sivri cizgiləri ilə yanakı çönüb astaca:
– Professor?!. Sizi səsinizdən tanıdım… – dedi.
– Mən… - professor nə deyəcəyini unutdu - Allah rəhmət eləsin, axır qəminiz olsun… – deyib geriyə söykəndi.
Akademikin xanımı, elə bil professoru eşitmədi, heç nə demədən, bayaqkı kədərli üzü ilə səhnəyə baxdı.
– Mən… – professor yerində qurcalanıb qabağa əyildi. – dönə-dönə üzr istəyirəm… Yəqin ki, bunun yeri deyil… – çətinliklə dedi – sizinlə balaca söhbətim var… Mümkünsə, təcili…
– Mənimlə?.. – qadın üzünü çevirmədən, pıçıldadı.
– Bəli – bəli, sizinlə… – tələsik deyib, əvvəl saatına, sonra yan-yörəsinə baxdı. – Çox xahiş edirəm… beşcə dəqiqəlik…
– Axı indi…
…Qara örtüklü qadınlar çönüb ikrahla professora, sonra akademikin arvadına baxdılar.
– Qulaq asın, istəyirsiz elə burda danışaq. Bilirsiz, məsələ ondadır ki…
Bu məqam professorun gözü səhnəyə - akademikin cəsədinə sataşdı…Akademik qarnının üstə çarpazladığı əllərindən birini qaldırıb saldı.
Professor özünü toplayıb, ətrafda oturanlara baxdı. Hamı bayaqkı səbrlə, hüznlə səhnəyə baxırdı.
– …Məsələ ondadı ki, mənə, mərhumun son əlyazması lazımdı.

Mümkünsə təcili.
Akademikin arvadı, professorun son sözlərindən, elə bil diksindi, çönüb kömür bəbəkləriri professorun gözünün içinə zillədi.
– O, sizə əlyazma barədə nə isə deyib?..
– Bəli… – professor duruxdu – …Deyib deyəndə ki… demək olar ki, deyib…- dedi.
Akademikin arvadı başını geriyə, professora sarı əyib yarıpıçıltı ilə:
– Mən onu sizə verə bilmərəm …- dedi.
– Niyə?.. Siz elə bilirsiz…
– Mən onu yandırmışam. Elə dünən… O, keçinən kimi.
…Qadının bu sözündən, matəm musiqisi kəsildi, milli himn çalındı.
…Professor geriyə söykənib, qulaqları uğuldaya-uğuldaya səhnəyə, gül-çiçəyin arasında uyuyan akademikə baxdı.
Akademik daha əl eləmirdi. Nəhəng, sarımtıl zal, qabaq cərgədə yanbayan oturan qadınlar, elə bil harasa geriyə getdi… səhnədəki tabut yekəlib az qala xirtdəyinə dirənirdi…
…Ayağa qalxıb paltosunun ətəkləri, cərgələrə ilişə-ilişə zaldan çıxdı. Özünü, vestibülün yuxarı başındakı zibil qutusuna zorla çatdırdı, heç kim görməsin deyə, başını küncə dirəyib ögüdü...
…Mədəsi bomboş idi. Paltosunun cibindən yaylığını çıxarıb ağzını sildi, sonra xatırladı ki, nə bu gün, nə də dünən dilinə, sudan savayı bir şey dəyməyib.
…Akademikin elmi işini də o yandırtmışdı – bozgödəkçəli…- professor fikirləşdi - …həmin o qadağa fikirləri Yer üzündən birdəfəlik silməkdən ötrü …
…Ətrafa baxdı. Vestibül bomboş idi.
…İndi o, neynəməliydi?.. – əllərini cibinə salıb pəncərənin qabağına keçdi –…Özünə kəfən almalı idi, o kəfəni bədəninə sarıyıb boz elçinin yolunu gözləməliydi?!.
…Hiss elədi ki, bağırmaq, səsi gəldikcə, ulayıb buraların sakitliyini pozmaq istəyir.
…İki nəfər yüksək rütbəli hərbçi pilləkənləri qalxıb, ona məhəl qoymadan, astadan söhbət edə – edə zala daxil oldular.
Üzünü divara çevirib pəncərənin məhəccərinə söykəndi.
…Hamısı əsəb pozğunluğu və yorğunluqdu… – özünü sakitləşdirə-sakitləşdirə fikirləşdi, bayaq, zalda oturanda barmaqlarının arasında ip kimi burub əyirdiyi yaylığını səliqəylə dörd qatlayıb pencəyinin cibinə

qoydu.
…Bəlkə hələ ki, ayağı bu dünyadan üzülməyib?.. – fikirləşdi – ...Bəlkə, bu dünyayla, xəstə tərcüməçinin dediyi əlaqəsi hələ ki, kəsilməyib? Sonra birdən professorun yadına, bir gün bundan əvvəl, balaca akademikin, başını qolunun üstünə qoyub ağlamağı düşdü. Bu dünyadan üzülmək bədbəxt akademiki də qorxudurdu.
…Zalın qapıları taybatay açıldı. Akademikin qara, atlas lentlərlə, ordenlərlə bəzədilmiş cənazəsi, cənazənin ardınca çıxarılan əklillər, sonra adamlar göründü…
…Professor bir istədi, gözdən yayınıb pilləkənləri düşə, özünü küçəyə salıb adamlara qarışa… gözü, akademikin arvadının ardınca vestibülə çıxan qara örtüklü qadınların nifrət və kinayə dolu baxışlarına sataşdı.
…Cənazə böyründən ötüb, aşağı mərtəbəyə üzdü.
– Professor…
…Akademikin arvadı idi, cənazənin ardınca gedən adamların arasından ona baxırdı…
…Başını aşağı salıb adamlara qarışdı.
…Küçənin bir hissəsində maşınların hərəkəti dayandırılmışdı. Cənazə, İstiqlaliyyət prospektinin ortasıyla, təntənəli izdihamın üstü ilə üzürdü… Həmin bu prospektdə bir neçə gün əvvəl professor bozgödəkçəlinin nəzarətinə düşmüşdü.
Akademikin arvadı addımlarını yavaşıdıb onunla yanaşı addımlayırdı.
– Məni bağışlayın. Bayaq, siz zaldan çıxanda vəziyyətinizi gördüm. Akademikin arvadından formalin iyi gəlirdi. Görünür bütün gecəni, akademikin formalinlənmiş meyiti ilə bir otaqda keçirmişdi… – professor fikirləşdi. Sonra professor, belə gecələrin birində, həmin bu formalinlənmiş bədəni ilə özünü, öz balaca mənzilində stolun üstünə qoyulmuş tabutda gördü…
Akademikdən fərqli olaraq, professor səhərəcən həmin o dərmanlı bədəni ilə təmtək qalacaqdı.
– Professor… – akademikin arvadı balaca əl sumkasını sinəsinə basıb xırda addımlarla yeriyirdi… – Mən bilməliyəm, o əlyazma sizin nəyinizə gərəkdi.
Akademikin arvadı bunu deyib, qəfildən professorun gözünün içinə baxdı.
– Mən…- professor dedi və hiss elədi ki, bu dəqiqə bu təntənədən, bu qorxunc prospektdən qurtulmaq istəyir. Akademikin arvadı qoluna girdi:

-Bilirsiz, mən onun əlyazmalarını heç vaxt oxuya bilmirdim. Axı o, köhnə əlifba ilə yazırdı. Mən bilmək istəyirəm, o, nə ilə məşğul olub. Elə bilirəm, buna haqqım var.
– Əlbəttə. Sözsüz. Məsələ burasındadır ki, mən də o əlyazmanı elə buna görə istəyirdim.
– Mənə elə gəlir… – akademikin arvadı ovcunda bürüşdürdüyü yaylığı ilə sulu burnunu sildi – …mənə elə gəlir, siz məndən nə isə gizlədirsiz. O da son vaxtlar nə isə gizlədirdi məndən.
…Professor, ayaqlarını ardınca zorla sürüyə-sürüyə fikirləşdi ki, hansı ağılla bura gəldi?..
– Mən indi başa düşürəm… – qadın gözlərini qıyıb harasa uzaqlara baxırdı –… hamısı o əlyazmanın işidi. O əsəri yazmağa başlayandan, bədbəxtin çərxi döndü, beyni qarışdı, əsəbləri pozuldu, yuxularına haram qatıldı.
«…Yuxularına haram qatıldı…» – professor ürəyində bir neçə dəfə təkrar elədi. Görünür, yuxusuna haram qatan tək bir o, və bədbəxt akademik deyilmiş. Bu barədə hətta zərb-məsəl də varmış… – professor fikirləşdi.
- O əlyazmanı yandırmasaydınız… – professor deyib ayaq saxladı, akademikin arvadından gələn formalinin iyi yavaş-yavaş elə bil paltosuna hopurdu... – Məni üzürlü hesab edin. Sağ olun… – deyib çöndü, adamların arasından keçib səkiyə çıxdı, əllərini cibinə salıb heç nə fikirləşmədən, izdihamdan uzaqlaşdı.
– Professor…
Akademikin arvadı tələsik addımlarla arxasınca gəlirdi...
- Professor, mənə qulaq asın…
Akademikin arvadı bunu deyib, dik dabanları üstə büdrəyə-büdrəyə, əl çantasından çıxardığı balaca qeyd dəftərçəsini professora uzatdı:
- Götürün bunu. Bəlkə işə yarayar. Onun qeyd dəftərçəsidi. Nə yazırdısa, əvvəlcə burda qeydlər edirdi.
Ayaq saxlayıb dəftərçəni aldı. Dəftərçə, əl boyda qırmızı, nimdaş cildli kitabça idi, vərəqlərinin çoxu saralıb yerindən qopmuşdu, nə iləsə onun yuxularını xatırladırdı. Elə bil həmin o vahiməli yuxudan – bozgödəkçəli adamla ağaclıqda süpürləşən an akademikin cibindən düşmüşdü…
– Son günlər elə hey ölümdən danışırdı, bədbəxt. Deyirdi, onu əlyazması ilə birgə basırdım. Mənsə, axmaq başım, o gecə, o, keçinəndə… elə bil ağlım yerindən oynadı… əlyazmanı divar peçinə basdım… – akademikin

arvadı yenə qəhərləndi. – Bunu da götürmüşdüm, əlyazmanın əvəzinə tabutuna qoyam.
…Professor dəftərçəni vərəqləyə-vərəqləyə fikirləşdi ki, dəftərçəni ona vermək, elə tabuta qoymaq kimi bir şeydi…
– Professor, söz verin ki, bunu oxuyub mənə hər şeyi izah edəcəksiz…
– Söz verirəm… – professor deyib, kitabçanı qoltuq cibinə soxdu, addımlarını yeyinlədib akademikin narahat arvadını, təntənəli izdihamı arxada qoydu, yolun o biri üzünə keçib qənbər daşlı səkilərlə üzüaşağı getdi.
…Getdikcə, əlini bir neçə dəfə qoltuq cibinə salıb barmaqlarını cib dəftərçəsinin cilidi ilə sürüşdürdü. Cib dəftərçəsi yumyumşaq və ilıq idi. Bir qədər də gedib, özünü, yaxınlıqdakı bağa saldı. Bağın gözdəniraq hissəsində özünə yer eləyib əyləşdi, dəftərçəni çıxarıb tələm-tələsik vərəqlədi, qopuq səhifələri o üz-bu üzə çevirdi.
…Səhifələrin bəzilərində xırda, əyri-üyrü hərflərlə nə isə yazılmışdı, kiçik sxemlər, cədvəllər cızılmışdı. Arada bir neçə boş vərəq vardı. Sonra qırıq sözlər, rəqəmlər.
Sözlərdən bəzilərini höccələdi:
«…O… dərk-olunmaz de-yil…» Sonra yenə, tələsik yazıldığından oxunmayan sözlər, qırıq cümlələr, qövsvari xətlər, müxtəlif kubşəkilli, rombvari fiqurlar, oxlar gəlirdi…
«…Ondan olan… bir ruhudur… » burda fikir qırılırdı…
…Yenə anlaşılmaz hərflər, qırıq sözlər, boş səhifələr, xırda rəqəməoxşar əcaib işarələr, ayrı-ayrı hərflər gedirdi…
Sonra yenə: «…in-san naqis-dir… təc-rübə apar… alimin uğursuz…»
Burda yenə fikir qırılırdı. Səhifənin kənarında yanbayan iki nida gedirdi, sonra: «…ruh – bədən… ruh – məhəbbət – bağı…»
…Professor bu sözü heç cür öxuya bilmədi. «Barmaqlar», yoxsa «bağbanlar», ya… «bağırsaqlar…» Özüdü ki, var: «bağırsaqlar…» - professor dönə-dönə höccələdi.
«…Məhəbbət və bağırsaqlar…» Məhəbbət və bağırsaqlar?.. Bu nə demək idi?!.
Ardını oxudu: «… bu vəhdətə görə əbədi kölə…- fikir qırılırdı, sonra: O-nun kö-ləsi… O onu heç vaxt azad…»
Azad etməyəcək… – professor ürəyində bir neçə dəfə təkrar elədi –… Kim azad etməyəcək?..
Sonra professor, səhifələri o üz-bü üzə çevirə-çevirə son cümləni bir də

oxudu və elə bil dumanlı da olsa, nə isə anladı.
Bəlkə də… – professor fikirləşdi. – Bəlkə yox, elə həqiqətən… Əgər bu dünyada yaşamaqdan ötrü insan, hər şeydən – yaşadığı mühitdən, havanın temperaturundan,öz bədəninin ayrı-ayrı düdük əzalarından belə asılıdırsa, əlbəttə ki…
Doğrudan da hər şey nə qədər gülünc və mənasız idi?!. – professor fikirləşib üzbəüzdəki sıx ağaclığa baxdı. Əgər insan it, pişik, yaxud böcək kimi ölmək üçün yaranmışdısa, onda niyə ona hissiyyat, mənəviyyat, məntiq və istedad verilirdi?..
Bütün bunlar dəqiqdi: məhəbbət və bağırsaqlar… – professor fikirləşdi və getdikcə qaralan göyə baxdı. Buna, acı istehzadan savayı, ayrı nə ad vermək olar?..
Həssas qəlbi, incə məhəbbət hissi ilə çırpınan gənc qızın, bir ucdan zavod kimi nə isə istehsal edən bağırsaqları… Yaxud, qocalıb qartıyıb qırışlar bağlayan, heç bir əzası düz işləməyən qocanın qəlbində cücərən, təravət dolu sevgi toxumu?!.
Əlbəttə, əlbəttə… – professor, ürəyi əsəbi-əsəbi çırpına-çırpına fikirləşdi – bu, istehza idi. Acı istehza. Niyə? Nə üçün?..
…Sonra nə oldusa, professora birdən elə gəldi ki, ağaclığın qaranlıq sıxlığından ona kimsə baxır… Bədənindən yenə tanış gizilti keçdi. Gözü, akademikin dəftərçəsindən skamyaya düşən səhifənin üstünə oturan çəhrayı ilbizə sataşdı. İlbiz, balaca başını qaldırıb kor üzüylə aşağıdan – yuxarı professora baxırdı…
Diksinib, ayağa sıçradı. Dəftərçə yerə düşüb, qopuq səhifələrini küləyin içinə dağıtdı. Xırda, sarı səhifələr – akademikin artıq ölü beyninin son izləri, yanıb külə dönmüş əlyazmanın adda-budda işartıları, küləyin içi ilə burula-burula bağın dörd bir yanına dağıldı…
…Professor səhifələrdən bir-ikisini havada tutdusa da, kağızların çoxunun uçub gizləndiyi qaranlıq ağaclığa girməyə ürək eləmədi.
…Hava elə bil, birdən qaraldı, həm də soyudu. Paltosunun yaxalığını qaldırıb ətrafına baxdı.
Bağ bayaqkı kimi kimsəsiz idi... Qəribəydi ki, şəhərin mərkəzində belə bir bağın olduğundan bu vaxtacan xəbərsiz idi… – üşüyə-üşüyə fikirləşdi. – Bu bağdan elə bil ümumiyyətlə, heç kimin xəbəri yox idi. Bayaqdan bəri bu tərəflərdən bircə adam belə, ötüb keçməmişdi.
…Hava qaraldıqca, elə bil ağaclığın xışıltısı da böyüyüb çoxalırdı… professorun yadına, bu gecəki yuxusunu, həmin bu xışıltının içində

boğula-boğula xırıldayan akademikin qətlini salırdı...
Əllərini paltosunun cibinə salıb bağın girişinə tərəf addımladısa da, girişin əvəzinə, qalın gövdəli sıx qovaq ağaclarının içinə düşdü. Bir müddət, əyin-başı, ağacların iti budaqlarına ilişə-ilişə, bağın kimsəsiz xışıltısından az qala ürəyi dayana-dayana girişi axtardı.
…Girişdən əlamət yox idi… Hava qaraldıqca, elə bil bağın olan-qalan girişləri də bağlanıb yoxa çıxcırdı…

Ağaclıqdan bir təhər sivişib, sürətlə, üzbəüzdə girişə oxşar qaraltıya sarı addımladı və yenə, bayaqkı yerə düşdü…
Sonra, vahimədən saçının dibi gizildəyə-gizildəyə, bir də onu başa düşdü ki, bağda bircə dənə belə olsun işıq dirəyi yoxdu.
…Külək bərkiyirdi… Professor bağın ortasına yeriyib bayaq, bu yerə bağın hansı səmtindən daxil olduğunu yadına salmağa çalışdısa da, bir şey alınmadı. Bağın dörd bir tərəfi alma kimi tən bölünmüşdü.
…Bu bağ, bu sıx ağaclıq, bu gövdəli qovaqlar, vahiməli xışıltı və qaranlıq, getdikcə onun darısqal, havasız yuxularını xatırladırdı…Bu fikirdən, professor, ürək döyüntülərinin ləngiyib zəiflədiyini hiss etdi, bayaq gəldiyi səmtin əks tərəfinə yeridi. Hardansa yaxından, küçə səsləri eşidilirdi. Arada bir, trolleybus siqnalı, maşın səsləri gəlirdi…
… Addımlarını yeyinlədib səs gələn tərəfə getdi və yarı yolda dəhşət içində donub qaldı…
Qarşıda yenə həmin sıx qovaq ağacları idi...
…Başı hərlənə-hərlənə ətrafına baxdı.
…Bağın dörd bir yanı, eyni biçimli sıx qovaq ağacları idi…
…Yerə çöməlib, başını dizlərinə qoydu…
Hardansa, bağın o tərəfindən, küçələrlə güllə kimi vıyıldayan maşın kortejinin səsi gəlirdi… Ruporda kiminsə qalın tembrli səsi həyəcanla:
– Yolları boşaldın!.. Yol verin!.. Yol verin!.. – deyirdi…

III FƏSİL

«Hökmdarların qəlbi oxunmur…»
Bibliya, Solomonun hekayətləri XXV fəsil, 3-cü bölmə

–…Vi Lillahi həmd… Allahü Əkbər kəbirə…
…Dizi üstə düşüb namazın divarlar boyu əks-səda verən duaları altında alnını döşəməyə söykədi, duanın sözlərini deyib başını döşəmədən qaldırdı, dikəlib əllərini açdı, duanın sözlərini deyə-deyə bir də təzim elədi, alnını döşəməyə qoydu. Xalçadan motal iyi gəlirdi…
– Və əzzə yundəhu və həzəməl əhzəba vəhdət…
…Hamıyla bir ayağa qalxdı, sağ tərəfində dayanıb duanın sözlərini ağzının içində deyə-deyə harasa tavana baxan nazirin uşaq üzünə bənzər kök, tüksüz sifətinə baxdı.
Nazirin gözləri fikirli, üzünün əzələləri gərgin idi. Elə bil doğrudan Allahla ünsiyyətdəydi.
Fikirləşdi ki, qəribədi, illər ötdükcə, hamı yaşa dolub qırış atdıqca, bu uşaq üzlü nazir ildən-ilə elə bil gəncləşir, gözləri durulur, üzü aydınlaşır, təmənnasız təbəssümü, üzünü körpə üzünə bənzədir. Nazir bütün bu illəri ona sadiq qala-qala, uzaqdan-yaxından, irili-xırdalı əmrlərinə tabe olub hüzurunda müntəzir dura-dura, həm də altdan-altdan gəncləşirdi. Nazirin bu gəncləşməyində, onun əleyhinə yönələn fitnəkar nə isə vardı elə bil.
Şeyx sol tərəfində, həmişəki kimi, qəsdən bir addım qabaqda dayanmışdı ki, onu, namazın müntəzir icrasında görməsin. Şeyxdən bir addım arxada, balaca, cansız başı ilə, oyuncaq əl-ayağına oxşar bükülməyən qol-qıçıyla əyilib-qalxan o biri nazirin ifadəsiz üzü, tükdən çox, qara, mərmər papağa oxşar saçları, başının dairəvi hərəkətləri, namazına ahənginə heç cür uyuşmurdu. Nazir işgüzar vücudu ilə səylə, elə bil hansısa gizli hərbi tapşırığı yerinə yetirməklə məşğul idi.
– …Və sübhanallah bukratan və asela Lailahə İlləlahu vəhdə…
…Yenə hamıyla bir dizi üstə düşüb alnını döşəməyə söykədi və fikirləşdi ki, bəndələrini gündə beş dəfə bu vəziyyətə salmaq, köləliyini yadına sala-sala, gündə əlli dəfə başını döşəməyə vurdurmaq Allahın nəyinə gərəkdi görən?.. Bəlkə Allah bundan güc alır?.. Bəlkə Allah elə bundan güc alır?..

Dikəlib əllərini açdı, duanın sözlərini dedi.
Arxada onun kimi dizi üstə oturub dua oxuyanların bütün diqqəti onda idi. Arxada, hamıdan qabaqda baş nazir dayanmışdı, son illərin hadisələrindən, gərginlik və qorxudan böyüyüb daha kiçilmək bilməyən iri, qara bəbəkləri yenə onun peysərinə zillənmişdi. Son vaxtlar baş nazirin bu şəvə bəbəkləri hara zillənirdisə, elə bil oralara kölgə salırdı.
– Və ala ali Seyyidi Mühəmməd Və ala Əshahi Seyyidinə Mühəmməd… Və ala Ənsari Seyyidinə Mühəmməd…
Sözsüz ki, baş nazirə, hələ onun ölümü lazım deyildi… – fikirləşdi. – Nə baş nazirə, nə də onun yanında dayanan «sadiq» nazirlərə. Bu dəqiqə onun ölümü hər şeyi dəyişib bulandıra bilərdi, yan-yörəsində yetim üzlərlə, xoşbəxt həyəcanla namaz qılan bu nazirləri, durğun gölün üzünə yığışan həşəratı, küləyin bir həmləsi dağıdan kimi, bircə həmləyə qovub dağıdardı. Gölün özü də şübhəli vəziyyətdə idi… – fikirləşdi və yenə təzim elədi. Yox, onun ölümü bu dəqiqə heç kimə lazım deyildi. Qocalmağı isə lazım idi… – fikirləşdi və ayinin icrasıyla hamıyla bir ayağa qalxdı, salavat çevirdi.
…Qocalmağı hava, su kimi lazım idi. Odu ki, arxasında oturub-durub dua oxuya-oxuya, neştər gözləriylə onun əzələlərinin vəziyyətini güdür, qocalığından xəbər verəcək ləngimələrini və büdrəmələrini altdan-altdan müşahidə edir, xırdaca bir dəyişikliyi, susuz balıq su damlasını dadan, az qala dərisiylə sümürən təki canlarına çəkirdilər. Görünür bir qocalmağı bu böcəklərin canlarındakı xofu əridirdi…
Qəribə idi ki, bu həşəratlar onun hüzurunda, mənasını özləri də anlamadıqları təhlükə hiss edirdilər. Həm də onsuz bacarmırdılar.
– La İlahə İlləlahu və Həzəmən Əhdə ba Vəhdət…
La İlahə İlləlahu və la nabdü…
Hamıyla bir dizi üstə oturdu…
…Şeyxin kök budları ona, dizi üstə rahat oturmağa mane olurdu, dəqiqədə bir, onu yerində laxladıb elə bil böyrü üstə yıxmaq istəyirdi. Ürəyi sıxıldı... O, bu adamlara, onların öz rahatlıqlarına görə, balaca canlarının, canlarından da əziz tutduqları əmlaklarının toxunulmazlığı naminə lazım idi. Onlar bunu utanmadan, elə beləcə, açıqca da deyirdilər: «Bu ölkəni müharibənin cəngindən qurtarsanız, siz qurtaracaqsınız. Balalarımızı xilas edəcəksiz, bu aclığın qarşısını Siz alacaqsınız. Yiyə durun bizə…»
Alnını döşəməyə söykəyib fikirləşdi ki, min bir nəfəs qoxuyan bu havasız

yerdə hər gün bu böcəklərlə yanbayan oturub qıldığı namaz bu müsəlman adət-ənənələri niyə ona bu qədər yaddı?
Bu havasız məscid, bu butavari, darıxdırıcı naxışlar, iniltili azan səsi, qəliz, anlaşılmaz sözləri heç cür dilinə yatmayan ərəb duaları…
Arxada kimsə dalbadal üç dəfə asqırdı, sonra fınxırıb elə bil açarı buran kimi, burnunu burub bağladı.
Məscidin xırda, dar nəfəslikli, naxışlı tavanına baxdı. Tavan yuxarı qalxdıqca daralırdı.
…Dikəlib oturdu, əllərini açdı, duanın sözlərini deyə-deyə fikirləşdi ki, dəxli nədir, gündə-gündə namaz qılmasa da, bu adamlarla bir yaşamalı, torpağa da əvvəl-axır onlarla bir bu gömülməlidi. Torpaqda onunla yanbayan yatacaq adamlar haqqında fikirləşdi…
Torpaqda onunla yanbayan – bütün ömürlərini, öz səthi anlayışlarıyla, naxışlı sözlərlə cılız dünyalarını yazıb yaratmağa həsr edən yazıçıları, ya da əllərindən iş gəlməyən bacarıqsız dövlət xadimlərini basdıracaqdılar yəqin.
Bu fikirdən, burnuna, Fəxri xiyabanın dörd bir yanında, qəbirlərin böyür-başında, ölü sümüklərinin toxumalarından şirələnib saralan çiçəklərin ölüm qoxulu ətri gəldi…
…Namaz sona yetdi.
Şeyx oturub-durmaqdan pörtüb tərləyən sifəti ilə, gərginlikdən çuxura düşüb altı qaralan gözləri ilə yaxınlaşıb kök əllərini uzatdı, əlini yumşaq-yumşaq sıxdı, arada, elə bil əyib öpmək istədi:
– Böyük savabdı… Cümə axşamı, şəhidlərin ruhuna namaz qılmaq, böyük savabdı… – dedi. – Bu gün, bu əziz gündə bura təşrif buyurmağınız, qiymətli vaxtınızdan ayırıb…
…Şeyxin əlləri tərli idi, onun əlini isti, ətli əllərinin içində saxlayıb buraxmaq bilmirdi və get-gedə daha məhəbbətlə sıxırdı, sıxdıqca da, niyəsə gözləri parıldayırdı.
…Əlini Şeyxin əlindən sivirib, ona tamaşa eləmək üçün məscidin az qala dağ-divarına dırmaşan camaata əl eləyə-eləyə, kameraların və gur işıqların, qıvraq mühafizəçilərin və nazirlərin müşayiəti ilə məsciddən çıxdı, bir müddət məscidin həyətinə yığışan camaata da əl eləyib pilləkənləri endi, küçədə, maşın cərgəsinin tən ortasında gözləyən maşınına mindi.
…Maşın korteji, məscidin darısqal küçəsinə yığışan camaatı yara-yara irəliləyib tini buruldu, üzüaşağı enib geniş prospektə çıxdı, sürətini artırdı.

– Yolları boşaldın!.. Yolları boşaldın!.. – hardansa qabaqdan ruporun səsi eşidildi.
– Birbaşamı gedirik, cənab General?.. – qabaq oturacaqda yanpörtü oturan köməkçi geriyə çönmədən, yola baxa-baxa dedi.
– Birbaşa. – deyib yanında oturan nəhəng gövdəli cavan mühafizəçinin üzünə baxdı.
…Oğlandan yenə qatı odekolon iyi gəlirdi.
Düyməni basıb pəncərənin şüşəsini endirdi. Fikirləşdi ki, niyə hər dəfə məsciddən çıxandan sonra bir müddət ürəyi bulanır?.. Bu ürəkbulanma, məscidin illərlə üzü gün görməyən nimdaş xalçalarının kiflənmiş iyindəndi, ya Şeyxin ətli əllərinin tərindən?
…Əlini iylədi… Əlindən Şeyxin kök əllərinin iyi gəlirdi. Mühafizəçi cibindən nəm ətirli salfet paketi çıxarıb, dinməz-söyləməz, onun əllərini sildi.
Fikirləşdi ki, niyə son vaxtlar iylər ona bu qədər təsir eləyir?!. Bədənində zəhərlənmə gedir, nədi?..
Bu fikirdən birdən-birə bədəni soyudu. Son günlər yediyi ayrı-ayrı yeməklərin dadını, balacaboy aşpazın şit qadın təbəssümünü yadına saldı…Yox, bu nə isə ayrı zəhərlənmə idi.
…Səkilər adamla dolu idi. Adamlar küləyə, çiskinə məhəl qoymadan, səkilərə yığışıb nə isə qışqırışa-qışqırışa kortejə əl eləyirdilər. Əl eləyənlərin üzləri, birdən-birə ona, uzaq keçmişdə, uşaqlıq illərində, kəndin dar məhəllələrində ənzəli oynayanlara çəpik çalıb çığırmaqdan pörtən uşaqların, sadəlövh bayram ovqatlı üzlərini xatırlatdı. Sonra, günlərin birində bu oyunlardan birdən-birə bezməyi yadına düşdü... Fikirləşdi ki, qəribədi, o illər uşaq oyunlarından, elə uşaqların özündən də soyuyub böyüklərə də isinişmədi…
…Köməkçi geriyə çönüb hürkü dolu üzü ilə:
– Sizi külək vurmur?.. – dedi, sonra çönüb əvvəlki vəziyyətində oturdu.
…Köməkçi, səliqəli saçı, ağ, nişastalı boyunluğu ilə, uşaq vaxtı, dava-dava oyununda oynayan xainlərdən hansınasa oxşayırdı.
…Böyründəki mühafizəçini, öskürək tutdu... Oğlan öskürəyini zorla saxlayıb içində boğa-boğa, qızarıb boğula-boğula, yüngülcə arıtlayır, sinəsinin gicişməsindən gözü sulana-sulana, üzü pəncərəyə, yola baxırdı...
Fikirləşdi ki, niyə orda doğulub böyüdüyü doğma yerlərində, qohum-əqrəbasının arasında, özünü o cür kimsəsiz, yolunu azıb səhvən kəndin

içinə, adamların tələsinə düşən tənha yalquzaq kimi hiss eləyirdi?!. Bu, nə bədbəxtlik idi?.. Axı ulu babalarından üzü bu yana, bütün nəsli həmin bu yerlərdə, bu adamların arasında, öz həyatlarından qane ola-ola, xoşbəxt, dinc kəndli həyatı yaşamışdılar?!. Bəs o, niyə yaşaya bilmirdi?.. Hansı ulduz altında dünyaya gəlmişdi axı?!.
Bu barədə elə bil nə isə bilirdi… Hansı ulduz altında dünyaya gəldiyini bilirdi. Elə bil o ulduzun rəngini də bilirdi… Elə bil o ulduzda olmuşdu da…
– …bir də Sadıqov… – köməkçi dedi və çönüb ona baxdı. Köməkçinin üzünün bayaqkı ifadəsi dəyişməmişdi.
– Sadıqov sonraya qalsın. İndi heç cür imkan yoxdu. O birini də keçir gələn həftəyə. Denən, hələ baxa bilməmişəm.
– Bir də çıxış edənlər məsələsi…
– Ölənlərin bir-iki qohumuna söz verərlər. Elə bilirəm bəs edər.
Saatına baxdı. On birə işləyirdi.
Yanındakı mühafizəçi də nəyə görəsə saatına baxdı.
Mühafizəçi elə bil hansısa gözəgörünməz tellərlə ona bağlı idi. O yatanda yatırdı, duranda dururdu, vaxtı onunla bir izləyirdi. Dəfələrlə, kiminsə təsadüfi hərəkətinin, çevik baxışının, şübhəli yerişinin, onunla bir bu cavan mühafizəçinin də içinin titrədiyini hiss eləmişdi. Son vaxtlar mühafizəçinin içindəki titrəmə, deyəsən ani də olsa, onu rahat buraxmırdı. Ola bilsin, uşaq bu titrəməyə artıq öyrəşmişdi.
Gözaltı, mühafizəçinin, bir tərəfi görünən üzünə baxdı. Paytaxta gəldiyi ilk günlərdən işə götürdüyü bu cavan adam elə bil son bir neçə ayın içində qocalmışdı. Gözünün altı qaralmış, yanaqlarının çəhrayılığı solmuşdu.
…Hamısı, son ayların gərginliyinin, hər dəqiqəsi ölüm, sui-qəsd qoxuyan təhlükəli görüşlərin, sayı gün-gündən artan duzsuz mərasimlər zamanı, keçirdiyi məsuliyyət dolu qorxuların nəticəsiydi… – fikirləşdi.
…Sonra da fikirləşdi ki, bəlkə bu mühafizəçi onun gördüyü yuxuları da görür?!. Gözünün ucuyla mühafizəçini bir də gözdən keçirdi.
Oğlan yorğun gözlərlə pəncərədən çölə baxırdı…
Yox, mühafizəçi onun gördüyü yuxuları görmürdü. Görsəydi, bunu, elə həmin gün hiss eləyərdi. Ona aid olan və ola biləcək hər bir şeyi hiss elədiyi kimi… Paytaxtdan uzaq kazarmada nə baş verəcəyini, baş verəcək bu faciənin nə ilə nəticələnəcəyini, hələ bir neçə ay əvvəl, paytaxtdan uzaq şəhərdəki tənha evində, öz dahiyanə duyumu ilə hiss

elədiyi kimi…
…Səhərin ala-toranında yuxudan oyanıb yatağında uzandığı yerdə, sübhün səssizliyində, hansısa gözəgörünməz, nəhəng mexanizməbənzər nəyinsə, ləngər vurub işə düşən ağır, kələ-kötür zəncirlərinin ləng hərəkətini, bədəninin hansısa naməlum toxumalarıyla duyduğu həmin o taleyüklü məqamı xatırladı… Bağlı pəncərələrin, çərçivə kəsiyindən içəri sızan havanın birdən-birə dəyişdiyi, qonşu evin radiosunda çalınan milli himnin, həmişəkindən daha əzəmətli çalındığı həmin o qəribə məqamı, bütün olacaqları elə orda, öz yorğan-döşəyinin içində uzandığı yerdə, həyəcandan, ürəyi, qapını döyən kimi, sinəsini döyüb çölə atılmaq istədiyi möhtəşəm anı xatırladı…
…Fikirləşdi ki, o nə idi görən?.. Nələri isə hərəkətə gətirib, nələrisə dayandıra-dayandıra, mərhələ-mərhələ qurulub dəyişən o sirli, ləngərli tərpənişi o, necə, hansı duyumu ilə, hansı siniriylə hiss eləmişdi?..
…Maşınlar dayandı. Köməkçi becid sıçrayışla maşından düşüb onun tərəfdən qapını açdı.
…Maşından düşüb havanı ciyərlərinə çəkdi, əlini gözünün üstə qoyub dağın zirvəsinə baxdı. Sonra çəkmələrini çıxarıb mühafizəçinin cütlədiyi uzunboğazları geyinə-geyinə:
– Burda gərək ki, cığır olmalıydı… – deyib, ayaqları kol-kosa ilişə-ilişə, dağın döşü ilə üzüyuxarı qalxmağa başladı.
– Çoxdandı gəlmirik, cənab General, cığırı ot basıb ola bilsin…
…Köməkçinin səsi hardansa arxadan gəlirdi, onun ardınca tez-tez qalxdığından, nəfəsi təngiyirdi.
Fikirləşdi ki, bu uşaq hardan bilir ki, buralara çoxdan gəlmir?.. Sonra bura axırıncı dəfə nə vaxt gəldiyini yadına salmağa çalışdısa da, qəribədi ki, yadına heç nə düşmədi. Yaddaşı bulanıq xatirələrlə dolu idi...
…Dikdiri yarıyacan qalxıb dayandı, geriyə çönüb yuxarıdan-aşağı, dağın ətəyi boyu tövşüyə-tövşüyə, pörtüb tərləyə-tərləyə, ardınca yuxarı dırmaşan yöndəmsiz əshabələrinə baxdı. Tövşüyüb tərləməyən bircə özü idi.
…Zirvəyə çatar-çatmaz, daşyonan dəzgahların, hardansa dtkdirdən eşidilən səsindən ürəyi çırpındı…
…Məqbərənin möhtəşəm sütunlarını yonan dəzgahlar uğuldayır, bənnalar iç hissəni hörür, bir ucdan tikintiyə qum, sement daşınırdı…
…Məqbərənin tikintisi başa çatsaydı, rahatlanardı. Burda, bu balaca, ilıq küləkli məmləkətdə, bu vecsiz adamların arasında, yekə böcəklərin, kök

ilbizlərin içində yaşamaq və ölmək sıxıntısı yəqin ki, bir qədər sovuşacaqdı.
…Nazirlər də tikilinin başına yığışmışdı, yerə tirlənən sütunlara baxa-baxa, ciddi üzlərlə öz aralarında guya nə isə müzakirə edirdilər.
…Məqbərənin içinə daxil olub tən ortada, havakeçirməz şüşə qutu qoyulacaq bürünc pyedestala sarı addımladı.
Pyedestal, hardansa yuxarıdan süzülən gün zolağının altında nəhəng büllur külqabı kimi par-par parıldayırdı.
…Şəhər bələdiyyə rəisi böyründə peyda oldu, məqbərənin naxışlı döşəməsini göstərə-göstərə:
– …Su çıxırdı, cənab General, çoxusu da iş buna görə uzandı… – dedi.
– Su?.. Burda?.. Bu yüksəklikdə?.. Qəribədi…
– Təsəvvür edin… Görünür, yeraltı çaylardan hansınınsa yolu bu hündürlükdən keçir. Ya da ola bilər, bura hansısa nəhəng bulaq çökəyidi.
Rəislə danışmağa hövsələsi çatmadı:
– İndi neyləmisiniz?..
– Yerini dəyişdik. Fundamenti atmazdan iki yüz metrəyəcən qazdırdım ki, tam arxayınçılıq olsun.
…Rəis elə danışırdı, elə bil söhbət, nə vaxtsa onun cansız bədəninin saxlanılacağı məqbərədən yox, bu yaxınlarda xoşbəxt sakinlərə təhvil veriləcək yaşayış binasından gedirdi.
– İndi necə, arxayınçılıqdı?..
– Bəli, cənab General… – rəis nazlı təbəssümlə gülümsünüb qızardı.
– Arxayınçılıqdı demək… – rəisin gözlərinin içinə baxdı.
Rəisin gözündə yenicə çırtlayan sevinc bir anın içində yox oldu, bəbəkləri kiçilib cansız nöqtələrə döndü:
– Mən… – deyib susdu, elə bil o biri sözlər yadından çıxdı.
…Məqbərədə ikisi idilər… Fəhlələr alətlərini yerə qoyub harasa çıxmışdılar. Danışdıqca, səsləri məqbərənin çılpaq divarlarına dəyib əks-səda verirdi…
…Rəis dinmirdi, burun pərəkləri titrəyə-titrəyə, nəyə görəsə onun üzünə yox, hülqumuna baxırdı, arxasında cütlədiyi kök əlləri əsəbi-əsəbi bir-birini didişdirirdi.
– Sənnənəm… Üzümə niyə baxırsan?.. De…
Rəis çiyinlərini çəkib:
– Nə deyim?.. – dedi və tez də başını aşağı saldı.
– Bayaq dediyini…

– Nə deyim?.. – rəisin səsi əsirdi.
– Denən, «meyitinizi su aparmayacağından daha tam arxayınıq, indi rahat ölə bilərsiz…» – çöldəkilər eşitməsin deyə astaca dedi.
– Mən… – rəisin üzü, göz görə-görə yığıldı, ağzı bürüldü, gözləri elə bil çəpləşdi, burnu nazildi…
– Hə, nədi?.. Bəlkə arxayın deyilsən?..
– Arxayınam, arxayınam... – rəis təşvişlə dedi.
– Onda denən…
…Rəis başını aşağı saldı, əlləri arxasında, cəzasını alan uşaq kimi, ayaqlarını növbə ilə götürüb qoya-qoya dinməzcə ağladı…
…Hövsələsi daraldı. Çöldən ayaq səsləri eşidilirdi.
– Hə… Di qurtar…
…Rəis ağlayırdı… Kök, qısa ayaqları dinc durmur, şüursuz cəldliklə növbəylə qalxıb enirdi…
– De…
– …Meyitinizin… – rəis boğula-boğula deyib, harasa yana baxdı, sonra dodaqları, körpə dodağı kimi büzülüb yığıldı, dizi üstə düşüb dizin-dizin qabağına yeridi, rəngi ağara-ağara, gözləri hədəqəsindən çıxa-çıxa:
– Keçin günahımdan, Əla həzrətləri… – deyib ayaqlarına sarılmaq istədi…
…Geri çəkildi. Rəisdən palçıq iyi gəlirdi…
Rəis yenə dizin-dizin qabağına süründü:
– Mən sizi sevirəm… Əfv edin məni… Əfv edin!.. – deyib başını yerə qoydu, səssizcə ağladı.
– Ayağa qalx… – çöldəkilər eşitməsin deyə, astaca dedi – …qalx, deyirəm sənə, gələn olar.
…Rəis kök dizləri ilə yenə ona tərəf sürünürdü:
– Məni onlar yoldan çıxartdılar… ağlımı oğurladılar… Mən sizi sevirəm… Axı sizdən savayı kimi sevə bilərəm?!. Əfv edin!..
…Ağzına zəhər tamlı acılıq gəldi…
Gözlərindən, qorxaq xainlik yağan bu miskin adamı, sulu böcək kimi tapdayıb əzməyi gəldi…
– Özün necə bilirsən, əfvə layiqsən?..
…Rəis başını yerə qoyub inildəyirdi…
…Bir də onu gördü ki, rəisin ətli boğazı, əllərinin arasındadı… sıxıb naziltdikcə, dəyirmi sifəti şişib bir az da enlənir…
…Rəis, ağzından pırtlayıb, az qala yerindən qopan dilini zorla hərlədə-

hərlədə:
– Səksən yeddi… səksən yeddi… – deyirdi.
…Yerində dik atıldı… Ürəyi çırpınırdı…
– Deyirəm, şəhərdən saysaq, təxminən səksən yeddi kilometrdən çox olmaz… – sürücü mühafizəçi ilə güzgüdən danışırdı.
…Demək yatmışdı… Amma həm də elə bil bu sürücü də orda – yuxuda, hardasa yaxınında idi, beləcə sükanın arxasında oturub maşını sürməklə məşğul idi.
…Saatına baxdı. Cəmi səkkiz dəqiqə…
Yuxunun zaman ölçüsü qəribədi…- fikirləşdi -… bir neçə saatı, ya bir neçə günü dəqiqələr ərzində yaşayırsan…
Sonra bir müddət, bayaq yuxuda çığıra-çığıra boğduğu adamın üzünü xatırlamağa çalışdı… O adam kim idi?.. Niyə onu boğurdu?.. Söhbət nədən gedirdi?..
Dəqiq yadında qalanı bircə bu idi ki, o adam kim idisə, onu tikintinin ləngiməyinə görə boğmurdu…
– Hələ çox qalıb?..
– Otuz-otuz beş kilometr ancaq olar…
Sürücü yenə yola baxırdı. Üzü elə idi, elə bil onun bayaqkı yuxusunu o da görmüşdü, indi özünü bilməzliyə vururdu.
…Yenə bu məqbərə… – ürəyi əsəbi-əsəbi döyündü. Arada bir, yadına gəlir, bu məqbərədən canını qurtarmışdı. Orda – paytaxtdan uzaq şəhərcikdə, gecələr taxtaqurdlarının altdan-altdan gəmirdiyi köhnə şkafların qırıq cırıltılarından savayı ayrı bir səsin eşidilmədiyi tənha evində, qəribəydi ki, çox rahat yuxular görürdü. O günlər yuxuda nə gördüyünü indi dəqiq xatırlamasa da, bircə o dəqiq yadındaydı ki, hər yuxudan oyanmağına peşman olurdu, yuxudan ayılmağıyla, yataq otağının bozumtul-çəhrayı butavari naxışlı divarları elə bil bir addım üstünə yeriyirdi, onda çönüb geriyə – yuxuya qayıtmaq istəyirdi.
Hardasa oxumuşdu ki, yuxu –gün ərzində ətrafında baş verən hadisələrdən, daxili problemlərdən, xatirələrindən, müxtəlif növ müsbət-mənfi emosiyalarından yığılan mənzərənin bir növ təcəssümüdür.
Əgər beləydisə, gecədən-gecəyə tikilib ucalan bu məqbərə, yuxularına hardan, necə düşmüşdü?.. Fikirləşdi ki, bu məqbərə haqqında özü də bilmədən, hansısa ayrı yaddaşıyla düşünürdü, sonra da bu fikirləri unudurdu?!.
…Köməkçi geriyə çönüb ovcunun içində buğlanan çayı ona uzadanda əli

əsdi deyə, çayın bir hissəsi nəlbəkiyə töküldü.
– Üzr istəyirəm… – deyib elə bil çayı geriyə çəkmək, cəza əlaməti olaraq, elə buğlana-buğlana başına çəkmək istədi.
– Eybi yox, sağ ol… – deyib çayı oğlanın əlindən aldı və iylədi. Çaydan, darçınabənzər qəribə ədəva iyi gəlirdi…
– Darçındı. Siz xoşlayırsız…
Köməkçi nəyisə qarışdırırdı. O, ümumiyyətlə ədvalı çay sevmirdi. Çaydan xırda qurtum alıb fikirləşdi ki, hər halda, bu, yaxşı əlamət deyil. Hər gecə yuxudan-yuxuya eyni bir prosesin getməsi, yuxunu bir az yuxuluqdan çıxarır.
Məsələn, Rusiyada yaşadığı, Moskvada işlədiyi dövrlər də, ya elə ondan da əvvəllər, burda ölkəyə rəhbərlik etdiyi illər ərzirdə də o, müxtəlif məzmunlu yuxular görürdü. Kimlərisə yuxuda, öz qalstuku ilə, ya telefon şnuru ilə boğurdu, təntənəli dəfn mərasimlərində, mötəbər pyedestallarda uyuyan rəsmilərin ölü qulaqlarına vida kəlmələri pıçıldayırdı və sair. Amma, bu yuxuların heç biri, biri o birini tamamlamırdı, hansısa nizamlı xətt boyu davam etmirdi.
…Mühafizəçinin gözü hələ də onun dizləri üstə buğlanan çayda idi. Mühafizəçinin əsəbləri korlanmışdı görünür… – fikirləşdi. Hər şey bu cavanı xoflandırır, içinə üşütmə salırdı. Sonra da əlində tutduğu fincana baxıb fikirləşdi ki, çay doğrudan yaman gec soyudu. Çay soyumaq əvəzinə, get-gedə elə bil isinirdi, fincandan qalxan buğ pəncərələrin şüşələrini tərlədirdi. Pəncərələrin şüşələri, mühafizəçi ilə bir tərləyirdi. Mühafizəçini sakitləşdirmək üçün çayı ona uzadıb:
– İç… – dedi.
Mühafizəçi əvvəl deyəsən çaşdı, sonra nə fikirləşdisə, stəkanı ondpn alıb, xırda qurtumlarla, elə buğlana-buğlana da içdi, sonra çayın buğu elə bil mühafizəçinin burnundan çıxdı. Ya hava soyumuşdu?!.
…Pəncərədən, yol boyu uzanan bomboz, yalın səhralar, əyri-üyrü, paslı buruqlar görünürdü. Çölə baxdıqca, sağ gözü acışıb bulandı, cib yaylığını çıxarıb sağ gözünə basdı.
…Sağ gözü, son vaxtlar gizli düşmən kimi, altdan-altdan acışıb-gizildəyirdi. Bu gözü, yadına gəlir, hələ bir neçə il bundan əvvəl, paytaxtdan hava limanına uzanan qaranlıq, qarlı rus meşələrinin arasıyla, buzlu yollarla gəldiyi gecədən bulanmağa, nələrdənsə acışıb gizildəməyə başlamışdı…
Fikirləşdi ki, onda sağ gözü – taleyinə yazılmayan, alnına həkk

olunmayan, gözlənilməz dönüşə tab gətirməyib, içinə qaynar su tökülən nazik şüşə kimi çatlamışdı. Gözünün ən incə damarı, elə bil nəhəng rus küknarlarının o gecəki qüdrətli əzəmətindən çatlamışdı...

* * *

…Son illər sağ gözünün dərdini müəyyənləşdirmək üçün oxuduğu tibbi ədəbiyyatda da, heç nə tapa bilmamışdi. Bircə «Elm» jurnalının bir nömrəsində, sağ gözün tutulmasından, nurunu itirən sol göz haqqında xırda yazıya rast gəlmişdi. O yazını oxuyandan sonra, bir müddət sağ gözü elə bil özünü yığışdırıb acışmağı, bulanmağı tərgitmişdi.
…Gözünü yumub bir müddət qaranlığa baxdı. Korluq, təxminən belə bir şeydi… – fikirləşdi. – Hər halda ölüm deyil. Ölüm bircə ora idi. İki ay bundan əvvəl, ölü balığın havasız qarnını yırtıb çıxan kimi, sivrilib çıxdığı həmin o paytaxtdan uzaq şəhər… Hava, səs keçirməyən, səssiz, tənha evi…
Dəqiq yadına sala bilmədi, hardasa oxumuşdu ki, cəhənnəmin bir üzü – harasa mıxlanıb, burnunun ucundan ötüb keçən adamların gözünə görünmədən, yadına düşmədən, həmin o asılı vəziyyətdə yaşamaqdı.
…Beynini gərib bu cümləni harda oxuduğunu yadına salmağa çalışdı və yadına düşdü… Klinik ölüm halı keçirən bir rus aliminin, O dünya barədə yazdığı xatirələrində…
Sonra müxtəlif dini, elmi kitablarda O dünya haqqında oxuduqlarını yadına sala-sala, fikirləşdi ki, bütün təsvirlərə və təhlillərə görə, O dünya, elə bu dünyanın özüydü, onun astar üzüydü.
…Demək beləydi… – fikirləşib çölə baxdı. Bütün bu mənzərələr – yalın çöllər, ucu şiş, boz dağlar, həm də elə bil hansısa gözəgörünməz şüşənin o üzündəydilər, böcəküzlü adamlar üzünə baxa-baxa, hüzurunda müntəzir dura-dura, həm də elə bil onu görmürdülər…
…Bəs onu kim görürdü?!. – fikirləşib üşüdü. Həm də elə bil kimsə də görürdü onu… Bütün bu illəri, onun bütün hərəkətlərini, fikirlərini səbrlə izləyir, uğurlarına sevinir, uğursuzluğunu sükutla udurdu…
…Bu fikirdən sağ bəbəyinin içinə elə bil neştər sancdılar.
…Yaylığı gözünə basıb sıxdı. Gözünün yaşı, yanağı boyu süzüldü. Yaylığı yanağına hopdura-hopdura fikirləşdi ki, sağ gözü, onun uğurlu ölüm versiyasını laxladan, alın yazısını pozub oxundan döndərmək istəyən təhlükəli qohumuna çevrilib. Son vaxtlar, çox vaxt qəsdən, ən

həlledici anlarda, rəsmi mərasimlərin ən gərgin yerində xəbis-xəbis acışır, bulanıb yaşını axıda-axıda ətrafdakıların diqqətini cəlb edirdi.
…Mühafizəçi gözünün yaşını görməsin deyə, tərini silirmiş kimi, yaylığı alnında da gəzdirdi.
Mühafizəçinin rəngi, çayı içəndən sonra elə bil saralmışdı. Son vaxtlar mühafizəçinin əhvalı ona elə təsir eləyirdi ki, elə bil o da mühafizəçinin həyatının təhlükəsizliyinə məsuliyyət daşıyırdı. Ya da elə bil hər ikisi, həyatı sapdan asılı olan naməlum kimin üçünsə, ya nə üçünsə məsuliyyət daşıyırdılar. Nə idi bu?.. Onun ölümü idi?.. Yox, bu, elə bil onun ölümündən o tərəfə olan bir şey idi. Nə idi axı o?.. Nəbzi birdən-birə ləngiyib, aramsız döyüntülərlə döyündü.
…Düyməni basıb pəncərənin şüşəsini bir az da endirdi.
– Soyuq olar, cənab General. – sürücü geri çönmədən dedi.
…Nəbzi ləngiyirdi. Nəbzi, son ayların yorğunluğundan, yuxusuz, gərgin gecələrdən zəifləyib ləngiməyə, döyüntüsünün nizamını itirməyə başlamışdı.
Fikirləşdi ki, işdi, əgər bu dəqiqə, buradaca, maşında getdiyi yerdə nəbzi birdəfəlik dayansa, son nəfəsi xirtdəyində çabalayıb geriyə sümürülsə, gözləri əbədi yumulub, rəngini avazıtsa, sağında, qabaq oturacaqda qayğıkeş üzlərlə oturan bu adamlar nə edəcəkdilər?.. Sonra həmin o mənzərəni gördü də… Cansız başı maşının söykənəcəyində… ifadəsiz gözləri, harasa tavana zillənmiş, dodaqları yarımaçıq vəziyyətdə…
Təşvişə düşən mühafizəçinin, köməkçinin, arxa maşında gələnlərin çaşqın üzlərlə, böyümüş gözlərlə ətrafında vurnuxmaları…
İlk növbədə yəqin ki, onu, maşının oturacağına uzadacaqdılar. Guya belədə ona rahat olacaqdı. Sonra paytaxta təcili xəbərlər göndərə-göndərə, həmin bu çaşqın sifətlərlə, qorxudan əl-ayaqları əsə-əsə, geri qayıdacaqdılar.
Sonra, başı, qapının külqabısına dəyə-dəyə getdiyi uzun-uzadı yolu da gördü…
Başı, yolun çala-çuxurunda atılıb-düşən maşının hamar oturacağında, içinə qurğuşun dolmuş kimi, ağır-ağır yırğalanacaqdı, arada bir, aşağı sürüşəcək, qabaq oturacaqda, üzü arxaya oturan köməkçi vahimə içində, başını yerinə qaytarmaq istəyəcəkdi, nə köməkçinin, nə ayaq tərəfində, nəhəng bədənini bir təhər oturacağın küncünə yerləşdirən mühafizəçinin, onun ağır başını qaldırmağa gücü çatacaqdı…
Onda köməkçi ilə mühafizəçinin gözləri bir-birinə baxa-baxa vahimə

içində böyüyəcəkdi…
…Mühafizəçi deyəsən, gözünün sulanmağından xəbər tutmuşdu, üzünü pəncərəyə çevirib guya yola baxırdı.
Kürəkliyin balışını endirib dirsəkləndi. Belədə kürəyinin əzələləri boşalıb şirin-şirin sızıldayırdı. Həm də daha rahat fikirləşirdi. Burda nə telefon zəngi, nə qəbul otağının gərginliyi, nə də bir ucdan süzülüb, az qala tavandan yağan yeni-yeni, lazımlı-lazımsız informasiyalar yox idi.
– …etiraz etmirsiz, cənab General?.. – köməkçi üzü o tərəfə soruşdu.
– Pis deyil. Amma, tədbir məsələsində tələsmisən. Bu tələsməyindən birdəfəlik əl çək. O siyahını da saxla şəhərə. – dedi və fikirləşdi ki, köməkçi niyə bu qədər danışır?!. Sakit otura bilmir, nədi?.. Görünür sakitcə oturub fikirləşmək vərdişi yoxdu hələ. Yoxsa, yada salmağa xatirəsi yoxdu?..
Onun isə yadından elə bil, heç nə çıxmamışdı. Bu qədər ili, bu qədər günləri və saatları, bu qədər adamları və üzləri, hadisələri və hissləri, cümlələri və ayrı-ayrı sözləri, hətta qırıq-qırıq səsləri, olduğu kimi, dəqiqliyinəcən yadda saxlamaq, bəlkə də hər adama nəsib olan xoşbəxtlik deyildi. Bəlkə də bədbəxtlik idi?..
…Adamlarınsa hafizəsi yox idi… Yadına, paytaxtdan uzaq şəhərdə yaşadığı havasız illər, uzaqdan-uzağa, adamların onu necə tədricən unutduğunu, aramla yaddaşlarından sildiyini, bədəninin irili-xırdalı toxumlarıyla hiss etiyi darısqal məqamları düşdü. Onda, yadına gəlir, unudulduğunu, adamların bulanıq yaddaşlarında əriyib, vecsiz, dumanlı xatirələrə qarışdığını hiss etdikcə, balaca, kim səsiz evi, qapısız, pəncərəsiz, qədim mağar kimi böyüyür, xəstəhal, sarımtıl işığa boylanırdı… İllər ötdükcə, insanların xatırlama qabiliyyəti zəiflədikcə, şəhərin ən mənzərəli yerlərində, tikdirdiyi uca, möhtəşəm binaların, çəkdirdiyi güzgü yolların, körpülərin müəllifi unudulduqca, vücudu, səsi, bulanıq su, çöküntü verən tək, tədricən yaddaşların dibinə çökdükcə, mağarın gözağrıdan, xəstə işığı get-gedə elə bil öləziyirdi.
…Fikirləşdi ki, görünür o gecə, şəhərdən uzaq kazarmada faciə baş verməsəydi, heç nəyin təhərini bilməyən bu südəmər hökumət üzvləri xofa düşüb aləmi bir-birinə qata-qata, milləti bir-birinə qırdırmasaydı, bütün bu müsibətlərdən cana doyan xalq hiddətlənib ayağa qalxmasaydı, o elə oradaca, gözdən-könüldən uzaq tənha evində, həmin o sarımtıl işığın içindəcə əriyib gedəcəkdi…
Nə qədər qəribə də olsa, belə çıxırdı ki, o, xalqa lazım olduğu qədər,

qəribəydi ki, xalq da ona lazım idi…
…Yenə dağı qalxırdı… Hava qaralmışdı deyə, ayağının altını görə bilmirdi, uzunboğaz çəkmələrinin ucuna ilişən kol-kosu, əlindəki ucuiti tiyəylə kəsə-kəsə özünə yol açırdı…
…Dağın zirvəsindən dörd bir yana yayılan zurna-qavalın səsindən nəfəsi təngiyirdi... Dağ özü də, qaranlıqdan idi, ya nədən idisə, əvvəlkindən xeyli böyük gəldi ona… Elə bil, qalxdıqca, bitib boy atırdı...
…Bir qədərdən sonra, zirvədə, güllələri, qaranlıq göyə dirənən möhtəşəm məqbərənin qızılı – mavi sütunları görünməyə başladı...
…Məqbərənin dörd bir yanı, dövlət maşınları ilə dolu idi, musiqi səsi içəridən gəlirdi.
…Bir istədi içəri girsin, sonra nə fikirləşdisə, məqbərənin arxa tərəfinə keçib gülləyə aparan hörmə pillələrlə yuxarı qalxdı. Orda, nəfəsliyəbənzər balaca pəncərədən aşağı boylandı…
…Məqbərənin geniş zalı başdan-başa, cürbəcür içkilər və qəlyanaltılar dolu süfrələrlə bəzənmişdi. Kimsə, bükülməyən qol-qıçı ilə ortalıqda atılıb düşürdü, o birilər əl çalırdı.
…Bürünc pyedestalın üstünə qoyulmuş havakeçirməyən şüşə qutunun yan-yörəsi əklillə dolu idi deyə, içi görünmürdü. Sonra musiqi kəsildi, kimsə ayağa qalxıb:
– İndi isə gəlin, bir ağızdan çağıraq…- dedi.
Hamı, arvadlı-uşaqlı xorla:
– Ə-ziz A-ta!.. A-ta! A-ta! – deyib onu çağırmağa başladı.
…Üç-dörd pillə enib, məqbərəyə açılan adamboylu arakəsmədə dayandı. Aşağıdakılar onu o dəqiqə gördülər.
– Gəldi!.. Gəldi!.. – deyib əl çaldılar.
– Urra!.. – deyib qışqırışdılar…
– Di başla… – kimsə kimisə dümsükləyib pıçıldadı.
…Ortaya, başında ağ lent, beş-altı yaşlı qız uşağı çıxdı, əllərini arxasında çarpazlayıb bərkdən-bərkdən:

– Bu gün bayramdır, ata!..
Bu gün bayramdır, baba!..
Məqbərən də bərq vurur!..
Dünya durduqca durur!..

Yenə hamı əl çaldı...

– Kim icazə verib?.. – astaca dedi, səsi məqbərənin divarlarını titrətdi…
– Sizinləyəm!..
– Bu, xalqımızın sərvətidir… – Milli Akademiyanın prezidenti, ağarmış bənizi ilə ayağa qalxıb, qorxudan incələn səsi ilə qırıq-qırıq dedi, qısa qolları ilə məqbərənin içini göstərdi.
– Nə xalqımızın sərvətidir?..
– Bura… Bu məqbərə… – yerdəkilər də qoyun-quzu kimi mələşdilər.
– Siz də… – kimsə, stolun aşağı başından, nazik, ürkək səslə dedi.
– Nə mən?..
– Siz də… xalqımızın sərvətisiniz…
…Gözünü qıyıb, stolun aşağı başında, ayaq üstə durub danışana baxdı. Kenquruya oxşayan qəribə bir adam idi. Üzü qəhvəyi, gözünün, saçının rəngi boz idi. Kiminsə şəklinin neqativinə oxşayırdı.
– Biz sizi sevirik, cənab General… – kimsə yerindən dedi.
Bu sözə o birilər də qoşuldu. Hamı ayağa qalxıb yer-yerdən:
– Sevirik!.. Sevirik!.. Sevirik!.. – deyə-deyə inildədilər…
…Yenə ürəyi bulandı… Elə bulandı ki, ağzına su gəldi. Suyu bir kənara tüpürüb ağzının içində:
– Nifrət eləyirəm hamınıza… – dedi, sonra da lap bərkdən:
– Eşidirsiz?!. Nifrət eləyirəm!.. – dedisə də, elə bil onu eşidən olmadı…
…Yuxudan dik atıldı. Alnı yüngülcə tərləmişdi, ürəyi əsirdi… Köməkçi, deyəsən bayaqdan bəri, onun ayılmağını gözləyirdi, gözünü açan kimi, geriyə çönüb, əlindəki qəzetləri ona uzatdı:
– Təzə qəzetlərdi… – dedi və gözünün içinə elə baxdı, elə bil bəbəyinin içində sivişib yoxa çıxmaqda olan nəyinsə ucundan tutmaq istədi.
…Qəzetləri oturacağa qoydu. Yuxuda nə gördüyünü yadına salmağa çalışdısa da, yadına dəqiq bir şey düşmədi. Bir onu xatırladı ki, hardasa, adamla dolu, hay-küylü bir yerdəydi...
Dincəlmək lazımdı… – fikirləşdi. - Oturduğu yerdə yuxulamağı da təzə çıxdı. Hər halda bu, qocalıq mürgüsü deyildi. İnsan qocalanda, bəlkə də əvvəl yuxuları qocalır… – fikirləşdi. İlk növbədə yəqin ki, yuxuları heydən düşüb bozarır. Yoxsa, hər dəfə onu, beləcə diksindirən kimi, diksindirib ürəyini döyündürmür.
Yuxunun keyliyi hələ də sovuşub getməyən üzünü ovuşdurdu. Köməkçi, ayıldığından xəbər tutub, üzünü geriyə çevirmədən yenə nə isə deyirdi... Qəribədi ki, köməkçi, onun qulaq asmadığını biləndə, elə bil daha çox danışırdı. – fikirləşdi. Ümumiyyətlə, son illər, xüsusən o, respublikadan

kənarlarda olduğu dövrlər adamlar çox dəyişmihdi. Camaat elə bil bir az bicləşmişdi.
…Hər şey əvvəlkindən qat-qat çətin olacaqdı… – fikirləşdi. Ölkədə olmadığı son illər o qədər sular axmış, o qədər irili-xırdalı əcaib dəyişkənliklər baş vermişdi, o qədər balaca padşahlar, bir-birindən səfeh siyasətçilər əmələ gəlmişdi ki, bütün bunları – illərdən bəri toz basıb bit-birə salmış üfunətli evi təmizləyən kimi, səbrli qadın səliqəsiylə təmizləyib sahmana salmalı olacaqdı… Ən pisi isə – yaxın bir ili, axmaq arzuları və çılğın ümidləri ilə onun zəhləsini tökəcək, ürəyini bulandıracaq, on il əvvəl nizamlı ordu kimi qoyub getdiyi, gəlib tanınmaz halda tapdığı, qorxunu, itaət və pərəstiş qabiliyyətini itirən xalq idi… Hər işə qarışmağa, başı çıxmayan yerlərə burnunu soxmağa öyrəşmiş bu miskin vətəndaşlar ordusunu əvvəlki yerinə oturtmağa, «coşğun fədailər» obrazından çıxarmağa, yenidən qulaq asıb əməl eləmək mədəniyyətinə alışdırmağa bir xeyli vaxt və hövsələ lazım olacaqdı. Bu, bir növ, sərgərdan həyata, ucsuz-bucaqsız çöllərdə başlı-başına yaşamağa öyrəşib, hər hərəkətə soncuqlayan heyvanın, ağzını çəkib belinə minmək kimi bir şey idi...
…Mühafizəçini yenə öskürək tutmuşdu… Oğlan, xəcalətdən az qala ölüb yerə girə-girə, boğula-boğula, pörtüb qızara-qızara öskürəyini harasındasa əzib-gizləməklə məşğul idi...
Keçmiş iqtidar nümayəndələrinin, ədəbazlıqdan gərilib tarıma çəkilən üzləri bir-bir gözünün qabağına gəldi…
Bu bədbəxtlərin hakimiyyət haqqında birmənalı anlayışı vardı görünür… – fikirləşdi. -Yaxın günlərəcən, tələbə yataqxanalarında qayğanaq yeməkdən qaşınmaya düşən, corablarını stulların başında qurudan, şalvarlarını döşəklərinin altında ütüləyən bu kasıb tələbələr üçün, hakimiyyət – yuxularında da görməyə iqtidarları çatmayan şirin xəlifəlik həyatından savayı bir şey deyildi. Kəkillərini sulu daraqla alınlarının ortasına darayan bu cavanlardan bəzilərinin, yaşamaq eşqi ilə yanıb-sönən xəstəhal gözlərini xatırladı... Bu, uzun müddətli yalquzaq həyatının qəddar çöl qanunlarında bərkimiş, dönə-dönə alçalıb, qısnanıb, məhv olmaq təhlükəsində yaşamağa alışmış bir sürü canavar gözü idi…
Fikirləşdi ki, sədd heyflər olsun ki, bəlkə də nə vaxtsa gözəl alim, ya mühəndis, dilçi, yaxud müəllim ola biləcək bu cavan adamları, bütün bu hadisələrdən sonra, artıq itirilmiş nəsil hesab etmək olar. Bir illik

hakimiyyət eyforiyasından, əvvəlki miskinlik dolu həyatlarına qayıtmaq – bu bədbəxtlər üçün, dalğanın sahilə atdığı balığın, susuz sahildə çabalamağı kimi bir şey idi. Bircə keçmiş prezident, deyilənə görə, özünü gümrah və rahat hiss eləyirdi.
Keçmiş prezident, uca boyu, arıq, şiv bədəni ilə, qarayanız üzünün həyatsevər ifadəsiylə, yaşadığı əlli illik ömrünün qəribə bioqrafiyası ilə həmişə ona, sevimli ədəbi qəhrəmanını – dahi Servantesin, Don Kixotunu xatırladırdı… Bu Don Kixot, qəribəydi ki, nə bu cəmiyyət bataqlığının, nə də məmləkətin, uzun-uzadı keçdiyi bulanıq dövrlərinin məhsuluna oxşamırdı… Son günlərin məlumatlarına görə, keçmiş prezident – ömrü boyu azadlığı və müstəqilliyi uğrunda, guya canını fəda verməyə hazır olduğu millətini dar günündə atıb, biabırçı vəziyyətdə uzaq kəndlərinə qaçmışdısa da, hamının gözlədiyi kimi, sarsıntılar içində qovrulmaq əvəzinə, gün-gündən gümrahlaşıb çiçəklənməklə məşğul idi. Kənd camaatının dediyinə görə, səhərlər o, pencəyi çiynində, dağlara qalxır, orda bir müddət çiçək yığa-yığa, zirvədən görünən sərhəd mənzərələrinə baxır, evə qayıtdıqdan sonra otağına çəkilib orda bir müddət yazı-pozuyla məşğul olur, axşamlarsa, kənd camaatı üçün mətbuat konfransları keçirirdi.
…Gülməyi tutdu… Özünü saxlaya bilməyib güldü də. Nə sol tərəfində oturan mühafizəçi, nə də köməkçi, onun gülüşünə çönməyə ürək eləmədilərsə də, yerlərində qurcalandılar.
…Keçmiş prezidentin, alim üzündən çox, daşyonan üzünü xatırladan arıq, qırışlı sifəti gözünün qabağına gəldi...
…Köməkçi radionu yandırıb səsini azaltdı.
–…faciə qurbanlarının ailələri ilə görüşü olacaq. Görüşün respublika televiziyası ilə birbaşa yayımına, saat on iki radələrində baxa bilərsiz… – diktor danışırdı.
…Deyilənə görə, keçmiş spiker də, heç bir şey olmayıbmış kimi, özünü yaxşı hiss edirdi. Deyirdilər, o, həmin o ədəbaz, eynəkli üzü ilə, hələ də partiyasının binasındakı işıqlı otağında oturub, sakit inadla öz işini davam etdirir, təmkinlə, asta səsi ilə mətbuat konfransları, müşavirələr keçirir, soyuq mübarizəsini aparırdı. Keçmiş spikerin mübarizəsi - hardansa yaxın məsafələrdən ləng damlalarla daman suyun, daşı ovub deşməyini xatırladan, çox uzun və yorucu bir proses idi... – fikirləşdi və əsnədi. Yenə göz qapaqları ağırlaşırdı… Yuxusu gəlirdi…
…Fikirləşdi ki, xəlifəlik həyatının dadı o biri iqtidar üzvləri kimi, keçmiş

spikerin də damağında qalıb. Özü də elə bil hamıdan çox və əsaslı şəkildə qalıb. Bir də keçmiş spiker, o birilərdən fərqli olaraq, xəlifəlik həyatından başqa daha nə isə də istəyirdi elə bil.
Azca əsəbiləşdisə də, yuxusu qaçmadı. Fikirləşdi ki, bu yersiz özünəarxayınlıq hardan əmələ gəlmişdi bunlarda?!. Bu yersiz, əsassız bədgəmanlıq xəstəliyi, qorxulu epidemiya kimi, az qala bütün ölkəni başına götürmüşdü. …Yadına, dünənki mətbuat konfransına jurnalist sifətində gələn 17-18 yaşında cavanların və qızların, iddia dolu həyəcanlı üzləri düşdü...
Bu uşaqların da vəziyyəti acınacaqlı idi. Birdən-birə ölkənin canına sancılan «demokratik anarxiya», yaxud «anarxik demokratiya» iynəsindən, az qala genetik göstəriciləri, qan qrupları dəyişən bu uşaqları, indi bu eyforiya vəziyyətindən çıxarmaq, günün müşkül problemlərindən biri idi. Bu təcrübəsiz cavanların hüquqi, ya milli azadlıqdan çox, ilk növbədə, daxili azadlığa, adi davranış azadlığına, sərbəstliyə ehtiyacları vardı görünür.
…Dünənki konfransda, söz alıb mikrofon arxasına keçən 16-17 yaşlarında tələbə qız, bir əli, gözündəki eynəyində, projektorun gur işığından quruyan balaca dili dodaqlarını yalaya-yalaya, balaca bədəninə uyuşmayan:
– Siz kimsiz, cənab General?.... – sualını verəndə də ürəyi beləcə əzilmişdi. Bu balaca qıza, görünür, sualın cavabı yox, Generalla üzbəüz dayanıb sual verməyin özü maraqlı idi. Bu, bir növ, uzunmüddətli darısqallıqdan, birdən-birə nataraz genişliyin yöndəmsizliyinə düşüb, tarazlığını itirmək kimi bir şey idi. Bu cavanlar nəyisə qarışdırırdılar… dövlətin, millətin, müstəqilliyini, fərdi azadlıq kimi qəbul edirdilər. Daha doğrusu, «azadlığ»ı bu yazıq camaata, həmin bu azadlıq aşiqləri belə anlatmışdı görünür. İndi xalqı, kələ-kötür, darısqal yolla gedən ağır yük maşınını, ayrı səmtə döndərən təki, ayrı səmtə yönəltmək, hər şeyi ona yenidən başa salmaq lazım idi ki…
- Səfirlə görüşü neçəyə keçirim?..
…Səfirin, radioya oxşayan dördkünc sifəti gözünün qabağına gəldi:
– Dördə… – dedi.
….Fikirləşdi ki, indi camaata necə başa salasan ki, ümumiyyətlə, «azadlığın», «müstəqilliyin» özü də nisbi məfhumlardı?!. Dünyanın hansı dövlətinə – tam müstəqil dövlət, hansı xalqına – tam azad xalq demək olar ki, bütün dövlətlər və millətlər bir-birindən, iqtisadi, ya siyasi

cəhətdən asılıdırlar?..
– Ölənlərin ailələrinə xəbər vermisiz?..
– Bəli, cənab General.
– Neçə nəfərdilər?..
– Təxminən otuz yeddi.
– Yenə təxminən?..
Köməkçinin rəngi qaçdı, azca kəkələdi:
– Dəqiq otuz altıdı. Bir nəfər…
…Fikirləşdi ki, bir az da dərinə getsən, ümumiyyətlə, «azadlıq» nə deməkdi axı?.. Qəribədi, bu «azadlıq» haqqında, elə bil heç əməlli-başlı fikirləşməmişdi. Buna vaxtı olmamışdı, yoxsa, hər bir şeyi xırdalayıb kökünə gedən kimi, bu «azadlığ»ı xırdalamağa ehtiyac yaranmamışdı?.. Ya bəlkə, ömrü boyu daim can atdığı - bütün o qaçdı-qovdular, irili-xırdalı sıçrayışlar və enişlər, qorxulu gecələr və gərgin günortalar – hər şey, elə bu azadlıq deyilən rahatdığa görəydi?!. Bəlkə, uşaqlıq illərindən bura elə hey nə isə qurub yoğura-yoğura, əslində özü üçün azadlıq yoğurmaqla məşğul olmuşdu?!.
Pəncərədən, sahili duz örtüyü bağlamış boz duz gölü görünürdü…
…Kortej, havanın bozluğundan, bir az da bozaran sınıq - salxaq tikilərli ilə, şəhərdən çox, yarımçıq qalmış tikintiyə oxşar qəsəbəyə daxil oldu. Pəncərənin düyməsini basıb qaldırdı, yol boyu sıralanıb qışqırışa-qışqırışa ona əl eləyən adamlara baxdı.
– Yaşasın! Var olsun!.. Var olsun!..
– …Bir də, səhər şair zəng vurmuşdu… – …köməkçi yol boyu çığırışan adamlara məhəl qoymadan, telefonun düymələrini basa-basa dedi – …dedi, icazə versəydiz, görüşə o da gələrdi…
– Ehtiyac yoxdu… – dedi və fikirləşdi ki, bu adamın da nə istədiyi bilinmir. Bütün dövrlərdə və zamanlarda, bu şair, mövcud olan və olmayan fəxri adları, orden və mükafatları almışdısa da, yenə də elə bil nə isə istəyirdi. Yenə nə isə almaq istəyinin gizli ağrısı, şairin, qocalıqdan xal düşən bəbəklərinin lap dərinliyində qaralırdı... Fikirləşdi ki, şairin yeganə narahatçılığı, olsa-olsa, Fəxri xiyabanda onun üçün ayrılacaq qəbrinin yeri və qəbrin üstündə ucaldılacaq abidəsi ola bilərdi. Bəlkə bu narahat şairi şübhəli üzüntülərdən qurtarmaq üçün Fəxri xiyabanın ən gözəgörünmlü yerində ona elə indidən yer ayırtdırsın?..
…Şairin qarayanız, faciəvi üzü, narahat gözləri gözünün qabağına gəldi. Üzünün tunc rəngi, dərisinin qalın büküşləri, onu indidən abidəyə

oxşadırdı…
…Kortej, üstündə iri, paslı hərflərlə «Mədəniyyət sarayı» yazılmış ikimərtəbəli binanın qarşısında dayandı. Qapılar açıldı. Gülümsər üzlər bir-birinə mane ola-ola ona yol açdılar.
– Xoş gəlmisiz… Buyurun, bura… Buyurun…
…Sarayın girəcəyinə yığışan adamlar onu görüb əl çalmağa, «var ol!» - deyib qışqırışmağa başladılar.
…İcra hakimiyyətinin başçısı qabaqda, ona yol göstərə-göstərə, hörmət əlaməti olaraq yanpörtü gedirdi deyə, arada ayağı nəyəsə ilişib büdrədi.
…Zalın divarlarına, matəm əlaməti olaraq, qara örtük çəkilmişdi deyə, burda çığıran olmadı.
Adamların arasından keçib səhnəyə qalxdı, rəyasət stoluna tərəf yeriyə-yeriyə, aşağıda, qabaq cərgələrdə, asta səslərlə xısınlaşıb: «Şükür Allaha… Allah, sənə çox şükür… Allah, sən ömrümüzdən kəs, onun ömrünə cala…» deyənlərin səsini eşitdi. Yerinə əyləşib fikirləşdi ki, şair də, o biri sənətçilər də, onun hüzurunda, elə bil öz sənət dünyalarının xırda ölçülərini daha yaxşı hiss eləyirdilər. Bu dünyadan almaq istədiklərinə – fəxri adlara, yubiley təntənələrinə, Fəxri xiyabanda, dövlət səviyyəli dəfnlərə, onsuz yetə bilməyəcəklərini, əyani surətdə başa düşmüşdülər deyə, onu «sevməyə» bilmirdilər.
– …Camaatımız adından, kazarma faciəsində həlak olanların qohumları adından, öz qiymətli vaxtından ayırıb bura təşrif buyurduğu üçün, möhtərəm Generala öz təşəkkürümü bildirirəm… – qəsəbənin nümayəndəsi, kələ- kötür üzlü, orta yaşlı adam, kürsüdən uçacaqmış kimi, harasa irəliyə dartılmış vəziyyətdə danışırdı…
Fikirləşdi ki, o gecə – vətəninə qarlı yollarla döndüyü o qara gecə, möhtəşəm ordunu xatırladan qaranlıq rus meşələrinin qüdrətindən zəifləməyinin bir səbəbi də, elə bu adamlar, uzaq uşaqlıq illərindən bu yana, əsərlərini oxuya- oxuya böyüdüyü, ən çətin məqamlarda arxalana biləcəyini sandığı ziyalılar idi…
…Yenə həmin o qarlı gecəni, hava limanına aparan buzlu yollarla qayıtdığı vətəninin, miskin adamsızlıq mənzərəsindən canı darıxa-darıxa gəldiyi acı dəqiqələri xatırladı…
– Söz, şəhərin ağsaqqalı, Böyük Vətən müharibəsi əlili Həmid kişiyə verilir...
Tənhalıq, görünür ki, onun alın yazısı idi... Bəlkə də gücü elə bunda idi?.. Bu tənha, cod yalquzaqlığında idi?..

– …Şükür!.. Min şükür!.. İlahi!.. Ya xuda! Fəhminə bütün xalq baş əyir…
– vətən müharibəsi əlili, dörd bir yanına tüpürcək sıçrada-sıçrada danışırdı.
Fikirləşdi ki, «xalqın bu düşünən beyni», bu həssas qəlbli ziyalılar ordusu niyə bu gündəydi axı?!..
…Keçən həftənin, ziyalıların qan yaddaşına həkk olunacaq hadisəsi – iki aylıq ağır xəstəlikdən sonra dünyasını dəyişən qocaman xalq yazıçısının dəfni, bu elm və sənət aşiqlərinin canına bir xeyli qorxu yeridəcəkdi. O ibrətamiz mərasimdən sonra, hərə öz payını götürəcəkdi, hər kəs, o, ölkədə olmadığı son on ildə büruzə verdiyi vətəndaşlıq və ziyalılıq mövqeyini bir də, dönə-dönə, yuxusuz gecələrlə araşdırıb təhlil edəcəkdi, canına daraşan qorxusunu, uzaqdan-uzağa, gecələrlə, gizli-gizli ona ötürəcəkdi…
Ömrünü cild-cild, qalın kitablar yazmağa sərf edən bu qocaman yazıçı, ağır sürgünlük dövrləri - paytaxtdan uzaq şəhərdə, dağların ətəyindəki kimsəsiz evinə sığındığı vaxtlar, çıxışlarının birində onu, «əzazil diktator» adlandırmış o, paytaxta – vəfifə başına qayıdan gün isə, yorğan-döşəyə düşmüş, ötən həftə isə, hansısa xəstəxananın küncündə, döyüşdə məğlub olan naməlum sıravi əsgər ölümü ilə ölmüşdü. Vəfasız yazıçının ölümü ictimaiyyətə açıqlanmamış, radio və televiziya, eləcə də digər mətbuat vasitələri bu barədə qətiyyətlə susmuşdular.
…Üzünü ikiəlli ovuşdurdu... Son vaxtlar üzünün dərisi elə bil quruyurdu…
…Xalq öz yazıçısının ölümündən, çox-çox sonralar, aylar, bəlkə də illər keçəndən sonra xəbər tutacaqdı. Bəlkə də heç xəbər tutmayacaqdılar. Uzun müddət səsi-sorağı gəlməyən, bu özündən bədgüman ədibi, minlərlə ölünü unudan kimi, ölümündən xəbər tutmadan unudacaqdılar…
Fikirləşdi ki, əslinə qalsa, xalq, bu yazıçısını, onsuz da, təntənəli dəfnlə basdırılsaydı belə, bir müddətdən sonra, bircə cümləsi ilə yadlarda qalmayacaq sıyıq əsərləri ilə birgə unudacaqdı. Bu dəfn, əslinə qalsa, onun cəsədinin yox, istedadsız əsərləri ilə qurub yaratmaq istədiyi bivec, mənasız həqiqətlərin dəfni olacaqdı…
– Çox sağ olun… – bayaqdan bəri kürsüdən, yumşaq çənəsiylə danışan müharibə əlili irəli çıxıb ona baş əydi, elə bil arada dizi üstə düşmək istədi… qoluna girib kişini bir təhər səhnədən sürüdülər.
…Ayağa qalxıb kürsüyə addımladı. Zala çaxnaşma düşdü. Yaddaş instinkti işlədi. Adamlar ayağa qalxıb, on-on beş il bundan əvvəlki sabit

ritmlə ona əl çalmağa başladılar... Əlini qaldırıb:
– Əyləşin, lazım deyil… – dedi və birdən-birə hiss elədi ki, adamla dolu bu matəm örtüklü zala baxdıqca, ürəyi bulanır. Görünür, min bir başı olan bu nataraz heyvandan – bu mehriban üzlü insan yığnağından, nə vaxtsa, hansı məqamsa möhkəm iyrənmişdi… Yaddaşının hansı tərəfindəsə, bu şüursuz yığnaqla bağlı çatlara, yaralara bənzər hansısa zədələr vardı elə bil... Dəqiq bildiyi bir bu idi ki, bu min üzlü yöndəmsiz heyvan, bircə qıcığa bənd idi ki, onu, qırxayaq ayaqlarına bənzər çevik əlləri üstə qaldırsın, sonra nədənsə cuşa gəlib, elə ordanca, kəlləsi üstə yerə çırpsın, tapdaq altına salsın...
– …Məni bura gətirən, ilk növbədə vətəndaşlıq borcum, ürək ağrımdı. Bu gün hamımız üçün ağır gündür… – zalın dörd bir tərəfindən qurulan gücləndiricilərdən axan səsi divarları titrətdi.
…Öz səsindən kövrəldi... Bu binada, bu nataraz heyvanı ovcuna yığıb saxlaya bilən bir şey var idisə, o da səsiydi. Yeganə dostu, arxası, ən etibarlı silahdaşı.
– …vətənin bu ağır günündə, düşmən torpaqlarımızın canına yeriyən bir vaxtda, bu qardaş qırğınını törədənlər öz cəzalarına çatacaq!.. Onlar xalqın qarşısında cavab verməli olacaqlar…
…Sonra nə oldusa, qara matəm örtüyünə bürünmüş zaldan, min bir gözlər və ağızlarla dolu adamların arasından, ona sarı qəribə, tanış səs axdı elə bil… Ya bu, ona elə gəldi?!. Elə bil kimsə astadan, lap yaxından onun adını çəkdi…
…Danışa-danışa, qabaq cərgədə oturanların üzlərinə baxdı… Qabaqda həmin adamlar oturmuşdu… minbaşlı heyvanın burun hissəsi…
– …Ölkə ağır vəziyyətdədi. Müharibə, hakimiyyət dəyişkənliyi, dövlətçiliyi onsuz da laxlayan ölkəmizin vəziyyətini bir az da ağırlaşdırıb. İqtisadiyyat, kənd təsərrüfatı iflic vəziyyətdədir. Ordu quruculuğu haqqında heç danışmağa dəyməz. İnflyasiya, aclıq, anarxiya, ölkəni başına götürüb. Bütün bunları həll etmək üçün vaxt lazımdır. Vaxt, bir də vətənə, xalqına olan tükənməz sevgi!..
…Fikirləşdi ki, bəlkə də bu qədər ümidsiz olmağı düzgün deyil. Bəlkə də elə burda, üzləri, səhnənin gur işığından kölgəli görünən bu saysız-hesabsız adamların arasında, ona doğma, sədaqətli olan nəcib insanlar var?!.
Sonra da, gicgahı lükküldəyə-lükküldəyə fikirləşdi ki, axı niyə yenə nəcib adamlar axtarır?.. Nəyinə lazımdı axı?.. Yenə noldu?!.

…Qabaq cərgədə oturanların üzləri daha aydın görünürdü deyə, danışdıqca, oturanlara göz gəzdirdi. İkinci sırada, qarayaylıqlı qadınların arasında gözünə tanış üz dəydi elə bil…
– …müharibənin qarşısını almaq!.. Bu məqsədlə mən bir neçə dövlətlə rəsmi danışıqlar aparmaq məqsədi ilə…
…Bu, otuz-otuz beş yaşlı, qısa saçlı, aydın, yaraşıqlı üzlü cavan qadın idi, bulanıq üzlərin arasından qəribə, tanış gözlərlə ona baxırdı…
– …ilkin olaraq «Atəşkəs»ə əməl olunsa, bunu müharibənin və itirilmiş torpaqların taleyinin həlli üçün zəruri addım hesab etmək olar...
…Yaddaşını ələk-vələk edib, bu qadını hardan tanıdığını, onunla harda, nə vaxt görüşdüyünü yadına salmağa çalışdısa da, yadına bir şey düşmədi. Qəribəydi ki, qadının üzü get-gedə elə bil daha çox tanış gəlirdi… bu naməlum tanışlığın heç cür yada düşməyən, yalnız hardansa, ha tərəfdənsə havası gələn risgil dolu xatirələrindən, ürək döyüntülərinin artığını hiss etdi…
–…iqtisadiyyatımızdır. Bu sahədə də artıq müəyyən işlər görülür. Bir çox qabaqcıl ölkələrlə iqtisadi əlaqələrin möhkəmləndirilməsi, bu əlaqələrin, dövlətçilik baxımından, gələcək proqramlarımıza uyğun düzgün müəyyənləşdirilməsi…
…Ürək döyüntüləri nizamını itirirdi… Axı bu qadını o, nə vaxt, harda görmüşdü?!. Bəlkə ölkədən getdiyi on beş il əvvəl, elə burda?..
– …həmin o dövlətçilik baxımından. İstəyirəm, bunu hamı bilsin!.. Artıq belə qanunsuzluqlara yol verilməyəcək!..
…Gözü ikinci cərgədən, qara yaylıqlı qadınların arasından, ona baxan bu şümal üzdən ayrılmaq istəmirdi. Sonra birdən-birə ona elə gəldi ki, bu qadını çoxdan, lap çoxdannan tanıyır…
…Bəlkə onu yuxuda görmüşdü?!. – fikirləşdi və ürəyi düşdü. İçində, lar dərinlikdə qaysaq bağlamış hansı nöqtəsindəsə, tumurcuğabənzər nə isə çırtladı elə bil... Bu çırtlamadan, matəm örtüklü zalın rəngi dəyişdi.
–…hər birimiz bilməliyik. Bu, bizim qan yaddaşımızdı!..
…Camaat əl çaldı. Qadın da əl çaldı. İmkanı olsaydı, özü də əl də çalardı. Bu gözlənilməz görüşə… içində, gözlənilmədən çırtlayan bapbalaca, çəhrayı tumurcuğa əl çalırdı…
– Sağ olun… – deyib əllərini yuxarı qaldırdı…
…O,ntyəsə əl çalmırdı, camaatla bir, ayaq üstə dayanıb gözünün içinə baxırdı…
…Başı hərləndi… Kürsüdən düşüb iri addımlarla səhnə boyu yeridi. Hə,

elə bil onu yuxuda görmüşdü. Amma nə vaxt, hansı yuxuda?..
…Mühafizəçilər, ətrafında toxunulmaz dəhliz yarada-yarada onunla bir irəliləyirdilər. İcra başçısı də irəlidə, yanpörtü gedirdi:
– Şəhidlərin qohumları ilə görüşmək istəmirsiz, cənab General?!..
…Camaat ayaq üstəydi deyə, cərgələr bir-birinə qarışmışdı…
– Mərhum leytenant Yusifovun anasıdı… - deyə başçı cərgələrdən birinin qarşısında ayaq saxladı.
…Ağ saçlı qarı boynuna sarılıb səssiscə hönkürdü, dişsiz ağzını qulağına dirəyib astaca:
– Düzünü de… bütün bunlar sənin üçün idi?.. – dedi.
Qarını özündən kənarlaşdırdı, bədənini soyuq tər basdı...
– Düzünü de, mənim balam… Bütün bunlar nə üçün idi?.. – qarı ağlaya-ağlaya xırıldadı. – Qardaş da qardaşa əl qaldırarmı?!.
Başçının işarəsi ilə, qarını, qoluna girib ehtiramla hayanasa sürüdülər.
– Havalanıb yazıq… – başçı pərtliyini gizlədə-gizlədə, ağızucu dedi, sonra irəli keçib, növbəsini gözləyən yekəpər kişini təqdim elədi. – Bu kişinin də oğlu burda xidmətdə idi…
– Familiyam Salmanovdu… – kişi deyib, sinəsini qürurla qabağa verdi.
– Allah rəhmət eləsin… – dedi və gözünün ucuyla, görüşmək üçün növbəsini gözləyən Ona baxdı.
– Serjant Maisovun anası…
– Allah rəhmət eləsin…
– Bu böyük oğlum idi, yoldaş General. – kişi dedi - İndi bircə oğlum qalıb, o da işləmir. Güzəranımız ağırdı…
– Qeyd eləyin… – arxadakılara dedi və fikirləşdi ki, bu millət ölüsüylə də alver edir.
– Leytenant Ələsgərovun yoldaşı…
– Allah rəhmət eləsin.
– Polkovnik Seyidovun həyat yoldaşı…
…Onun gözləri indi lap yaxındaydı… Dustaqxana pəncərəsindən boylanan doğma adamın üzünü andırırdı…
«…Sən kimsən?..» – qadının əli əlində əriyib bədəni boyu yayıldı… – «…Kimsən sən?..»
Ovcünün, qadının yumşaq əlindən diksindiyini hiss etdi.
…Mühafizəçilərin müşayiəti ilə addımlayıb zaldan çıxdıqca, növbəti eşq macərasından xəbər tutmuş mərhum arvadı, bir vaxtlar – xəstəlik illərində elədiyi kimi, yatağına dirsəklənib, heysiz əli ilə saçlarını düzəldə-

düzəldə:
– Qoy, heç olmasa, rahat ölüm… – dedı…
– Şəhərə neçə vaxta çatarıq?..
…Qabaq oturacaqda, arxası pəncərəyə, köndələn oturmuş köməkçi, qəfil sualından diksinib nəyə görəsə bloknotunu vərəqlədi:
– 8-də çatarıq. Almaniya səfirinin qəbulunu sabaha, saat 5-ə keçirdim. Hərbi kollegiyanın iclasının vaxtı, buna görə dəyişdirildi. – köməkçi dedi, sonra geyirə çönüb:
– Özünüzü necə hiss edirsiz?.. – soruşdu.
– Necə ki?.. – deyib maşının yan güzgüsündən üzünə baxdı.
…Rəngi qaçmışdı… sağ gözü, sol gözünün sayıqlığına uyğun olmayan, qəribə sərxoşluqla süzülürdü… gözlərinin içində qəribə işıltı əmələ gəlmişdi…
…Köməkçi, ayağa qalxdığını görüb irəli sıçradı, kreslosunun başına keçirdiyi pencəyini tutmaq istədi:
– Lazım deyil, mən özüm… – dedi, sonra əllərini cibinə salıb güzgünün qabağına keçdi.
Dağınıq saçları, yaxası açıq köynəyi, qalstukunun boşalıb böyümüş düyünü xoşuna gəldi. Saçlarını geriyə hamarlayıb:
– Aşağıda kim var?.. – dedi.
– Hamı burdadı, cənab General…
– Dəvət olunanları soruşuram.
– Onlar da gəliblər.
Ürəyi atıldı:
– Hardadılar?..
– Aşağıda.
– Deyirəm, banket zalına keçirtmisiniz, yoxsa…
– Xeyr, cənab General, hələ ki, vestibüldədirlər, bizi gözləyirlər.
…Bir anlıq, Onun, vestibüldə, banketə dəvət olunan qonaqlardan bir addım kənarda, ağ mərmər sütunun yanında, həmin qara, ipək paltarında dayandığını gördü…Qalstukunu çəkib düyününü bərkitdi:
– Zala keçirin, mən də gəlirəm… – dedi.
…Banket zalının işığı həddindən artıq gur idi deyə, içəri girəndə, ilk əvvəl, uzunsov stolun ətrafında dayananları aydın görə bilmədi. Odu ki, aşağıdan yuxarı, bir-bir əl verib görüşə-görüşə stolu dövrə vurdu. Axırıncı adamla əl verib yerinə keçdi.
…O gəlməmişdi…

Ayağa qalxdı, sakit səslə:
– Bir də hamınıza «xoş gəlmisiniz» deyirəm… – dedi, sonra stolun arxasında boş qalan iki kresloya baxa-baxa, həmin sakit səslə, tələsmədən, aramla, yenə, bir neçə ay bundan əvvəl, şəhərdən uzaq kazarmada tökülən günahsız qanın yerdə qalmayacağından, bu qanlı faciəni törədən səbəblərdən, ölkənin bu günkü vəziyyətdən, ümumxalq mənafeyi üçün görüləcək işlərdən danışdi...
…Uzun illərdən bəri, istənilən mövzuda saatlarla – bir sözdə, bir cümlədə büdrəmədən, sözləri, mirvarini sapa yığan kimi, ardıcıl düzə-düzə söylədiyi nitqlər vaxtı, həm də dediklərinə və auditoriyaya dəxli olmayan mətləblərlə məşğul olmaq vərdişi onu, vəzifə başında işlədiyi uzun dövrlər çox qadalardan xilas eləmişdi.
…Ölkə iqtisadiy yatının, son vaxtlar düşündüyü iflic vəziyyətindən danışıb ordu quruculuğuna keçəndə isə, birdən-birə daha danışmaq istəmədiyini, danışmaq gücünü itirdiyini anladı…
– Bu qədər… – deyib, çıxışını yarımçıq kəsərək yerinə əyləşdi.
…Stolun ətrafındakılar bir müddət, sakit üzlərlə ona baxdılar. Elə bil təəccüblənməyə ürək eləmədilər.
– Buyurun, şam edək… – dedi və kreslosunun yanında, əlləri arxasında dayanıb onun buyruğunu gözləyən xidmətçiyə, badəsinə içki süzməyi işarə etdi, sonra dilinə heç nə vurmadan iki qurtum içib, çəngəl-bıçaqlarını tədricən, ehmal-ehmal işə salan qonaqlara baxdı:
– Nə isə bu gün gözümə az dəyirsiz… – dedi.
Qonaqlar əvvəl bir müddət çaşqın-çaşqın bir-birinə baxdılar, sonra hamı həyəcanla stolun ətrafındakıları saydı, sonra kimsə stolun lap aşağı başından ayağa qalxıb nə isə mızıldadı...
– Nə?.. – hiss elədi ki, hövsələsi daraldı. – Bərkdən danış, görüm nə deyirsən… – dedi.
Stolun sağ tərəfindən, yaxın yerlərdən, çalsaçlı bir kişi ayağa qalxıb dərs danışan uşaq kimi, əllərini arxasına qoydu:
– İki nəfər yoxdu, cənab General… Biri leytenant Müslümovun atasıdı, o, ağır xəstədi. Oğlundan sonra lap düşüb, yazıq… – dedi. - Bir də, polkovnik Seyidovun yoldaşı gəlməyib.
Kişi bunu deyib oturdu.
Üzünü yığıb əsəbilikdən gicişən yanağını qaşıdı:
– O da xəstədi?..
– Yox, o, xəstə deyil. – kimsə dedi.

– Bəs niyə gəlməyib?.. – dedi və fikirləşdi ki, burda lap ağını çıxartdı, həm də çox gözəl bir şey alındı.
Adamlar yenə çaşqın-çaşqın bir-birinə baxıb çiynlərini çəkdilər, çaşqın tələşla:
– Bilmirik… – dedilər.
…Otağına qayıdanda hiss elədi ki, başı hərlənir. Köməkçini dəhlizdəcə ixtisara salıb, üzünü geriyə çevirmədən:
– Gecən xeyrə qalsın. – dedi.
– Xeyrə qarşı, cənab General, sabah…
– On tamamda.
– Oldu. Sağ olun, cənab General.
Bir müddət də, mühafizəçilərin yumşaq xalçanın üstü ilə, səssiz addımlarla arxasınca gəldiyini hiss etdi, geriyə çönmədən onlara da:
– Gecəniz xeyrə qalsın... – dedisə də, arxasıyla kölgə kimi sürünən mühafizəçilərin ayaq səsi kəsilmədi.
Ayaq saxlayıb geriyə çöndü, mühafizəçilərin, istidən tərləyib pörtmüş üzlərinə baxıb:
– Gecəniz xeyrə qalsın, uşaqlar. – dedi.
– Xeyrə qarşı, cənab General…- mühafizəçilər dedilər.
Çönüb otağına girdi. Bir müddət qapının o üzündən, öz aralarında astaca nə haqdasa danışa-danışa var-gəl edən mühafizəçilərin səsləri eşidildi, sonra kəsildi.
Soyunub ipək xalatını geydi, hamama keçib suyu açdı.
Soyuq su, üzünün, boynunun dərisini soyutduqca, yadına, bir vaxt səhərlər, havanın şaxtasından bədəni qızara-qızara bumbuz suya girib nəfəsi daralanacan, az qala üfüqəcən üzdüyü günləri düşdü. Birdən-birə içindən, o illərin ehtiras və çılğınlıqla, qorxular və təhlükələrlə dolu, şipşirin, ecazkar havası keçib getdi…
Sonra hamamın, dəyirmi güzgüçündə, sulu saçlarını geriyə daraya-daraya diqqətlə üzünə, ipək xalatda cüssəsiz görünən bədəninə, sonra gözlərinin içinə baxdı...
…Gözlərinin lap dərinliyində, içinin ən toxunulmaz, ən gizli nöqtələrinə aparan qaranlıq, darısqal yolun başlanğıcı görünürdü…
…Otağa keçib televizorun qarşısındakı kresloya oturdu, televizoru yandırıb mizin üstünə yığılan qəzetlərdən birini açdı.
Birinci səhifədə onun, milli bayrağın önündə danışan yerdə şəkli və qəzetin qoşa səhifəsini tutan çıxışı dərc edilmişdi. Qəzeti əlini darıxdırdı

lazımsız bir şey kimi harasa kənara atdı.
…Televizorda «Xəbərlər» proqramı gedirdi. Diktor kazarma faciəsinin qurbanlarından danışırdı. Sonra ekranda, faciə qurbanlarının şəkilləri verilirdi. Şəkillərdən sonra ekranda diktor göründü, güclə seziləcək təbəssümlə:
– İndi kazarma faciəsində həlak olanların yaxınları ilə görüşdən hazırlanmış reportaja baxacaqsınız… – dedi.
…Reportaj, onun iri addımlarla binaya daxil olmasından başladı. …Üzü iri planda görünürdü. Sonra iri planda, ona qulaq asanların üzləri göründü. Adamlar qulaq asmaqdan çox, elə bil ona tamaşa edirdilər.
…Kreslosunu qabağa çəkib eynəyini taxdı.
…Onun səssiz çıxışından sonra, iclasın sonu, faciə qurbanlarının qohumları ilə görüşü verildi. Sonra kadr gözlənilmədən kəsildi, onun, bir yığın adamla binanın qabağındakı maşınlara yaxınlaşdığı kadr verildi və reportaj sona yetdi.
…Kreslonun kürəkliyinə söykənib əllərini ovuşdurdu. Əlinin biri isti, o biri soyuq idi.
…Televizorda, indi də üzüm tarlalarını göstərirdilər…
…Bu həftə ərzində görəcəyi işləri, gedəcəyi yerləri, danışacağı adamları, söyləyəcəyi nitqləri yadına salıb ürəyini bulandırdı. Yorulmuşdu nədi?.. Ya bəlkə rahatlıq istəyirdi?.. Daha doğrusu, rahatlıq istədiyini indi hiss eləyirdi… Sonra elə bil bunu kiməsə də dedi ona…
…Qapını astaca tıqqıldatdılar…
– Buyurun… – dedi və fikirləşdi ki, yenə mühafizəçilər olsa…
…Qapı astaca aralandı, hərbi geyimli adamın, içəri boylanan papaqlı başı göründü:
– Üzr istəyirəm, cənab General…
– Sən kimsən? – deyib dikəldi.
– Mən… – hərbçi bədənini içəri salıb qapının ağzındaca dayandı – …Selektorunuz cavab vermədi… dedim… Mən axşam növbəsinin rəisiyəm: Leytenant Heydərov:
– Nəyin axşam növbəsinin?..
– Qarovulun, cənab General… Gecə qarovulunun növbə rəisiyəm.
– Nə istəyirsən?..
– Sizi aşağıda bir qadın görmək istəyir…
– Qadın?.. Nə qadın?!. – dedi və hiss elədi ki, rəngi ağardı.
Növbə rəisi, bu sualdan elə bil ürəklənib bir addım da irəli gəldi:

– Familiyası Seyidovadır. Üstündə sənədi də var. Yoxladım. Deyir Siz dəvət etmisiz… o isə gecikib, deyir… Bayaqkı qonaqlığa, deyir, gecikib, üzrxahlıq eləyir…
Ayaqlarının altından üzüyuxarı, dizləri boyu soyuq gizilti yayıldı.
– Hardadı o?.. – deyib ayağa qalxmaq istədi, özünü zorla saxladı.
Növbə rəisi elə bil onu eşitmədi, mat - məəttəl üzünə baxdı.
– Deyirəm, o, hardadı?..
– Aşağıdadı, cənab General…
– Qoy gəlsin.
– Hara, bura?..
– Bura.
– İndi gəlsin?..
Çönüb növbə rəisinin üzünə baxmaq istədisə də, növbə rəisi yoxa çıxmışdı.
…Xalatını soyunub bir yana tulladı, tələm-tələsik geyinə-geyinə fikirləşdi ki, banketə gəlməməyi, bəlkə elə buna görəydi?..
…Qapı yenə astaca döyüldü.
– Buyurun… – deyəndə, o, artıq tarım geyimində, saçları səliqə ilə geriyə daranmış vəziyyətdə kreslosunda oturmuşdu.
Qapı açıldı… O, yenə həmin qara, ipək paltarında idi, içəri girib elə qapının ağzındaca ayaq saxladı:
– Axşamınız xeyir… – dedi.
Ayağa qalxıb çəkisiz addımlarla Ona yaxınlaşdı:
– Axşamın xeyir. Buyurun, keçin… - dedi - İstədiyin yerdə əyləş. Özünüzü rahat hiss elə…
– Mən…
…Qadın həyəcanlı idi. Bunu o, hələ qapı təzəcə açılanda, Onun avazımış rəngindən, bir-birini sıxcalayan balaca əllərinin gərginliyindən, bir də səsinin titrəyişindən hiss eləmişdi…
– Gecikdiyimə görə üzr istəyirəm… – dedi və susub döşəməyə baxdı.
– Belə daha yaxşıdı. Yaxından tanış olarıq… – deyib susdu və birdən dəhşət içində hiss elədi ki, Ona deməyə sözü yoxdu… ümumiyyətlə, bütün söz ehtiyatı harasa yoxa çıxıb.
…Tələm-tələsik televizoru yandırıb Ona baxdı və elə o dəqiqə də televizoru yandırmağına peşman oldu. Televizorun səsi, elə bil gərginliyi bir az da artırırdı…
– Özünüzdən danışın. Danışın, necə yaşayırsız, nə kimi problemləriniz

var, çətinlikləriniz nədi… - dedi və fikirləşdi ki, bu nə suallardı verir?.. Ümumiyyətlə, niyə özünü itirib?.. Qadın qəlblərinin ən incə, gözəgörünməz yollarını havadaca tutan, əhvalılarını, gözlərinin rəngindən oxuyan o deyildi?..
…Qadın dinməz-söyləməz, döşəmədə tutduğu hansısa nöqtəyə baxırdı, elə bil nə isə deməyə hazırlaşırdı...
– Gecikdiyiniz o məclis də, düzü, elə buna görəydi… – dedi – …Bu adamlara, eləcə də sizə qayğı göstərmək, bizim, şəxsən mənim, dövlətin borcudu… - dedi.
«…Gecənin bu vaxtı, bura hansı tilsimli yollarla, necə gəlib çıxdın?.. Səni bura kim göndərdi?..»
Uzun-uzadı pauzadan sonra qadın başını qaldırdı, gözlərini, o dəfəki kimi gözünün içinə, ürəyinin başına sancdı…
– Heç bir problem yoxdu… – dedi – …Gəlməməyim bir az yaxşı çıxmazdı. – yenə balaca, ağ əlləri bir-birini didişdirdi. – Odu ki, gəldim… Gəldim ki, öz minnətdarlığımı bildirəm… – dedi və ayağa qalxdı, elə bil azca qızardı… – Qayğınıza görə çox sağ olun…
…Birdən-birə içində nə isə burxuldu elə bil. Ayağa qalxıb Ona yaxınlaşdı, əlini əllərinə alıb yumşaq –yumşaq sıxa-sıxa:
– Borcumuzdur… – dedi.
…Onun əli isti və yumşaq idi… Başı hərləndi… əli, öz – özünə qadının belinə dolandı, üzü üzünə toxundu… dodaqları qulağında gəzdi...
– Sən kimsən?.. – pıçıldadı…
…Qadın tərpənmirdi… üzünü, onun boynunda gizlədib, balaca dovşan kimi asta-asta nəfəs alırdı… Sonra birdən nə oldusa, dodaqlarını onun qulağına yaxınlaşdırıb pıçıltı ilə:
– İş başa çatıb daha… – dedi. – Ordan bütün şəhər, bütün ölkə görünür… Dəniz də görünür. Dənizin ləpələri də, içindəki balıqlar da… Balıqların qarnındakılar da görünür…
…Qadının dodaqları elə isti idi, az qalırdı qulağını yandıra…
– Nə deyirsən?… – keyimiş dilini ağzının içində zorla hərlətdi. – …Nə dəniz, hansı balıqlar?..
Sonra birdən elə bil beynində ildırım çaxdı… Ya ildırım çöldə çaxdı?!. Qadını özündən aralayıb :
– Sən nəyi deyirsən?.. – dedi. – Nə demək istəyirsən?..
– Yaxşı bilirsən nəyi deyirəm… – qadının üzü dəyişmişdi, bayaqkı məsum sifətdən əlamət qalmamışdı...

O, düz deyirdi… - fikirləşdi… Bilirdi O, nəyi deyir… O, məqbərəni deyirdi…
Çöldə ildırım çaxdı… İldırım həm də elə bil, qadının qapqara, iri bəbəklərində çaxdı…
…Yuxudan, şimşəyin səsinə ayıldı…
…Verilişləri başa çatmış ekranın ağ-qara xətləri, xırda həşərat yığnağı kimi, qaynaşırdı. …Səhərə az qalırdı…

** *

Nazirlər Kabinetinin nəhəng iclas zalı, Kənd Təsərrüfatı Nazirliyinin və İcra aparatlarının, hürkmüş üzlü işçiləri ilə dolu idi…
– …Bu məsələ barədə, əgər yadınızdadırsa, ikicə ay bundan əvvəl, elə bu salonda danışılmışdı. Nəticə göz qabağındadı. Hələ onda demişdik ki, bu gün iqtisadiyyatı bərbad vəziyyətdə olan respublika büdcəsinin əsaslı bir hissəsini, məhz bu sahələrdən gələn gəlir doldurur… Onu da dedik ki, başlı-başına qalsa da, əvvəlki illərdən iki dəfə çox məhsul yetirən və yığımı təşkil olunmadığından, tələf olan, yağışın, günün altında qalan bu məhsulu yoldan ötənlər, bəzən qonşu respublikaların işgüzar təsərrüfatçıları daşıyıb aparırlar… – baş nazir aramla danışırdı.
…Baş nazir elə danışırdı, elə bil üzümçülüyün və tütünçülüyün tələf olmasından həqiqətən narahat idi.
…Gecəki yuxusunun vahiməsi hələ də canındaydı. Qadının, şümal belini, ovcunun içindən, qaynar pıçıltısını, qulağından qaşıyıb çıxara bilmirdi.
Sonra hardansa yadına, bu yaxınlarda, hansısa qəzetdə, insanın yuxu nöqtələrini hipnozla idarə edən professor haqqında oxuduğu məqalə düşdü.
– …Onda biz təcili surətdə, aparatın bir neçə məsul işçisini dəyişdik, onlara, işlərini mhz bu istiqamətdə qurmağı tövsiyə etdik, məhsul yığımının təşkili haqqında müvafiq qərarlar çıxartdıq. Bəs bütün bunlar nə üçün idi?.. - nazir get-gedə elə bil coşurdu.
…Ürəyi döyünə-döyünə fikirləşdi ki, indi baş nazir sözünü bitirəcəkdi, son söz yəqin ki, ona veriləcəkdi. O isə danışmaq istəmirdi…Qulağına,

hardansa uğultu səsi gəlirdi... Elə bil hardasa yaxınlıqda yeri eşirdilər.
– Bu nə səsdi?.. – astaca böyründə oturan spikerdən soruşdu.
– Nə səs?.. – spiker, onun qəfil sualından diksindi.
– Səsi eşitmirsən?.. Burda təmir gedir?.. Elə bil yeri eşirlər.
– Xeyr məncə… Amma… bəlkə də… – spiker dedi, sonra hər ehtimala qarşı, başını sağa-sola çevirib saxladı, deyəsən, onun dediyi uğultunu tutmağa çalışdı. Sonra ona sarı əyilib:
– Mən… eşitmirəm. Heç nə eşitmirəm. – dedi.
…Baş nazir sözünü yekunlaşdırdıqdan sonra, ayağa qalxıb ləng addımlarla kürsüyə sarı yeridi, mikrofonu düzəldib yarıqaranlıq zala baxdı:
– … Bütün bunlara nə ad vermək olar?.. – acıqlı səslə dedi və hiss elədi ki, heç cür, heç bir vəchlə, harasa itirdiyi hirsinin, acığının ucunu tapa bilmir… – Bu vaxta qədər nə ilə məşğulsuz, deyə bilərsiz?.. Əgər ölkənin bu ağır məqamı, acınacaqlı vəziyyətdə yaşayan xalqımıza kömək əlinizi uzatmaq istəmirsinizsə, buna həvəsiniz, daxili ehtiyacınız yoxdursa, onda niyə o kabinetlərdə otururs unuz?..
…Qabaq cərgədə oturan nazirlər onu, gözlərini qırpmadan dinləyirdilərsə də, elə bil nə isə ayrı şeylər barədə fikirləşirdilər.
– Yığışdırın, bu hərc-mərcliyi!.. Bu da sizin üçün o «Azadlıq» partiyasının qurub düzəltdiyi qurama hökümət deyil!.. Anarxiyaya son qoyun!..
…Yenə elə bil hardasa yeri eşirdilər... Hardasa yox, lap elə burda, kürsünün altında…Yereşən quruğun titrəyişini, düz ayağının altında hiss edirdi…Alnına soyuq tər gəldi…
– …Nə qədər olar bu vecsizlik?.. İndi ki, biz, kiminsə, hansı döəvlətinsə qoltuğunda deyilik! Heç kimin buyruğuyla yox, özümüzə görə, xalqımıza, vətənimizə görə, öz güzəranımıza görə çalışırıq!
…İclas zallarında çaxnaşma yaradan, ünvan yiyələrinin canlarına bit-birə salan sözlərini, elə bil heç kim eşitmirdi… Ya bu, ona elə gəlirdi?!.
…Qabaq cərgələrdə oturan baş nazirin iki müavini, bir az arxada əyləşən kənd təsərrüfatı naziri, bayaqkı ifadəsiz üzlərlə ona baxırdılar…
…Sözlərin təsirini artırmaq üçün işə saldığı əlləri, dediklərinə tabe olmur, yöndəmsiz hərəkətlərlə havada oynaya-oynaya, elə bil onu ifşa etmək istəyirdi. Odu ki, əllərini özündən uzaqlaşdırıb arxasında çarpazladı.
– İlk növbədə bu sözlər Kənd Təsərrüfatı Nazirliyinin rəhbərliyinə, şəxsən nazirə, mənim böyük ümidlərlə təyin etdiyim nazirə aiddir…
…Bu sözdən sonra da nazirin üzünün bircə əzələsi belə tərpənmədi.

Nazir, gözlərini qırpmadan, bivec ifadə ilə onun üzünə baxırdı… Elə bil, daha nə deyəcəyini gözləyirdi. Sonra elə bil, nazir söykənəcəyə yayxanıb qəribə, ikimənalı baxışlarla yanındakılara baxdı. Sonra elə bil yanındakılar da söykənəcəyə yayxandılar. Sonra nazir, gözü onun üzündə, ağzını iri-iri açа-açа əsnədi…
…Yereşənin uğultusu get-gedə elə bil artırdı... Ya bu, ona elə gəlirdi?!. Ürəyi əsəbi-əsəbi döyündü… Nitqini saxlayıb zala baxdı. Arxadakılar da söykənəcəyə yayxanıb bezgin üzlərlə ona baxırdılar... Elə bil üzünə baxa-baxa, əslində, kürsünün altından eşidilən uğultunun nə ilə bitəcəyini gözləyirdilər. Hamı hər şeyi bilirdi. Əllərini qoltuqlarına vurub hövsələylə, bütün bu tamaşanın nə ilə qurtaracağını gözləyirdilər.
…«Qəzəbli» nitqinin süniliyini, nə vaxtsa, necəsə, hardasa salıb itirdiyini – qəzəbini, qapqara kinini, olmaya-olmaya, süni şəkildə yaratmaq istədiyini deyəsən, bütün zal başa düşmüşdü...
…Bir anlıq qulaqları tutuldu... Sözünü yekunlaşdırıb sürəkli alqışlar altında yerinə qayıtdı. Dizləri əsirdi. Uğultu kəsmişdi.

* * *

…Məqbərənin hündür, ağır qapıları kip bağlı idi. Qabağında dayanan nəhəng cüssəli, hərbi parad formalı əsgərin üzünün, bayaqdan bəri bircə əzələsi belə tərpənməmişdi.
Məqbərəyə gələnlərin növbəsi, binanı əjdaha quyruğu kimi, dövrəyə almışdı. Soyuqdan büzüşmüş adamlar yorğun, narazı üzlərlə itələşə-itələşə deyinirdilər.
– Elə bil ora girənin qarnını doyuracaqlar… – kimsə qabaq cərgədən söz atıb əsəbi gülüşlə güldü...
– Di açın görək də!.. Biz görmüşük, fasilə - mağazada olar, nə bilim, qastronomda olar… Fasilə vaxtı o, neynir bəyəm?!. Bəlkə durub çörək-zad yeyir?..
…Bu sözlərdən əsgərin üzünün ifadəsi dəyişmədi, gözü belə qırpılmadı. Əsgər elə bil ebonitdən idi.
…Çox keçmədi ki, adamların içindən sıçrayıb kınara çıxan əsəbi, arıq kişi, əsgərlə üzbəüz dayandı, əlini belinə vurub:

– Ə…ə, sən karsan-nəsən?!. Bu boyda camaatı görmürsən?.. Görmürsən, yazıqlar soyuqdan gömgöy göyəriblər?.. İnsanda insaf olar, mürvət olar… Bax, görürsən, sözlərin özü də oxşardı: in-san, in-saf… Sonra nə oldusa, adamlar, ebonit əsgəri əlləri üstə qaldırıb qışqırışa-qışqırışa harasa üzüaşağı apardılar… və məqbərənin ətrafı bomboş boşaldı…

…Paltosunun yaxalığını qaldırıb məqbərənin qapılarına yaxınlaşdı, ağır bürünc qulpundan ikiəlli yapışıb özünə sarı dartdı.

Qapılar arxadan bağlanmışdı. İçəridən hənirti səsləri gəlirdi.

…Üzünü, qapının arakəsməsinə dirəyib bir gözü ilə içəri baxdı…

…İçəridə, solğun şam işığının altında, uzun əbalarda aramla o baş-bu başa gəzişib nə haqdasa xısın-xısın söhbətləşən adamları tanımadı… Bir də qəribə tüstü iyi gəlirdi…

Sonra kiminsə gözü, qapının o üzündən, elə həmin arakəsmədən onun gözünə zilləndi, qapının o üzündən qaynar pıçıltısı eşidildi:

– Gəlmisən?..

– Hə… – o da pıçıldadı.

…Qapının o üzündən, ağır kilidin səst eşidildi və qapı cırıltıyla aralandı.

…Başında, hündür, nişastalı ağ papaq olan bu uzun, çalsaqqallı adam - keşiş İosif idi, onu içəri ötürüb qapını arxadan möhkəm-möhkəm bağladı, kilidin ağır dəmir qırmağını yerinə oturtdu.

…Tələm-tələsik fikirləşdi ki, bu, hardan cəlib düşüb bura?!. Axı bu, orda – küknarlı, şaxtalı Moskvada idi?..

– Gəl… – keşiş İosif dedi və zal boyu yeriyib harasa sağa buruldu…

…Zal adamla dolu idi. Adamlar, muzeydəki kimi, divarların naxışlarına, sütunların işləmələrinə tamaşa edə-edə gəzişir, öz aralarında yarıpıçıltıyla nə isə müzakirə edirdilər…

…Keşiş İosif onu, zalın tən ortasında, bürünc pyedestalın üstündə qoyulmuş şəffaf qutunun önünə gətirdi, xaç çəkib əllərini qarnının altında çarpazladı.

…Zalın işığı zəif idi deyə, şəffaf qutunun altında uyuyanın üzü dəqiq görünmürdü. Əyilib baxmağa ürək eləmədi, əllərini arxasında çarpazlayıb matəm sükutuna daldı.

…Keşiş İosif bir müddət ağzının içində dua oxudu, sonra bir də xaç çəkib, yünglcə püedestala təzim etdi və çönüb uzaqlaşdı.

…Oğrun-oğrun o yan-bu yanına baxdı… Yaxında heç kəs yox idi… Əyilib, qutunun içində yatanın üzünə baxdı …az qaldı ürəyi dayana:

– Bu ki…
– Bəli, bəli… – kimsə amiranə səslə arxadan dedi. – Belə alındı…O, öldü…Onu da basdırdıq…
– Axı… bəs…
…Danışan kim idisə, sütunun altında dayanmışdı deyə, üzü aydın görünmürdü, səsi də tanış deyildi.
…Ürəyi sıxıldı... Sivişib bu havasız, qaranlıq yerdən uzaqlaşmaq, havaya çıxıb, dağ ətəyinin çiçək qoxusunu canına çəkmək istədi…
– Xeyr, xeyr… Camaat bayaqdan bəri sizi gözləyir… – həmin səs, fikirlərini necəsə oxuyan tək dedi. – Buyurun, danışın…
…Ətrafındakılar indi də dayanıb ona baxırdılar…
– …Mərhumun sətirləri yadıma düşür… – dedi və dayandı.
Bircə saniyə əvvəl beynində dolanan sətirlər, harasa axıb getmişdi...İndi yaddaşı, verilişləri bitən televizor ekranı kimi bomboz bozarırdı…
…Camaatın diqqəti onda idi… O, nitqini itirmişdi… Sonra elə bil yer tərpəndi… dayandığı yerdə ayağı büdrədi…
…Dik atıldı, yuxulu gözləriylə ətrafına baxdı…
…Qabaq oturacaqda, köməkçinin, zərbədən qabaq şüşəyə dəyən alnı partlamışdı, alnının qanı, üzünün bir tərəfi ilə axıb köynəyinə damcılayırdı…
…Sürücü maşında yox idi… Müşayiət polisinin əsgərləri maşını dörd bir tərəfdən əhatəyə alıb, mühafizəçilərin enli gövdələri arasından, vahimədən böyümüş gözlərlə içəri boylanırdılar…
Hardansa uzaqdan, özünü yenicə yetirmiş vertolyotun uğultusu eşidilirdi…
Maşının rabitə telefonunda kiminsə çaşqın səsi dalbadal:
– 62!.. Cavab verin… 62!.. Cavab verin…
– Sizə heç nə olmayıb, cənab general?.. – mühafizəçi, tələm-tələsik onun qabırğalarını, dizlərini yoxlayırdı…
…Maşından düşüb kortejin qabağa, qəza yerinə baxdı.
…Qabaqda gedən iki müşayiət motosikletinin biri aşmışdı, sürücüsü gözə dəymirdi… Görünür təkandan harasa sıçramışdı… Bir də, qabaqda gedən polis maşını, sol tərəfdən möhkəm əzilmişdi. Maşına tərəf getmək istədisə də:
– Siz maşina əyləşin, xahiş edirəm… – mühafizəçi yolunu kəsdi…
– Kim mənə izah edəcək ki, nolub burda?!.
– Hardansa sol tərəfdən yük maşını çıxdı…- mühafizəçi qırıq – qırıq

dedi.
– Hardan, üzbəüz?..
– Yox, sağ tərəfdən… Elə bil yerin içindən pırtladı…
– Heç nə başa düşmədim… Burdan ki, maşın yolu yoxdu?!.
Oğlan çiyinlərini çəkib, onun nəyisə anlamadığından elə bil çaşdı…
–…Geriyə qayıdırıq… Bütün yolları nəzarət altına alın… – köməkçi hardasa bayırda, alnının qanını tələm-tələsik yaylığına hopdura-hopdura, kiməsə telefonda deyirdi. – …Tünd yaşıl yük maşını… axır nömrəsi əlli altıdı deyəsən… Əlli altı!..
…Vertolyotun səsindən, ağız deyəni qulaq eşitmirdi…
…Sürücü yerinə əyləşib maşını işə saldı:
…Maşınlar yolun ortasından çönüb geriyə – şəhərə sarı götürüldülər. Əzilmiş polis maşını və aşmış motosikl arxada qaldı…
– Onlarla kim qaldı? – güzgüdən arxada, ətrafı, getdikcə adamla dolan polis maşınına baxa-baxa soruşdu.
– Orda adam var... - köməkçi sonra nə isə də dedi.
…Burnuna, hardansa, təntənəli matəm mərasimlərində üst-üstə yığılan əklillərin iyi gəldi…Yuxunun təsirindən boşalmış qalstukunun düyününü tarıma çəkdi.
…Bu vahiməli yerdən – Ölümün hənirtisi gələn bu təhlükəli ərazidən uzaqlaşmaq, bütün bu mənzərəni – bu ağır matəm havasını, ölüm qoxulu əklilləri təcili unutmaq, yaddaşdan silmək, lazım idi…
…Sürücü dinmirdi, bayaqkı hadisənin vahiməsini hələ də canında əridə-əridə saralmış bənizi ilə yola baxırdı.
…Mühafizəçi də dinməz oturmuşdu. Heç yeri əzilməmişdi deyə, elə bil azca pərt olmuşdu…
İrəlidə yolu, ucu-bucağı görünməyən, ala-tala qoyun sürüsü basmışdı... Sürü, yolu eninə tutub xırda, şüursuz yerişlə onlara sarı gəlirdi…
…Köməkçi geriyə çönüb günahkar üzlə:
– İrəlidəki postu ala bilmədim… – dedi – Yol təmizlənməyib…
…Sürü, maşınları içinə salıb qapılarını, təkərlərini taqqıldada-taqqıldada, təzəcə qırxılmış xırda, cod tükləri ilə maşınların toz-torpağını silib təmizləyə-təmizləyə keçib gedirdi...
Qoyunlar başlarını qaldırıb ona elə baxırdılar, elə bil ondan nə isə istəyirdilər…

* * *

…Otağına girəndə, bayaqkı ölüm havasından canında, zərrə qədər olsun, əlamət qalmamışdı. İqamətgahın, ətirli akasiya kollarıyla, məxmər yarpaqlı şam ağaclarıyla dolu həyəti, sinirlərini bayaqdan bəri tarıma çəkilən, qorxusunu, bircə anın içində, hansı möcüzəyləsə yoxa çıxarmışdı…
…Dəhlizin adamboylu güzgüsündə, yorğunluqdan, altı torbalanan gözlərinə baxdıqca, bu səhər Kənd Təsərrüfatı Nazirliyinin iclası, cərgələr boyu qənbər sifətlərlə ona zillənən nazirlərin bivec üzləri, qəzada yaralanan polis işçilərinin qanlı üzlərinə qarışıb anlaşılmaz təhlükələr qoxuyan mənzərə yaratdı…
…Otağa keçib pencəyini soyundu, kresloya oturub üz-gözünü ovdu. Ürək döyüntülərinin, qəribə, sərxoş ahənglə ləngidiyini hiss etdi…
…Vaxtı ilə, şəhərin bu əlçatmaz hündürlüyündə, basılmaz qala kimi tikdirdiyi, dörd bir yanı mühafizəçi ilə, qalın meşə və hündür hasarlarla bağlı iqamətgahının səskeçirməz divarları, ürək döyüntülərini nizamlaya bilmirdi.
Son günlərin qarmaqarışıq yuxuları, bayaqkı qəza… elə bil biri, o birinin davamı idi… Yuxusuzluqdan gözləri acışdı…
…Bu nə vəziyyət idi düşmüşdü?!. – əsəbilikdən gözü qarala-qarala fikirləşdi. Ürəyinin bu çırpıntısı nə idi, göz qapaqlarını ağırlaşdıran bu yuxu bataqlığı nə idi?!.
Yuxusunu qaçırmaqdan ötrü, qalxıb hamama keçdi, orda bir neçə dəqiqə dayanıb üzünə soyuq su vurdu, güzgüdə, suyun, ağarıb təzələdiyi üzünə baxdı…
…Yuxu, suyun soyuqluğundan dərisi göynəyən sifətinin gözəgörünməz kapilyarlarıyla, su, basmaya hopan kimi, dərisinin altına yeriyirdi, göz qapaqlarından asılırdı, acı badam qoxulu, zəhər tamı verirdi…
Müşavirlər və nazirlər isə bu dəqiqə, allah bilə, aparatın otaqları, mərmər pillələri boyu orda – burda xısınlaşır, gizli planlar cızır, bir-birinə hansısa məxfi sənədələr ötürə-ötürə, onun əleyhinə nə isə hazırlayırdılar…
Onunsa yuxusu gəlirdi…
…Zəhərli yuxularından qurtulmağın yolları barədə fikirləşirdi. Gözü, köynəyinə, lap sinəsinin üstə düşən xırda qan damlasına sataşdı…

Barmağını suya batırıb, qanı yumaq istədisə də, ləkə, su dəydikcə böyüyüb yayıldı, elə bil həm də təzələndi…
…Burnuna qan iyi dəydi. Əti ürpəndi. Yadına düşdü... Bu, köməkçinin qanı idi, görünür qəza vaxtı köynəyinə sıçramışdı.
…Otağa qayıdıb yazı stolunun arxasına keçdi, stolüstü lampanı yandırıb yarıqaranlıq dəhlizə baxdı.
…Qapının o üzündən, dəhlizdən asta-asta, söhbətləşən mühafizəçilərin səsi gəlirdi. Mühafizəçilər – 25-30 yaşlı, xüsusi təlim keçmiş cavan, cüssəli oğlanlar idi, qapının o üzündə, dəhlizdəki kreslolarda oturub deyəsən ondan danışırdılar.
… Qalxıb asta addımlarla qapıya yaxınlaşdı.
– …Dünənki qəbuldan sonra… – biri dedi – …heç kim bilmirdi. Heç bizimki də bilmirdi…
– Bilmək olmaz. Onun işindən, Allah da baş açа bilməz… – o biri dedi.
Nəfəsini saxlayıb dəhlizə qulaq kəsildi.
– …görək də… – yenə hansısa deyib ah çəkdi.
– elə deyirlər…
– Məlum məsələdi… – o biri lap pıçıltıyla danışsa da, səsi aydın eşidilirdi
– …O da insandı. Bütün insanlar qocalır…
…Dəhlizdən, güclə də olsa eşidilən son cümlədən, sağ gözü yığılıb pis-pis bulandı... Sağ gözünün bulantısı o biri gözünü də bulandırdı, otağın işığını azaltdı.
…Son günlərin, irili - xırdalı səhvləri bir-birinin yanına düzüldü...
Neçə vaxtdan bəri yarımçıq qoyduğu vacib məsələlər, bu səhərki müşavirədə oynadığı uğursuz hirsi… onu, gizli istehzayla müşahidə edən nazirlərin üzüləri, az qala ölümü ilə başa yetəcək düşünülməmiş səfər, mənasız ehsan məclisi…
– …həkimi deyib. – qapının o üzündə mühafizəçilərdən hansısa dedi.
– Heç inandırıcı deyil.
– Nə inandırıcı deyil?..
– O da… sən dediyin… Görən özü bilir?..
– Bilər yəqin, nə bilim?!. Bəlkə də bilmir. Bunu kim bilə bilər ki?..
…Gicgahında vuran ürək döyüntülərinin səsindən, mühafizəçilərin danışığı, ara-sıra eşidilməz olurdu... Sonra qulağı qəribə bir uğultuyla doldu və o, demək olar, daha heç nə eşitmədi. Qapının dəstəyini ehtiyatla burub dəhlizə çıxdı…
…Mühafizəçilər, dik atılıb ayağa qalxdılar, yaxalıqlarını düzəldib

pencəklərini düymələyə-düymələyə, günahkar üzlərlə ona baxdılar.
…Bir neçə saniyə beləcə, qapının ağzında, əlləri cibində, gicgahı əsəbi lükkültülərlə döyünə-döyünə, qulaqları uğuldaya-uğuldaya, dinməz-söyləməz, rəngi avazımış cavanların üzlərinə baxdı… Mühafizəçilərin birinin ürəyi şiddətlə vururdu… Bunu, oğlanın, ürək kimi döyünən gicgahından hiss elədi.
– Gedin, uşaqlar, gecdi… – dedi və bir müddət cavanların üzlərinə baxdı. Sonra çönüb içəri girdi, qapını o üzdən açarlayıb bir müddət də dəhlizdə dayandı.
Mühafizəçilər, az qala barmaqlarının ucunda yeriyib qapıdan uzaqlaşdılar, amma deysən aşağı düşmədilər.
…Yazı stolunun arxasına keçib əyləşdi. Yazı stolunun bir kənarına səliqə ilə yığılmış qəzetlərdən birini açdı. Qəzetin arasından, stolun üstünə bağlı zərf düşdü. Zərfi qaldırıb, üstünü oxudu: «Polkovnik Süleymanovdan».
Məktubun bura hansı möcüzə ilə düşdüyünü fikirləşməyə hövsələsi çatmadı.
…Boz polkovnik… Dağıdılmış hərbi hissənin komandiri, beş-on əlisilahlı dəstəsindən «qoşun» düzəldib «cəngavər-sərkərdə» rolunda paytaxta – başıpozuq iqtidarın, baş-ayaq işləri altında «inləyən» xalqı xilas etməyə gələn əfsanəvi, Boz polkovnik…
…Polkovnikin nazik, əsəbi üzü, inadkarlıq dolu xırda gözləri, gözünün qabağına gəldi…
Polkovnikin nə istədiyi aydın idi. Yaxın günlərəcən, əyalət şəhərciyində ticarətlə məşğul olan bu otuz beş yaşlı alverçi, müharibə bölgələrindəki xırda-xuruş qələbələrinin - gecəylə hərbi hissəyə göndərilən dəstəni darmadağın edib, keçmiş iqtidarın burnunu ovmağının əvəzini istəyirdi.
…Məktubu açıb oxudu:
«…Cənab General!..
Dəfələrlə Sizə yazdığım məktublarıma, teleqramlara, telefon zənglərimə cavab verməmənizi, artıq özümə təhqir hesab edirəm.
Keçmiş iqtidarın ölkədə yaratdığı hərc-mərcliyin qarşısının alınmasında, haqqın, ədalətin zəfər çalıb, Sizin – xalqımızın yeganə, əvəzolunmaz şəxsiyyətinin hakimiyyətə qaytarılmasında mənim xidmətlərim danılmazdır.
Bu və digər xidmətlərimi nəzərə alaraq, müharibə bölgələrinin vəziyyəti ilə əlaqədar məni qəbul etmənizi rica edirəm.

Hörmətlə: Polkovnik Süleymanov S.N.»
…Selektor bippildədi. Dəstəyi götürdü.
– Cənab General… – mühafizə dəstəsinin rəisi idi.
– Eşidirəm.
– Polkovnik Süleymanov burdadı… Sizi görmək istəyir.
…İçindən bumbuz gizilti keçdi, boğuq səslə:
– Kim buraxıb onu bura?.. – dedi.
– Deyir, Sizin göstərişinizlə gəlib… Buraxılış vərəqəsi də var…
– Hansı göstəriş?!. Hansı vərəqə? Mən heç bir göstəriş verməmişəm!..
– Aydındı, cənab General…
…Dəstəyi asıb, gözləri qarala - qarala, polkovnikin qəbulu barədə göstəriş verib-vermədiyini yadına salmağa çalışdı…
…Qapının kilidi xırçıldadı…
Selektorun düyməsini basdı. Aşağıda heç kim cavab vermirdi…
Tez-tez o biri düymələri də basdı… Nömrələrin heç biri cavab vermirdi…
…Alt mərtəbələrdən, yeraltı təkanları xatırladan uğultulu səslər gəlirdi. Uğultudan, döşəmə, divarlar, büllur çilçıraq, pəncərə şüşələri xırda-xırda titrəyirdi…
…Bu, zəlzələ deyil… – fikirləşdi və hiss elədi ki, çiyinləri əsir. Bu, odur… Boz polkovnik… Son bu neçə ayı ona qurulan əldəqayırma sui-qəsdlərin gizli müəllifi...
…Bir anın içində, Boz polkovnikin, iqamətgahı dörd bir yandan əhatəyə alan qoşununu, mühafizə dəstəsinin, əl-qolu bağlı əsgərlərini, iqamətgahın vestibülü boyu, pillələrlə dəstə-dəstə axışan silahlı əsgərləri, bu dəqiqə qapının o üzündən, kilidi xəbis-xəbis buran polkovnikin, hikkədən qaralan üzünü gördü…
…Əli stolun alt siyirməsinə uzandı... Siyirtməni çəkib tapançanı əlinə aldı. Nəfəsi darala-darala, səssiz hərəkətlərlə, siyirtmənin küncündən şəffaf, yastı qutunu tapıb çıxartdı, qapağını açıb güllələri bir - bir ovcuna boşaltdı… Sonra gözü, yarıqaranlıq girəcəkdə, key barmaqlarıyla tapançanı doldurub ehmalca ayağa qalxdı…
…Dəhlizdən, səssiz xışıltı ilə aralanan qapının səsi gəldi… Alt mərtəbələrdən, hərbi çəkmələrinin kobud dabanlarını yerə vura-vura, dəstə-dəstə harasa yuxarı qaçan əsgərlərin əsəbi danışıqları eşidilirdi…
…Divara qısılıb, kürəyini pərdələrə sürtə-sürtə dəhlizə sarı getdi, girəcəyə azca qalmış, astadan:
– Kim var orda?.. – dedi…

…Dəhlizdə kimsə vardı, səssiz addımlarla ehmal-ehmal gəzdiyi yerdə, onun səsinə ayaq saxladı.
…Bədəni, uzun illər əvvəl, xüsusi təlim keçmiş hazırlıqlı əzələlərinin yaddaşı ilə gərilib, qıvraq bəbir sıçrayışı ilə onu dəhlizə atdı. Barmağı, tapançanın tətiyini basa-basa, qaranlıq dəhlizin mümkün tərəflərində, qurşaqdan yuxarı, yanpörtü, çöməli vəziyyətlərdə dayana biləcək polkovnikin bədənini güllələdi…
…Dəhlizin sol küncündə nə isə tappıltıyla yerə düşdü… Sonra kimsə, yarı bükülüb, bir müddət ləngər vura-vura, divara sürtülə-sürtülə, bir neçə addım atdı və ağır yük kimi yerə sərildi…
…Əlini divar boyu gəzdirib işıq düyməsini basdı və gördüyü mənzərədən az qaldı ürəyi dayana… Tapançası yerə düşdü… Boğazı qəhərdən tutula-tutula, qol-qıçı keyiyə-keyiyə aşağı çökdü…
…Arvadının, sönməkdə olan donuq gözləri açıq qalmışdı… Sinəsinin qanına bulaşan əli, ağzını silirmiş kimi, qanı dodaqlarına yaxmışdı…
…Diz-dizi sürünüb bir müddət, çoxdannan bəri görmədiyi bu doğma üzə yaxından baxdı, sonra qadının başını dizləri üstə qoydu, vahimədən qovrula-qovrula, tutduğu işin dəhşətindən nəfəsi tutula-tutula, üzünə bulaşan qanını sildi, cansız başını sinəsinə basdı...
…Dəhlizdən eşidilən ayaq səslərinə dikəlib, qapının ağzında, hərbi geyimdə, arxasında silahlı dəstə, sakit üzü ilə ona baxan polkovnikə:
– İstəmirəm… Heç nə istəmirəm… – dedi. - Nə istəyirsiz, edin… Mənə heç nə lazım deyil…
…Boz polkovnik, elə bil onun sözlərini eşitmədi, əlləri cibində dayanıb dinməz-söyləməz ona baxdı. Elə bil onun nə edəcəyini gözləyirdi.
– Çıxın gedin burdan… – səsi titrədi. – Gedin, deyirəm sizə!..
Onda polkovnik, geriyə dönmədən, həmin o sakit üzü ilə yanındakılara nə isə işarə elədi. Arxadan, əli silahlı əsgərlərin arasından, tanış üzlü birisi dəhlizə çıxıb, tez də geriyə qayıtdı. Çox çəkmədi ki, onun ardınca içəri, keşiş İosif daxil oldu, əlindəki zəncirdən asılmış dəmir gürzəbənzər nəyisə tüstülədə-tüstülədə, qalın səsiylə dua oxudu… Sonra hardansa uzaqdan kilsə zənglərinin səsi gəldi…
…Başını qaldırıb, tavan əvəzinə, məqbərənin, az qala göyün altına dirənən qaramtıl, ucubiz qüllələrinin naxışlarını, çölə açılan dəyirmi nəfəsliklərini gördü… Sonra həmin tanış üzlü adam iti addımlarla ona sarı yeridi… üzbəüz dayanıb əlindəki tapançanı onun alnına dirədi və dalbadal dörd güllə açdı…

…Yuxudan ayılıb quru dodaqlarını yalamaq istədisə də, quru dili dodaqlarını cızıb incitdi.
…Stolüstü lampanın işığı, sübhün, sütül şəfəqləri içində əriyib itməkdəydi…
…Məktub bağlı vəziyyətdə, qəzetlərin arasındaydı.

* * *

…Səhnəyə qalxanda, elə bil zalda pıçıltı gəzdi, ya bu, ona elə gəldi?!. Keçib rəyasət stolunun arxasındakı yerində əyləşdi. Çıxışçı – müdafiə naziri, nitqini saxlayıb, bədəninin yaltaq vəziyyəti ilə, narahat gözlərlə ona baxdı.
– Davam elə, davam elə… – dedi və gözucu zala göz gəzdirdi.
…Müdafiə naziri, döyüş bölgələrindəki vəziyyət barədə, atəşkəsə əməl olunma qaydaları haqqında, ölkənin ordu quruculuğu sahəsində yaranan çətinliklərdən danışırdı.
– Səhhətiniz bu gün necədi, cənab General?.. – baş nazir sol böyründən əyilib qulağına pıçıldadı.
…Baş nazirdən bir cür, qəribə ot iyi gəlirdi. Odekolon iyi idi, yoxsa ot iyi idi, başa düşmək olmurdu. Elə bil dünən o, bomboz yollarla, şəhərdən uzaq kazarmaya yollananda, baş nazir hardasa, yamyaşıl, ətirli otların arasında, ilıq çəmənliklərdə dincəlməklə məşğul olmuşdu.
– Səncə necədi?..- deyib baş nazirin gözünün içinə baxdı.
…Baş nazir elə bil, bu bir neçə günə özünə gəlmişdi, yanaqları çəhrayılaşmış, gözləri aydınlaşmışdı. Sualından, ya baxışından çaşıb, yöndəmsiz təbəssümlə gülümsündü:
– Məncə əla … - dedi.
…Zalın diqqəti həmişəki kimi onda idi. Ona baxdıqca, elə bil nədənsə doyurdular…
…Baş nazir başını qaldırmadan, nə isə yazıb-pozurdu, onun baxışlarını hiss eləsə də, başını qaldırmağa, üzünə baxmağa ürək eləmirdi.
Uzaqgörən və tədbirlidi… – fikirləşdi. – Yoxsa, bu neçə ili, o, paytaxtdan uzaq şəhərdə, dağların döşündəki kimsəsiz evində, tək-tənha yalquzaq

ömrünü yaşayan vaxtlar, ona o sevgi dolu, kövrək məktublarını yazmazdı.
– …adi yanacağın çatışmaması, əlavə döyüş sursatının, ordu hissələrinin, müharibə bölgələrinə atılmasına əngəl törədir… – müdafiə naziri, eynəyinin altından oxuduğu vərəqi çevirdi.
– …Yanacağın çatışmaması səbəbi sizi maraqlandırıb?.. – qəfildən müdafiə nazirinin sözünü kəsdi.
…Nazir döyüküb eynəyini çıxartdı, çönüb irilmiş gözləri ilə ona baxdı. Deyəsən, sualın ona, yaxud başqasına verildiyini anlamadı.
– Sizinləyəm… Bu barədə danışın…
– Mən əlbəttə ki, maraqlanmışam, zati-aliləri… – müdafiə naziri, bədənini dikəldib, çalışqan şagird təbiri ilə dedi – Dəfələrlə bu barədə yanacaq komitəsinə müraciət etmişəm, lakin…
…Müdafiə naziri susub dayandı. Elə bil deyəcəyi sözü bir müddət götür-qoy elədi.
…Üçüncü cərgənin sol cinahında oturan Yanacaq naziri, yerində narahat-narahat qurcalandı.
– Danışın, danışın. Siz müraciət etmisiz və…
– Onlar, bizə lazım olacaq qədər yanacaq verməyə imkanları olmadıqlarını bildiriblər.
– Siz maraqlanmamısız niyə?!. Bəlkə bu, Yanacaq Komitəsi rəhbərliyinin şəxsən sizə olan qərəzli münasibətidi?!.
Müdafiə naziri xırda gözlərini ora - bura qaçırda-qaçırda, gah ona, gah da, üçüncü cərgənin solunda oturan nazirə baxdı…
– Məsəl üçün deyirəm… – dedi.
Sağ tərəfində oturanlar narahat-narahat qurcalandılar. Zaldakılar da qurcalanıb pıçıldaşdılar…
– İstəyirəm, onu da biləsiz ki, yanacaqla bağlı dediklərəniz sizə şərəf gətirmir…
Nazir nə isə də demək istədi, amma demədi.
– Buyurun, deyəsən siz nə isə demək istəyirdiz...
– Mən?!. – nazirin üzündə, vahiməylə qarışıq, qorxu hissi gəzdi – …mən Sizi dinləyirəm, cənab General… – səsi nazilə-nazilə dedi.
- Əyləşə bilərsiz. – deyib yanındakı baş nazirə baxdı.
Nazir, əli titrədiyindən, vərəqləri sahmana sala bilmədi, eynəyini düzəldib, qaralmış sifəti ilə kürsüdən endi.
…Baş nazir heç nə eşitmirmiş kimi, hələ də başıaşağı nə isə yazırdı…

zalda yaranan uzun-uzadı sakitliyə başını qaldırdı, ona tərəf çönmədən, qələminin ucunu xırda-xırda stolunun üstündə tıqqıldatdı.
Zalda oturanlar da elə bil yığılıb balacalaşdılar, girdə başları ilə, gərginlik və qorxu saçan rəngsiz üzləri ilə bir-birinə oxşadılar.
– …Kimin nə ilə məşğul olması onsuz da məlumdu… - geriyə qayıtmış tanış kini ilə dedi. – Kim nə ilə nəfəs alır, onu da bilirəm…
…Baş nazir, bu sözdən, əsəbi-əsəbi sol gözünü ovdu. Gərgin vəziyyətlərdə, gözünü ovmaq, baş nazirin çoxdankı adəti idi. Bəlkə də baş nazirin gözünü gicişdirən, bu dəqiqə toxumabatoxuma böyüyüb gözünün ağını örtən bəbəyi idi… - fikirləşdi.
…Baş nazir başını, oturduğu yerdə mikrofona yaxınlaşdırıb xırıltılı səslə:
– Hərbi hissədə baş verən faciənin nəticələri ilə bağlı çıxış üçün söz, istintaq komissiyasının sədri… – baş nazirin səsi tutuldu… bir müddət mikrofonu ovcuyla bağlayıb, gözü yaşara-yaşara, boğula-boğula öskürdü, sonra su töküb içdi və gözünün suyu axa - axa:
– Əhməd Məlikova verilir… – dedi.
…İstintaq komissiyasının sədri, keçmiş iqtidardan qalan çəlimsiz, uzunburun adam idi, yekə ölçülü kostyumu əynində çalxalana-çalxalana, yöndəmsiz hərəkətlərlə əzilib büzülə-büzülə səhnəyə qalxdı, kürsüyə keçib mikrofonla üzbəüz dayandı...
…Yenə ürəyinin, təyyarədəki kimi, enib-qalxdığını, fasilə verib susduğunu, sonra nizamsız döyüntülərlə axdığını hiss etdi…
…Hamısı yorğunluqdu… – fikirləşdi –… uzaq əyalət şəhəpciyində keçirdiyi o üzücü fasilənin yorğunluğu…
Sonra, çıxışçıya qulaq asdıqca, yadına, bu gecəki yuxusu, əlində tapança, yarıqaranlıq otağında sürünməyi, qaranlıq dəhlizdə kimisə güllələməyi… işığı yandırıb qanlı əlləri üzündə, donuq gözlərlə ona baxan qadınını görməyi düşdü…
Yaddaşını tarıma çəkə-çəkə, bir neçə il bundan əvvəl dünyasını dəyişmiş qadınının üzünü xatırlamağa çalışdı və çaşıb qaldı… Qadının üzü tamamilə yaddaşından silinmişdi...
Alnını ovuşdura-ovuşdura fikirləşdi ki, bəlkə yuxuda öldürdüyü, heç qadını deyildi?.. Əgər elə idisə, onda bəs kimin üçün dizi üstə düşüb ağlayırdı?..
…Yenə gözləri acışırdı… Göz qapaqları, yorğun-yorğun ağırlaşırdı…
Yenə dincəlməyi, iqamətgaha gedib otağının qapısını o üzdən açarlamağı, heç kimi görmədən, eşitmədən, qalstukunun düyününü

boşaldıb soyunmadan, üzüqoyulu yatağına girməyi, balışını qucaqlaya-qucaqlaya yuxuya getməyi gəlirdi…
– …elə deyilmi, cənab General?.. – istintaq komissiyasının sədri, sözünü kəsib ona baxırdı…
Onunla bərabər, zalda oturanlar da, yanındakılar da ona baxırdılar, nə deyəcəyini gözləyirdilər...
– Bəlkə də elədi… – təmkinlə dedi – Amma, belə tələsik nəticə çıxarmaq olmaz. Təqdim etdiyiniz materiallar, hadisə haqqında hələ tam təsəvvür yaratmır. Bu hadisə, ciddi araşdırmalar, dəqiq faktlar, situasiyalara, incə yanaşma tələb edir… – dedi və hiss elədi ki, alnına soyuq tər gəldi. İlk dəfəydi ki, fikirləşdiyi an, çıxışçının dediklərini eşitməmişdi. Bu necə olmuşdu?.. – zala göz gəzdirə-gəzdirə fikirləşdi.
İstintaq komissiyasının sədri, onun cavabından məmnun olub çıxışına davam elədi.
…Diqqətlə, qabaq cərgədə oturanların üzlərinə baxdı, sonra gözünün ucuyla, yanındakıların vəziyyətini yoxladı. Hamı, bayaqkı üzlərlə danışana qulaq asırdı...
Özünü toplayıb fikrini çıxışçıda cəmlədi və bir də özünü onda tutdu ki, yenə, bayaqdan bəri danışılanları eşitməyib…
…Ürəyi sıxıldı... Elə bil əlləri də soyudu. Son vaxtlar, əlləri, beləcə tez-tez soyuyurdu. Qanı pis işləyirdi, nədi?..
Əllərini ovuşdurub üst-üstə qoydu. Əlləri, ayrı adamın əllərinə oxşayırdı... Barmaqları qozbel adamlar kimi əyilmişdi, dərisi qurumuşdu.
Əsnəmək istəyirdi… Əsnədikcə, zalda oturanların üzləri, dəyişirdi…hamı yatmaq istəyirdi… Yuxulamaq istəyənlərin üzlərinə baxa – baxa, yxydan heç cür sivrilib çıxı bilməyən, yata – yata şişib saralan yuxulu Genaralın ölkəsində baş verənləri – dəli azadlıqla binalara dırmaşıb ordan vəhşi bağırtılarla bağıranların qalibiyyət dolu üzlərini gördü…
…Bu nə idisə, fəlakətli bir şey idi. – fikirləşdi. - Kiminsə, öz yuxularından sümrülməsi barədə, o, heç bir ədəbiyyatda oxumamışdı. Bu, nə idi, xəstəlik idi, ya qocalıq?!. Bəlkə adi yorğunluq idi?.. – əllərini sığallaya-sığallaya fikirləşdi. Əgər yorğunluq idisə, o məqbərə nə idi?..
Sonra çıxışçıya qulaq asa-asa, hardansa yadına, yaxın günlər hansı qəzetdəsə oxuduğu məktubun mətni düşdü…
Məktubu, naməlum familiyalı bir ana yazmışdı. Qadın, narkoman oğlunu, bir neçə hipnoz seansına müalicə etdiyinə görə, hansısa psixiatra öz minnətdarlığını bildirdi…

…Ürəyi döyünə-döyünə, psixiatrın familiyasını yadına salmağa çalışdısa da, yadına düşmədi. Məktubun altında isə, redaksiyadan verilən P.S.-də nə isə yuxularla bağlı bir cümlə də yaddaşında bulandı…
Bir müddət, yazının böyründə verilən həmin psixiatrın, yorğun üzünü xatırladı… və çıxışçıya sarı çönüb:
– Sizə deyim ki, saydığınız o artilleriya qurğuları, dediyiniz mənbələrdən yox, qonşu respublikalardan alınır. Silahların bir hissəsi isə, son məlumata görə, xarici təyyarələrlə gətirilir. Sözünüzə davam edin… – dedi. Sonra hardansa yadına, bir vaxtlar, uzaq şəhərlərdən birinin vağzalında rastlaşıb, vaxtını öldürmək üçün söhbətə girişdiyi falçı qadının, onun ölümü ilə bağlı pıçıldadıqları düşdü…
– …Buna ölüm də demək olmaz, bala… Şəkli o üzünə çevirən kimi, sənin də üzünü, O dünyaya çevirəcəklər!..

IV FƏSİL

-…Professor!.. Professor!.. Professor!..
…Professor yuxudan dik atılıb ətrafına baxdı… Otağın işığı gecədən yanıq qalmışdı... Gün artıq yuxarıda idi. Üzbəüz divardakı saat doqquzun yarısını göstərirdi.
…Böyrü üstə çönüb yuxuda gördüklərini yadına salmağa çalışdısa da, yadına demək olar, heç nə düşmədi. Nə isə ara-sıra, yumşaq-yumşaq əlinə, ayağına dəyən buludvarı örtükləri xatırladı...
Dəqiq olanı bir bu idi ki, bu gecəki yuxudan sonra, professor, ömrünü artıq başa vurduğunu, onu bu dünyayla daha heç nə bağlamadığını, əlini, ayağını hiss eləyən kimi, qəribə bir rahatlıqla hiss eləyirdi...
…Telefonun səsi, niyəsə mətbəxdən gəldi…
Ayağa qalxıb, yorğanı çiynində mətbəxə getdi.
– Sabahınız xeyir, professor!.. – baş həkimin katibəsi idi. Qızın səsi həyəcanlı idi. – Sizə nolub?..
– Mənə?.. – professor qızın köntoy suallarına öyrəncəli idi. – Mənə heç

nə.
– Deyirəm, xəstələnməmisiz ki?.. – qız tez-tez danışırdı. – …Bütün klinika bir-birinə dəyib… Hamı sizi axtarır... Necəsiz indi?..
– Yaxşıyam, sağ olun. Nolub ki, məni axtarırlar?..
– Bilmirəm. Bəydadaş, (baş həkimi klinikada belə çağırırdılar) səhərin gözü açılandan «Veyisov» deyib dad eləyir. Elə evdən o vəziyyətdə, başılovlu gəlmişdi. Soruşdum, nolub, demir. Elə deyir: «tap onu», vəssəlam. İndi nə deyim ona?.. Deyim evdəsiz, ya yoxsuz?..
…Baş həkimin, dana üzünü xatırladan donuq sifəti gözünün qabağına gəldi. Onunla çənə döyməyə halı yox idi, odu ki:
– Denən, evləri cavab vermir. Yarım saata gəlirəm. – deyib dəstəyi asdı.
…Yenə böyüklərdən kiminsə nəyisə xəstələnib… – fikirləşdi və bir müddət mətbəxin ortasında, yorğanı çiynində dayanıb qaldı… Sonra gözü, srağagünkü axşamdan stolun üstünə səpilib qalan cücü tozuna sataşdı… və yadına düşdü…
…Akademik… qədim Misir əlyazması… səhifələri qopuq cib dəftərçəsi… məhəbbət və bağırsaqlar… boz gödəkçəli oğlan…
Ürəyi pis-pis bulandı… Bunların hansının yuxu, hansının gerçək olduğunu ayırmaq, bu dəqiqə yuxulu professor üçün çətin idi.
…Son iki günün ərzində nələr baş verməmişdi?.. Bütün bunlar nə idi, nəyə görə idi?!. – professor barmağı ilə cücü tozunun içində zolaq açа-açа fikirləşdi və hiss elədi ki, qısaca müddətə unutduğu kilkəli mənzərələr yenə ona sarı axmağındadı…
…Krantı açdı... Krantdan nazik şırımla qəhvəyi rəngli, lilli su axdı…
…Əl-üzünü, çaydanın suyu ilə yudu.
…Çox güman ki… – kətilə oturub cücü tozuna zilləndi – …çox güman ki, xəstə tərcüməçi haqlı idi. Qədim əlyazmaya görə, onlar akademiklə eyni bir yerdə – həmin o «astana» deyilən təhlükəli zonada olmuşdular. Akademik ölmüşdü. O isə hələ ki, sağ idi… Hələ ki, İblisin, ona sarı uzanan əlinin nəhəng kölgəsi altında, müvəqqəti olaraq zamində idi…
…Həmin o sirli kölgəni professor birdən-birə elə ordaca – oturduğu yerdə, dörd bir yanı, qarısını xatırladan doğma əşyalarla dolu balaca mətbəxdə də hiss elədi… Mətbəxin bir tərəfinə, professor oturan küncə, birdən-birə elə bil axşam düşdü… Ya bu, ona elə gəldi?..
Vahimədən bədəni yığıldı…
…Günlərin bir günü, bu sirli kölgə, küçə ilə getdiyi yerdə, ya, evindəcə oturub, günəşin erkən şəfəqlərinin, gecənin sirli vahiməsini dağıdacağını

gözlədiyi vaxt, yaxud, yorğan-döşəyində yatdığı məqam, quzğun kimi üstünə şığıyıb, iti caynaqlarını xirtdəyinə keçirəcəkdi, onu yorğan-döşəyindən, ya oturduğu kreslosundan qoparıb, özü ilə Ora – bozumtul burulğanlardan yığılmış həmin o sirli məkana aparacaqdı…
…Bu fikir, professoru, oturduğu yerdən, tıxac kimi irəliyə atdı…
Mətbəxin, üzübərk döşəməsinə üzü üstə düşməkdən özünü zorla saxladı… Üşüyə-üşüyə otağa qayıdıb çarpayısının kənarına oturdu, gecədən çıxarıb yerə atdığı soyuq corablarını ayaqlarına keçirə-keçirə, dünənki gecəsini, dörd bir yanı, qorxunc simmetriya ilə bir-birini təkrarlayan yarıqaranlıq bağı xatırladı… vahimədən bədəni uçuna-uçuna, uzun- uzadı vahimələrdən və iztirablardan sonra, axır ki, bağın bir küncündə tapdığı çıxışı - əcaib quş səsləri ilə dolu darısqal, qaranlıq cığırı, onu bu cığırla, könüllü müşaiyət edən əcaib iti xatırladı… İtin, küləyin uğultusu içində itib-batan ayaq səsləri, başının qəribə, çəkisiz hərəkətləri, bütün yolu, xidməti borcunu yetirirmiş kimi, onu qəribə, müdrik təmkinlə, ardınca aparmağı yadına düşdü…
Sonra professor, dünənki, məşəqqət dolu axşamını – gecədən xeyli keçənəcən, yuxusuzluqdan gözünün içi yana-yana, bütün kanalların verilişləri bitənəcən, televizorun qabağında oturmağını, ilıq hava kimi, əlinə, ayağına dolanan yuxularının cəngiqə keçməməkdən ötrü, səhərəcən bir çaydan qəhvə içməyini, yalnız dan yeri söküləndə, günəşin kal şəfəqləri, qaranlıq göyün tilsimini qırmaq istəyəndə, xəstə tərcüməçinin dediyi kimi, İblisin ərazisinin vaxtı başa çatdıqdan sonra, yuxusuzluqdan ağırlaşan vücudu ilə, keyimiş əl-ayağı ilə, özünü çarpayısına salmağını xatırladı…
Bu axşam o, gecəsini bir təhər başa vurub, yalnız sübh çağı, təxminən saat beş radələrində özünü yuxuya təslim etdiyindən, boz gödəkçəlinin qırmağına keçməmişdi…
…Mətbəxə qayıdıb, özünə, qəhvə hazırladı, sonra pəncərənin yanındakı kətilə oturub, həyətdə paltar sərən arvadlara baxa-baxa fikirləşdi ki, bəlkə o, bu gecə də həmin o «astana» deyilən yerdə olmuşdu?.. Bütün gecəni, ürəyi partlaya-partlaya, nəfəsi kəsilə-kəsilə, boz gödəkçəlinin təqibindən qaçıb gizlənə-gizlənə çabalamışdı, sadəcə bütün bunları hansı möcüzəyləsə unutmuşdu?!.
…Doğrudan da – … – professor, nəbzi rahat vura-vura fikirləşdi. Əgər o, azı beş saat yatmışdısa və bu beş saatın ərzində yuxu görmüşdüsə, niyə yuxusunu xatırlamırdı?!. Ya bəlkə, bu gecə o, ümumiyyətlə yuxu

görməmişdi?!.
…Dərindən nəfəs alıb, qəhvədən bir qurtum aldı. Sonra qəhvəni qurtum-qurtum içdiyi yerdə, ağlına gələn növbəti fikrindən çeçədi…
Bu gecəki yuxusunu, onun yaddaşından qəsdən silmişdilər. Hələ ola bilsin, bu gecə ona nə isə eləmişdilər... Hə, hə, dəqiq nə isə eləmişdilər. Yaddaşını dəyişmişdilər… ya ruhunu oğurlamışdılar?..
…Ürəyi əsəbi-əsəbi döyündü… Bəlkə elə bu gecə, həmin o boz gödəkçəli axır ki, özünü ona yetirmişdi?.. Qapılarının ağzına çatıb, orda Allah bilə ona nələr eləmişdi?.. Bəlkə də artıq öldürmüşdü onu?!.
…Bu fikirdən, professor, başının tüklərinin qabardığını hşiss etdi... Fincanı nəlbəkiyə qoyub, pəncərə şüşəsinə düşən əksinə baxdı…
…Enli, yastı burnu, qalın, çal bığları, girdə gözlüklü eynəyi ilə o, qoca, boz bayquşa oxşayırdı…

* * *

…Baş həkim, həmin o dana üzü ilə, onu, kabinetinin girəcəyində, əlləri, az qala dirsəyəcən keçirdiyi xalatının yekə ciblərində gözləyirdi. Onu görüb qəhərli səslə:
-Sizi dünən axşamdan axtarırlar, professor… Səhərdən düz üç dəfə zəng vurublar.
Baş həkim, vəziyyətdən asılı olaraq, ona gah «siz», gah da «sən» deyə müraciət edirdi.
– Kim axtarır məni?..
– Nazir.
– Nazir?..
– Bəli, nazir. – baş həkim, hövsələsi darala-darala dedi.
…Baş həkimin üzü, həyəcandan, ya yuxusuzluqdan şişib köpmüşdü.
– Bilmədiniz, nəyə görə?.. – professor dedi və səhiyyə naziri – ortayaşlı, uzunboy, çərənçi adam, nəfəs dərmədən, doğrayıb tökdüyü əlaqəsiz cümlələri ilə, tüpürcəyi quruyub dodaqları arasında saqqız kimi uzanıb yığılan yekə ağzıyla gözünün qabağına gəldi.
– Bilmirəm. Maşın da göndərib, bayaqdan burdadı. Sizi gözləyir.
– Hara getməliyəm, evinə?.. – professor ciblərini eşələyə-eşələyə kabinetinin açarlarını axtardı.

– Yox, evinə niyə, nazirliyə…
– Nazirliyə? Nazirliyə niyə?.. – professor təəccübləndi.
…Açarlar tapılmırdı, elə bil cibindən buxarlanmışdılar.
– Bilmirəm… – baş həkimin çiyinləri əsəbi-əsəbi atıldı.
– Heç nə başa düşmədim… – professor dedi və fikirləşdi ki, açarları harda salıb itirə bilərdi?!.
Baş həkim çaşqın üzü ilə:
– Mən də bayaqdan onu deyirəm. – dedi və yenə çiynini atdı.
Professor, bir müddət də açarları çantasında axtara – axtara fikirləşdi ki, baş həkimin çiyni, deyəsən öz-özünə atılır. Sonra birdən nə oldusa, baş həkim, üzünü professorun qulağına yaxınlaşdırıb məxfi səslə:
– Deyirəm, bəlkə nəsə olub oralarda?!. – dedi və başı ilə haranısa arxanı göstərdi.
– Harda?..
Baş həkim «ora»nı gözləriylə də göstərdi, sonra əsəbi-əsəbi:
– Yuxarıları deyirəm… – dedi. – Elə bil nazir özü də çaşqınlıq içindədi…
Baş həkimin bu hərəkəti, professora, balaca akademikin, «ora» deyə-deyə, gah şəhadət barmağıyla, gah da gözləriylə haranısa arxanı, sonra tavanı göstərməyini xatırlatdı…
– Niyə ki, çaşqınlıq içindədi? – professor qətiyyən heç nə başa düşmürdü.
…Görünür, hələ uzun müddət bu vəziyyətdə olacaqdı… - fikirləşdi. - Həmin bu vəziyyətdə kimisə müalicə edəcəkdi, kiməsə diaqnoz qoyacaqdı... Ən pisi də o idi ki, açarlar yoxa çıxmışdı və bu dəqiqə professoru ən çox darıxdıran, ürəyini sıxıb nəfəsini kəsən, kabinetin açarının birdən-birə yoxa çıxması idi.
Baş həkimlə danışa-danışa, yaddaşını sahmanlayıb, açarları, bayaq evdə, qapıdan çıxar-çıxmaz, paltosunun cibində yoxladığını, sonra, bütün yolu, onları cibində çevirə - çevirə gəldiyini yadına saldı... Əlini, hər ehtimala qarşı, paltosunun ipək astarı boyu gəzdirib, cibinin dəlmə-deşiklərini yoxladı və fikirləşdi ki, açarların cibindən itməyinin tək bircə variantı qalır: onları, o özü, evdən çıxıb klinikaya gəldiyi yolun hansı döngəsindəsə, özünün də xəbəri olmadan, öz əli ilə cibindən çıxarıb atmışdı, yaxud…. – burda professor, yenə ürək döyüntülərinin, nizamsız ahənglə ha yanasa axdığını hiss etdi…Yaxud, onları ona atdırmışdılar…
…Axı niyə? – professor, hələ də dəli həyəcanla, bu günkü qəfil çağırışı tədqiq edən baş həkimin üzünə baxa – baxa, hövsələsi darala-darala

fikirləşdi. O açarlar kimə lazım idi?.. Bu nə idi?.. Özündən xəbərsiz, gizli, şüuraltı yaddaşında çıxardığı hansısa qərarın həlli, yoxsa Kiminsə əmrinin icrası?!.
–…məndən dönə-dönə soruşdu ki, bu, həmin o Veyisovdu?.. Mən özüm də çaşbaş qaldım… Dedim hansı «həmin»?.. O, özü də, deyəsən bilmədi hansı. Dedi, təcili gəlsin. Maşın düz bir saatdı burdadı…
Professorun səbri tükəndi:
– Başa düşmədim, məni çağıran kimdi. Nazirdi, yoxsa…
– Onu, vallah mən də bilə bilmədim.
…Baş həkimin gözləri, qan çəkmişdi...
Professor, bir müddət, baş həkimin, az qala hədəqəsindən çıxan gözlərinə baxa-baxa fikirləşdi ki, gərək bayaq, baş həkimin katibəsi evə zəng vuranda, deyəydi ki, möhkəm xəstələnib, işə gəlməyəcək. İndi bu vəziyyətdə harasa getmək, kiminsə zarıltısını dinləmək, onun, onsuz da üzgün canını bir az da üzəcəkdi.
– …Onu bu vəziyyətdə birinci dəfədi görürəm… – baş həkimin həyəcanı sovuşmaq bilmirdi, gözləri yol çəkirdi…
– Hansı vəziyyətdə?..
– Belə də, çaşqın… Elə bil işdən çıxmaq söhbəti var.
Professor baş həkimin vəziyyətindən başa düşdü ki, heç bir bəhanə, onu bu çağırışdan xilas edə bilməyəcək. Odu ki, alnının damarları, getdikcə gərilən həmkarını sakitləşdirmək üçün:
– Yəqin müayinə olunmaq istəyir… – dedi.
– Kim?..
– Nazir.
– Yox, özünün məsələsi deyil… - baş həkim dedi və gözləri çuxura düşdü. - …Mən onu da soruşdum. Dedi ayrı məsələdi. Özü də bərk həyəcanlı idi. Onu heç vaxt bu vəziyyətdə görməmişdim…

* * *

…Professor, nazirliyin, xalılar döşənmiş, geniş qəbul otağına daxil olanda, nazirin köməkçisi – 25-30 yaşlı, gülümsər üzlü oğlan, selektorla kiminləsə danışırdı, onu görən kimi, dəstəyi asıb ayağı sıçradı…

…Nazir onu, uzunsov, işıqlı otağının yuxarı başında, nəhəng yazı stolunun yanında, yerə sancılmış milli bayrağan önündə, ayaq üstə gözləyirdi, o, otağa daxil olanda, iri addımlarla qabağına yeriyib əlini sıxdı…
– Xoş gəlmisiniz, professor… – deyib yer göstərdi.
…Professor bu naziri birinci dəfə görürdü. Klinikada işlədiyi qırx beş il ərzində, bundan əvvəlki naziri çıxmaq şərtilə, nazirlərin heç birinin üzünü görməmişdi. Bu nazir, professorun, klinikada işlədiyi müddətdə, beş ildən bir dəyişilən nazirlərin səkkizincisiydi.
– Necəsiz, professor?.. – nazir yağlı bas səsiylə dedi, sonra, cavab gözləmədən – Məni yəqin ki, xatırlamırsız… – deyib susdu. – Məlum məsələdi. O qədər tələbəni yadda saxlamaq mümkün də deyil.
…Nazirə, yöndəmsiz boşluqları doldurmaq üçün söz axtarmaq lazım deyildi. Onun gəlişinə deyəsən, ciddi hazırlaşmışdı, ya da ola bilər, nazir, həm də, boşluqları doldurmaq üzrə mütəxəssis idi… – professor yerində qurcalana-qurcalana fikirləşdi, sonra, nazirin narahat gözlərinə, yüngülcə tərləyən alnına baxa-baxa, onu bu qədər həyəcanlandıra biləcək mümkün səbəbləri hesabladı.
– Siz, mənim ən sevimli müəllimim olmusuz… – nazir dedi, elə bil nədənsə birdən-birə əsas mövzuya keçməyə ürək eləmirdi. – Mühazirələrinizi yada salanda, özümü o illərdə hiss edirəm...
Professor, nazirin, dar alınlı sifətinə baxa-baxa, bu adamı nə vaxt, neçənci ildə, harda gördüyünü yadına salmağa çalışdısa da, yadına heç nə düşmədi. Nazirin qarayanız üzü, minlərlə tanış – yad üzlərə qarışdı…
– Professor… – deyəsən nazir, söhbətin giriş hissəsini yekunlaşdırıb, əsas hissəsinə keçməyə hazırlaşdı. – …yəqin baş həkim sizə ucundan-qulağından deyib… – sözünə ara verib professorun gözünün içinə baxdı, sonra nə oldusa, nazirin üzü birdən-birə dəyişib ciddiləşdi, qalın qaşları narahat-narahat yerində oynadı. – …Sizi… narahat etməyə məcbur oldum... Bilirsiz, söhbətimiz bir qədər konfidensial xarakter daşıyır. Məsələ burasındadı ki, sizə təfərrüatlı surətə bir şey deyə bilməyəcəyəm… – bu yerdə nazir, nədənsə bir qədər qabağa dirsəklənib səsini endirdi –… Bu gün axşam, saat on səkkiz otuzda, sizin həyətə 10-11 nömrəli maşın gələcək… Dövlət maşını… – nazir danışdıqca, nəfəsi təngiyirdi – …siz o maşına minib bir ünvana getməlisiz. Təəssüf ki, o ünvanı və xəstənin kim olduğunu mən özüm də bilmirəm… Amma bu, çox vacib bir yerdir.

…Nazir bunu deyib susdu, sonra:
– … Bu… şəxsən Onun xahişidi… -əlavə elədi.
Nazir, «Onu» sözünü, xüsusi vurğuyla dedi.
– Kimin onun?..
– Cənab Generalın… – nazir bunu deyib, qəribə ehtiramla susdu və niyəsə başını aşağı saldı, sonra elə başıaşağı – …Görünür, kimdisə, yaxın adamıdı… - dedi, - ola bilər qohumudu… – Sözün düzü, mənə köməkçisi zəng vurmuşdu...
Əsasən televizorda, təntənəli mərasimlərdə, uzaqdan-uzağa gördü General, boz gözləri ilə gözünün qabağına gəldi. Generalın sağ gözündə nə isə parıldayıb söndü elə bil... Ya bu, professorun gözünə göründü?!..
– Maşın hara gələcək, deyirsiz?..
– Sizin həyətə… Bir azdan… – nazir deyib, qol saatına baxdı. Nazirin saatının, qızılı bilərziyində də, elə bil nə isə yanıb - söndü - …Saat on səkkiz otuzda. İndi hələ ikiyə işləyir…
– Axı bizim həyət... – professor deyib susdu və fikirləşdi ki, nazirin dediyi o maşın, şəhərin o başında, üfunətli küçələrin, döngələrin arasındakı dar-düdük həyətlərini necə tapacaqdı?!.
– Nə həyət dediniz? – nazir, professoru yaxşı eşitmək üçün nəyə görəsə çənəsini qabağa verdi.
– Deyirəm axı, bizim həyəti necə tapacaqlar?.. Ünvanı…
– Onlar özləri bilir… – nazir ağızucu deyib, düyməni basdı. – Professor, mən başa düşürəm… Mən hər şeyi başa düşürəm. Sizin yaşda, bu peşənin yükünü çəkmək həqiqətən ağırdı… Çox ağırdı. Aləti, beyin olan həkimi, iş günündən sonra yormaq, ən azı günahdı… – nazir nədənsə qəribə ədayla danışmağa başladı. – Əgər bir şey lazım olarsa… Xüsusi aparat, dərman, yaxud qan-filan, şəxsən mənə müraciət edin. – nazir deyib vizit vərəqəsini ehtiramla professora uzatdı.
* * *

…Professor nazirliyin binasından çıxanda, yenə çiskinləyirdi...
Paltosunun yaxalığını qaldırıb, nazirin, geniş salonlu ağ maşınına

əyləşə-əyləşə fikirləşdi ki, yuxuları deyəsən yavaş-yavaş bu üzə keçir… Bu nə demək idi?.. Kim idi onu çağıran?.. Niyə məhz onu?.. Onu hara aparacaqdılar?.. Niyə həmin o dövlət maşınını, klinikaya yox, birbaş evlərinə göndərirdilər?.. Niyə indi yox, axşam?.. Niyə nazir elə həyəcanlı idi?.. Evlərini hardan tanıyırdılar?..
Sonra bütün yolu, havanın çiskinindən bozaran küçələrə baxa-baxa, yenə akademik haqqında fikirləşdi. Görəsən akademik indi hardaydı?!. Astana deyilən sirli məkanı, bulanıq da olsa, təsəvvürünə gətirməyə çalışdı...
Astana – Yer səthi ilə, qaranlıq kainat boşluğu arasında, Yer kürəsi, şəffaf qabıq kimi bağlayan sarımtıl qat idi…
Bütün bu qarmaqarışıqlığın içində, əsas olanlardan biri də o idi ki, akademikin ardınca, həmin o sarımtıl məkana düşməməyin əlacını o, tapmışdı… - fikirləşdi -… Yuxuya, yalnız sübhə yaxın, günəşin zəif şəfəqləri, gecənin tilsimini qırmağa hazırlaşdığı məqam, kilkəli yuxu cəngəllikləri əriyib avazıyan an yuxuya getməyin təhlükəsizliyini kəşf etmişdi… Əfsuslar olsun ki, akademiki itirəndən sonra… … Evə girib, bir neçə dəqiqə işığı yandırmadan, dəhlizdəki güzgüdə özünə baxdı… Üzündə, qəribə bir gümrahlıq əmələ gəlmişdi… Qaşlarının altından daim salxım kimi asılıb, gözlərini itirən tuluqları, ovurdlarının sallaq büküşləri, elə bil yığılıb balacalaşmışdı…
… Fikirləşdi ki, şkafın yuxarı gözlərini gəzib, ordan, bir vaxtlar, qarısının, onun ad gününə bağışladığı kətan köynəyini tapıb çıxarmalıdı, köynəyin kağızını açıb ütüləməlidi. Əynindəki köynəyin, elə o biri köynəklərin də yaxalıqları, yuyulub-ütülənməkdən, yeyilib pürşüklənmişdi. Bir də, çəkmələrinin palçığını yumalı, üzünü qırxmalıdı.
…Köynəyi tapıb kağızını açdı, az qala əlli yerdən bəndlənmiş xırda iynələrini, hövsələsi darala-darala, tikanı çıxaran kimi, pinsetlə çəkib çıxartdı. Sonra mətbəxə keçib, bir müddət də orda ütünü axtardı…Könəyi ütülədikcə, üzünə, qəribə, tanış qoxu yayıldı... Əlini saxlayıb stola əyildi, köynəyi iylədi.
…Köynəkdən kəfən iyi gəlirdi…

* * *

…Bir neçə dəqiqədən sonra, professor küknar və çinar ağaclarının, ətirli akasiya kollarının içində ağaran cıqqayabənzər artırmalı, ağ, mərmər sütunlu möhtəşəm binanın qarşısında idi...
Burda necə peyda olduğunu, professor heç əməlli-başlı hiss etmədi də… Yadında qalan bir o oldu ki, zibil yeşiklərindən, ac, qotur it-pişiyindən, bir də, sınıq-sökük skamyalarda, hərəsi bir yana əyilmiş qarılardan ibarət həyətlərinin, gözdəniraq bir yerində dayanan, heç nəyi ilə, bu, miskin həyətə uyuşmayan, qara rəngli, tutqun şüşəli nəhəng maşına əyləşmişdi… Maşının salonunun, nəşə iyini andıran sirli qoxusunu canına çəkə - çəkə, cansız sürücünün, plastilinvari əllərinə, güllə kimi uçduğundan, tutqun şüşələrindən görünən qırıq mənzərələrə baxdıqca, professor anlaşılmaz, gizli tələşla, hardansa, necəsə oyanmaq fikri ilə həyəcanlanmışdı…
…İqamətgaha çatdıqda isə, rəngbərəng gül kolları və fəvvarələrlə dövrələnmiş həyətə düşməyi ilə, maşının yoxa çıxması bir olmuşdu... Maşın geriyə sovrulmuşdu, ya yuxarı qalxmışdı, ya bəlkə, dayandığı yerdəcə hansısa gizli, yeraltı dayanacağa çökmüşdü?!.
…Professor, bir müddət beləcə, yüngül mehdən yırğalanan ağacların xışıltısından, ara-sıra quş cüggültülərindən savayı, ayrı bir səsin eşidilmədiyi kimsəsiz, sakit həyətin ortasında dayanıb qaldı...
…Demək baş həkimin də, nazirin də, nagüman həsrətlə bilmək istədikləri naməlum ünvan bura idi... Ünvanın və ünvan yiyəsinin gizlədilməsi səbəbi aydın idi… – professor fikirləşdi – …Axı o, boğaz, yaxud ürək həkimi deyildi?!.
Sonra professor, bu sehrli həyətin dörd bir yanını – naxışlı skamyaları, mərmər döşəməli cığırları, cığırların kənarları boyu düzülən dəyirmi işıqları gözdən keçirə-keçirə, bu möhtəşəm binada xəstələnə biləcək adamlar haqqında düşündü.
Sonra da, həyətin nağılvari mənzərəsinə, mumabənzər, qəribə bitkilərə, ağ mərmərdən tökülmüş fəvvarələrə, binanın tacşəkilli geniş artırmasına baxa-baxa fikirləşdi ki, bu yuxuyabənzər gözəlliyin içində, eləcə durduğun yerdə havalanmaq olar.
…Hava qaralmağa başlayırdı…
…Paltosunun düymələrini yoxladıqca, axşamın ala-toranında sədəf kimi işaran işıqlardan, bu zəif işartıdan, diriliyini itirib yuxuya bənzəməyə

başlayan yaşıl yarpaqlı akasiya kollarından, sıx ağaclıqların arasından görünən sirli cığırlardan, bu əfsanəvi gözəlliyin kimsəsizliyindən, ona sarı tüstü kimi, tədricən sürünən vahiməni hiss etdi… Başını qaldırıb göyə baxdı. Qəribəydi ki, həmin bu sehrli həyətin – mərmər fəvvarələrin, mumabənzər şam ağaclarının əksi elə bil göyə də düşürdü… Ya bu, professorun gözünə görünürdü?!.
…Başını aşağı salıb, bir də qaldırdı… Bu dəfə göyə diqqətlə baxdı... Göyün üzü, küləyin hardansa qovub gətirdiyi nəhəng bulud topalarıyla örtülürdü deyə, professor bir neçə saniyə əvvəl gördüyü, ya gözünə görünən mənzərəni daha görmədi… Sonra yadına, öz həyətlərinin göyünü salmağa çalışdısa da, heç nə xatırlamadı. Deyəsən heç həyətlərində dayanıb göyə baxdığı olmamışdı. Elə bil, heç həyətlərinin göyü yox idi…
Dəqiq olanı bir bu idi ki… - professor fikirləşdi - …hələ ömründə heç bir yerdə buranın göyü qədər, möhtəşəm, sehrli göy görməmişdi. Sonra hardansa yadına, nə vaxtsa Konstitusiyada göy haqqında oxuduğu bənd düşdü: «…ölkəyə mənsub olan göy ərazisi, bu ölkənin sərvətidi və yalnız ona məxsusdu…»
Onda yadına gəlir, Konstitusiyanın bu gülməli bəndini qarısına da oxumuşdu. Necə yəni, göy əraziyə məxsusdur?.. – demişdi -… Bəs o ərazidən keçib gedən və bir neçə saatdan sonra o biri ölkələrin üstü ilə üzən buludlar?!. O buludlar kimə məxsusdu?.. Göyün əraziyə, ərazinin göyə nə dəxli vardı axı?..
Amma bu göydən sonra professor, o səthi fikirlərinə görə xəcalət çəkdi, həm də bir qədər məyus oldu. Həqiqətən, göylə ərazi sən demə, necəsə, əlaqəli imiş… Ola bilsin ki, Konstitusiyanın o bəndindəki cümlənin özü düz qurulmamışdı, fikirdə bir qədər dolaşıqlıq vardı: göy əraziyə yox, yəqin ki, ərazi göyə məxsus idi.. – professor özünə təskinlik verə – verə fikirləşdi.
…Ən qəribəsi bu idi ki, iqamətgahın, səkkiz laylı, tutqun şüşəli qapıları qabağında, başlarında qara beret, əli silahlı dayanan iki əsgərdən savayı, gözə bir kəs dəymirdi… Əsgərlər özləri də, bayaqdan bəri ona yox, gözlərini belə qırpmadan, heykəl üzlərlə bir-birinə baxırdılar…
Elə bil binanın içi də, çölü kimi kimsəsiz idi. Elə bil burdakılar, hansısa qəfil xəbərdən yığışıb, buraları birdəfəlik, təcili surətdə, tərk etmişdilər…
…Bir qədərdən sonra professor, onu bir neçə dəqiqə əvvəl, bu sehrli iqamətgaha gətirən qara maşını, maşının dinməz sürücünü xatırlayıb,

ləng addımlarla binaya sarı addımladı.
Heykəl əsgərlərin qarşısından ötüb, iqamətgahın birinci mərtəbəsinə açılan nəhəng şüşə qapılardan içəri baxdı.
…Ağ mərmər döşəməli, geniş vestibül, tavanın saysız-hesabsız işıqları altında bərq vururdu…
İçəri keçməzdən, bir-birinə zillənən, çəhrayı üzlü əsgərlərə baxıb nə isə demək istədisə də, demədi… Əsgərlər elə bil onu görmürdülər, şəffaf, görünməz iplərlə bir-birinə bağanıb qalmışdılar.
…İçəri keçib, dabanlarının səsi, vestibül boyu əks-səda verə-verə, ehmal addımlarla yeridi, eynəyini düzəldib, ətrafına – tavanla döşəməni dörd bir yandan birləşdirən, ağ sütunlara, zalın iki tərəfindən, yuxarı, ikinci mərtəbəyə aparan bürünc pillələrə, yuxarı başda, divarı başdan-başa şüşədən olan, nəhəng artırmaya, artırmadan, sayrışan işıqları görünən şəhərə baxdı...
– Professor Veyisov?!.
…Vestibülün sağ tərəfindəki açıq qapıdan çıxan dolu bədənli, qıvraq yerişli cavan bir adam ona tərəf gəlirdi…
– Bəli… – professor nəyə görəsə günahkar səslə dedi.
Oğlan yaxınlaşıb:
– Buyurun, əyləşin. – dedi və vestibül boyu düzülən məxmər üzlü kreslo-divanların hamısını birdən göstərdi. …Oğlanın üzündə, nifrətlə istehza qarışıq, pis bir ifadə vardı.
…Professor, hamar döşəmənin üstündə sürüşməkdən ehtiyat edə-edə, bir təhər keçib kreslolardan birində əyləşdi.
Oğlan, bayaq gəldiyi səmtdə uzaqlaşıb, qapısı açıq otaqda gözdən itdi. Sonra ordan, vestibülə qəribə bippiltilər, danışıq səsləri sızmağa başladı…
… Oturan yerdə baxanda, vestibülün nəhəng zalı, professora daha əzəmətli göründü. Kimsəsiz, soyuq saray, bütün ecazı və sehri ilə professora, yuxularını xatırladırdı…
Bu dəqiqə, bu ağ sütunların birinin arxasından, dama-dama boz gödəkçəsi olan, həmin o adam çıxsaydı, bəlkə bu sirli sarayın da, o dəhşətli yuxularının da tilsimi qırılardı… – fikirləşdi və gözünün qabağına gətirdiyi bu mənzərədən elə bil üşüdü.
Sonra professor, heç çür həll edib qurtula bilmədiyi güna kompleksləri ilə, yenə akademik haqqında fikirləşdi... Arada bir, deyəsən, onu yuxu da apardı... Çünki qulağına, köhnə çarxları, relslərin üstü ilə burxula-burxula

yaxınlaşan tramvayın səsi gəldi və professor, oturduğu yerdəcə, dik atılıb ətrafına baxdı….
…Hava qaralmışdı. Qıvraq oğlanın, bayaqdan bəri girdiyi otağının qapısı, indi də kip bağlı idi.
…Saatına baxdı... İqamətgaha gəldiyi, düz qırx dəqiqə idi. Sonra birdən nə oldusa, ürəyi sıxıldı və fikirləşdi ki, indi o neyləməlidi?!. Məsuliyyət və təntənə saçan bu soyuq sarayda oturub nəyi gözləməlydi?!. Kiminsə yadına düşməyini?!. Kimin?.. Fikirləşdi ki, gərək bunu, heç olmasa, bayaqkı oğlandan soruşaydı. Sonra professor, hiss elədi ki, yenə ürək döyüntüləri nizamını itirməyə başlayır... Hardansa, buralara yaxın məsafələrdən aramla yaxınlaşan tramvayın tanış səsi gəlirdi…
…Bu nə lənət idi, keçmişdi?!. – professor, ağzının içi, həyəcandan quruya-quruya fikirləşdi. – Nə günahın sahibi olmuşdu?!. Niyə onu sakit yaşamağa qoymurdular?.. Yuxuları o tərəfdən, bu əcaib çağırış bu yandan…
…İçi, ağır diaqnostik ləvazimatlarla dolu çantasını yerə qoyub ayağa qalxdı, əllərini arxasında çarpazlayıb, zal boyu gəzişə-gəzişə, sinəsinə caynaq kimi keçən sıxıntını ovuşdura - ovuşdura fikirləşdi ki, bu sayaq gizli yollarla, az qala, təhlükəli casus kimi, təcili surətdə bura çatdırılması və indi, artıq tikə kimi, bu gözağardan işıqların altında, hökmə indilərdə oxunacaq müttəhim kimi saxlanılması kimə və nəyə lazım idi görən?!. Ya bəlkə… – professor, ağlına gələn növbəti fikrin, gözlənilməzliyindən, yeridiyi yerdə büdrədi...
…Bəlkə, onun bu sirli təşrifindən Generalın ümumiyyətlə, xəbəri yox idi?!. Bəlkə o, özü də bilmədən, taleyin hansısa acı istehzasıyla, son vaxtlar Generalın ətrafında, bir-birinin ardınca baş verən sui-qəsdlərdən növbətisinin iştirakçısına çevrilmişdi? Bu gün, həmin bu mötəbər iqamətgahda baş verəcək, yaxud artıq baş vermiş cinayətin izini itirəcək qurban idi?..
…Bədənini soyuq tər basdı... İkinci mərtəbədəki, zəngin otaqların birində, qanı, yatağının ağ üzlüyünə, divarlara sıçramış Generalın, döşəmədə üzüqoyulu uzanan cəsədini gördü…
Paltosunun cibindən, burun yaylığını çıxarıb alnının tərini sildi və fikirləşdi ki, hamısı yorğunluqdan və zəiflikdəndi. Günü sabahdan, baş həkimdən icazə alıb, bir müddət dincəlməlidi, bazara gedib əsəbsakitləşdirən otlardan almalı, dəmləyib səhər-axşam içməlidi.
Jiletinin dayaz cibindən zəncirli saatını çıxarıb düyməsini basdı. Səkkizə

on beş dəqiqə qalırdı…
Yox, bu, daha lap ağ oldu… – professor fikirləşdi və qəti hərəkətlə, çantasını qaldırıb girişə sarı addımladı.
Girişə çatar – çatmaz, ayaq saxlayıb bir anlıq nə fikirləşdisə, çönüb iti addımlarla bayaqkı qapıya yaxınlaşdı, qapının qulpunu o yan-bu yana hərlədisə də, qapı açılmadı. Onda professor, qapını barmaqlarının ucuyla xırda-xırda döyüb gözlədi. Yenə hay verən olmadı. Bir qədər gözlədikdən sonra, eynəyini düzəldib, yeyin addımlarla girişə yönəldi, açıq qapılardan keçib çölə çıxdı.
…Əsgərlər, bayaqkı donuq üzlərlə hələ də bir-birinin gözünün içinə baxırdılar.
…Bir istədi əsgərlərdən soruşa ki, bayaqkı o cavan adamı harda axtarsın, o dəqiqə də fikrindən daşındı, donuq əsgərlərə ağızucu «sağ olun» deməklə kifayətlənib, pillələrlə həyətə endi.
…Hava dəyişmişdi... Bircə saat bundan əvvəlki həyətdən əsər-əlamət qalmamışdı. Bayaqkı ilıq mehdən həzin-həzin yellənən ağaclar, o yan-bu yana çırpıla-çırpıla, ac qurd sürüsü kimi uluyır, iqamətgahı dörd bir yandan qoruyan meşə, qəzəbli, qaramtıl okean kimi çalxalanıb uğuldayır, fəvvarələrin suyu, əsəbi burulğanlarla harasa göyə sovrulurdu…
…Professor bir müddət beləcə - iqamətgahın işıqlı pillələri ilə, qaranlıq uğultulu, küləkli həyətin sərhəddində dayanıb dura-dura, ürəyində nəyisə götür-qoy elədi. Sonra eləcə dayandığı yerdə, birdən-birə professora elə gəldi ki, bu dəqiqə, kimsə, hardansa, onun görmədiyi, ağlına belə gəlmədiyi gizli bir yerdən ona baxır…
…Saçlarının dibi gizildədi... Yenə sağ əli əsəbi-əsəbi paltosunun düymələrini açdı, jiletinin cibinə girdi, orda gümüş qapaqlı saatını çıxartdı.
…Səkkiz tamam idi.
…Kifayətdi… – professor, bir də, bu dəfə qəti qərar çıxartdı və yeyin addımlarla həyətə enib, küləyin müqavimətindən, suyunu, indi də köndələn vuran fəvvarələrin, bayaqkı təmtərağını itirib büzüşən akasiya kollarının yanından ötüb, qaranlıq meşəliklə həyətin çıxışına tərəf üz tutdu.
Yolun hər iki tərəfi, adam boylu, dəyirmi papağaoxşar işıqlarla cərgələnmişdi. Küləyin, başından qoparmaq istədiyi şlyapasını əli ilə saxlaya-saxlaya addımlayırdı.

…Narın-narın qar çiləməyə başlayırdı… Çıxışa aparan yol, get-gedə elə bil daralırdı. Yolun qabaq hissəsində, bu biri hissədən fərqli olaraq, işıqlar yox idi. Burdan baxanda, adama elə gəlirdi, yol, hardasa, qaranlıq uçurumda bitir.
…Ayaq saxlayıb geriyə çöndü. Bir xeyli gəlmişdi. İqamətgahın ikinci mərtəbəsində bir neçə otağın işığı yanırdı...
Sonra birdən hardansa, professorun gözünün qabağına, baş həkimin hürkmüş üzü, nazirin, enli alnının altından baxan narahat gözləri gəldi...
Sabah, səhər tezdən, yenə aramsız telefon zəngləri evi başına götürəcəkdi. Baş həkim nazirə, nazir, köməkçisinə qarışacaqdı…bir-birinə aman vermədən onu sorğu-suala tutacaqdılar… O da deyəcəkdi ki, «…Bilirsiz, cənab nazir, mən getdim, saat yarım orda, iqamətgahın birinci mərtəbəsində gözlədim. Mən xeyli gözlədim…çağıran olmadı… »
Nazirin bas səsi qulağında uğuldadı:
«– Gərək siz gözləyəydiniz. Lap belə gecəyəcən gözləyəydiniz. Axı söhbət görün bir kimdən gedir?!. Görün bir siz harda, kimi gözləmisiz?!. Bir də axı saat yarım nədi ki?!»
«– Bilirsiz, nə var?.. Məni rahat buraxın…» – onda professor deyəcəkdi. – «Dediniz get, mən də getdim. Üstəlik saat yarım da gözlədim. Bundan artıq neyləməliyəm?!. Belə narahatsınızsa, özünüz gedin, ya da ayrı birisini göndərin…»
…Onda səhiyyə nazirinin üzü əyiləcəkdi. Çaşqınlıq içində: «Axı…» – deyib susacaqdı. Və daha heç nə deməyəcəkdi. Onu hörmətlə yola salacaqdı. Sonra…
Sonra ola biləcək nələr barədə isə professor fikirləşə bilmədi…tini burulub üzüaşağı getdi. Bir qədərdən sonra professor artıq maşın yoluna çıxmışdı, yolun qaranlıq hissəsiylə addımlayırdı.
…Hardasa lap yaxınlıqda bayquş uladı... Professor bir müddət bayquşun səsinə qulaq asa-asa heç nə fikirləşmədi. Bir neçə addımdan sonra isə, başının tükləri qabara-qabara, balaca evini, İblisin, evin divarları boyu sürünən qorxunc əlinin kölgəsini, onu, yumşaq qəbir kimi gözləyən, allı-güllü yorğan-döşəyini xatırladı…
İndi o, bu sirli saraydan baş götürüb guya azadlığa, əslində isə, həmin o qorxulu məkana – bir ucu Yer üzündən qırılıb havadan asılan, sınıq körpüyə bənzər sürüşkən evinə, yuxuların, yapışqan duman kimi, canına daraşacağı balaca ölüm kamerasına yollanırdı…
Bu fikirdən, getdiyi yerdə, professoru, elə bil nə isə, kimsə saxladı. Bir

müddət o, heç nə fikirləşmədən, qaranlıq yolun ortasında dayanıb qaldı. …Yolun bir başı - işıqlı, möhtəşəm iqamətgaha, o biri başı - professorun, qaranlıq, darısqal yuxularına aparırdı...
Professor, bir qədər də fikirləşib paltosunun yaxalığını qaldırdı. Hardansa uzaqdan, qaranlıq meşənin dərinliyindən, yuxularının hənirtilərini andıran əcayib səslər gəlirdi…
Çönüb asta addımlarla iqamətgaha sarı addımladı… Addımlaya-addımlaya fikirləşdi ki, evə nə qədər gec getsə, bir o qədər yaxşıdı. Yorğunluqdan, gözlərin acışa – acışa, ürəyin bulana – bulana sübhün açılmağını gözləmək, özü də hər gecə gözləmək, elə də asan iş deyil.
…İqamətgahın ikinci mərtəbəsində, işıq gələn pəncərələrdən birinin o üzündə kimsə vardı... Bunu professor, iqamətgaha yaxınlaşanda, pəncərələrdən birinin pərdəsinin, yüngülcə tərpənişindən bildi… Ya bu, ona elə gəldi?..
Yox, axı niyə də ona elə gəlməliydi?.. – əsəbilikdən ürəyi sıxıla – sıxıla fikirləşdi. Təntənə və əzəmət saçan bu sarayda, qapıları taybatay açıq qalmış bu sirli qalada bir adam olmalıydı, ya yox?..
Demək indi o, iqamətgaha çatıb vestibülə daxil olmalıydı, orda yenə kreslolardan birinə oturub Generalın dəvətini gözləməliydi. Generalın, yoxsa kimin dəvətini, burası da məlum deyildi. Bu naməlum dəvəti nə qədər gözləməliydi, bunun da artıq bir o qədər əhəmiyyəti yox idi. Bura sirli və məsuliyyətli, ora - qorxulu və təhlükəli idi...
Bir qədər sonra isə, iqamətgaha çatar-çatmaz, professor fikirləşdi ki, bəlkə hər şey elə belə də olmalıdı?!. Bəlkə bu qəribə sakitlik, iqamətgahın, qəbulolunmuş, gündəlik mənzərəsidi?.. Ya da, ola bilsin, onu bura, hər ehtimala qarşı, təyin olunmuş vaxtdan əvvəl gətiriblər?!. Hər şey ola bilər… – professor hövsələsi darala-darala fikirləşib addımlarını yeyinlətdi.
…Vestibülə daxil olanda, bayaqdan bəri tavan boyu yanan işıqların yarısı sönmüşdü… Onları elə bil kimsə, o gedəndən sonra söndürmüşdü. Bəlkə bu işıqlar, çöldəki fırtınanın həmləsindən sönmüşdü?!.
…Axır bütün bunlar nə idisə, yaxşı əlamət deyildi. – professor qanı qarala – qarala fikirləşdi. - Kimsəsiz iqamətgah, Generalın, ya kiminsə, görüşü bu qədər ləngitməsi, binadan çıxması ilə, işıqların bir hissəsinin söndürülməsi… Bütün bunlar, xoşagəlməz nəyinsə başlanğıcına oxşamağa başlayırdı… Hə, hə, btün bunlar çox pis, təhlükəli bir

sonluğun başlanğıcına oxşayırdı... - professor fikirləşdi və girişin lap yanındakı, çəhrayı örtüklü kresloya əyləşib çantasını açdı, qəlyanını çıxarıb içini tənbəkiylə doldurdu. Yenə əlləri əsirdi.
…Olsun ki, General məşğuldur. Bəlkə də bu dəqiqə, telefonla, hansısa dövlətin rəhbəri ilə danışır... – tüstünü ciyərlərinə çəkə-çəkə fikirləşdi.
…Generalın iqamətgahı da, özü kimi, sirlidi... Sonra hardansa, professorun yadına, on-on beş il bundan əvvəl, məşhur bir bəstəkarın dəfnində Generalla baş verən hadisə düşdü…
…Dəfn mərasimində, camaatdan xeyli aralıda, qabaqda, yanındakı məiyyəti ilə bir, arxası camaata dayanan Generalın, uzaqdan-uzağa, minlərlə adamın arasından, geriyə çönmədən, onun beynindən təsadüfən keçən fikirlərini, hansı möcüzəyləsə oxumasını, əlini qəfildən peysərinə atıb, ona sarı çönməsini, onu, yüzlərlə adamın arasından seçib, qurd baxışlarıyla gözünün içinə baxmasını xatırladı…
…Generalın, qəfil qanrılması, uzaqdan-uzağa qəzəb və təhlükə saçan boz gözlərinin ifadəsi, nədənsə, indi ona, bozgödəkçəlinin, İstiqlaltyyət küçəsindəki hərəkətini- qəfildən geriyə çönməsini xatırlatdı…
…Həmin o dəfn mərasimində, hardansa, professorun yadına, belə bir dəfn mərasimində, arxadan atılan qəfil güllədən öldürülən hərbçi haqqında, bir neçə ay əvvəl oxuduğu bir əsər düşmüşdü… Yadına gəlir, onda professor, darıxmaqdan, ya nədənsə, güllə atan adamlar kimi, fikirində, nəhəngliyi ilə yanındakılardan seçilən Generalın səliqəli başını, kostyumunun altından görünən nişastalı yaxalıqlı boynunu nişan almışdı… bu səliqəli peysərə tuşladığı uydurma güllənin törədəcəyi qanlı mənzərəni təsəvvüründə canlandırmışdı…
Onda onun bu ötərı fikrini - hansı sirli dalğa iləsə, peysərinə uçan uydurma gülləni, havadaca tutan General, qəifldən çönüb qorxunc, boz gözlərini, onun gözünün içinə sancmışdı… Onda, yadına gəlir, dayandığı yerdə dizləri bükülmüşdü…durduğu yerdə, sərxoş zəifliklə harasa geriyə səndələmişdi…
…Külək şiddətləndikcə, vestibülün şüşə divarları, uçulacaqmış kimi qorxunc – qorxunc laxlayıb guruldayırdı… Hardasa yuxarıda, ikinci mərtəbədə, elə bil qapı cırıldadı… və ağlına gələn növbəti fikrin təsirindən professorun mədəsi ağrıdı…
…Professorun ağlına gələn növbəti fikir isə bu idi ki, dahiyanə duyumu və yaddaşı ilə məşhur olan, canavar gözlü General, son vaxtların alınmayan sui-qəsdlərindən sonra, deyilənə görə, hamıdan və hər

şeydən şübhələnməyə, neçə illərdən bəri görüb - tanıdığı yaxınlarını belə, min bir sınaqdan keçirə-keçirə yoxlamaqla məşğul olmağa başlamışdı... Həmin bu təhlükəli xatirə Generalın yadından çıxmaya da bilərdi…
…Yox, bu daha lap ağ oldu… – professor hövsələsi darala-darala fikirləşdi. Belə getsə, bir azdan beyninə Allah bilir, daha nələr gələcəkdi…
Saatına baxdı. Doqquzun yarısı idi…
Qəlyanını alışdırdısa da, tənbəki tüstüləmədi. Elə bil çölün bayaqkı tufanından nəmlənmişdi…Tənbəkini ovcuna boşaldıb əli ilə ova – ova fikirləşdi ki, bəlkə General yuxuya gedib, heç kim onu oyatmağa cürət etmir?!. Sonra ağappaq yorğan-döşəyin içində, rahat üzü ilə yatmış Generalı… və Generalın yataq otağının altında, nimdaş çantası dizlərinin üstə, vestibülün bir küncünə qısılıb, şübhə dolu tədqiqatlar içində qovrulan özünü gördü…
…Vestibülün sağındakı qapının dəstəyi, axır ki, şıqqıldadı və qapı açıldı. Bayaqkı qıvraq yerişli oğlan, iti addımlarla ona sarı yeriyə – yeriyə:
– Çox-çox üzr istəyirəm… - dedi - Cənab Generalın bu günə planlaşdırmadığı qəfil bir məsələ ortaya çıxmışdı… Sizi gözlətməli olduq…
Oğlan danışa – danışa, professoru, vestibülün sol cinahındakı pilləkənə sarı apardı. Pilləkənləri qalxıb, xəlilərlə döşənmiş, uzun dəhlizə çıxdılar.
…Dəhliz – qapısız-pəncərəsiz, uzun-uzadı tunelə oxşayan ürəksıxan bir yer idi. Lap qurtaracaqda, yarımaçıq qapıdan sızan zəif işıq, dəhlizin sıxıntısını bir qədər yumşaldırdı.
…Qapıdan dəhlizə yayılan televizorun səsi elə bil onunla danışırdı.
– Ürəkli ol, əzizim!.. – kimsə deyirdi. - Özünü o cəfəng fikirlərlə yorub əldən salmaqdansa, yuxarı, yanıma qalxaydın… Sən ki, ağıllısan, müdriksən. Onsuz da, əvvəl-axır gələcəkdin.
…Professor, bədəni soyuq tər basa-basa, get-gedə heysizləşən ayaqları ilə səs gələn tərəfə addımladı. Ayaq saxlamaq, çönüb geriyə getmək, pillələri enib bu qorxünc iqamətgahdan qaçmaq mümkün olmayacaqdı…
–…Axı əlimdən hara qaçacaqsan?.. Harda gizlənəcəksən?.. Yoxa çıxsan belə, səni, havayla bir, ciyərlərimə çəkəcəyəm. Yaxın gəl… Sən mənimsən...
Qapıya beş – on addım qalmış, oğlan, deyəsən professoru otağa ötürmək üçün ayaq saxladı.

… Qapıdan, otağa aparan işıqlı girəcəyin ensiz zolağı görünürdü… Girəcəyin, şəbəkəli döşəməsi, professora, uzaq gənclik illərində, nəhəng otaqlarını heyrətlə gəzdiyi Ermitajın döşəmələrini xatırlatdı…
Oğlan, bir müddət elə bil otağa girməyə ürək eləmədi, pusquda duran təki, divara qısılıb, səssiz hərəkətlərlə yarımaçıq qapıdan içərini, elə bil oxudu, sonra yüngülcə boğazını arıtladı…
– Buyurun, gəlin… – kimsə içəridən dedi.
…Professora əvvəl elə gəldi ki, danışan televizordu, sonra içəridən eşidilən həmin səs:
– Professor, buyurun içəri… – deyəndə, ürəyi döyündü, irəli yeriyib qapını astaca araladı və az qaldı ürəyi dayana…
…Gur işıqlı geniş otağın yuxarı başında, qapı ilə üzbəüz, hündür söykənəcəkli kresloda Generalın özü oturmuşdu...
…Əynində qara zolaqlı ipəkdən, uzun xalat, qıçlarını üst-üstə aşırıb həmin o boz, qorxunc gözlərlə ona baxırdı...
– Axşamınız xeyir… – professor içəridə bir-iki addım atıb dayandı.
– Axşamınız xeyir… – General ayağa qalxıb, iri addımlarla ona tərəf gəldi, professorun əlindən qəribə nəvazişlə tutdu, ona, kreslosu ilə üzbəüzdəki divanda yer göstərdi.
Generalın əli isti və quru idi.
…Gərginlikdən idi, ya əsəb pozğunluğundan idi, nəydisə, professora elə gəldi ki, General onun əlini yox, başdan ayağa bütün bədənini, isti ovcunun içində sıxıb əzdi.
Generalın gümrah vücudu, aydın gözləri, üzünün rahat, ifadəsi, xəstənin, General olması ehtimalının üstündən çalın-çarpaz xətt çəkdi.
Qıvraq oğlan onu içəri ötürüb deyəsən geri qayıtmışdı. Otaqda ikisi idilər.
Professor, Generalın yumşaq xalatını gözdən keçirə-keçirə, tələsik fikirləşdi ki, bu görkəmlə o, bayaqdan burda nə ilə məşğul ola bilərdi?..
– Mən… – professor hiss elədi ki, quru dili danışmağına mane olur. – …Mümkünsə su.
…General məmnun təbəssümlə ayağa qalxdı. Elə bil, onun susamağı ürəyinə yatmışdı. Yazı stoluna yaxınlaşıb orda hansısa düyməni basdı və ordan aydın səslə:
– Bəli, cənab General… – dedilər.
– Su gətirin.
General bunu deyib, geriyə qayıtdı, televizoru keçirib bayaqkı yerinə oturdu və su gəlib çıxanacan, həmin təbəssümlə, bir müddət dinməz-

söyləməz professorun üzünə baxdı.
Generalın ona, təptəzə, məzəli oyuncağa baxan kimi, baxdığından idi, ya bu əfsanəvi adamla, bu qədər yaxın məsafədə oturduğundan idi, nəydisə, suyun gəlmə prosesi professora, bir gün qədər uzun gəldi.
…Suyu, bayaqkı plastilinvari sürücüyə oxşayan ayrı bir cavan gətirdi...
Otağa daxil olub, məcməyi əlində, professorun qarşısında dayandı, stəkanı ona uzadıb ifadəsiz üzü ilə, professorun, suyu içib qurtarmağını gözlədi.
Professor suyu içəndən sonra da, General bir müddət onun üzünə baxdı, amma daha gülümsəmədi. Elə bil professora baxa-baxa ondan nə düzəldəcəyi haqqında fikirləşdi.
– Mən… cənab General, bayaqdan burdayam… – professor, boşluğu doldurmaq xatirinə, deyib yerində qurcalandı. Sonra da fikirləşdi ki, boşluğu o niyə doldurmaq istəyir?..
-Bilirəm, bilirəm…- General dedi və elə bil ayrı şeylər barədə fikirləşdi.
… Generalın, gözlərindən idi, nə idisə, pprofessor, səbəbini özü də dərk etmədən, birdən-birə, yaddaşının hansı ehtiyacıylasa, ömrü boyu olub-keçən bütün səhvlərini, günahlarını xatırlamağa, saçının dibi, bu yersiz xəcalət hissindən yana-yana özünə nifrət eləməyə başladı… Sonra qəfildən hardansa, vicdan əzabları baş qaldırdı və professorun ürəyini ağrıda-ağrıda, bütün vücudunu əzib sıxdı. Professor bir də onu gördü ki, narahat əllərini gizləməyə yer tapmır. Özünə, nəyə görəsə, bəraət qazandıran kimi:
– Deyəsən, məşğul idiniz… - dedi.
– Hə, bir balaca… – General deyib yenə gülümsündü.
Generalın qəribə təbəssümü var idi. Ağzının bir tərəfi ilə gülümsəyirdi. Elə bil ağzının o biri tərəfini işə salmağı lüzumsuz hesab edirdi.
– Siz soyunun. – General qəfildən dedi - Özünüzü rahat hiss edin.
…Professor ayağa qalxıb paltosunu soyundu, papağını divanın qoltuqluğuna qoydu, saçlarını hamarlayıb yerinə oturudu və yenə Generalın boz gözləriylə üzbəüz qaldı...
Gözləri onu unutmamışdı görünür… – ürəyi döyünə-döyünə, bayaqkı xatirəsini – həmin o əlamətdar dəfn mərasimini, xatırladı.
– Sizin elədiklərinizi, həqiqətən möcüzə adlandırmaq olar. - General deyib nədənsə ardını gətirmədi.
– Mən adi həkiməm… – professor təvazökarlıqla dedi və hiss elədi ki, yenə əlləri əsir. Əllərini cütləyib dizlərinin arasında sıxdı. – Siz deyən elə

bir möcüzəli iş görməmişəm.
– Hədsiz təvazökarlıq da bir şey deyil… - General qəribə narazıçılıqla dedi. Möcüzələrindən imtina etməyi, elə bil xoşuna gəlmədi.
– Söhbət, sizin sanballı elmi işlərinizdən getmir. Sizin, klinikada gördüyünüz, gündəlik işlərinizi deyirəm…
Professor yenə akademiki xatırladı… Bütün həyatı boyu möcüzə bildiyi bir şey vardısa, o da akademikin ölümü idi. Sonra birdən, ağlına gələn fikirdən qulaqları uğuldadı… Bəlkə General, elə akademikin ölümündən danışırdı?.. Bəlkə General, bir vaxt dəfn mərasimində onun gizli fikirlərini hansı möcüzə iləsə, uzaqdan-uzağa, boynunun ardıyla oxuyan kimi, son günlər başına gələnlərdən də agah olmuşdu?!.
- İnsanın, şüuraltı yaddaşına müdaxilə etmək, orda hansısa əməliyyatlar aparmaq… sehrkarlıqdı…
…General, çox güman ki, ağır narkomanların müalicəsini deyirdi. Bu haqda axır vaxtlar mətbuatda çox yazırdılar.
– …Məni ən çox heyrətə gətirən, sizin son əməliyyatınız – qorxudan yerişini itirən gənc qızın, qorxu nöqtəsinin sıradan çıxarılmasıdı… – General dedi və daha professora baxmadı. Susub fikrə getdi.
…General, bütün portretlərində, qəzet səhifələrində və təqvimlərdə nəşr olunan şəkillərindən çox-çox cavan və gümrah görünürüdü.
– Sizinlə tanış olmağıma çox şadam – General bir qədərdən sonra dedi.
- Səhv eləmirəmsə, gərək ki, biz yaşıdıq…
Professor çiyinlərini çəkib nə isə dedi və fikirləşdi ki, bunun məsələyə nə dəxli?!.
Generalın onun cavabına heç bir reaksiyası olmadı. Hansısa professorun, onun yaşı haqqında təsəvvürünün olub-olmaması, Generalı narahat eləmədi. Əksinə, elə bil xoşuna gəldi. Sonra General, bir müddət də professorun üzünə baxıb qəfildən:
– Nərdlə aranız necədi? – soruşdu.
– Nərd?.. – professora elə gəldi ki, nəyisə düz eşitmədi. – Mən nərd oynaya bilmirəm. – dedi və qorxdu. Niyə qorxdu, orasını da bilmədi.
– Demək, nərd oynaya bilmirsiz… – General fikirli-fikirli dedi və barmaqlarının ucu ilə kreslosunun taxta qolunu taqqıldatdı.
…Professorun ürəyi əsəbi-əsəbi sıxıldı. Bütün bunlar nə demək idi?.. Bu gümrah üzlü, sağlam adam ondan nə istəyirdi?.. Bəlkə o… – professorun fikirləri getdikcə elə bil çəkisizləşirdi. - Bəlkə onu bu möhtəşəm, sirli saray üçün almışdılar? Generalı əyləndirmək, onun

hansısa fikirlərini bölüşdürmək üçün saray həkiminə, Generalın şəxsi həkiminə çevirmişdilər?!.
– Şahmat necə?.. – General indi də professora, mehriban dostu kimi baxırdı…
– Şahmat da oynaya bilmirəm. – professor dedi və hiss elədi ki, saçının dibi gizildədi.
– Bu, bir o qədər də vacib deyil, professor. – General, deyəsən onu sakitləşdirmək istədi. – Elə belə, istədim, sizinlə birlikdə nə isə edək, görək necə alınır…
General bunu deyib gülümsədi, sonra nə fikirləşdisə, ayağa qalxıb pəncərəyə tərəf getdi, pərdəni aralayıb çölə baxdı.
– Hava yaman dəyişdi… – dedi, sonra ona sarı çönüb:
– Professor, sizə yuxularla bağlı necə, işləmək müyəssər olub?.. Yəni, məlum məsələdi ki, söhbət xəstəhal yuxulardan gedir.
…Professor nə tsə demək istədi, elə bil səsi çıxmadı.
– Məsələn, əgər insan, hər gecə yuxuda eyni bir yerdə olursa və bu yuxunun cəngindən heç cür xilas ola bilmirsə…
– Siz hansı yuxunu deyirsiz?.. – professor dedisə də, nə dediyini özü də başa lüşmədi.
– Mən hal-hazırda özümdən danışıram... – General, dediklərinə aydınlıq gətirməyə çalışdı. Deyəsən professorun ilişdiyini hiss eləmişdi. – Söhbət məndən gedir, mənim yuxularımdan…
– Başa düşdüm… – professor dedi və hiss elədi ki, demək istədiklərinin əvəzinə, ayrı şeylər deyir..
– Bilirsiniz, son aylar mən, demək olar, eyni yuxunu görürəm… Ən qəribəsi odu ki, adətən altı saatdan artıq yata bilməyən adam – yəni mən, indi gecə-gündüz yatmaqdan doymuram. Elə bil mən yavaş-yavaş o üzə keçirəm. Yuxulara…
…General danışdıqca, professor fikirləşdi ki, əgər General da bu dəqiqə tramvay dayanacağından başlasa, o, dəli olacaq, başına hava gələcək...
– Məsələn, nə görürsüz yuxuda?.. – professor səbrini basıb, fikirini cəmləməyə çalışdı.
– Nə görürəm? – General professorun bu sualından elə bil duruxdu. – Yuxuda nə görməyim, sizə nə isə izah edə bilər?..
– Əlbəttə. – professor dedi və üşüdü.
– Sizə deyim ki, elə bir qəribə şey görmürəm. Nə isə məqbərəyəoxşar bir yeri görürəm həmişə.

…Professorun ürəyi bir qədər yerinə gəldisə də, üşüməyi keçmədi, pencəyini düymələyib:
– Hər halda bu, əsassız deyil. - dedi
– Nə?..
– Dediyiniz o məqbərə… Hədsiz çox yatmağınız... Niyə məhz məqbərə?.. Bunu dəqiqləşdirsəydik, pis olmazdı… – professor dedi və Generalın dediyi məqbərə ilə, öz yuxularının arasında uyğun gələ biləcək məqamları axtardısa da, heç nə tapmadı və bundan, bir az da rahatlandı.
…Professorun bu sözündən, Generalın üzündə qəribə rənglər dolandı. General, dayandığı pəncərənin qabağından aralanıb yerinə qayıtdı, kresloya oturub boz gözlərini yenə professorun üzünə zillədi.
…Generalın gözlərində, bayaqkı mülayim ifadədən əsər-əlamət qalmamışdı. Mülayimliyin əvəzinə, boz gözlərin dərinliyində, qaramtıl tüstü yəbənzər nə isə közərirdi elə bil… Ya bu, professora elə gəlirdi?.. Axır nə idisə, Generalın gözlərinə baxmaq olmurdu. Professorun başı hərlənirdi… həm də elə bil yuxusu gəlirdi…
– Belə halları çox vaxt, hansısa stress, yaxud, uzun müddətli gərginlikdən üzülən sinir sistemi yaradır… – professor dedi və Generalın gözlərindən, uzaqlaşmaq üçün, geriyə çəkilib, divanın kürəkliyinə söykəndi.
– Bəs əgər bu hal stressiz, gərginliksiz-filansız yaranıbsa, onda necə?..
– Onda… – professor, alt dişləri ilə, bığlarının uclarını çeynədi – …onda bu vəziyyət, yəni sizi rahat buraxmayan, dediyiniz həmin o məqbərə çox güman ki, şüuraltı yaddaşınızın məhsuludu… Yəqin ki, bilirsiz, biz öz şüuraltı yaddaşımızdan tam xəbərsizik. Hansısa təsadüfi söz, ya qoxu, bu gizli yaddaşı qıcıqlandırıb, ən dərində, gizlidə yatanları oyada bilər...
– Məsələn…
– Məsələn?!. – professor fikrə getdi. – Məsələn, nə vaxtsa, ola bilər, lap uşaqlıq illəri, çətin dəqiqələrinizdə eşitdiyiniz hansısa musiqi, yaxud adi qoxu, uzun-uzadı illərdən sonra, qəfildən həmin ağrını oyada bilər...
… Professorun bu sözündən sonra, General bir müddət fikrə getdi, gözləri professorun üzündən harasa kənara çəkildi, sonra nə oldusa, professor bir də onu gördü ki, Generalın boz gözləri yenə onun üzünə dikilib…
…General ona, dinməz-söyləməz baxırdı… susduqca, bəbəklərinin rəngi qaralırdı… Sonra nə oldusa, Generalın qara bəbəkləri professorun

üzündən yığılıb, gözünün hansısa ağrılı nöqtəsinə, zilləndi… Üzü üzünə yaxınlaşdı… Yoxsa o, bütün vücuduyla, oturduğu yerdəcə, divanqarışıq sürüşüb Generalın bəbəklərinə dirəndi?!.
…Qara uçurumu xatırladan bu sümürücü boşluqda, professor birdən-birə hər şeyi – kimliyini, əlini, ayağını, oturduğu divanı, ayağının altındakı döşəməni hiss etdi...
– …Bu barədə heç kimə, heç kimə demə… - Generalın elə bil bəbəkləri danışırdı… – Bura gəldiyini… burda olduğunu, mənim dediklərimi və deyəcəklərimi… Özünü ölmüş bil...Ölü bil…Ölü…
…Professor keyimiş dilini ağzının içində zorla hərlədi:
– …Nəyi…
…General, onun cavabını axıracan dinləmədi, harasa geriyə çəkilib, ayağını ayağına aşırdı, bayaqkı işgüzar səslə:
– Məsələ burasındadı ki, bu barədə mən çox fikirləşmişəm. Həmin o məqbərəni deyirəm… Yadıma, qətiyyən heç nə düşmür. Dünyanın bir çox ölkələrində olmuşam… O məqbərəni heç bir ölkədə görməmişəm. Bir də, tutaq ki, hardasa da, belə bir məqbərə görmüşəm, indi demək, ömrümün axırınacan, bu məqbərəylə yaşamalıyam?..
…General danışa - danışa, elə bil qəsdən özünü hövsələdən çıxarırdı.
– Son bir neçə günü isə, axmaq bir fikir məni rahat buraxmır. Mənə elə gəlir ki, mən… – General bir an susub, elə bil demək istədiyini götür-qoy elədi, sonra – …Bir sözlə, siz nə isə eləmisiz, professor… – deyib nəfəsini dərdi. Elə bil danışmaqdan əziyyət çəkirdi.
- Onu da dəqiq hiss elədim ki, bu vəziyyətdən təkbaşına çıxa bilməyəcəyəm. Bəlkə də bacarardım, buna, görünür çoxlu vaxt lazımdı. Mənim də vaxtla bağlı, özünüz bilirsiz…
– Əvvəla mən, dediyiniz o yuxuların məzmununu dəqiq bilməliyəm… – professor dedi və Generalın, qəzəblə şübhə qarışıq qığılcımlar oynamağa başlayan gözlərinə baxdı, çiyinlərini çəkdi:
– …Bunun, sadəcə, ayrı yolu yoxdu.
General susub nəfəsini dərdi, sonra ayağa qalxıb o biri otağa keçdi və çox keçmədi ki, ordan, bir əlində, büllur qrafin, o biri ovcunda, bir cüt gümüş qədəh, geri qayıtdı, kresloya əyləşib, gətirdiklərini alçaq mizin üstünə düzdü, qrafinin qapağını açıb, sarımtıl rəngli məd içkini qədəhlərə süzdü, dolu qədəhlərin birini professora uzatdı:
– Viski necə, içə bilirsiz?.. – dedi və cavab gözləmədən, öz qədəhindən bir qurtum aldı.

…Professor qədəhi dodaqlarına yaxınlaşdırıb iylədi, canını dişinə tutub, zorla, iki qurtum içdi.
– Yuxunun məzmunu… – General deyib susdu. Sonra elə bil, yadına nə isə düşdü. – Bax siz… Yuxularınızı tam dəqiqliyi ilə yadınızda saxlaya bilirsiz?..
– Tam da olmasa, ümumən, elə bilirəm, nə isə yadımda qalır... – professor dedi və fikirləşdi ki, niyəsə yalan danışdı…
– Qəribədi... Mən isə heç bir yuxumu dəqiq yadımda saxlaya bilmirəm. Yadımda bir o qalır ki, hər dəfə eyni bir yerdə, dediyim həmin o məqbərədə oluram. Bir dəfə, bir dəstə adamla, o biri dəfə, tək… Məsələ bunda da deyil. Məsələ ondadır ki, mən bu məqbərəni yuxuda görməyə başlayandan, gecə-gündüz yatmaq istəyirəm. Mənim buna sadəcə, ixtiyarım yoxdu. Özünüz başa düşürsünüz. Bir də o məqbərə… Gecədən-gecəyə tikilib böyüyən o məqbərə, elə bil mənimlə nə isə eləmək istəyir?..
– Belə… – professor dedi və Generalın, kreslonun qollarında yatan sakit əllərinə baxdı.
…Çöldəki fırtına, bayaqdan bura bir az da güclənmişdi... Külək pəncərələri guruldadıqca, professor, gecənin bu vaxtında, bu dəli fırtınanın içi ilə evinə necə gedəcəyi barədə fikirləşdi və boğazını qəhər tutdu... Bu nə dar dəhliz idi düşmüşdü?!. Hər iki başı ölüm, qorxu, vahimə…
– Mənə kömək edin, professor… – General bunu eynilə akademik kimi dedi və elə bil kreslosu ilə birlikdə bir addım qabağa gəldi…
–…Mən dedim sizə… - professor niyəsə kəkələdi - Mənə hər şeyi danışmalısız…. Yuxularınızı xatırlamırsınızsa, həyatınızı danışın, keçirdiyiniz hissləri…Ya nə isə deyin, heç olmasa…
Bunları dedikcə, nədənsə, professorun gözünün qabağına, səhiyyə nazirinin, xidmət və yarınmaq eşqi ilə yanıb yaxılan qarayanız üzü gəldi…
– Axı mən nəyi deməliyəm?.. – General qolları qoltuğunda, qəribə bir iddia ilə professora baxırdı.
– Siz nahaq əsəbiləşirsiz... –professor nədəsə səhv buraxdığını özündə ayırd eləyə – eləyə yerində qurcalandı - Əgər məndən kömək gözləyirsinizsə, gərək özünüz də mənə kömək edəsiz...
– Mən nə eləməliyəm?..
General açıq-aşkar əsəbi idi.

– Danışmalısız...
– Məsələn nəyi?.. Kimin barədə nə fikirləşirəm, nə barədə nə qərar qəbul etmək istəyirəm, niyə, nə vaxt, hansı səbəbdən, hə?.. Siz bunları bilmək istəyirsiz?..
– Cənab General, əgər söhbətimiz belə gedəcəksə, təəssüf ki, mən heç nə eləyə bilməyəcəyəm.
– Mən bu barədə danışmaq istəmirəm. – General nəyə görəsə, lap astadan deyib susdu.
Professorun ürəyi yenə əsəbi-əsəbi çırpındı... Gözlərini qıyıb, nə istədiyini, deyəsən özü də dəqiq bilməyən, Generalın, əsəbi-əsəbi əsdirdiyi sol dizinə baxdı. Bir istədi deyə ki, «cənab General, əgər bu barədə danışmaq istəmirsinizsə, onda məni niyə bura çağırmısız?», özünü saxladı. Demək, bircə yol qalır… – professor fikirləşdi, – başı-ayağı bilinməyən, bu anlaşılmazlıqdan bir təhər sivişib çıxmaq…
…Eynəyini gözünə taxıb ayağa qalxdı, paltosunu qolunun üstə salıb şlyapasını əlnə götürdü, yerdən çantasını qaldırıb:
– Onda, icazənizlə mən gedim… – dedisə də, G
eneral dinmədi. Elə btl onun getmək istədiyini anlamadı.
…Bir qədər gözləyib çöndü, qapıya sarı addımladı. Geriyə çönməsə də, Generalın, onun addımlarını, sakit baxışlarla müşahidə etdiyini hiss etdi. Əfsanəvi Generalın, onun bu gedişinə münasibətini dəqiqləşdirmək çətin olacaqdı… - professor qapıya çathaçatda fikirləşdi, geriyə çönüb, nəzakətlə:
– Sağ olun, cənab General… – dedi və cavab gözləmədən, qapını açıb dəhlizə çıxdı, bir neçə addım atmışdı ki, arxadan, Generalın amiranə səsi eşidildi.
– Professor!..

* * *

…Mətbəxdən yenə telefonun uzun-uzadı zəngləri eşidilirdi...
…Professor başını qaldırmaq istədisə də, boynunu tərpədə bilmədi… Başı, gün vurmuş kimi ağırlaşmışdı…

Bir müddət, yerindən tərpənmədən telefonun, heç cür kəsilməmək bilməyən, uzun-uzadı zənglərinə qulaq asdı.
Bu, yəqin ki, baş həkim idi… – professor fikirləşdi. Dünən gecə də, gecədən xeyli keçəndən sonra, professor, yorğunluqdan ayaqlarını zorla sürüyə-sürüyə pilləkənləri qalxıb, qapıya açar salanda da, telefon beləcə aramsız zənglərlə cingildəyirdi…
…Telefon bir müddət də cingildəyib, susdu.
…Bütün gecəni açıq qaldığından, quruyan dilini, ağzının içiylə gəzdirdi, damarları quruyub bərkiyən boyunu ovdu. Fikirləşdi ki, görünür, dünən, iqamətgahın küləkli həyətində vurnuxanda özünü soyuğa verib. Sonra, bu gecə, sübh çağı, yerinə girəndən bu yana yatdığı müddətdə, yuxuda gördüklərini yadına, salmağa çalışdı və yadına, yuxunun əvəzinə, otağın hansı küncündəsə üzünə zillənən bir cüt boz göz düşdü...
Sonra professor, üşüyə-üşüyə dünənki axşamı, ecazkar akasiya kollarını, donuq şam ağaclarını, iqamətgahın möhtəşəm əzəmətini, Generalın, dəqiqədə bir dəyişən üzünü xatırladı… General, zəhmli gözlərinə, qəddar səsinə uyuşmayan, qəribə acizliklə:
– Azad olmaq istəyirəm… azad olmaq… – deyib, otağın hansı küncündənsə professora baxdı…
… Yorğanı özünə bürüyüb fikirləşdi ki, görəsən yuxuları, bu adama niyə bu qədər mane olurdu?.. Tək bir ona görə ki, onu, vacib dövlət işlərindən ayırırdı?!. Onu ki, yuxuda, akademiki, ya onu təqib edən kimi, təqib etmirdilər?!. Ya bəlkə General yuxularını ona düz danışmırdı, nəyisə gizlədirdi?!.
…Həyətdən zibil maşınının səsi gəlirdi. Çox keçmədi ki, zibilin çürüntü iyi otağa doldu. Aşağıda kimsə:
– Dala çək, dala! Dala!.. – deyib çığırırdı, elə bil, bir neçə kvartal o üzdəki həyətlə danışırdı.
… Əlini balışın altına salıb ordan, gecə hay-küyləri vaxtı qulaqlarına basdığı tıxaclarını axtardı, tapıb, qulaqlarına basdı və fikirləşdi ki, General da, akademik kimi yuxarıdan xilas olmaq istəyir.
…Ayağa qalxıb çardağa dırmaşmaq, ordan, bir neçə gün əvvəl yeşiklərə yığıb gizlətdiyi qədim əlyazmaların arasından, şüuraltı yaddaşın oyanışına dair nə varsa, tapıb çıxarmaq lazım idi… Generalın yuxularını zəbt edən məqbərənin sirrini tapmağın yeganı yolu bu idi. Onun keçilməz, qapalı yaddaşına enmək… Bu, elə də asanlıqla başa gələn iş olmayacaqdı… – professor fikirləşdi və dünən axşam, Generalın, boz

divarı andıran gözlərindən heç cür o tərəfə keçə bilmədiyi uğursuz seanslarını xatırladı... Bəlkə də heç mümkün olmayacaqdı…
Generalın gözləri, professorun 40 illik praktikasında rast gəlmədtyi, qəribə mühafizə qatıyla örtülü idi elə bil. Ya bəlkə onu, bu qorxunc məmurun gözlərindən o yana – içinə buraxmayan, psixiatriya elminə məlum olmayan, digər elmi ədəbiyyatlarda haqqında heç nə yazılmayan, nə isə ayrı, sirli qüvvə idi?!.
…Axır nəydisə, bu gözlərə sirayət etmək mümkün deyildi… – professor fikirləşdi və dünən Generalın sakit və qəti nifrətlə astadan:
– Mümkün olmalıdı... – deməyini xatırladı.
Sonra professor, yerinin içində vurnuxa-vurnuxa, hər şeyi yenidən xatırlamağa, nəyin hardan, necə başladığını, sakit, yeqnəsək həyatının, bu son həftələr ərzində kəskin sıçrayışlarla, harasa, hansısa qorxulu səmtə çönməyinin səbəblərini araşdırmaq istədisə də, yorğun beyninin sahmanını nə vatdan bərisə pozan fikir kilkələrinin içində dolaşıb qaldı…
…Qəribəydi ki, bütün bu qatmaqarışıq işlərdə həm də, lənət şeytana, qəribə bir qanunauyğunluq, anlaşılmaz bir uyarlıq var idi elə bil... – professor səbri darala – darala fikirləşdi. Yuxuda təqib edilməyə başladığı müddətdən bəri, indi belə məlum olurdu ki, sən demə, burda da onu təqib edirmişlər, izləyib, həyatını, tərcümeyi-halını yoxlayırmışlar… Bu iki qorxunc təqibi bir-birinə bağlayan nə idi?.. – professor, içinə qum tökülmüş kimi, acışan gözlərini ovub yerində qurcalandı.
…Həm də elə bil bu hadisələrin içi ilə professorun hansı duyumuylasa hiss etdiyi, amma nə olduğunu dəqiq bilə bilmədiyi, şüa incəliyində, tamam ayrı bir proses də gedirdi elə bil…
Bu, proses idi, ya heç cür tuta bilmədiyi səs idi, dalğa idi, ya vaxtın hansısa naməlüm tərəfi idi, axır nəydisə, professor son bu neçə günü onu, hardasa lap yaxında, ətrafındakı adamların gözündə, səsində, günün müəyyən vaxtları havanın rəngində hiss eləyirdi. O, nə idisə, elə bil tədricən, aramla ona yaxınlaşmaqdaydı… və bu yaxınlıqdan, professor özündə, niyəsə, qəribə bir yüngüllük, anlaşılmaz rahatlıq hiss eləyirdi...
…Telefonun mətbəxdən eşidilən növbəti aramsız zəngləri, professoru fikirdən ayırdı...
Saata baxdı. On birin yarısı idi. Ayağa qalxıb, telefonun həyəcanlı zəngləri altında tələsmədən geyindi, mətbəxə keçib bir müddət əlləri

cibində hələ də zəng çalan telefona baxdı.
…Zəng vuran, yəqin ki, gözləri bu dəqiqə hədəqəsindən çıxıb yerə düşmək istəyən baş həkim idi. İndi dəstəyi qaldıran kimi, bir-birinin ardınca əlli yöndəmsiz sualı birdən yağdıracaqdı.
…Professor, nə baş həkimə, nə də nazirə, heç cür, harda olduğu haqqında deyə bilməzdi. Bunu professor dünən, Generalla söhbəti vaxtı başa düşmüşdü və qəti qərara almışdı ki, bu günlər, ümumiyyətlə telefona cavab verməsin. Bir də, kiminləsə danışmağa halı da yox idi. Bu axşam, yenə yeddinin yarısında, həmin «casus-maşın» onu saraya, Generalın hüzuruna aparmaq üçün həyətlərində peyda olacaqdı…
Həmin o vaxtacan, o, Generalın dediyi kimi, «nə isə eləməliydi»…
Sonra professor, arada bir, Generalın, açıq boz gözlərindən keçən qəribə, ağrılı dalğaları, xatırladı...
Dörd bir yanı, təntənə və vəsf dolu bu güclü adam, bütün o gözəlliyin, zənginliyin içində, eynilə onun kimi darıxırdı... Fərqi bircə bu idi ki, başını yuxularında yox, siyasətdə qatırdı.
…Telefon, zənglərinə bir qədər fasilə verib, yenidən zəng çalmağa başladı…
Professor eyvana çıxıb, qapının ağzına söykədiyi taxta nərdivanı sürüyə-sürüyə dəhlizə keçirdi, divara söykəyib pillələrini ehtiyatla qalxdı, çardağın qapısını açıb ordan, bir müddət əvvəl, köhnə qəzetlərə büküb gizlədiyi bir neçə əlyazmanı üst-üstə, qucağına yığıb aşağı düşürdü.
Otağa qayıdıb, işlənməkdən, pürşüklənib sapları açılan qovluqları yazı stolunun üstünə düzdü, stolüstü lampanı yandırıb, kresloya əyləşdi, qovluqların birini açıb birinci səhifənin birinci cümləsini oxudu:
– Həyat - əbədi ölümümüzdə qısa fasilədir…
…Telefonun səsi daha eşidilmirdi…

V FƏSİL

...Professor içəri daxil olanda, yenə ürəyinin həmin sol nöqtəsi sancdı...
Elə bil o nöqtə, məhz psixiatra reaksiya verirdi, onu görəndə xəstələnirdi.
...Professor, çal bığları, girdə gözlüklü eynəyi, ağ, təmiz dırnaqlı əlləri, tünd göy rəngli, mahud şlyapası ilə, bu gün ona, çar dövrünün zadəgan

həkimlərini xatırlatdı....
- Üzr istəyirəm, deyəsən... - professor deyib, niyəsə Qapının ağzında ayaq saxladı. Üzü elə idi, elə bil nə isə itirmişdi.
- Buyurun içəri. Sizi görməyimə şadam... - deyib professora, dünənki yerini göstərdi.
...Professor özünü qəribə aparırdı. İçəri daxil olub? heç hara baxmadan, nə isə itirmiş kimi, paltosu əynində, huşsuz hərəkətlərlə çantasının içində eşələnirdi...
- Gözləmirdim ki, bu tezliklə nə isə eləmək mümkün olacaq.
...Qoca professor, elə bil onu eşitmədi, tələm-tələsik, dağınıq hərəkətlərlə, nimdaş çantasından, bir-birinə mane olan nələrisə tapıb çıxarmaqla məşğul idi...
- Siz orda nə edirsiz?..
...Professorun bu çaşqınlığında, qəribədi ki, ona tanış və doğma olan nə isə də var idi elə bil... Elə bil bu çalsaç, mülayim üzlü adamla, nə vaxtsa, hardasa, həyatının hansısa ağrılarını yaşamışdı... Ya bəlkə, professor ona, dünənki axşam, bütün həyatmı, keşməkeşli ömrü uzunu keçirdiyi ən mübhəm hisslərini, illər uzunu, zəhərli tüpürcək kimi dilinin altında saxladığı sirrlərini etibar etdiyindən, belə doğmalaşmışdı?..
Qəribəydi ki, dünən, professoru, iqamətgahın, az qala göyə sovrulan həyəti ilə evlərinə yola salandan sonra da, ürək qızdırıb, olub-keçəni danışdığına görə, zərrə qədər peşman olmamışdı... Bütün gecəni da rahat yatmışdı.
Bu gün səhərdən bəri isə, niyəsə, bu qoca cadugərin, .onu, dünənki o «alınmayan» seanslarıyla, necəsə hipnoza saldığı barədə, ona yaraşmayan, sadəlövh səmimiyyətlə, bütün həyatmı, olub keçənləri, əsgər, zabitə hesabat verən kimi, bu balaca qocaya, həmin o «alınmayan» iblisanə hipnozun təsiri altında danışması barədə qara fıkirlərlə düşünmüşdü...
- Demək, deyirsiz, yuxu - insanın azad ola bildiyi yeganə vəziyyətdi...
- Bəli, bəli, elədi ki, var... - professor, indi də dizinin üstünə yığdığı kağızlarda eşələnirdi. Onunla da elə bil candərdi danışırdı. Əslinə qalsa, professor elə dünən də, burda, onunla üzbəüz oturub, kövrək səmimiyyətlə danışdıqlarına beləcə candərdi qulaq asardı. Elə bil hara üçünsə darıxırdı...
Professor indi də elə bil o vəziyyətdə idi, onunla üzbəüz otura-otura, həm də, tamam ayrı bir yerdəydi... Sonra da fikirləşdi ki, axı burda, bu

iqamətgahda, onun hüzurunda ola-ola hara üçün darıxmaq olar?!.
...Professor elə bil onu unutmuşdu. Özünü, iş başındakı kimi, sərbəst aparır, onun dediklərinə məhəl qoymur, eşitdiklərini də? elə bil qeyri-ciddi qəbul edirdi. Çox keçmədi ki, o, bayaqdan bəri axtardığını deyəsən tapdı, əlindəkiləri mizin üstünə qoyub, elə bil paltosunu soyunmaq qərarına gəldi.
- Professor, dünənki söhbətimizdən sonra, mən başa düşdüm ki, özüm haqqında həm də elə bil heç nə bilmirəmmiş.
- Burada qeyri-adi bir şey yoxdu. Əslinə qalsa, heç kim özü haqqında heç nə bilmir... - professor ləng hərəkətlərlə paltosunu soyuna - soyuna dedi və yenə əlyazmalara qayıtdı . - Dünən özünüz də gördünüz ki, sizi hipnoza salmaq, praktiki mümkün deyil. Şüuraltı yaddaşımız möhkəm qorunur... Demək olar ki, yol yoxdu. Ən təsirli hipnoz əməliyyatları belə, o yola qoşulmağa imkan yaratmır. Mümkün deyil... - professor bunu deyib başını qaldırdı, qəribə, rahat təbəssümlə gülümsədi, - Açığını deyim, bu, mənim qırx beş illik praktikamda rast gəldiyim ilk hadisədir...Mənim özüm üçün də maraqlıdır. ...Hipnoz alınmışdı... - General, ürəyindən qara qanlar axa-axa fikirləşdi. - professor yalan deyirdi... Sadəcə onu, düz hesablamırdı... İllərlə, yaddaşlarında, qəlblərində, paltar şkafının siyirtmələrində eşələnən kimi, eşələnən yüzlərlə xəstələrlə qarışıq salırdı...
- ... Dediklərinizdə də, elə bir əsaslı məqama rast gəlmədim. Amma insanlara bu inamsızlığınız, yadlığınız nədəndi?.. Olsun ki... - professor bu yerdə susub fikrə getdi, sonra çönüb böyründə, yerə qoyduğu çantasına baxdı. - ...insanlara qarşı bu ikrahınızın, nə isə çox ciddi, gizli səbəbləri var...
...Professorun haqqında bildiklərinə görə, o, tək yaşayırdı. Nə işlədiyi klinikada, nə ondan kənarda kiminləsə əlaqə saxlamırdı. Heç bir elmi əsər üzərində işləmirdi, yalnız praktiki müalicə ilə məşğul olurdu...
-...O ki, qaldı məqbərəyə... burda müəyyən qədər nə isə aydındı... - professor deyib, ona yox, ondan bir qarış kənara, elə bil hardasa uzaqlarda qaralan məqbərəyə baxdı. - O məqbərəni siz özünüz tikdirirsiz. Yəni yuxularınızda...
- Mən?
- Bəli, siz. Dünən ... - professor eynəyini düzəldib gözlərini qıylı, elə bil fikirlərində sahman yaratmağa çalışdı... -.. .mən bu barədə çox fikirləşdim... Sizə, cənab General, sirayət eləmək müşkül işdi. Dünən

bunun səbəbini mənə məlum deyildi... Bu gün isə deyə bilərəm ki...- professor bu yerdə susub, elə bil deyəcəyini götür - qoy etdi, sonra qəribə bir cəsarətlə - Sizdə tamamilə ayrı, yad enerji var, cənab General...- dedi - Bu, tamam dəqiqdi... Bunu mən dünən, bir sıra energetik cədvəllərə uyğun hesablamalar aparandan sonra anladım... Daha doğrusu, müəyyənləşdirdim...Hipnoza düşməməyinizin əsas səbəbi də elə budur...
- Yox, məqbərə ilə bağlı dediyiniz... Bu, absurddu. Professor, ilk əvvəl onun nə dediyini elə bil anlamadı, sonra fikrini toplayıb:
- Siz məni anlamadınız... -dedi.
- Qısası, deyirsiz heç nə mümkün deyil?..
- Mən, belə, heç nə deyə bilmərəm... - professor deyib niyəsə üzünü yığdı - Biz bu seansı almalıyıq.., O, alınmalıdı.
- Dünənki kimi?
- Bəli, eynilə dünənki kimi... - professor deyib çantasınıı açdı, ordan, əyriuclu, qaramtıl bıçağı və rəngi saralmış, bir neçə səhifəni çıxarıb dizinin üstə qoydu.
- Bu bıçaq misdəndi. - dedi - Bunu hər iki əlinizlə, ovuclarnızda saxlamalısız...
...Bıçağı əlinə alanda, bədənindən cərəyanabənzər nə isə ötüb keçdi elə bil... Yoxsa, bu ona elə gəldi?..
Bıçağı o üz-bu üzə çevirib itiliyini yoxladı. Bıçaq, küt və ilıq idi... işlənməkdən rəngi qaralmış, dəstəyi yeyilmişdi...
- Bu, lap casus bıçağına oxşayır... - dedi.
- Gözünüzü yumun və mənə qulaq asın... - professor yenə elə bil harasa tələsirdi...- ... Özünüzü boş buraxın...
... Gözlərini yenə dünənki kimi yumdusa da, içinin gərginliyini azalda bilmədi...Bütün bu seanslardan sonra? bu tədbirlli, uzaqgörən qocanın, onun sirlərini, bütün həyatmı, özü ilə harasa kənarlara, dörd bir yanı adamla dolu açıqlıqlara aparacağını bilə-bilə necə boşalmaq olardı?..
- Hər şeyi unudun... Heç nəyi xatırlamırsız... Sizi heç nə narahat etmir... tam sakitsiz... ovuclarınız istidi... tam rahatsız...
Professor, eynilə dünən dediyi sözləri deyirdi. Onun da, eynilə dünənki kimi, yuxusu gəlmirdi.
- ...Ayaqlarınızın altı yumşalır, dabanlarınız ilıqdır.
Bıçağın tiyəsinin itiliyini, indi də ovuclarında yoxladı. Bıçaq küt və əyri idi...

Professorun həzin səslə, qulaqyoran ahənglə dediyi sözlərdən nə ayaqlarının altı yumşalırdı, nə dabanları isinirdi... Dabanlarının əvəzinə, ovuclarının içində getdikcə, ağırlaşan mis bıçaq isinməyə başlayırdı...

...Professor, seansı, səsini uzada-uzada, yeqnəsək ardıcıllıqla, hövsələ ilə davam etdirirdi. - ...ətraf sakitlikdi... boşluqdu... bizi heç nə narahat etmir...
Sonra nə oldusa, professorun səsi, ayrı, yad dildə, qəribə, qorxunc fışıltılarla dolu dua mətninə bənzər, əcayib sözlər deyə - deyə elə bil ondan uzaqlaşdı... və o, getdikcə elə bil böyüyən, böyüdükcə, darısqal, tanış cığırlara, körpülərə çevrilən bu sözlərin içindən keçib, tanış mənzərələri - doğulub böyüdüyü kəndlərini... tez-tez cığallıq edib döyüşdüyü kənd uşaqları, tənəffüslərdə, məktəbin arxa həyətində qoyun qırxan, dazbaş coğrafiya müəllimini gördü... Bir az kənarda, örüşə aparan bostanlıqda cavan anasını gördü... Anası, belində dama-dama yun şal, çömələb bostanda işləyirdi, yenə hamilə idi... Sonra, yenicə doğulan körpə səsini eşitdi və bu səsdən, kimin doğulduğunu anladı... Sonra nənəsini gördü... Nənəsi, xırıldaya-xırıldaya, tənbəkidən qaralan dodaqlarmı qabağa uzada-uzada:
- Sən bunnardan deyilsən, bala!.. - dedi. - Sən ayrı ulduz altında gəlmisən bu dünyaya... Nəhəng ulduz altında!.. Başında tacşəkilli kəkillə, əynində şəffaf sulu şah köynəyində, bardaş qurub taxtda oturan vəziyyətdə gəlmisən!..

***
...Ayaqlarını altı gizildəyirdi... yandırırdı... Əlini ayağının altına atmaq istədi... Qolu da gizildəyirdi...
- Çıraqları yandırın! Yandırın çıraqları!.. - dedisə də, səsini eşidən olmadı. Səsi, hovuzun çeşməsindən ləpə - ləpə axıb tökülən suyun səsinə qarışdı...
... Məqbərənin içi boğanaq idi... həm də isti idi... Arxada dayananların isti nəfəsindən idi, nə idisə, havası çatmırdı... Arxadakılar da elə bil qızdırmışdılar...Arxadan, ona sarı isti nəmişlik axırdı elə bil... Yoxsa, bu qəfil boğulma tutması, son həftələrin əsəb gərginliyinin bəhrəsi idi?
...Yenə bədəni, əyləci sıradan çıxmış mühərrik kimi, canının istisini içinə yığmağa başlamışdı...
...Çıraqları axır ki, yandırdılar. Məqbərənin divarları, içərinin istisindən

tərləyib damla-damla su axıdırdı... Yoxsa yağış yağırdı?..
Rütubət özüldən gəlir, əla həzrətləri... - kimsə asta səslə lap böyründə dedi.
...Qəsdən bu yeri seçmişdilər. Qəsdən məhz buranı seçmişdilər ki, zəlzələ də sökə bilməsə, heç olmasa buranı nəmişlik söksün. Söküb çökdürsün... yerlə yeksan eləsin... Nəmişlik daş-ların canına yeriyib divarların içini oya-oya, buz sarayı isti əri-dən kimi, məqbərəni də əridib, Yer üzündən itirsin...
- Buranı seçəndə başınız hardaydı?.. ...Səsi, məqbərənin nəm divarların canına hopub ha yanasa buxarlanırdı... Səsi də itirdi burda...
- Sizinləyəm!..
....Arxadakılar, səmti qəfil dəyişən sürü kimi, yerlərində tərpəşdilər...
- Mən dedim, sözümü eşidən olmadı... - kimsə arxadan dedi...
...Divarların nəmişi, hardansa arxa tərəfdən, sütunların o üzündən gəlirdi, elə bil... mərmər döşəmə boyu sürünə - sürünə, divarların canına hopurdu...
...Yadına, iki gün əvvəl, nahar vaxtı, taleyin hansısa naməlum buyruğu ilə, xidmətçiyə içirtdiyi çəhrayı şərbətdən, getdiyi yerdəcə, qapının ağzında, əlində içi qab-qacaq dolu məcməyi, bükülüb, qarala-qarala keçinən xidmətçinin, qaramtıl üzü düşdü...
Bütün bunlar elə belə deyildi... - gözünün ucuyla, hovuzun ətrafında hürkmüş üzlərlə, xain gözlərlə, pusquda duran kimi, dayananlara baxa-baxa fıkirləşdi... Bəlkə də elə bu dəqiqə, bu an - o, burda, məqbərənin tikilişinin seyrinə çıxdığı məqam, ölümünə gizli hazırlıq işləri gedir, məkr və intiqam dolu sui-qəsd planları hazırlanır... Odu ki, nəfəsləri belə istidi... Odu ki, qızdırmalıdırlar. Odu ki, divarlar tərləyir...
.. .Ürəyi sıxıldı. Keçən həftə gördüyü yuxusunu xatırladı... ...Dar, qaranlıq dəhliz... qaça-qaça ondan uzaqlaşan atının boynundan qırılıb, ovcunda qalan gümüşü cilov... ölü uşaq...
...Üzbəüz sütunun arxasında kimsə vardı elə bil... Ya gözünə görünürdü?..
Sonra hardansa uzaqdan, aramla məqbərəyə yaxınlaşan at sürüsünün ayaq səsləri eşidilməyə başladı... Ürəyi, qəfil zədə alan kimi, soyuq gizilti ilə gizildədi... Atlı qoşunun ayaq səsi idi...
- Bu nə səsdi belə?.. - səsi də zədəli idi...
- Nə səs, əla həzrətləri?..
...Nəfəsini saxlayıb, sakitliyə qulaq asdı... Hə, atlı qoşunun səsi idi.

Aramla məqbərəyə yaxınlaşırdı... Ürəyi əsəbi-əsəbi döyündü:
- Guya eşitmirsiniz?
- Xeyr, heç bir şey eşitmirik... - hamının rəngi sapsan idi. Ya gözünə belə görünürdü?!.
...Sonra o qoşunu, elə bil gördü də... Elə dayandığı yerdə, məqbərənin səskeçirməz divarların arasından, qulaqlarıyla gördü...
...Ucubiz dəbilqələri ilə, gümüşü nizələr, dəmir döyüş libaslarıyla, nəhəng, gümüşü dalğanı andıran atlı qoşun, arxasınca vahiməli toz dumanı qaldıra-qaldıra, məqbərəyə yaxınlaşırdı...
- Demək heç nə eşitmirsiniz... - deyib arxadakılara sarı çöndü.
- Xeyr, zati-aliləri, heç nə eşitmirik... - hamı bir ağızdan mələşdi...
- Bəs onda niyə belə saralmısız?..
...Bu sözdən sonra nə oldusa hamı, əmr almış kimi, geriyə çəkildi... Üzbəüz sütunun arxasından sıçrayan iki nəfər üzü niqablı, əli silahlı əsgər üstünə şığıdı... Əsgərlərdən biri, göz qırpımında, qollarmı geriyə qarıb? onu dizi üstə oturtdu, o biri - yastı, enli xəncərini boğazına yeritdi...
...Xəncərin itiliyindən bədəni uçundu... boğazının qanı nəfəs yolunu tutdu... Sonra o, hansı möcüzəyləsə, qonşu sütunun arxasından, sütundan qopan qəlpə kimi, ayrılıb, ləng addımlarla üstünə yeriyən Minbaşının, nifrət və qələbə dolu cavan üzünü gördü... Minbaşı ona yaxınlaşdıqca, həm də elə bil yuxarı qalxırdı, havayla gəlirdi... Yoxsa, özü aşağı çökürdü, qanından islanıb sulanan ipək arxalığının dibinə yatırdı?!.
... Minbaşı, dizi üstə oturub bir müddət ağır-ağır nəfəs ala-ala onun üzünə baxdı, sonra ehmal hərəkətlərlə, onun, artıq hissiz əlini əlinə alıb, dövlət möhürlü üzüyünü barmağından sivirdi, ovcunda sıxa-sıxa ona bir az da yaxından baxdı...
... Minbaşının üzü tərli idi...

***

-...Cənab General... ...Cənab General... - professorun dil-dodağı qurumuşdu...
...Generalm nəbzi itmişdi, üzünün rəngi çəkilmiş, əlləri soyumuşdu...
...Bu, nə demək idi?!. - professor, vahimədən başının tükləri qabara-

qabara fıkirləşdi... Bu necə ola bilərdi?.....Əlləri əsə-əsə, Generalın göz qapaqlarmı aralayıb bəbəklərinə baxdı... Generalın bəbəkləri tündləşmişdi, gözlərində həyat əlaməti yox idi...
.. .Nəfəsi tutula-tutula, köynəyinin düymələrini açıb qulağını sinəsinə dirədi... Generalın sinəsi, divar kimi quru və səssiz idi...
.. .Gözü, küncdəki mizin üstündə qaralan nömrəsiz telefon aparatma sataşdı... dəstəyi qaldırdı... Telefonun o başından, nəzakətli kişi səsi eşidildi:
- Bəli, cənab General...
- E... e, mən... Veyisovam... Professor Veyisov... - professor hiss elədi ki, dili söz tutmur -... cənab General...
...Bir dəqiqə keçmədi ki, dəhlizdən tarappıltı səsləri eşidil-di... Əli silahlı bir neçə lıərbçi hücumla içəri daxil oldu... Onlar-dan biri, professoru kənara itələyib, divara dirədi, o birilər tələm-tələsik, nəfəssiz Generalı özünə gətirməklə məşğul oldular... Generalın ağır bədənini, kreslodan qaldırıb, yaxındakı divana keçirdilər, orda, tələsik hərəkətlərlə, nə isə elədilər...
Çox keçmədi ki, otağa, əlləri kardioloji cihazlarla, cürbəcür çantalar və qutularla dolu həkim briqadaları doluşdu... Tələsik hərəkətlərlə, ağarmış bənizlərlə, Generalın nəbzini, bəbəklərini yoxladılar...
Generalın şəxsi mühafızəçiləri də burda idi. Onlardan biri, professora yaxınlaşıb, üzünə, niyəsə lap yaxından baxdı, sonra qəfildən əlini uzadıb, professorun üzünü, nəhəng ovcuyla, lazımsız kağız kimi, eynəyi qarışıq əzdi... kəlbətin kimi möhkəm ovcu, professorun da qaşını kəsdi...
...Burnunun əzildiyindən idi, ya mühafızəçinin əlindən gələn dərman iyindən idi, nəydisə, professor, damağında qəribə, kimyəvi dad hiss elədi...
...Mühafizəçini ondan araladılar...
...Sonra otağa, dörd nəfər eyni biçimli, mülkü geyimli adam daxil oldu... Onlar da bir müddət cansız Generalın başı üstündə dayandılar, sonra kənara çəkilib, asta səslə mühafızəçilərlə danışa-danışa professora baxdılar. Bir qədər keçmiş, onlardan biri professora yaxınlaşıb:
- Buyuracaqsınız, cənab İbn-Sina... - deyib qapını göstərdi...
* * *
...Maşın kimsəsiz, qaranlıq küçələrdən ötdükcə, professorun qaşının qanı, daha bərk axmağa başlayırdı... Bayaqkı mən-zərə... Generalın birdən-birə ağrılı iniltiylə inildəməsi, xirtdəyindən zədə almış kimi,

boğazından yapışması, başının geriyə - kreslonun söykənəcəyinə atılması, sonra cansız hərəkətlə sinəsinə düşməsi, gözünün qabağına gəldikcə, qaşının qanı köynəyinə, ordan şalvarının üstünə damcılayırdı...
- Yəqin damara düşüb... - qabaq oturacaqda oturan mülkü geyimli geriyə baxmadan, qanının dayanmamasını, necəsə görmüşdü...
.. .Bütün bunlar nə demək idi?.. - professor, nəfəsi darala-darala fikirləşirdi... Özünü toplayıb, bayaqkı energetik seansın tətbiqinə aid tapıb oxuduğu qədim əlyazmanı hardan, nə vaxt əldə elədiyini yalına salmağa çalışdı və xatırladı...
.. .Bu əlyazmanı ona, bir neçə il bundan əvvəl, uzım müddət Tibetdə işləyib, sonradan Rusiyanın hansısa əyalət şəhərinə köçən, bir neçə ay bundan əvvəl isə dünyasını dəyişən bir rus alimi bağışlamışdı...
...Əlyazmanın saralmış səhifələri, cadu və dua mətnləri, oxunuş qaydası, insanın, ayn zaman ölçülərinə düşmə qaydaları, əlaqəc cədvəlləri, energetik qütblərin bölünmə əmsalları...
- Alın, yaranıza qoyun... - qabaq oturacaqda oturan, -professora nə isə ötürdü.
...Eynəksiz idi deyə, ona ötürülənin nə olduğunu seçə bilmədi... Nə isə, ağ tənzifəoxşar bükülü idi. Üz-gözünün qanını silmək üçün cibindən burun yaylığını çıxartdı və yadına düşdü ki, çantası da, əlyazma da, Generalın, şüşəli sarayında, hə-min o otaqda qalıb...
-Mənim çantam... ...Qabaqdakı geriyə çönüb:
- Nə dediniz, professor?.. ~ dedi.
- Mənim çantam orda qaldı... - professor dedi.
- Narahat olmayın, professor, çantanıza heç nə olmayacaq...- kimsə lap yanında dedi və professor yalnız indi, böyründə oturub oturacağın küncünə qısılan adamı gördü... xüsusi vurğuyla deyilən bu ölüm qoxulu sözləri, bir neçə dəfə eşitdi... "Çantanıza heç nə olmayacaq...» Sizə isə olacaq...
.. .Demək onu evə aparmırdılar...
Məlum məsələydi ki, evə aparmırdılar. Generalı öldürən adamı, hansı məntiqlə evə apara bilərdilər?!.. Onu...
Bədəni, cərəyan vurmuş kimi titrədi...
...Maşın, professorun, uzaq gənclik illərindən yaxşı tanıdığı içində baş verən qopxunc məxfiliklərdən, uzaqdan - uzağa bədəni uçunduğu, yeddi mərtəbəli möhtəşəm binanın həyətinə buruldu, həyəti dövrə vurub arxa qapısında dayandı...

.. .Professor binam, hələ bayaq, maşın küçəni burulub binaya yaxınlaşanda tanımışdı. Adətən səhərlər, klinikaya gedəndə, qarşısından ötüb keçməli olduğu bu nəhəng binanın, yay-qış, səhər-axşam işıqları yanmayan, kölgəli pəncərələrinə baxdıqca, ötüb-keçmiş qorxulu illəri, bu binayla bağlı ürəksıxan xatirələri yadına salmaya bilmirdi.
...Professoru maşından düşürüb içəri ötürdülər, bozumtul divarlı vestibüllə müşayiət edib, elektrik yanığı iyi verən darısqal liftə mindirdilər.
...Professor baxıb gördü ki, liftin düymələrinin yanında mərtəbələrin rəqəmləri yoxdu. Yanındakılardan biri, bu nömrəsiz düymələrdən hansımsa basdı və lift, professorun gözlədiyi kimi, yuxarı yox, harasa aşağı getdi...
...Alt mərtəbələrdən birində, liftin qarşısında, professoru iki nəfər əlisilahlı, hərbi geyimli əsgər gözləyirdi, onu təhvil alıb, yarıqaranlıq dəhlizlərdən keçirə-keçirə bir müddət yenə harasa aşağı apardılar...
Binanın alt qatı, üst qatından xeyli böyük idi. Elə bil, üst hissəsi buranın əlavəsi idi... - professor əsgərlərin arasıyla yeriyə - yeriyə fikirləşdi.
.. .Əsgərlər, dəhliz boyu sıralanmış alçaq qapılılardan birinin açıb, professoru içəri ötürdülər, qapını arxadan, kilidləyib yorğun addımlarla, yenə elə bil aşağı düşdülər. Sonra bir müddət, hardansa aşağı mərtəbələrdən, əsgərlərin, getdikcə uzaqlaşan ayaq səsləri eşidildi...
...Bu, alçaq tavanlı, darısqal otaq idi... Üstünə boz adyal çəkilmiş dəmir çarpayıdan, aşağı başda, küncdə yerə qoyulmuş əl-üzyuyana oxşar dəmir qabdan savayı heç nə yox idi...
...Otağın ortasına yeriyib, çarpayıya oturdu, nəfəsi, get-dikcə zəifləyə - zəifləyə özünü toplamağa çalışdısa da? dizlərinin, qollarının, tanış süstlüyündən, dərmansız keçinə bilməyəcəyini anladı... Qalxıb yenidən qapıya getdi, orda, özünü divara dirəyib, qapını yumruğu ilə? gücü gəldikcə döydü...
Ürəyi lap zəifləmişdi, nəfəsi arada bir ciyərlərində ləngiyib gözlərini qaraldırdı...
...Yenə bayaqkı mənzərə - ovuclarındakı mis bıçağı, iki yerə bölən təki, sıxıb saxlayan Generalın, bir müddətdən sonra cansızlaşması, başmın sinəsinə asılıb, canmı tapşıran kimi astıcı xırıldaması gözünün qabağına gəldi...
Seansa başlamazdan, cib saatında, vaxtı dəqiqləşdirmişdi. Düz yeddi dəqiqədən sonra, General boğulurmuş kimi, əlini xirtdəyinə atmışdı, başı kəsilmiş kimi, xırıldamışdı...

...Bu nə demək idi?.. - professor, yenə hiss elədi ki, bədəni soyuyur... Bəlkə bu, şüuraltı ölüm idi?!.
...Hiss elədi ki, ürəyi dayanmaq istəyir. Ayağa qalxıb otaq boyu gəzişdi. Ya bəlkə, adi təsadüf idi?.. Yuxuda, akademikin qətlində iştirak etməyi də təsadüf idi... Generalın alnına, taleyinə yazılmış təbii ölümünün şahidinə çevrilməyi də təsadüf idi... Bu qədər təsadüf olardımı?..
...Əlini jiletinin cibinə saldı. Saatı yox idi... Saatım harda qoya biləcəyini yadına salmağa çalışdı və yadına düşdü ki, saatını heç yerdə qoya bilməzdi, çünki saatı, zəncirqarışıq şalvarının toqqa yerinə bərkidilmişdi.
...Əlini toqqasına atdı... Zəncir həmişəki yerində, toqqanın ilgəyindən asılı vəziyyətdə idi, saat isə yoxa çıxmışdı. Ola bilsin ki, yolda, ya da bəlkə, bayaqkı əsəbi mühafizəçinin, yersiz hücumu vaxtı qırılıb düşmüşdü... - professor fıkirləşdi və yenə çarpayının kənarına oturdu.
...İndi onu burdan, bu havasız, dar kameradan azadlığa buraxsalar belə, onsuz da yaşamağa qoymayacaqdılar.
...Sonra hardansa yadına, «Lenin 1918-ci ildə» filmi, əks-inqilabçı Kaplanın, Lenini, qəfıl güllə ilə öldürməsi, camaatın əlinə keçən cani qadının, xalqın təpiyi altında vəhşicəsinə döyülməsi səhnəsi düşdü...
...Görünür, uzun illər bundan əvvəl, həmin o təntənəli dəfn mərasimində, Generalın qətli ilə bağlı beynindən keçən ötəri fıkirləri, elə-belə, təsadüfi deyildi...
Demək... - professorun, ağlına gələn növbəti fikirdən gözləri qaraldı... -
...demək, belə çıxır ki, həmin o dəfn günü, Generalın səliqəli peysərini nişan alan an, bu uydurma ölüm aktı, necəsə, hansı iblisanə ehtiyaclasa, şüuraltı yaddaşına ötürülmüşdü... neçə illərdən bəri, özü də bilmədən, yadına belə düşmədən, hardasa gizlində, özünün də əli çatmadığı hansısa örtülü yaddaşında saxlanılmışdı...
...Hər şey nə qədər qəliz idi... - professor, gözləri yuxusuzluqdan acışa-acışa fikirləşdi, paltosuna bürmələnib çarpayınım üstünü açmadan, ayaqlarmı yerdən ayırmadan, elə oturduğu yerdə, böyrü üstə uzandı...
...Yenə ölüm aktı... yenə tapmaca ölüm versiyaları... Hər şey zərgər incəliyi ilə, hansısa naməlum, qanunauyğunluqla, səliqəli ardıcıllıqla bir səmtə doğru gedirdi... Onu hər tərəf-dən sıxa-sıxa, darısqal yollarla edama aparırdılar...
...Çarpayının divarı xırda-xırda döyüldü... Ya bu, professora elə gəldi?!. Dikəlib sakitliyə qulaq asdı.
...Əhəngi qopub qaralan divarı, o üzdən kimsə xırda-xırda döyürdü.

Dizi üstə çarpayıya oturub, qulağım divara söykədi. Divarın o üzü sakitlik idi... Bir müddət beləcə, çarpayının üstə, qulağı soyuq divarda oturub qaldı... Sonra nə fıkirləşdisə, barmağının ucuyla divarı astaca tıqqıldatdı.
- Professor!.. - divarın o üzündən boğuq səs eşidildi. -Professor, bu sizsiz?!.
...Professorun, az qaldı ürəyi dayana... Bu, bir neçə gün əvvəl, qırmızı məxmər örtüklü cənazəsinin ardınca getdiyi akademikin səsiydi...
...Nə isə demək istədi, səsi çıxmadı. Nəfəsi hardasa mədəsinin altında idi.
-... Professor, bu mənəm... Akademik Siracov... Yadınıza düşdü?!.. Professor deyəsən «hə» dedi...
... Divar bir də, bu dəfə həyəcanla döyüldü...
- Professor?!. Siz məni eşidirsiz?..
- Eşidirəm, eşidirəm... - professor, var gücünü toplayıb, bir qədər ucadan dedi.
...Bu nə demək idi?.. Akademik bura necə düşə bilərdi?.. Əgər akademik burda idisə, onda, Elmlər Akademiyasının səhnəsindəki cənazədə, hüznlü dəfn musiqisi altında, qızılı -gümüşü orden - medalların arasında uyuşan kim idi?..
Sonra professor, ürəyi sıxıla-sıxıla, dəfn günü səhnədə qoyulan cənazədə, gül dağının içində itib-batan akademikin üzünü xatırlamağa çalışdısa da, yadına düşmədi... və dəhşət içində anladı ki, o, hansı möcüzəyləsə, akademikin üzünü da-ha xatırlamır... Yaxın dəqiqələrəcən, üzünün, az qala ən xırda əzələsi belə yadından çıxmayan akademikin vücudunu. yaddaşından yerli-dibli silmişdilər...
-...İndi inandınız mənə?... - akademik, boğuq səsi ilə, yarıpıçıltı ilə, həmişəki kimi, tələsik danışırdı... - Heç olmasa, indi başa düşdünüz ki, mən ruhi xəstə deyiləm?!. Axı sizə deyirdim... deyirdim... Deyirdim ki...
...Akademikin səsi, ha yanasa uzaqlaşdı, sonra professor, vahimədən bədəni gizildəyə-gizildəyə, divarın o üzündən, pıçıltı səsləri, bir-birinə qarışıb təngiyən insan nəfəsləri eşitdi və dəhşət içində divardan çəkildi...
...Bura haradı?.. - professor, vahimədən ağzı quruya -quruya fıkirləşdi... Dönə - dönə aşağı enə -enə gəlib çıxdığı bu qorxunc yer, bəlkə, yuxularında düşdüyü həmin o sürüşkən astanadı?..
...Çox keçmədi ki, divar, yenə, bayaqkı kimi, xırda-xırda döyüldü...
- ... Professor?! ... Siz hara getdiniz?.. ...Akademikin səsi, qəribəydi ki, bayaqkından daha aydın eşidilirdi. Elə bil divarın içindən danışırdı...

-Professor, məni eşidirsiniz?..
-Eşidirəm, eşidirəm... -professor deyib udqundu.
- Mən sizə deyirdim... sizsə inanmırdız... Deyirdim axı, onlar məni aparacaqlar?.. Deyirdim?.. Hiss elədi ki, başının tükləri qabardı:
-Mən... mən elə bilirdim, siz hansısa qüvvələri deyirsiz...
- Qüvvələri?!. - akademik o üzdə elə bil çaşdı. - Hansı qüvvələri?..
- Yuxarı qüvvələri... - professor dedi və özü də fikirləşdi ki, sərək-sərək danışır.
- Hə də, yuxarı qüvvələri. Men bunları deyirdim də, professor. Axı mən Onun haqqında yazırdım. Onlar da, o dəqiqə xəbər tutdular...
- Kimin haqqında yazırdız?.. - professorun fıkirləri dolaşdı.
- Onun haqqında.
- Axı kimin, onun?..
Bu an professor, akademikin isti nəfəsini qulağında hiss elədi... Elə bil akademikin dodaqları, qulağının ucuna dəydi də. Akademik qaynar pıçıltıyla:
- Sizin, beşcə dəqiqə bundan əvvəl öldürdüyünüz adam haqqında...
...Akademikin bu sözündən, bədəninə soyuq elektrik cərəyanı buraxdılar elə bil..
- Mən heç kimi öldürməmişəm... - professor deyib di-vardan aralandı.
- Öldürmüsüz, öldürmüsüz. - akademik dedi - Bu məqamı da ömrünüz boyu gözləmisiniz... Özünüzdən xəbərsiz, əlbəttə...
...Akademik sonra yenə nə isə dedi, professor, qulaqlan uğuldadığından, başa düşmədi. Bir qədər sonra, akademikin səsi yenə uzaqlaşıb bayaqkı pıçıltılara qarışdı, sonra divarın o üzündə kimsə pis-pis güldü ...
- Siz orda tək deyilsiz?.. professor dedi və nəyə görəsə qızardı.
...Divarın o üzünə yenə sakitlik çökdü... Fikirləri bir-bi-rinə qarışdı. Nəhəng cüssəli General yenə geriyə çönüb vahiməli, boz gözlərini, nizə kimi üzünə sancdı, sonra bir müddət də ona, danışdığı kürsüdən baxdı...
- Professor, sizi günü sabah, gəldiyiniz dəhlizlərdən keçirib bir mərtəbə də aşağı düşürəcəklər... Orada balaca, dairəvi otağa salıb, divardan açılan xırdaca dəlikdən güllələyəcəklər... - akademik divarın o üzündən dedi...
- Nəyə görə?.. - professor eynəyini gözünə sıxdı. Elə bil eynəksiz, akademiki eşidə bilmirdi.
- Çünki qatilsiz professor. Generalın qatili. - akademik bunu deyib pıqqıldadı elə bil...

- Siz... Siz orda gülürsüz?.. - professorun dili dolaşdı.
- Kim, mən?.. Professor, mənim ağlamaqdan savayı əlacım yoxdu. Hansı günümə gülə bilərəm?!. Sizdən sonra, məni də, həmin otaqda güllələyəcəklər... - akademik deyib, elə bil qəhərləndisə də, çox keçmədi ki, yenə divarın o üzündən xısın-xısın gülüş səsləri eşidildi...
.. .Ürəyinin döyüntüsü zəifləyib itə - itə, sabahkı günü, akademikin təsvir elədiyi dairəvi otaq gözünün qabağına gəldi...
... Divarın o üzü sakitlik idi. Elə bil daha orda heç kəs yox idi. .
Divarı tıqqıldadıb...
- Siz ordasız?.. - dedi.
- Burdayam. - akademik onu gözləyirmiş kimi, yenə lap yaxından pıçıldadı.
- Mən qorxuram... - professor dedi və hiss elədi ki, boğazını qəhər tutur...
- Mən də... - akademik pıçıldadı... - Burdan xilas olmağın bircə yolu var, professor. Biz burdan qaçmalıyıq. - Qaçmalıyıq?.. Burdan qaçmaq...
- Biz hamısını fıkirləşmişik...
-Biz?!.
- Hə, burda mənim iki adamım var. Onlar bizə kömək edəcəklər. Mən getməliydim, sizi gözlədim. Bilirdim, əvvəl-axır gələcəksiz.
-Siz...
- Qulaq asın, indi sizin kameranm qapısını o üzdən açacaqlar. O dəqiqə çıxmayın... Qırxacan sayın, sonra dəhlizə çıxıb sol tərəfə gedin. Orda sizi qarşılayacaqlar...
- Bes heç siz demədiniz ki... - professorun sözü yarımçıq qaldı..
...Dəhlizdən ayaq səsləri eşidildi... Kimsə oğrun-oğrun, deyəsən professorun kamerasına yaxınlaşırdı... Dizlərini qucaqlayıb divara qısıldı...
...Çox keçmədi ki, kameranın qapısına, həqiqətən açar saldılar, nəhəng kilidinin içində üç dəfə burdular... Sonra yenə sakitlik çökdü... Qapının arxasındakı adam niyəsə çıxıb getmədi. Yoxsa, onun çəkisiz yerişini, həyəcandan qulaqları tutulan professor eşitmədi?!.
Bir müddət beləcə, çarpayıda otura-otura, bədəninə yeriyən soyuqdan titrədə-titrədə qırxacan saydı... sonra ehmal hərəkətlərlə çarpayıdan sürüşüb ayağa qalxdı...
...Bir müddət qapının ağzında dayanıb, dəhlizə qulaq asdı... Dəhliz sakit idi. Qapını ehmalca aralayıb çölə boylandı...
...Dəhlizdə heç kim gözə dəymirdi, sağa və sola burulan, yarıqaranlıq,

dar keçidlər uzanırdı...
...Akademikin dediyi kimi, dəhlizin sol tərəfinə addımladı. Addımladıqca, akademikə verə bilmədiyi sualları düşündü...
O, akademikdən, bura necə düşdüyünü, arvadının, divar sobasında yandırdığı həmin əsərdə Onun barədə nə yazdığını, Generalın ölümündən necə, xəbər tutduğunu, onun məhz bu kameraya salınacağını, əvvəlcədən kimdən öyrəndiyini, yan-yörəsində pıqqıldaşanların kim olduğunu soruşmalıydı...
...Dəhlizin axırında bir yol da sola burulurdu, harasa, aşağı mərtəbəyə aparan pillələr gəlirdi...
...Pilləleri ehmalca endi. Hardasa irəlidə iki kölgə dəyir-di gözünə. Kölgələr onu görüb elə bil əl elədilər. Ya bu, professora elə gəldi?!.
...Ayaqlarmı ardınca sürüyə-sürüyə, kölgələrə sarı get-di... Kölgələr, hərbi geyimli, bulanıq üzlü iki nəfər cavan adam idi, onun yaxınlaşdığını görüb, əllərindəki açarlarla, o biri qapılara bənzəməyən, zindan qapıların kilidini açdılar və onu, dinməz-söyləməz çölə buraxdılar...
... Çölə çıxıb ətrafına baxdı... Sarımtıl işıqlı, qəribə boşluq idi...
- Bura... - deyib, nə isə soruşmaq istədisə də, elə bil o dəqiqə də, nə soruşacağı, yadından çıxdı... Geriyə qanrılıb, onu azadlığa buraxan hərbçilərə təşəkkürün bildirmək istəyir-di ki, hərbçilərdən birinin üzündən, boz, dama-dama gödəkçəsindən, professorun az qaldı ürəyi dayana...
...Boz gödəkçəli, binanın içində idi, deyəsən, daha onu haqlamaq fikri yox idi. Həmin donuq təbbəssümüylə ona baxa-baxa, ağzının içində nə isə deyə-deyə, binanın hündür, ağır qapılarım aramla bağlayırdı...
...Professor bir müddət, qulaqları uğuldaya-uğuldaya, boz gödəkçəlinin çəkib bağladığı qapıya baxdı... Qapının üstündə 21 rəqəmi və ağ lövhəciyin içində, gümüşü hərflərlə, «Professor Veyisov N.A.» yazılmışdı...
Qollarım... şişib elə bil... - qolunu yorğanın altından çıxarıb o üz-bu üzə çevirdi.- Sizə elə gəlir. Dərmanların təsiridi. Bir müddət belə olacaq. Zarafat deyil, sizi ölümdən qaytardıq. «Ölüm» sözündən ürəyi bulandı...
- İki sutkadı əlləşirik...
-İki sutka?!
-İki sutka...
- Demək istəyirsən, iki sutka yatmışam?..
- Yatmısız deyəndə ki, biz sizi yatırtmışıq. Siz elə vəziyyətdəydiniz ki... - həkimin gözləri qıyıldı.

- Nə vəziyyətdəydim axı?!. Həkim tərəddüd edib, sonra hüznlə:
- Ürəyiniz düz səkkiz dəqiqə dayanmışdı... - dedi.
-Səkkiz dəqiqə?..
Həkim başını kədərlə elə yellədi, elə bil dediyi həmin o səkkiz dəqiqədən sonra o, artıq ölmüşdü.
- Demək səkkiz dəqiqə...
...Həkim bu dəfə üzünü, nəyə görəsə yana çevirdi, deyə-sən gözləri doldu, ya özünü elə göstərdi?!.
...Sonra, həkimin dediyi həmin o vahiməli səkkiz dəqiqəni, nə qədər çalışıb yadına salmaq istədisə də, heç nə alınmadı.
- Heç nə yadımda deyil... -dedi.
Sonra yaddaşım gərib, axırıncı dəfə harda, kiminlə olduğunu yadma salmağa çalışdı... və yenə heç nə alınmadı... Yaddaşı, gur işıqlı səhnələrlə, çoxlu adam üzü ilə dolu idi...
...Qapı astaca döyüldü, sonra açıldı. Həkimi çölə çağırdılar. Həkim üzr istəyib çıxdı.
...Həkim gedəndən sonra, iki tibb bacısı, ləyəndə su, sabun və əl-üz dəsmalı gətirib yumşaq əlləri ilə onun əl-üzünü yudular.
...Gümüşü ləyən, qızların nazik bədəni, ona nəyisə xatırladırdı... Sonra qızlardan biri gümüşü məcməyidə ona yüngül nahar yeməyi və meyvə şirəsi gətirdi.
-Nuş olsun... - deyib səssiz addımlarla otaqdan çıxdı.

- Cənab General!.. Zati-aliləri...
- Elə bərkdən yox, mən özüm... - kimsə astadan dedi və üstünə əyilib lap yaxından:
- Cənab General... - dedi.
...Şəxsi həkimi idi, təcrübə aparan alimlər kimi üzünə lap yaxından baxırdı...
- Özünüzü necə hiss edirsiz, cənab General? Danışmaq istədi, dili elə bil böyümüşdü.
- Yaman qorxutdunuz bizi... - həkim dikəlib çarpayının yanında oturmuşdu.
.. .Tavana baxdı... Bura iqamətgah deyildi.
- Qorxulu bir şey yoxdu. Yüngül ürək çatışmazlığıdı...-həkim deyib, əli ilə kiməsə işarə elədi.
...Gicgahı küt ağrılarla sancırdı... Dilini zorla tərpədib:

- Başım ağrıyır... - deyə bildi.
- İynələrin təsiridi. Beyniniz tam dincəlməlidi. Hamısı yorğunluqdu, cənab General. Həmişə deyirdim sizə. Sizsə, eşitmək belə istəmirdiniz. Bu da axırı.
Dikəlmək istədi, hiss elədi ki, qolları da, qıçları da ağırlaşıb.
...Yerinin içində dikəlib dayaz çini nimçədəki şorbadan içə-içə yenə həmin sirli səkkiz dəqiqə haqqında fikirləşdi. Sonra birdən xatırladı... Professor...
..Qaşığı, şorbanın içinə düşdü... O günkü axşamı, şüşəli sarayı, yarıqaranlıq otağı, professorun inamsız səsini, ovcun-da əzib yumşaltdığı mis bıçağı xatırladı...
Əllərini çevirib ovuclarlına baxdı. Ovucları hələ də küt ağrıyla göynəyirdi...
...Sonra bıçağı ovuclarında sıxdığı anı da qırıq-qırıq xatırladı... Yarıqaranlıq saraya oxşar havasız yer... hardasa arxasında dayanan xoşagəlməz adamlar... ürəyi sıxıla-sıxıla nə haqdasa hirsli-hirsli danışmağı...
Elə bil bütün bunlar professordan sonra olmuşdu... Fikirləri yenə bir-birinə qarışdı... Bütün bunlar nə idi?!. Son vaxtlar gördüyü narahat yuxularının davamı idi bəlkə?!. Bir şey dəqiq idi ki, professorsuz heç nə aydınlaşmayacaqdı... Nə ürəyinin səkkiz dəqiqə dayanması, nə yarıqaranlıq, havasız saray...
...Məcməyini mizin üstə qoyub ayağa qalxdı. Başı hərlənirdi. Qapıya sarı gedib dayandı, əlini xirtdəyinə atdı və yenə xatırladı... Yarıqaranlıq saraya oxşar həmin o yerdə, dizi üstə düşüb, kiminsə yastı xəncərinin xirtdəyinə yeridiyini bir də hiss elədi... Əlini boğazında gəzdirdi...
Qısa, enli xəncəri hülqumuna yeridən adamın üzünü yadına salmağa çalışdısa da, bir şey alınmadı... Geri qayıdıb çar-payının baş tərəfində, divarda qızaran düyməni basdı.
Çox keçmədi ki, qapı açıldı. Bayaqdan pusquda dayanmış kimi, əvvəl tibb bacısı, sonra həkim içəri girdi.
- Professor Veyisovu təcili tapın.
- Cənab General, sizə...
- Dedim, Veyisovu tapın!.. - bu dəfə kəskin dedi.
...Həkim çıxandan sonra, bir müddət başmaqlarmı axtardısa da, tapmadı. Qəsdən başmaq qoymamışdılar ki, gəzə bil-məsin... - əsəbi-əsəbi fıkirləşdi və ayaqlarmı, mahud döşə mənin üstünə ehmal-ehmal

basa-basa pəncərəyə yaxınlaşıb həyətə boylandı...
Hava sakit idi. Axşama az qalırdı...
...Birdən yenə xatırladı... Bu dəfə hər şeyi dəqiq xatırladı...
...Sarayaoxşar həmin o yarıqaranlıq yeri xatırladı və ürəyi qırıldı...
Gecələr, yuxularına yeriyən həmin o lənətə gəlmiş məqbərəni, çıraqlı sütunları, nəm divarları xatırladı...
.,.Məqbərənin yarıqaranlıq sütunları arxasından qəfildən sıçrayanları, əsgərlərdən birinin ona sarı uça-uça, uzunboğazının sol tayından siyirib çıxardığı qısa, enli xəncəri... Xəncərin, xirtdəyinə işləyib damarlarının arasıyla sürüşməyini... nəfəs borusuna dolan qanının, ciyərlərində qaynamasını... bıçaqdan ikiəlli yapışıb var gücü ilə sıxa-sıxa üzü qoyulu yerə yıxılmağını xatırladı...
...Bütün bunlar seans vaxtı baş vermişdi... Həmin vaxt da ürəyi dayanmışdı görünür. Xəncər boğazına yeriyəndən sonra, demək ölmüşdü...
Bunu ancaq professor bilə bilərdi... - fikirləşdi.
...Sonra beynini gərib, dizi üstə çöküb xırıldadığı məqam, üzünə yaxından baxan şiv qamətli adamın rütbəsini yadına salmağa çalışdısa da, bir şey alınmadı...
...Demək professorun heç cür alınmayan uğursuz seanslarından sonra dediyi «bir addım geriyə - «içinə çəkilmə» bu idi... - fıkirləşdi. Demək, içi bu idi...
Demək... - birdən-birə ağlına gələn növbəti fikirdən az qaldı dayandığı yerdə yıxıla... - ...Demək, bütün bunlar olmuşdu... Demək, nə vaxtsa onu öldürmüşdülər, xəyanət etmişdilər...
...Yarıqaranlıq məqbərənin mərmər sütunları boyu yanan qaramtıl çıraqları, hülqumunu kəsən adamın xəncərini, məqbərəyə yaxılaşan görünməz qoşunu xatırladı...
.. .Bütün bunlar nə vaxt olmuşdu?!. Ora hara idi?!.
Dəqiq olanı, bu idi ki, bütün bunlar olmuşdu və həmin bu ölüm qoxulu məqbərənin, gecələrlə gizli casus kimi yuxularına girməyi, daha doğrusu, hər gecə yuxuda həmin o vahi məli məqbərəyə düşməyinin sirri bu idi...
Gizli yaddaşının hansı tərəfinəsə möhkəm oturmuş bu ürəksıxan ölümü idi...
...Özünü çarpayıya çatdırıb uzandı...
Bir şey də dəqiq idi ki, ora - bu ilıq küləkli, balaca məmləkət deyildi...
Ya bəlkə elə bura idi?.. Həmin sədaqətlə qulluğunda da-yanan o

adamlar, elə bu böcək sürüsü idi?..
...Qapı döyüldü və açıldı.
...Gələn, Təhlükəsizlik naziri idi. Qapının arasından əvvəl başı, sonra bütün bədəni ilə görünüb ürkək üzü ilə ona baxıb, elə bil nədənsə arxayın olandan sonra ürəklə içəri daxil oldu, çarpayısına yaxınlaşıb yaxınlıqda əyləşdi.
- Həmişə ayaq üstə, cənab General...
- Hələ ki, uzanmışam... – ağzının içində, elə bil özü-özünə dedi.
- Qalxarsız, inşallah...
...Nazirin gözünün dərinliyində, sevinclə qorxu qarışıq qəribə ifadə işarırdı... Deyəsən, ölməməyindən razı qalmışdı.
- Mən Veyisovu çağırtdırmışdım. - pəncərədən görünən tənha buluda baxa-baxa dedi.
...Həkim nazirin arxasından, gözləri ilə işarə verə-verə:
- Elə o məsələdən ötrü gəlib, cənab General... - dedi və otaqdan tələsik çıxdı.
- Hansı məsələdən ötrü, başa düşmədim... ...Nazirin rəngi dəyişdi:
- O gecə sizin vəziyyətiniz... Onda biz professoru saxla-dıq axı, cənab General...
-Harda?..
-Orda...
- Harda orda?.. - hövsələsi daraldı.
-Zirzəmidə...
- Zirzəmidə?.. - dikəlmək istədi, qollarının keyi hələ açılmamışdı - Kim göstəriş verib?..
- Mən... - nazir ölümcül səslə deyib girdə gözlərini tez-tez qırpdı.
-Sən?..
- Bəli, mən.,,
- Axı,.. - nə isə demək istədi, yenə nəfəs yolu tutuldu elə bil. Gözü, nə vaxtsa içəri girib çarpayısının arxasında dayanan həkimə sataşdı:
- Mənə nə iynələr vurulur?!. - dedi. Həkimin bənizi saralmışdı.
- Cənab General, siz əsəbiləşməyin... - nazir kəkələyə-kəkələyə danışırdı - Məni axıracan dinləyin. Demək o gecə, sizin ürəyiniz... e... vəziyyətiniz pisləşəndə, otağınızda... lap kreslonuzun yanında bıçaq tapılıb. O axşam professordan savayı iqamətgaha ayrı bir adam daxil olmayıb. Siz bir özünüz fikirləşin...
Nəfəsi heç cür nizama düşmürdü:

- Professor hanı?.. - dedi.
...Nazirin rəngi, elə bil bir qədər özünə gəlmişdi, əlləri əsəbi nəvazişlə bir - birini sığallayırdı:
- Cənab General, xahiş edirəm... Mən... son dərəcə xahiş edirəm...
- Veyisovu təcili bura gətirin... -dedi və hiss elədi ki, havası çatışmır...
...Nazir başını aşağı salıb susdu.
- Nə oturmusan?..
- Cənab General...
- Sözünü de...
Nazirin, onun bu sözündən sonra dodağı səyridi:
- Professor Veyisov elə o həmin gecə kamerada... keçinib... - nazir dedi və nəyə görəsə həkimə baxdı.
-Necə keçinib?..
- Tibbi ekspertin rəyinə görə, dördlə beş radələrində ürəyi dayanıb... Yuxuda.
... Gözləri qaraldı. ...Nazir yenə nə isə dedi, əlini, özgə əlini sığallayan tək, sığalladı.
...Sonra qapı açıldı, çarpayısının qabağına stullar düzüldü. Daha sonra qapıda, bəbəklərinin qarası, az qala bütün vücudunu bürümüş baş nazir göründü, xırda, qıvraq addımlarla ona yaxınlaşıb yüngül təzimlə əlini sıxdı və əyləşdi. ...Daha sonra, xarici işlər və sosial müdafiə naziri, dövlət müşavirləri və o birilər, ehmal addımlarla otağa daxil olub bir müddət ayaq üstə dayana-dayana böcək gözləriylə üzünə baxdılar, stullara əyləşdilər, sonra bir xeyli də beləcə ona baxa-baxa, gülümsəyə-gülümsəyə nə isə dedilər...
...Sonra tibb bacısı gəldi, qolunu çirmələyib damarına iynə vurdu. Nazirlər də ayağa qalxıb nə isə deyə-deyə, əlindən öpdülər. Nazirlərdən kağız iyi gəlirdi... Sonra...
...cənazədə, döşəkağı əvəzinə aliına, yorğan əvəzinə üstünə salınmış milli bayrağın içində, ucu - bucağı, əvvəli -axırı görünməyən izdihamın üstü ilə üzürdü... Qadınlar və uşaqlar, qocalar və şikəstlər, çolaq, iflic xəstələr də burdaydı, onun cənazəsi altında, kədərdən, ələmdən üzülə-üzülə gedirdilər... İnsanlar dəli çığırtılarla qışqırır, qadınlar əyinlərindəki paltarları cırır, uşaqlar ağlaşırdı...
...Cənazəni, mavi məqbərənin naxışlı döşəməli zalına salırdılar, hündür pyedestalın üstünə, havakeçirməz, şəffaf qapağın altına qoyurdular... boylu qapılarının, aramla bağlandığını, pəncərələrində közərən işıqların,

bir-bir söndüyünü gördü...
Sonra tonqalda onunla bir yananlardan kimsə lap yaxından:
- Daha yaxşısız, cənab General... - dedi... ...Dik atıldı... Həkimi idi, əlindən ehmalca tutmuşdu... Üzünə yenə yaxından baxırdı...
- Qərara gəldik ki, iynələri kəsək... - dedi - Ürəyinizin vəziyyəti yaxşıdı, sabahdan artıq çarpayı rejimini bitiririk. Mümkün qədər hərəkət və mütləq təmiz hava... Mütləq!.. Təmiz hava!..

НА 11:46

ЯРЛЫКИ: AZADLIQ

0 КОММЕНТАРИЯ(ЕВ):

Отправить комментарий

Следующее Предыдущее Главная страница

Подписаться на: Комментарии к сообщению (Atom)



ROMANLAR

- Azadlıq
- Dəfn
- Fatma
- II İohann
- İzdiham
- Suiti
- Üzü işığa

HEKAYƏLƏR

- Can üstə
- Dahi
- Dovşanın ölümü
- Gecə
- Müvəkkil Vaysman
- Qəza
- Sərçələr
- Tək
- Uydurma

ESSELƏR

- Duyğular İmperiyası
- Natiq Səfərova məktublar
- Qəm çatının işığında
- Elçin Şıxlı